DİLSUZ DÜNYAMALIYEV

# HİKMƏT ÇƏLƏNGİ

Naxçıvan-2012

*Redaktor: Asim YADİGAR*

*Rəy verdi: Məhərrəm CƏFƏRLİ ( professor)*

D.DÜNYAMALIYEV. HİKMƏT ÇƏLƏNGİ
"QIZIL DAĞ" - 2012, 292 səh.

"Hikmət çələngi" kitabı Azərbaycan Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Dilsuz Dünyamalıyevin oxucularla dördüncü görüşüdür. Adından göründüyü kimi, kitab oxucunu hikmət dünyasının söz xəzinəsi ilə tanış edəcək. Oxucunu düşünməyə, mənalar aləminə baş vurmağa sövq edəcəkdir. Ümidvarıq ki, "Hikmət çələngi" kitabı insanlara vətənpərvərlik, insanlıq, ləyaqət, zəka nurundan faydalanmaq, həyat yollarında hər hansı çətinliyin dəf edilməsində ağıla arxalanmaq hisslərini aşılayacaq. Oxucuların bilik dairəsini genişləndirəcəkdir.

Kitaba "xalq məsəlləri, rəvayətlər, lətifələr, hekayətlər və el deyimləri, ibrətli ifadələr" başlıqlarında mövzular daxil edilmişdir.

Kitabda həm də müəllifin Azərbaycanın, eləcə də dünyanın görkəmli şəxsiyyətlərinin söz ümmanından topladığı qiymətli incilər də verilmişdir.

© "Qızıl Dağ" 2012

# MÜƏLLİFDƏN

Şahbuz rayonunun Keçili kəndində anadan olmuşam; Tanrının taleyimə yazdığı bu kənd öz sirri-sehri, möcüzəsi, füsünkarlığı ilə də ömür kitabımın yazılmağında hökm-fərman olub. Bu kəndin havası, suyu, otu, ağacı, dağı,daşı uşaqlıq illərindən məni məftun eləyib, onların hər biri yaddaşıma öz rəngi, öz sehri, öz səsi ilə yazılıb. Sonralar hər dəfə əlimə qələm alanda o səsləri eşidib, o rəngləri görmüşəm. " Tale yollarında" romanım, "Qağayı nəğməsi", "Ömrün payızı" kitablarım o illərin əks-sədasıdır.

Müəllim işlədiyim bu uzun illərdə həm də şifahi xalq ədəbiyyatı nümunələrini toplamışam, eşitdiyim ən adi nümunəni də dəftərlərə köçürmüşəm. Onların bəzilərini nəşr etdirmiş, bu nümunələr əsasındı elmi məqalələr yazmışam.

Bu nümunələrin hər biri ən işıqlı arzulardan, ümidlərdən süzülüb gəlib, xalq nikbinliyini bütün əzəməti ilə canında, qanında yaşadıb. Elə buna görə də sevilib, cilalanıb, əzizlənib, dildən-dilə keçib.

Hər dəfə eşitdiyim yeni bir atalar sözü, xalq hikməti, bayatı, nağıl məni bir başqa cür sehrləyib, heyrətə gətirib.

İllər ötüb-keçib, toplayıb-dəftərlərə köçürdüyüm şifahi xalq ədəbiyyatı nümunələri ötüb-keçən illərin misilsiz ərməğanı kimi mənə

qalıb.

Fikirləşdim ki, həmin dəftərdəki nümunələrin bir qismini oxucuların ünvanına yola salım. "Hikmət çələnci" kitabı bu arzudan, niyyətdən yarandı.

Bu gün onları nəşr etdirməklə nümunələri mənə söyləyənləri ehtiramla yada salır, bir daha minnətdarlığımı bildirirəm.

1965-ci illərdən başlayaraq topladığım, zərrə-zərrə toplu halına gətirdiyim xalq məsəlləri, rəvayətlər, hekayətlər, ibrətli ifadələr yəqin ki, sizi düşündürəcək, real həyat məsələlərini dərk etməyə kömək edəcəkdir. Zarafat deyil, bu qiymətli incilərin ipə-sapa düzülməsi ömrümün qırx ildən artıq dövrünü əhatə edir.

Bir əsr ömür sürmüş mərhum atam Dünyamalıyev İsa Qara oğlu şifahi xalq ədəbiyyatını, aşıq yaradıcılığını dərindən bilən və bu sahəyə bizdə maraq, sevgi oyadan bir şəxsiyyət idi. Kitabdakı xalq məsəllərinin ibrətli ifadələrin bir çoxun məhz onun dilindən eşitmişdim.

Cəmiyyətin ən aparıcı sahələrindən olan müqəddəs müəllimlik sənəti, bu sahəyə vurğunluğum "Qağayı nəğməsi", "Ömrün payızı", "Tale yollarındı" kitablarında özün göstərdiyi kimi, bu kitabda da öz əksin tapmışdır. Məhz bu kitabda da xalqımızın yaddaşındı əbədilik qalan müqəddəs müəllimlik peşəsi haqda olan onlarca məsəl,

rəvayət, atalar sözləri yenidən işlənib, sizin ixtiyarınıza verilmişdir.

Topladığım materialların bir qismi "Ömrün payızı" və "Tale yollarında"kitablarında oxuculara çatdırılmışdır.

Oxucularla olan söhbətlərimdən və mənə olan müraciətlərdən min bir çətinliklə toplanan şifahi xalq ədəbiyyatı nümunələrinin nəşr edilməsinə ciddi maraq və istək olduğu duyulur.

Əvvəllər nəşr edilən "Qağayı nəğməsi", "Ömrün payızı" və "Tale yollarında" kitablarımda milli kökə bağlılıq, adət-ənənələrimiz, insan ləyaqəti, şəxsiyyətin formalaşması, kamillik və sair müsbət ideyaları oxucuların nəzərinə, yaddaşına çatdırmağa çalışmışam.

Eləcə də uzun illər ərzində topladığım xalq məsəlləri, rəvayətlər, hekayətlər və el deyimlərində də bu ənənəyə sadiq qalmışam.

Ümidvaram ki, kitabda toplanan ipə-sapa düzülməyən, ancaq insan zəkasına təsir edən bu inciləri oxuyandan sonra dərindən düşünəcək, nəyisə yenidən öyrəndiyinizə inam yaranacaqdır. Tarixi hadisələr və tarixi şəxsiyyətlər haqda verilən əhvalatlarda elə bilirəm oxucuların marağına səbəb olacaqdır.

Topladığım minlərlə afarizmlər, aforistik ifadələr hələ işıq üzü görməyib.Əgər bu kitab sizin ürəyinizcə olsa, sizləri düşünməyə istiqamətlən-

dirə bilsə bu istiqamətdə aparılan işlərimi davam etdirəcəyəm. Tale üz döndərməsə, yeni kitablarla görüşünüzə gəlməyə çalışacağam. Bu yolda ulu Tanrı bizlərə yar olsun!

Müəllim, məktəb direktoru, kənd soveti sədri işlədiyim müddətdə xalqım, elim-obam üçün var gücümlə çalışmışam, Keçili kəndinin"imzalar içində imzası" olmasına Ulu Yaradanın köməyi ilə qismən nail olmuşam.

Son vaxtlar yazdığım əsərlərdə də xalqım, elim-obam üçün kiçik bir xidmət göstərməyə çalışmışam. Sonuncu ən qiymətli əsərimi isə Qarabağımızın azad olduğu gün yazmağa başlayacağam. Buna varlığım kimi inanıram. O gün gələcək, o günü dişimiz, dırnağımızla əldə edəcəyik. Məhz onda "Qarabağım, qan yaddaşım" kitabının ilk sətirləri yazılacaqdır.

*Dilsuz Dünyamalıyev*

Azərbaycan Respublikasının Əməkdar müəllimi
Azərbaycan Yazıçılar Birliyinin üzvü.

# XALQ MƏSƏLLƏRİ, RƏVAYƏTLƏR, LƏTİFƏLƏR, HEKAYƏTLƏR

## QARIŞQA ƏHVALATI

Bir gün bir sərkərdə bir döyüşdə məğlub olur. Tamam ruhdan düşür. Bikef halda gəlib bir xarabalıqda oturur.O, ruhdan düşmüşdü. Nə edəcəyini, necə hərəkət edəcəyini xəyalına gətirə bilmirdi. Ümidsizlik, məğlubiyyətin acısı onun qol-qanadını qırmışdı. Xaraba binanın divarında hərəkət edən qarışqa birdən sərkərdənin gözünə sataşdı.

Qarışqa bir buğda dənəsini divarla yuxarı qaldırır, gücü çatmayıb yenidən salırdı. Qarışqa yenə də buğda dənəsini götürüb divardan yuxarı dırmaşırdı. Beləliklə, qarışqa otuz doqquz dəfə buğdanı yerə saldı. Nəhayət, axırıncı dəfə qarışqa öz məqsədinə çatdı. Buğda dənəsini öz yuvasına apardı. Sərkərdə gördü ki, qarışqa öz məqsədi yolunda necə inadla, səbrlə mübarizə apardı.Sərkərdənin duman bürümüş sifəti ayazıdı. Gözlərinə sanki işıq gəldi. O, qarışqanın hərəkətindən özü üçün ibrət götürdü. Ruhdan düşmədi. Yeni qüvvə toplayıb, məqsədinə nail oldu. Düşmənə qalib gəldi.

## TÜLKÜNÜN HİYLƏSİ

Meşə heyvanları qoluzorlu şirin əlindən cana gəlmişdilər. Şir heyvanları tutub yeyirdi. Axırda heyvanlar məsləhətləşdilər ki, gündə biri şirin yanına getsin, şir də onu yesin.

Heyvanların günü beləcə davam edirdi. Axırda növbə tülküyə çatdı. Həmin gün tülkü şirin yanına

getmədi. Şirin nərəsi meşəni lərzəyə saldı. Tülkü qaça-qaça şirin yanına getdi. Şir nərildəyib onu yemək istədi. Tülkü dedi:

-Ey böyük hökmdar, bu gün sən məni yeyəcəksən. Ancaq bir sözüm var. Mən meşə heyvanları ilə mərcləşdim ki, yay kirişini qıra bilərsiniz. Onlar isə dedi ki, qıra bilməzsiniz. Qoy mərcimizi sınayaq, sonra məni ye. Şir razı oldu. Tülkü yay kirişi ilə şirin qol-qıcını möhkəm bağladı. Şir nə qədər güc vurdusa, yay kirişini qıra bilmədi. Tülkü sevinə-sevinə qaçıb getdi.

Şirin nəriltisinə bir siçan yuvadan çıxıb onun yanına gəldi. Şirə dedi ki, sənin qollarını aça bilərəm. Şir sızıldadı. Siçan dişləri ilə yay kirişini gəmirməyə başladı. Axırda şirin qol-qıçını aça bildi. O, siçana baxdı, qıçlarını bağlayan tülkünü gözü önünə gətirdi. Dedi:

-Bir şirin ki, qol-qıçını tülkü bağlaya, siçan da ona azadlıq verə, onun bu meşələrdə yaşamağa haqqı yoxdur.

O, baş alıb meşədən çıxıb getdi.

## MÜƏLLİM VƏ ŞAGİRD ƏHVALATI

Bir vilayətdə hörmətli bir müəllim var idi. Hamı ondan məsləhət alardı. Hər açılmayan düyünü o açar, çarəsiz dərdlərə çarə edərdi. Ağlına görə vilayətin hökmdarı da müəllimə hörmət qoyardı.

Necə oldusa bir gün hökmdarın müəllimə acığı tutdu. Əmr etdi ki, camaat onu daş-qalaq etsin. Müəllimi meydana gətirdilər. Üstünə daşlar atdılar. Başı qanadı, qol-qıçı əzildi, lakin dinmədi, inildəmədi. Birdən keçmiş şagirdi müəllimin gözlərinə sataşdı. Şagirdi nə edəcəyini bilmirdi. Daş atma-saydı, hökmdar onu asdıracaq idi. Müəlliminə də daş atmağa əli gəlmirdi. Axırda o yerdən

kiçik bir qum dənəsi götürüb müəllimінə atdı.

Bayaqdan sakit dayanan müəllim elə nərə qopardı ki, hamı ona baxdı. Padşah əmr etdi ki, heç kim daş atmasın. Müəllimə dedi ki, bayaqdan hamı sənə daş atır, başını yarırdı. Bütün əzablara dözür, səs çıxarmırdın. Bəs kiçik bir qum dənəsi üçün niyə bu qədər haray saldın?

Müəllim cavab verdi ki, bu adamlar daş atmaqda haqlıdır, çünki məni, bəlkə də, tanımırlar. O qum atan oğlan isə mənim şagirdim olub. O, məni hamıdan yaxşı tanıyır. Öz fikrimi ona aşılamışam. Onun mənə kiçik bir daş atması bütün bu zərbələrdən ağır oldu. Mən ölməzdim, şagirdimin bu hərəkəti məni öldürəcək.

## SƏBƏT

Bir gün bir kişi çox qocalmışdı. Oğlunu, deyingən gəlinini narahat edirdi. Gəlinin təklifi ilə oğul öz atasını aparıb çölə atmağı qərara aldı. Heç kim görməsin deyə, bir gecə oğlu atasını səbətə qoyub dalına alır. Aparıb bir dağın başında səbətlə birlikdə yerə qoyub geri qayıtmaq istəyir. Ata oğlun səsləyir ki, gəl səbəti də apar. Vaxtı ilə mən də atam qocaldığına görə gətirib səbətdə çölə atmışdım, indi qarşıma çıxdı. Sən də qocalanda oğlun səni gətirib çölə atacaq. Onda səbət lazım olacaq.

Bu sözdən xəcalət çəkən oğlan yenidən atasını səbətə qoyub geri qaytarır.

## YAĞLA ŞORA FƏRQ QOYULMUR

Bir ustadla şagird bir şəhərə gedirlər. Ustad şagirdə deyir ki, şəhərlə tanış deyilik. Çıx gör şəhərdə vəziyyət necədir? Şagird şəhəri dolanır, gəlib xəbər verir ki, usta, bu şəhərdə yağla şorun qiymətdə fərqi yoxdu

İkisi də bir qiymətə satılır. Usta şagirdinə deyir:

-Bir yerdə ki, yağla şorun qiyməti bir oldu, oradan qaçmaq lazımdı. Gəl səhərisi çıxıb gedək. Şagird razı olmur. Səhərisi usta və şagird şəhərə çıxırlar. Görürlər ki, meydana çoxlu adam toplaşıb. Onlar da camaatın yanına gedirlər. Görürlər ki, bir adamı dardan asırlar. Bu vaxtı cəllad şaha xəbər verir ki, müqəssirin başı kiçik olduğundan kəndirdə durmur. Şah deyir ki, bir başı yekə adam tapıb asın. Cəllad camaatın içini axtara-axtara ustanın şagirdinin yanına gəlir. Onu meydanın ortasına çəkir. Vəziyyətin belə olduğunu görən usta şahın yanına gedir. Şagirdini xilas edir. Onlar mənzillərinə dönürlər. Usta deyir ki, hazırlaş, buradan çıxaq. Mən sənə demişdim ki, yağla şorun qiyməti bir olan yerdə yaşamaq olmaz.

Onlar həmin şəhərdən çıxıb gedirlər.

## GÜC BİRLİKDƏDİR

Atanın yeddi oğlu var idi. Onlar bir-biri ilə yola getmirdi. Ata bir gün oğlanlarını yanına çağırdı. Dedi ki, hərəniz bir gərməşov çubuğu gətirin. Oğlanlar çubuğu atanın yanına gətirdilər. Ata çubuğun birini böyük oğluna verib dedi ki, sındır. Oğlan çubuğu asanlıqla sındırdı. Lakin yeddi çubuğu heç biri birlikdə sındıra bilmədi.

Ata oğlanlarına dedi:

-Gördünüzmü çubuğu asanlıqla çındırmaq oldu, yeddi çubuğu sındırmaq mümkün olmadı. Siz tək-tək olsanız, asanlıqla məğlub olarsınız. Hamınız bir olsanız, heç kim sizi məğlub edə bilməz.

## ƏSL DOST

Bir qoca kişi ilə oğlu mübahisə edirdi. Oğlu deyirdi ki, mənim dostlarım sədaqətlidi. Ata dedi ki, gəl dostlarımızı sınayaq.

Onlar bir heyvan öldürüüb təlisə qoydular. Əvvəlcə oğlunun dostlarının qapısına getdilər. Oğlan dedi ki, əlimdən xəta çıxıb, adam öldürmüşəm. Kömək et, basdıraq. Dostu razı olmadı. Dedi ki, dost olsaq da,, mən bu işi edə bilmərəm. Oğlanın bütün dostlarının qapısını dolandılar. Heç biri razı olmadı. Axırda atanın bir köhnə dostunun qapısına getdilər. Ata adam öldürüb bura gətirdiyini söylədi. Dostu o saat dedi ki, gətir quyuya salıb basdıraq. Quyunun kənarında ata heyvan cəmdəyini yerə saldı. Dostu təəccübləndi, ata əhvalatı ona danışdı. Onlar yenidən qucaqlaşdılar. Heyvanın ətindən kabab çəkdilər.Ata oğluna dedi ki, sınanmamış dostdan dost çıxmaz.

## EV TİKMƏK

Ata oğluna nəsihət etmişdi ki, hər kənddə özünə bir ev tiksin. Oğlan da atanın sözünü yerə salmadı. Varlı idilər. Hər kənddə bir ev tikməyə başladı. Axırda pulu tükəndi. Gəlib atasına xəbər verdi ki, hər kənddə bir ev tikmişəm. Ata oğlu ilə həmin yerləri bir-bir gəzdi. Dedi:

-Mən sənə deməк istəmişdim ki, hər kənddə özünə bir dost tut. Ora sənə ev sayılacaq idi. Hər kənddə bir evin olacaq idi. Bu qayda ilə sən hər kənddə bir ev tikə bilməzsən.

## MÜƏLLİM ƏHVALATI

Bir qoca müəllim var idi. Ömrünü-gününü şagirdlərinin tərbiyəsinə, savadlanmasına həsr etmişdi. Sonsuz idi. Övladı yox idi. Lakin o, dərs dediyi şagirdlərini özünə övlad hesab edirdi. İllər-illərə calandı. Ömrün payız fəsli qonaq gəldi. Müəllim xəstələnib yorğan-döşəyə düşdü. Şagirdləri həkim gətirdilər. Müəllimi müayinə etdi. Nəbzini, ürəyini yoxladı. Birdən həyəcanla:

-Bunun ki, nəbzi döyünmür. Ürəyi yoxdur,-dedi. Şagirdləri bir ağızdan cavab verdi:-Onun ürəyi bizik. Ürəyini bizə verib.

## DİLLİ ZÜBEYDA

Bir kişinin Zübeydə adlı bir arvadı olur. O, çox dilli olur. Ərini boğaza yığır. Əri ondan canını qurtarmaq üçün çöldən gələndə arvadına deyir ki, meşədə bir quyu vardı, içərisində qızıl var. Arvad tez kişini qabağına qatıb quyunun yanına aparır. Kişi deyir ki, qızıl buradadır.

Arvad əyilib baxanda, kişi onu itələyib quyuya salır. Özü evə gəlir. Səhərisi günü kişi quyunun yanına gəlir ki, arvadı çıxarsın. İpi quyuya sallayır. İplə böyük ilan çıxır. İlan dil çıxarıb söyləyir ki, məni buradan çıxardığın üçün səni dünya malından qəni edəcəyəm. Kişi dedi ki, qoy Zübeydəni də çıxaraq. İlan dedi ki, o, quyuda o qədər danışdı ki, mən onun əlindən çıxıb qaçdım.

Axırda ilan gedib padşahın qızının boğazına dolanır. Kişi ora gedir. İlan onu görəndə qızın boğazından açılır və deyir:-Mən başqa padşahın qızının boğazına dolanacağam. Əgər ora gəlsən, səni vuracağam. İlan qızın boğazından açılandan sonra kişi var-dövlət sahibi olur. Başqa padşahın qızının boğazından ilan açmağa gedəndə

ilan onu vurmaq istəyir. O, deyir ki, Zübeydə gəlir. Onu deməyə gəlmişdim. İlan açılıb qaçır.

## ANANIN ƏVƏZİNDƏN

Şiddətli döyüşlərdən sonra Şeyx Şamil belə bir əmr vermişdi ki, sabahkı döyüşdə kim barışmaq haqda təklif etsə, qoşunun qabağında cəzalandıracağam. Səhər yenə şiddətli döyüş başlandı. Güclü düşmənin qarşısından geri çəkilmək, barışmaq haqqında heç kim cəsarət edib bir söz danışmadı. Geri çəkilmək, barışmaq haqqında anası Şeyx Şamilə təklif etdi. Hamı təəccüblə işin sonunu gözləyirdi. Heç kimin gözləmədiyi halda Şeyx Şamil paltarını soyundu. Əsgərlərə əmr etdi ki, şallağı mənim kürəyimə vuracaqsınız. Anasının cəzasını oğlu çəkməlidir. Əgər şallağı yavaş vursanız, özünüz cəzalanacaqsınız. O, belə də etdi, əsgərlər Şeyx Şamilin kürəyinə şallaqla döyəclədilər.

## SAĞSAĞAN

Ata öz oğlu ilə çölün ortası ilə gedirdi. Gördüyü bütün şeyləri atadan soruşur, ata da mehribanlıqla cavab verirdi. Birdən sağsağan uçub yolun qırağına düşdü. Oğlan soruşdu: -Ata o nədir?

Ata başını sığallayaraq mehribanlıqla dedi:

-Sağsağandır, oğlum.

Oğul tez-tez gördüyü şeyləri soruşur, ata da cavab verirdi. İllər dolandı. Ata oğlunu sınamaq istədi. Onu həmin çölə aparmasını oğlundan xahiş etdi. Bu dəfə oğlan atasının qolundan tutub həmin çölə apardı. Ata oğluna dedi:

-Oğlum, gözüm yaxşı görmür, o nə quşdur?

Oğlu:

-Sağsağandır.

Bir azdan ata həmin quşu görüb yenə soruşdu:

-O, nə quşdur?

Oğul hirslə cavab verdi:

-Korsan, sağsağandır da.

Təkəbbürlə deyilən sözdən atanın sifəti qaraldı. Dedi:

-Oğlum, yadındamı, kiçik vaxtı səninlə buradan gedirdik. Sən hər gördüyün şeyin adını təkrar-təkrar məndən soruşurdun. Mən də bütün sualarına mehribanlıqla cavab verirdim. Sən qocalanda oğlun da sənə belə cavab verəcək.

## VƏTƏN HAQQINDA

Bir padşah bülbülü tutub qızıl qəfəsdə saxlayırdı. Ona hər cür qulluq edirdi. Lakin bülbül şənlənmirdi, oxumurdu. Hər an, hər dəqiqə "Vətən, vətən" deyib inləyirdi. Padşah təəccüb qalmışdı. Məgər, bülbül buradan gözəl yerə gedəcəkdir? Heç cürə aydınlaşdıra bilmirdi. Axırda o, bülbülü qəfəsdən ötürdü və dedi:

-Uç, get, görüm sənin vətənin haradır?

Bülbül sevincək qanad çalıb dərənin qırağındakı qaratikan koluna qondu. Şən nəğmələr oxumağa başladı. Sanki uzaqdan baxan padşaha deyirdi:

-Mənim gözəl vətənim buradır.

## GƏLİNİN İBRƏT ALMASI

Bir gəlin öz əri ilə yola getmirdi. Bir müdrik qocanın yanına gedib dedi:-Necə edim ki, ərim mənimlə mehriban olsun? Müdrik qoca dedi:

-Get meşədə yatan şirin bığlarından tük çək gətir. Onda əlac edərəm ki, sən ərinlə mehriban dolanarsan.

Gəlin meşəyə getdi. Şiri tapdı. Şir yatmışdı. Qız şirin başını sığallamağa başladı. Şir daha da xumarlandı. Gəlin birdən onun bığından iki tük çəkdi. Şir nəirldədi.Gəlini parçalamaq istədi. Gəlin şirin başın tumarlamaqla onu sakit etdi. Sonra durub müdrik qocanın yanına gəldi. Dedi: -Şirin bığlarından tük çəkib gətirmişəm. İndi nə etmək lazımdır? Müdrik qoca gülümsünüb dedi:

-Get şirlə necə rəftar etmisənsə, ərinlə də elə rəftar et. Onda mehriban dolanarsınız.

## MƏĞRUR ŞİR

Meşələr padşahı şir bərk xəstələnmişdi. Dərdinə çarə tapılmırdı. Meşə heyvanları əl-ayağa düşmüşdü. Onlar meşənin kənarı ilə gedən loğmanı tutub şirin yanına gətirdilər. O, şiri yoxlayıb dedi:

-Bir beçə tutun, onu verin çaqqal yesin, sümüklərini gətirin şir gəmirsin. Onda sağalar. Elə də etdilər. Gəmrilmiş sümükləri bir qaba qoyub şirə aparırlar. Şir bir sümüklərə baxdı, bir də ağzını yalayan çaqqala. Dedi:

-Ey əclaf heyvan, onu bil ki, şir ölər, sən gəmirdiyin sümüyü yeyib sağalmaz.

Sümüklü qabı çaqqalın təpəsinə çırpdı. Bundan sonra başını qolları arasına qoydu və mərdanəliklə gözlərini əbədilik yumdu.

## AMAZONKALAR

Amazonkaların ən güclüləri və rəhbərləri İsgəndərə can sağlığı diləyirlər. Biz bu məktubu sənin hücumundan qabaq xəbərdarlıq üçün yazdıq ki, sonra buradan rüsvay olub qayıtmayasan. Məktubumuzla sərt həyat tərzimiz, özümüz və ölkəmiz haqqında məlumat veririk. Biz Amazonka çayının arxasında, bir yerdə məskən salıb yaşayırıq. Torpaqlarımız o qədər genişdir ki, buraya gəlib çatmaq üçün bir il vaxt lazımdır. Çayın isə başlanğıcı yoxdur. Yalnız bircə yol vardır. Biz 270 min silahlı qız burada yaşayırıq. İçimizdə bir nəfər də olsun kişi yoxdur. Kişilər çayın o biri tərəfində ata-baba torpaqlarında olurlar. Biz ildə bir dəfə Poseydonun, Hefesun, Aresin şərəfinə keçirdiyimiz qurban bayramlarında görüşürük. Bu bayram otuz gün davam edir. Kişilərlə görüşmək istəyən qadınlar bir neçə gün onların yanında qalırlar. Təzəcə doğulan bütün qız uşaqlarını onların özləri tərbiyə edirlər, yeddi yaşa çatanda bizim yanımıza göndərirlər. Yadlar bizim üzərimizə hücum edən zaman biz 120 min qız atlanırıq, yerdə qalanlarımız isə adanı müdafiə edirlər. Düşməni qarşılamaq üçün düz sərhəddə qədər gedirik. Bizim arxamızca da kişilər gəlirlər. Bizdən biri yaralanarsa, o, daimi hörmət və ehtirama layiq olur. Əgər həlak olsa, yaxın adamına külli miqdarda pul mükafatı verilir. Düşmənin meyidini araya gətirən olsa, o, qızıl-gümüş mükafatı alır və ömürlük ərzaq malları ilə təmin edilir.

Beləliklə, biz öz şöhrətimiz üçün vuruşub candan keçirik. Əgər biz düşməni qırırıqsa, yaxud onun özü qabağımızdan qaçırsa, onda ömürlük rüsvay olur. İndi özün bil, İsgəndər şah, elə eləmə ki, sən də o vəziyyətə düşəsən. Düşün və bizə bir cavab yaz. Bizim ordumuz səni sərhəddə qarşılayacaq. Sağlıqla qal...

## SÜD HAQQINDA

Loğman bir gün yol ilə gedirdi. Gördü ki, çobanlar payızın qoyun südündən doğrayıb iştahla yeyirlər. Loğman yanındakı yoldaşına deyir:

-Çobanlar dərd yeyirlər.

Yoldaşı heç nə başa düşmür. Bahar fəslində yenə loğman həmin yerdən gedirmiş. Görür ki, çobanlar yenə südə çörək doğrayıb yeyirlər. Loğman deyir:

-Çobanlar dərd yesələr də, dərmanın da bilirlər.

## QARĞALAR

Qarğalar deyirlər ki, göyərçinləri heç kəs incitmir. Biz də gedib onlara qoşulaq.

Başçılarının məsləhəti ilə gedib küllükdə eşələnib, üstlərinə kül sürtürlər. Sonra çöl göyərçinlərinin yanına gedirlər. Göyərçinlər onları tanıyıb qovurlar.

Qarğalar indi də başqa qarğa dəstəsinin yanına gedirlər. Qarğa dəstəsi rənglərini dəyişib, başqa formaya düşən qarğaları qovurlar. Beləliklə, nə göyərçinlərə, nə də qarğalara qoşula bilmirlər.

## ƏZRAYILIN XƏBƏRDARLIĞI

Günlərin bir günündə əzrayıl bir kişi ilə dost olur. Əzrayıl kişinin xətrini çox istəyir. Kişiyə deyir: "İstə məndən, nə istəyirsən?"

Kişi deyir:

-Əzrayıl qardaş, səndən heç bir istəyim yoxdur, bircə xahişim var. Məni öldürməmişdən bir gün qabaq xəbər ver.

Əzrayıl deyir:

-Mənim gözüm üstə. Lap bir il əvvəl xəbərdar edərəm. Bunlar beləcə şərtləşib ayrılırlar. Günlərin birində kişinin qonşusu Məmiş vəfat eləyir. Aradan bir az keçir. Kərbəlayi Əli ölür. Ölüm bir gün kişinin atasını, o biri gün də anasını aparır. Bir müddət keçir. Gecələrin birində kişi soyunub yerinə giribmiş. Əzrayıl başının üstündə durur. Xoş-beşdən sonra kişi xəbər alır.

-Əzrayıl qardaş, gecənin bu vaxtında xeyir ola?

Əzrayıl deyir:

-Gəlmişəm canını almağa.

Kişi deyir:

Bəs, yaxşı, biz səninlə şərt kəsmədik ki, ölümdən bir həftə əvvəl xəbər verəcəksən."

Əzrayıl gülüb dedi:

-Rəhmətliyin oğlu, mən iki-üç ildir qulağının dibində zurna çalıram. Məşədi Məmiş getdi? Getdi, Kərbəlayi Əli getdimi? Getdi? Atan, anan getdimi? Getdi. Ta bundan artıq nə xəbərdarlıq".

Əzrayıl:

-"Ya Allah", deyib kişinin canını aldı.

## TISBAĞA İLƏ ƏQRƏBİN DOSTLUĞU

Bir tısbağa əqrəb ilə dost olmuşdu. Onlar tez-tez görü-şürdülər. Bir dəfə yol gedərkən onların qarşısına bir çay çıxdı. Əqrəb dedi:

- Qardaş, mən çaydan keçə bilmərəm, məni al dalına, o tərəfə keçir.

Tısbağa razılaşdı. O, əqrəbi dalına mindirdi. Bir qədər irəli getdilər. Birdən əqrəb tısbağanın boynunu bərk sancdı. Tısbağa:

-Sən nə edirsən?

-Məndə günah yoxdur. Əqrəblərin adəti belədir.

Onlar həm dostu, həm də düşməni belə sancırlar.

Tısbağa özünü sürətlə suyun altına vurdu. Əqrəb ucadan qışqırdı.

-Qardaş, boğuldum, kömək et!

-Xeyir, bizdə də adət belədir. Suya cumuruq ki, əqrəbin sancdığı yer sağalsın. Əqrəb boğulub öldü.

## BALA ŞİRİNDİR

Bir oğlan odun yarırdı. Atası ona dedi:

-Hava soyuqdur, özünü soyuğa vermə.

Oğlu dedi:

-Ay ata, üşümürəm sən evə get.

-Bir az gözlədi, yenə də oğlu odun yarmaqdan əl çəkmədi. Tərlədiyindən pencəyini də çıxartdı.

Atası oğlunu yenə səslədi.

Oğlu dedi:

-Gərək bu odunun hamısını yarıb qurtaram.

Ata oğluna daha bir söz demədi. Evə girdi, nəvəsini qucağına alıb, bayıra çıxdı.

Soyuq havada bunu görən oğlu dilləndi:

-Ata soyuqdur. Uşağı çölə niyə çıxardın? Uşağı içəri apar.

Atası dedi:

-Sən öz uşağını soyuqdan qoruyursan, onun belə havada eşiyə çıxarılmasına dözə bilmirsən. Sən öz balanı sevdiyin kimi, mən də öz balamı sevirəm. Axı, sən də mənim balamsan. Oğlu gülümsünüb, ata ilə bərabər içəri keçdi.

## SÖZ YARASI

Bir nəfər ayı ilə dost olur. Onu evinə qonaq çağırır. Bütün dostlarına, qohumlarına da xəbər verir. Hamı kişinin evinə toplaşır. Qonaqlıq şən keçir. Axırda kişi dostu ayını öpür. Başqa bir dostundan xahiş edir ki, o da ayını öpsün. Amma o etiraz edir. Deyir:

-Ayıdan pis iy gəlir. Mən onu necə öpüm?

Bir gün meşədə ayı bu sözləri deyən kişi ilə rastlaşır. Ayı yalvarır ki, kişi balta ilə onu yaralasın. Bir müddətdən sonra onlar yenə görüşürlər. Kişi ayının yarası ilə maraqlanır.

Ayı deyir:

-Balta yarası sağalıb, amma söz yarası əbədidir. Hər kəs öz sözünün yerini bilsin.

## ŞAİR VƏ XAN

Bir şair öz kəskin şeirləri ilə xanları, varlıları, ruhaniləri ifşa edirdi. Dövlətlilər sözü bir yerə qoyaraq şairi ələ salmaq yolu ilə ondan intiqam almağı qərara alırlar. Onlar xanın sarayında kef məclisi düzəldir və şairin oraya göndərilməsini kəndxudaya əmr edirlər.

Müəyyən olunmuş vaxtda şair xanın sarayına gəlir. Xan onu pərt etmək məqsədi ilə deyir:

-Bu nədir, mən kəndxudaya əmr etmişdim ki, bizim məclisi əyləndirmək üçün adam göndərsin, o isə səni göndərmişdi.

Şairin özünü itirərək bir söz deyə bilməyəcəyini zənn edən əyanlar qəhqəhə ilə gülməyə başladılar. Lakin şair xanın özünün adamlıqdan uzaq olduğunu ifşa edərək belə cavab verir.

-Niyə ki, ay xan, adam var idi, adamın yanına göndərdilər. Məni də sənin yanına.

Söz xana güllə kimi dəyir.

## PİŞİK VƏ PƏLƏNG

Pələng ded:

-Ay pişik sən, deyəsən, bizim tayfadansan. Bəs niyə belə balacasan? Pişik cavab verdi:

-Məni insan bu gün salıb.

Pələng-Hansı insan? O, harada olur? Yerini mənə göstərə bilərsənmi?

Pişik:

-Bəli göstərərəm.

Onlar yol ilə gedərkən bir kişinin yer şumladığını görürlər. Pişik dedi:

-Bax o, insandır.

-Hansı, o yeri şumlayan?

Pələng əkinçiyə yaxınlaşdı:

-İnsan sənsən?

-Bəli.

-Hazırlaş səninlə davam var.

-Nə üçün?

-Niyə mənim pişiyimi bu hala salmısan?

-İnsan deyir ki, onun gücü evdə qalıb. Gərək gedib gətirsin. Pələng razı olur. Kəndli deyir:

-Birdən mən qayıdana kimi qaçarsan. Ona görə də gəl səni bir ağaca bağlayım ki, qaçmayasan.

Razılaşırlar. Kişi pələngi bağladıqdan sonra o qədər döyür ki, pələng yalvarıb üzr istəyir. İnsanın öz ağlı ilə hər şeyə qadir olduğunu dərk edir.

## HAZIRCAVAB

Bir nəfər babasını təriflməyi çox sevirmiş. O deyir:

-Babamın çoxlu mal-qarası varmış. Babam bunları

saxlamaq üçün tövlə tikdirir. Həmin tövləni gəzmək istəyən şəxs birinci qapıdan cavan vaxtında girsə, sonuncudan qocalanda çıxarmış.

Başqası bu yalanı heçə çıxarmaq istəyir və deyir:

-Təəccüblənməyin, yalan deməyi bacarmaq lazımdır. Mənim atamın bir kürəyi varmış. İsti olanda o, həmin kürəklə günəşi itələyir, soyuq olanda buludları dağıdırmış.

-Sənin deməyindən belə çıxır ki, babanın kürəyi çox uzun imiş. Bəs baban o kürəyi harada saxlayırmış?

-Sənin babanın tövləsində.

## SƏNƏT ÖLMƏZDİR

Bir varlı padşah olur. O şəhərdə dünyalar gözəli bir keçəçi qızı da olur. Keçəçinin yanına öz elçilərini göndərir. Keçəci deyir:

-Mən nəçiyəm, qızın ürəyini bilmək lazımdır.

Qızın anası, xalası, bibiləri deyirlər ki, xoşbəxtsən, bəxtin açılıb. Padşah arvadı olacaqsan.

Qız qəti etiraz edir, deyir ki, onun heç bir sənəti yoxdur. Əlindən bir iş gəlmir.

Padşah çox acıqlanır və pərt olur. İkinci dəfə elçi göndərir. Qız yenə də əvvəlki sözünün üstündə durur və deyir:

-Padşahlıq müvəqqətidir. Elə olar ki, onu taxtdan salarlar. Onda bəs o, ailəsini necə dolandırar? Əgər bir sənəti öyrənərsə, ona getməyə hazıram.

Məsələni elçilər padşaha çatdırırlar. Qızın inadkarlığına təəccüb edən padşahın əlacı kəsilir. Bir sənət öyrənməyi qarşısına məqsəd qoyur. Xəlvəti keçəçini saraya çağırtdırır. Keçəciliyi ona öyrətməyi tapşırır.

Təcrübəli keçəçi öz sənətini padşaha öyrədir.

Bundan sonra qız padşaha getməyə razılıq verir, evlənirlər.

Bir gün başqa bir hökmdar bu padşahın üstünə qoşun çəkir, şəhəri talayır, padşahı əsir aparırlar. Aradan illər keçir, padşah əsirlikdə qalır. Onu qul bazarında uzaq bir məmləkətin tacirlərinə satırlar.

Tacir bir müddətdən sonra əsirin əlindən nə gəldiyini soruşur. Əsir keçəçi olduğun söyləyir. Tacir ona şərait düzəldir. Əsir gözəl naxışlı keçələr salır. Salınmış keçələr bazarda o saat satılır. O, həmişə adını keçənin üstünə yazırmış.

Keçəçi qız isə yaş tökə-tökə padşahı axtarırdı. Bir gün bazarda keçə satıldığını görür. Yaxınlaşıb baxır. Ərinin adını keçənin üstündə oxuyur, onun naxışlarını tanıyır. Məsələni atasına və qardaşlarına danışır. Onlar keçənin hansı məmləkətdə toxunduğunu öyrənirlər. Gedib padşahı azad edib vətənə gətirirlər.

Onun necə tapıldığını öyrənən padşah keçəçi qızına öz minnətdarlığını bildirir. Deyir:

-Sən haqlı imişsən. vəzifə, mənsəb müvəqqəti imiş. Sənət isə əbədi, ölməz imiş.

## AĞACI İÇİNDƏN QURD YEYƏR

Bir böyük, illər şahidi nəhəng palıd olur. Ona deyirlər ki, bir alət çıxıb, o səni kəsəcək.

Palıd deyir:

-Əgər özümüzdən culqax olmasa, məni heç nə kəsə bilməz. İki nəfər mişar gətirib, palıdı mişarlamağa başladılar. Palıd mişara baxır, onun ağac tutacaqlarına baxıb deyir:

-Ağacı içindən qurd yeyər. Sapı özümüzdəndir.

## TƏRƏKƏMƏNİN CAVABI

Bir molla olur, ramazan ayında bir yaxşı yer axtarır ki, "Qaz vurub, qazan doldursun".

Dostlarının məsləhəti ilə uzaq bir tərəkəmə obasına gedir. Obanın ağsaqqalına qonaq olur. Mollanın təklifi ilə ağsaqqal camaatı öz alaçığına yığır. Bir az dindən, şəriətdən danışandan sonra birdən əlini qulağının dibinə qoyub zil səslə azan verməyə başlayır.

İndiyə kimi belə şey görməyən tərəkəmə camaatı qorxmuş halda alaçıqdan çıxıb qaçır. Molla qonaq olduğu ağsaqqala deyir:

-Camaat mərsiyədən niyə qaçdı? məgər belə şey görməmisiniz?

-Mən dünya görmüş adamam. Eşşəyin anqırıb, itin ulayıb adamı hürkütməyin çox görmüşdüm. Amma adamın anqırıb, camaatı hürkütməyin görməmişdim.

## ŞAİR VƏ KƏRPİCKƏSƏN

Bir görkəmli şair gedirmiş. Görür ki, bir kişi kərpic kəsir. İşləyə-işləyə onun şeirlərini təhrif edib oxuyur.

Şair yaxına gəlir. Onun kərpiclərini ayaqlamağa başlayır. Kərpickəsən deyir:

-Niyə onları əzirsən? Axı mən əziyyət çəkmişəm.

Şair deyir:

-Oxuduğun şeirləri də mən zəhmət çəkib yazmışam. Sən nə üçün onları təhrif edib oxuyursan?

## QƏRİB, KASIB VƏ QOCA

Bir qərib, bir kasıb, bir qoca yoldaş olurlar. Oturub zəmanənin gərdişindən dərdləşirlər. Qərib kişi bayatı çəkib yana-yana deyir:

*Mən aşiq müşkül idi,*
*Müşkül iş, müşkül idi.*
*Hər dərdə əlac olar,*
*Qəriblik müşkül idi.*

Bayatı kasıb kişiyə də təsir edir. O da aşağıdakı bayatını çəkir.

*Mən aşiq müşkül idi,*
*Müşkül iş, müşkül idi.*
*Qərib vətənə gedər.*
*Kasıblıq müşkül idi.*

Qoca görür ki, qəribin də, kasıbın da dərdinə çarə var. Tək onun dərdinə çarə yoxdur. Qəhər əl verir:

Mən aşiq müşkül idi,
Müşkül iş,müşkül idi.
Kasıblar dövlətlənər,
Qocalıq müşkül idi.

## HƏYAT ŞİRİNDİR

Əzrayıl bir qarı ilə ana-bala olur. İllər arxada qalır. Qarı lap əldən düşür. Əzrayıl gəlir ki, qarının canını alsın. Qarı deyir:

-Axı biz ana-balayıq, mənim canımı alma.

Əzrayıl deyir:

-Yox canını almalıyam.

Qarı əzrayılın qəti fikrin görüb deyir:

-Heç olmasa, məni dalına al, dağın başına çıxart. Bu fani dünyanı bir seyr edim.

Əzrayıl onu dalına alır, dağı gəzdirir. Əzrayıl qarını dağın başında yerə qoyur və deyir:

-Ay ana, niyə qoymadın evdə, rahat yerdə canını alım? Gəldin bu çöllü-biyabanda ölməyə.

Qarı deyir:

-Bu müddətdə heç olmasa sağ yaşadım. Bu da qənimətdir.

## ZƏHMƏTLƏ QAZANILAN PUL ŞİRİN OLAR

Bir kişinin oğlu olur. Heç bir işlə məşğul olmur. Kişi xəstələnir. Oğluna deyir:

-Sən bir manat qazanıb gətirsən, mən sağalıb ayağa duraram.

Pulu bir gün dayısı, bir gün əmisi, bir gün də başqa qohumu verir. Hər dəfə atası cırıb oda atır. Oğlana heç nə təsir etmir.

Pulu sən qazanmamısan, get zəhmət çəkib özün bir manat qazan. Əlacsız qalan oğlan gedib axşama qədər işləyir, bir manat qazanır. Sevincək atasının yanına gəlir. Manatı ona verir. Atası manatı cıranda oğlan qışqıra-qışqıra deyir:

-Sən nə edirsən? O pulu qazanınca tər tökmüşəm, axşama qədər işləmişəm.

Kişi gülümsəyərək deyir:

-İndi inandım ki, manatı özün qazanmısan. O biri pulları cıranda heç vecinə də deyildi.

## DÜŞMƏNÇİLİK

Bir sərkərdə öz qoşunu ilə döyüşə gedirdi. Susuz səhra olduğuna görə qoşun əhli tuluqlarda su aparırdı. Bir böyük səhradan keçərkən səhrada olan quşlar tökülüb

tuluqları dimdikləməyə başlayırlar. Qoşunun sərkərdəsi üzünü sərçələrə tutub dedi:

-Ey Allahın heyvanları, siz kiçik məxluqsunuz. Bilirsiniz ki, tuluqları deşə bilməzsiniz. Bəs nə üçün tuluqları deşməyə səy göstərirsiniz?

Sərçələrin başçısı cavab verdi.

-Biz də bilirik ki, tuluqları deşə bilmərik. Lakin biz bildirmək istəyirik ki, biz də sənə düşmənik.

## ƏSAS SƏBƏB

Qoşunları məğlub olmuş hökmdar sərkərdəsini çağırıb qəzəblə soruşdu:

-Düşmən hücum edəndə, niyə onlara atəş açmadınız?

Sərkərdə cavab verdi:

-Hökmdar sağ olsun, bunun qırx səbəbi var. Birincisi budur ki, barıtımız yox idi. İkincisi...

-Kifayətdir?-Qəzəblə hökmdar onun sözünü yarımçıq qoydu.

## MALIN QƏDRİN BİLMƏK

Bir varlı kişi var idi. Heç kimdə haqqını batırmazdı, qəpiyinin qədrini bilərdi. Həmin kişi gediş-gəlişi çətinləşdirən dağ çayınını üstündən körpü saldırmaq istəyir. Körpünü tikmək üçün gedib bir mühəndis gətirir. Mühəndis körpünün xərcini hesabladıqdan sonra deyir ki, çox baha başa gələcək.

O vaxtı körpülərin tikintisində yumurta işlədirdilər. Ona görə də mühəndis həmin kişi ilə yumurta almağa gedir. Varlı kişi seçib iri yumurtaları götürdü.

Mühəndis varlı kişinin iri yumurta seçməsinə çox

pərt oldu. Ürəyində dedi ki, yumurtanın irisini seçən, körpüyə o qədər xərc çəkməz. Könülsüz-könülsüz körpü salınan yerə gedirlər. Kişi körpünün yerini, orta qatın harada düşəcəyini göstərir. Mühəndis dinmir. Kişi cibindən bir kisə qızıl çıxarıb çayın ortasına atır və deyir ki, mən oranı deyirəm.

Mühəndis mat qalır.

Deyir:

-Siz nə edirsiniz? Qızılı niyə çaya atdınız?

Kişi:

-Oğlum, mən yumurtanın irisini seçəndə sən ürəyində hesabladın ki, mən xəsisəm. Lakin mən xəsis deyiləm. Mən pul verib, mal alıram, ona görə də yaxşısını almalıyam. Qızılı da çaya atdım ki, mənim haqqımda fikirini dəyişəsən.

## GÖZÜM ÇIXANDA HARADAYDIN

Bir igid, qüvvətli kişi olur. Toylarda dizini qatlayan olmazmış. Bir gün qonşu kənddə toy var imiş, həmin kişi o toya gedir.

"Koroğlu cəngisi" çalınanda bədəni titrəyərmiş. Kişi meydana çıxıb, bir az hərlənəndən sonra əllərini belinə qoyub, meydanın ortasında dayanır. Bu, o deməkidi ki, qənim istəyirəm. Toy da çalınırdı. Toy sahibi, ağsaqqallar bilirdilər ki, onun qabağına adam çıxmasa, ona ağır xələt verilməlidir. Həm də kəndin adı batar. Ona görə də bir zorba, qollu-biləkli kişini onun meydanına salırlar. Təbil vurulur, pəhləvanlar qurşaq tutur. Bir-birinə güc gələ bilmirlər. Dizləri kəl dizi kimi yer sökür.

Birdən necə olursa yerli kişi qonaq pəhləvanın boynunu qoltuğu arasına salır, sıxmağa başlayır. O qədər sıxır ki, kişinin gözləri hədəqəsindən çıxır. Lakin yenə yıxa bilmir.

Gözləri qaranlıqlayan pəhləvan güc vurub başını qoltuqdan çıxarır, yerli pəhləvanı bir an içində paçalayıb yerə vurmaq istəyir.

Yerli camaatdan tez tökülüb buna imkan vermirlər. Onları aralayırlar. Qonaq pəhləvan aralaşdıran bir kişinin yaxasından yapışıb deyir:

-Belə ağsaqqallıq eləyənsən, gözüm çıxanda haradaydın?

## DAĞA SÖYKƏNMƏK

Bir qurd yolla gedirdi, gördü bir quzu bir dağın başında durub. Quzu qurdu görcək onu söyməyə başladı. Qurd quzuya baxdı-baxdı, sonra dedi:

-Ay, quzu, bu hünər sənin deyil, arxan o dalını dayadığın dağdır. Səni danışdıran arxandakı dağdır. Ona görə belə guruldayırsan.

## CAN ŞİRİNDİR

Bir arvadın oğlu olur. Oğlu ağır xəstələnir. Xəstəlik uzun sürür. Qohum-qonşu xəstənin yanına gəlir, halından xəbər tutur.

Evə gələnlərə arvad üzün tutub deyirdi:

-Ölüm mənimdir, Allah onun ölümünü, dərd-bezarını mənə versin. Təki balama qıymasın!

Qonşunun cavan oğlu ananı sınamaq istəyir. Gedib üz-gözünü rəngləyir. Qəzilli dəriyə bürünüb, zınqırov bağlayır.

Gecə əcayib səsi çıxara-çıxara arvadın başının üstünü alır. Deyir ki, mən Əzrayılam. Canını almağa gəlmişəm.

Arvad başını qaldırıb sızıldaya-sızıldaya deyir:

-Başına dönüm, Əzrayıl qardaş, xəstə mən deyiləm. Xəstə o yatan oğlumdur.

## TAMAHKAR QAZİ

İki nəfər bərk dalaşır. Onların işi qazıya düşür. Birincisi qazinin yanına gəlir ki, işi mənim xeyrimə kəs, sənə bir kök qaz verəcəyəm. Qazi deyir:

-Yaxşı.

Sabahısı şikayətçilər qazinin hüzuruna gəlirlər. Həmin qazıya qaz vəd edən şikayətçi əvvəlcə qazinin otağına daxil olur ki, qazi ağa, o məsələ,-deyir və arxayın olur.

Bu zaman ikinci şikayətçi içəri daxil olur və cibindən bir yüzlük qızıl çıxarıb qazıya xəlvəti göstərərək tez dilinin altına qoyur. Bu qızılı görən qazının gözləri işıqlanır. Birinci şikayətçinin üstünə bağırır ki, çıx bayıra, günahkar! Xalq ağzında qızıl kimi söz danışır, sən isə qaz kimi boğazını uzadırsan.

## BAŞI YARILMAYAN KİŞİ

Camaatın çox olduğu gur məclisdə bir kişi deyir ki, hələ indiyə kimi mənim başım yarılmayıb. Çoxu buna təəccüb edir. Bir nəfər bu işlə maraqlanmağı qərara alır. O kişi bir gün bostan suvarırmış. Kişini yoxlamağı qərara alan oğlan gedib kişinin suyunu kəsir, qanqallığa ötürür və işin nəticəsini gözləyir. Fikirləşir ki, həmin kişi indi gələr, su üstündə savaşar və başı yarılar.

Həqiqətən, bir azdan başı yarılmayan kişi gəlib çıxır. Çörür ki, bir nəfər suyu kəsib, qanqallığı suvarır. Kişi deyir:

-A qardaş, atan rəhmət, qanqallığı suvardıqdan

sonra məni səslə, gəlim suyu aparım, qapımı suvarım.

Oğlan kişidəki hövsələyə heyran qalır. Deyir:

-İndi bildim ki, sənin başın niyə yarılmayıb.

## QONAQLIQ

Bir kişiyə üç qonaq gəlir. Kişi qonaqlara deyir:

-Gəlin, əzrayıllarım, gəlin.

Qonaqlar təəccüblənirlər, lakin bir söz demirlər. Çay - çörəkdən sonra yer salan ev yiyəsi deyir.

-Yatın, quzularım,yatın.

Qonaqlar yenə təəccüb edirlər.

Ev yiyəsi qonaqları yola salanda deyir:

-Gedin, zurnaçılarım, gedin.

Üç qonaq yarıyolda fikirləşirlər ki, ev yiyəsi nə üçün onlara belə dedi:

Hər üçü geri qayıdıb, qonaqçının yanına gəldilər. Soruşdular ki, nə üçün bizi qarşılayanda, yatanda və yola salanda elə sözlər dedin:

Ev yiyəsi dedi:

-Siz gələndə fikirləşdim ki, əzrayıl kimi gəlirsiniz. Qabağınıza necə çıxacam?

Yatanda ona görə "Yatın quzularım, yatın" dedim ki, siz yeyib rahatlandınız. Quzu kimi fağır göründünüz. Ona görə də belə dedim. Gedəndə də ona görə belə dedim ki, necə qarşılandığınızı zurnaya qoyub çalacaqsınız.

## ƏYRİLİYİN AQİBƏTİ

Bir varlı hacı olur. O, çox səxavətli idi. Bir nəfər gəlib bir gün hacıdan borc istəyir. Hacı da pulu həmişə taxçaya qoyardı. Ona görə də hacı deyir:

-Pul taxçadadır, götür apar.

Kişi pulu götürüb aparır. Sonra gətirəndə hacı pulu saymadan deyir:

-Pulu qoy taxçaya.

Həmin kişi yenə gəlib pulu taxçadan aparır. Sonra borcunu bir də qaytarır. Bir dəfə də pulu qaytarmaq lazım gələndə kişini tamah gücləyir. Taxçaya bükülü əski parçası qoyur. Hacı da inandığı üçün pula baxmır. Aradan bir müddət keçir. Guya hacıya kələk gəldiyi üçün sevinir. Onu aldatmaq bəhanəsi ilə yenə də borc istəməyə gedir. Hacıdan pul istəyir. Hacı deyir:

-Qoyduğun yerdədir, oradan götür.

Kişi əlini taxçaya uzadır. Görür ki, pul yoxdur. Pulun olmadığını hacıya deyir.

-Qoymusansa apararsan. Qoymamısansa, nə danışır-san?-deyir.

Əyrilik edən kişi xəcalətdən başını aşağı salır.

## İKİ DİLƏNÇİ

İki dilənçi olur. Vəziyyətin pisliyindən ailələrini dolandı-ra bilmirlər. Bir müddət bu iki dilənçi bir yerdə dilənir, dost olurlar.

Dövran elə gətirir ki, bu dilənçilərdən birini padşah seçirlər. Uçurulan padşah quşu gedib həmin dilənçinin başına qonur.

Aradan illər keçir.

O biri dilənçi dostunun padşah olduğunu eşidib, onun hökmdar olduğu yerə gedir. Dostu ilə görüşür. Qucaqlaşıb ağlayırlar. Dilənçi dostu padşah oğlana deyir:

-Gözümüz aydın olsun! Daha dilənçilik daşını atıb padşah olmusan. İndi xoşbəxtsən.

-Padşah deyir:

-Ey, əziz qardaşım, neçə ki, dilənçi idim, bir öz dərdimi çəkirdim. Amma indi böyük bir ölkənin dərdini çəkməli oluram. Ölkə dərdi, camaat dərdi çəkmək bütün çətinliklərdən üstündür.

## MƏNDƏN BÖYÜK OLMASIN

Bir dəfə bir padşahı qonaq dəvət edirlər. Padşah deyir: -Məni elə yerə aparın ki, orada məndən böyük adam olmasın. Deyirlər ki, məmləkətimizdə səndən böyük adam yoxdu. Padşah çağırılan yerə qonaq gedir. Təzəcə oturmuşdu ki, içəri bir uşaq girir. Padşah ayağa durur. Deyir:

-Mən sizə dedim məni elə yerə aparın ki, orada məndən böyük adam olmasın.

Hamı təəccüb edir. Padşah deyir:

-Bəli, uşaq dünyada hamıdan böyükdür.

## TƏNBƏLLİK

Bir ölkəni tənbəllər bürümüşdü. İşləməz, başqalarının hesabına yeyib içərdilər.

Hakim əmr elədi ki, ölkənin hər tərəfindən tənbəlləri gətirib bir binaya yığın. Hakim tapşırır ki, həmin binaya saman tüstüsü verin. Tənbəllər qışqırıb nərə təpirlər. Kim qışqırırsa eşiyə çıxarırlar. Binada iki nəfər qalır. Axırda biri də qışqırır. O biri yoldaşına deyir ki, mənim də əvəzimdən qışqır. Denən yoldaşım da yandı! Bilinir ki, şah tənbəli o adamdır.

## SÜMÜKLÜ ƏT

Bir kişi kasıb olduğundan həmişə sümüklü ət alardı. Əti yedikdən sonra sümüklərini qapıya gələn sahibsiz itlərə atardı.

Bir dəfə həmin kişi ət alıb apararkən qonşusu ilə rastlaşır. Qonşusu zarafatla deyir:

-Axşam itləri də çağırarsan.

Sümüklü ət alan kişi deyir:

-Qorxma, səni çağırmamış olmayacağam.

## ÖZGƏSİNƏ QUYU QAZAN

Elat arandan dağa köçəndə həmişə bir dağın yanından keçərmiş. Həmin kənddə bir kişi olur. Qoyun sürüləri keçən yerlərdə iki oğlu ilə birlikdə quyu qazır. Üstünə də çör-çör doldurur. Sürülər oradan keçəndə bəzisi həmin quyuya düşərmiş. Kişi sonra quyudan həmin heyvanları çıxarıb gətirirmiş.

Bir dəfə gecə vaxtı kişi gedir ki, quyulara baxsın. Quyunun yanından keçəndə qaranlıqda qıçı daşa ilişir və tappıltı ilə öz qazdığı quyuya düşür. Qıçları sınır.

Səhərisi səsə gələn çobanlar kişini quyudan çıxarıb kəndə aparırlar. Kənddə məsələni bilən adamlar deyir:

-Özgəsinə quyu qazanın özü düşər.

## PALTARA GÖRƏ QİYMƏT QOYURLAR

Bir kişi köhnə paltar geyib padşahın hüzuruna gedir. Məclisin yuxarı başına keçir. Gələn adamlar bir-bir yuxarı başdan oturub cındır paltarlı kişini qapının ağzına sıxışdırırlar. Hətta, elə olur ki, yemək də vermirlər. Səhərisi həmin kişi qiymətli paltar geyib məclisə gedir.

Yuxarı başda yer verirlər. Qabağına yaxşı yemək qoyurlar. Kişi deyir:

-Çuxam, sən də ye.

Camaat təəccüb qalır. Padşah niyə belə etdiyini soruşur. Kişi deyir ki, ağıla görə yox, paltara görə adama qiymət qoyurlar. Bu gün də mənə yeməyi paltara görə verdiniz. Ona görə belə deyirəm.

## ŞAİRLİK AZARI

Bir məmləkətdə şairlik həvəsinə düşənlərin sayı getdikcə çoxalır. Yerindən duran boş qafiyələri qoşmaqla işdən-gücdən uzaqlaşır. İşi belə görən padşah əmr verdi ki, bütün şairləri həbsə alsınlar. Belə də edilir. Şairlərin bəzisi burada da şeirlər yazırlar. Çoxusu da deyir ki, həbsdən qurtarandan sonra yazarıq. Bir aydan sonra padşah şairləri saraya yığdırır. Bu bir ayda nə yazdıqlarını soruşur. Həbsə alınmış yüzdən artıq şairdən ancaq beş-altısı yazdıqları şeirləri padşaha göstərir.

Padşah deyir:

-Əsil şair odur ki, çətin zamanlarda, ağır günlərdə də yazmaqdan əl çəkməsin. Amma sizin çoxunuz belə deyilsiniz. Ona görə də sizdən şair çıxmaz.

Padşah həbsdə yazan şairlərə sarayda şərait düzəldir. Qalanlarını isə fiziki işlə məşğul olmağa göndərir.

## TƏKLƏMƏSƏN DÖYƏ BİLMƏZSƏN

Bir kişinin bağına oğru girir. Kişi gəlib görür ki, bağında oğru var. Dinmir. Onları aldadıb evinə tək-tək aparır. Qıçlarını bağlayıb möhkəm döyür. Onları elə əzişdir ki, bir də oğurluğa getmirlər. Kişi deyir ki, təkləməsən, döyə bilməzsən.

## MOLLA VƏ KƏNDLİ

Bir molla ilə kəndli yoldaş olur. Yol ilə gedirlər. Molla kəndliyə dindən, şəriətdən söhbət edir. Namazdan danışarkən deyir:

-Namazı heç bir zaman pozmaq olmaz. Hətta görsən ki, övladın təndirə düşüb yanır, yenə də namazı pozmaq olmaz. Onlar gəlib namazı bir çəmənlikdə qılmalı olurlar. Təsadüfən naxır həmin yerə gəlir. Qabaqda gələn zorba buğa onları görüb böyürə-böyürə mollaya və kəndliyə yaxınlaşır. İşin pis keçəcəyini görən molla namazı qoyub qaçır. Kəndli yerdən başını qaldırıb baxır ki, molla qaçır. O da qaçmağa başlayır. Qaçıb aralanandan sonra kəndli mollaya nə üçün namazı pozduğunu soruşur? Molla bərk yerdə yaxalandığını görüb deyir:

-Allah da zülmə razı deyil, ardını sonra qılaram.

## ÖZGƏSİNƏ QUYU QAZAN KİŞİ

Bir məmləkətdə iki alim yaşayırmış. Həmişə bir-birinin paxıllığını çəkirmişlər. Alimlərdən biri paxıl, o birisi xeyirxah olur. Paxıl alim o birisini aradan götürmək üçün xörək bişirtdirir, içinə zəhər qatır ki, alimi qonaq çağırsın. Bu məsələni evdə də heç kimə demir. Elə bu zaman kişini tələsik padşahın yanına çağırırlar. Kişi gedir. Xörək isə yadından çıxır.

Kişinin iki oğlu molla məktəbində oxuyurdu. Uşaqlar məktəbdən gəlib ac olduqlarını böyük bacısına söyləyirlər. Bacıları deyir:

-Elə mən də acam. Atam evdə yoxdu. Hazır xörək var, gətirim yeyək. Onlar gətirib xörəyi yeyirlər. Hər üçü zəhərlənib ölür. Kişi tələsik evə qayıdır. Övladlarının zəhərlənib öldüyünü görür. Dərdə dözə bilməyib, həmin

xörəkdən özü də yeyib zəhərlənir. Beləliklə özgəsinə quyu qazan özü düşür.

## ARVADDAN QORXAN

Bir padşah bir düzənlikdə iki çadır qurdurur. Camaatı meydana yığdırır. Padşah deyir:

-Kim arvadından qorxursa, ağ çadıra girsin. Qorxma-yanlar qırmızı çadıra girsin.

Meydandakı kişilərin hamısı ağ çadıra girir. Bir nəfər şəstlə yeriyib qırmızı çadıra girir. Padşah bu işə təəccüb edir. Kişini yanına çağırıb deyir:

-Necə oldu ki, bu boyda camaatın içərisindən arvaddan qorxmayan tək sən oldun?

Kişi cavab verir:

-Elə deyil, bizim arvad burada da fərqlənmək istəyir. Mənə tapşırdı ki, qırmızı çadıra girim. Ona görə də qırmızı çadıra girdim.

## MİRVARİ

Bir naşı dəryadan mirvari tapır. Eşitmişdi ki, çox qiymətli daşdır. Nə qədər ki, özünün deyildi, ürəyi gedirdi. Elə ki, əlinə keçdi, nə rəngi xoşuna gəldi, nə də qiymətini başa düşdü. Gördü ki, dəryanın qırağında göyçək, elə rəngbərəng balıqqulaqları var ki, baxanda adamın gözü qamaşır. Mirvari onun yanında heç nədir. Mirvarini atdı yerə, göyçək bir balıqqulağını seçib götürdü, düzəldi yola. Az getdi, çox getdi, ovcunu açıb baxdı. Gördü ki, balıqqulağı iy verir, bir az da gəldi baxdı, gördü ki, balıqqulağı ovum-ovum ovulub.

Oğlanın anası əhvalatı eşidəndə dizinə döydü. Balıqqulağının qırıntılarını həyətə tulladı. Əhvalatı anasına

danışdı. Anası oğluna dedi:

-Qayıt, bala, mirvarini tap.

Oğlan dedi:

-Haradan tapım? Bir də ki, camaat mənə gülər, axtarmağın əziyyəti, əzabı da çoxdur.

Anası dedi:

-Mirvarini qumun içinə atanda utanmadın, indi utanırsan?

Təzədən mirvarini tapmaq üçün gərək hər əzaba-əziyyətə dözəsən, qumun içində dizin-dizin sürünməkdən çəkinməyəsən. Get. Mirvarini itirən axtarmağı da bacarmalıdır.

## MƏĞRUR ŞAİR

Bir vilayətdə cahil bir padşah olur, bir də ağıllı, şöhrətli bir şair. Şair çiy kərpicdən tikilmiş evinin həyətində öz əli ilə kiçik bağça salmışdı, ilin doqquz ayını burada keçirirdi. Adamlar həmişə onun yanına məsləhətə gəlirdilər. Şair də fəxr edirdi ki, kəndlilər ona inanır, ürəyini açır, dərdini danışırlar. Şairin adı yavaş-yavaş dağlar aşdı, başqa kəndlərə yayıldı. Hər yerdə onun ağıl-kamalından, insanlığından danışmağa başladılar.

Şeirləri ağızdan-ağıza düşdü. Xəbər padşaha da çatdı. Şöhrət azarına tutulmuş zalım padşah belə qərara gəldi ki, şairi saraya gətirsin. Padşah bunu ona görə edirdi ki, bir ox ilə iki ov vursun, Əvvəla, şairi "əlinin altında" saxlasın, hər işinə göz qoysun. İkincisi də, şairi saraya gətirməklə padşah camaatın nəzərində öz şöhrətini qazanacağını güman edirdi. O belə düşünürdü. "Xalq deyəcək padşah yaxşı adamdır, şeiri-sənəti sevir, ağıllı adamlar yığır, sağ-soluna".

Şair padşahın elçilərini neçə dəfə qaytarır, saraya

getmək istəmir. Axırda padşah özü şairin kəndinə gəldi. Şairin əlacı kəsildi. Ürəyindən qara qanlar axdığı halda, saraya getməyə məcbur oldu.

İlk zamanlar padşah şairə bir söz demirdi. Hərdən bir şeirlərinə qulaq asıb, yaxasından əl çəkirdi. Öz el-obası, kəndli-lər üçün darıxan şair daha yanıqlı yazırdı. Bu şeirlər yavaş-yavaş saraydan kənara yayılır, şairin hörmətini daha da artırırdı. Padşah şairə qibtə eləməyə başladı: "Niyə camaat bu şairi bu qədər sevir? Mən dura-dura hər yerdə onun sözünü danışır? Niyə? Belə düşündükdə padşah bu qərara gəldi ki, özü də şeir yazsın. Çünki şairə hörmət qazandıran onun əsərləridir. padşah bu fikirə gələndə, şairlik gözündə çox böyüdü, hətta hökmranlıqdan artıq göründü".

Dünyaya saysız-hesabsız hökmdarlar gəllib-gedib. İndi onldarın çoxunun adını da bilən yoxdur. Padşahdan qalan nə olacaq? Tikilən evlər, qalalar, şəhərlər, küçələr, lakin onlar çoxmu qalacaq? Yox. Zaman bir gün onları vurub dağıdacaq, söküb-tökəcək. Amma şairi heç kim məhv edə bilməz. O, min il sonra da oxunacaq, yazılanları gələcək nəsillərə çatdırılacaqdır.

Bu fikir padşahın şeir yazmaq həvəsini daha da artırır. O, əlinə qələm alıb şeir yazdı. Saray adamları bu şeirə qulaq asanda, bəh-bəh dedilər. Hələ bu cür mənalı gözəl kəlam eşitmədiklərini bildirdilər. Padşah isə saray əhlinə fikir vermədən şairə üzünü tutdu.

-Necə şeirdir?

Şair paxıllıqdan boğulan yaltaqları və padşahı süzüb başını buladı.

-Çox pis şeirdi, hökmdar, -dedi, -buna şeir demək günahdır.

Padşahın acığı tutdu, adamlara əmr etdi?

-Bu şair qudurub, danışığın bilmir. Atın onu

samanlığa, ağlı başına gəlsin. Şairi samanlığa saldılar. Samanlıqda da fikirindən dönmədi, padşahın mənasız və çürük şeirini xatırlayıb güldü.

Padşah isə qəzəbini soyutmaq üçün ova çıxdı. Beş gün meşədə, dağda ov elədi. Sonra saraya qayıtdı. Bir müddətdən sonra yenə qələmi əlinə alıb, yenə bir şeir yazdı.

-Şairi yanıma gətirin,-deyib əmr etdi.

Şairi samanlıqdan çıxartdılar. Üstün-başın çırpıb, padşahın hüzuruna gətirdilər. Padşah yeni yazdığı başqa bir şeirini oxudu. Saray adamlarının tərifi göyə çıxdı, hətta vəzir yerindən qışqırdı.

-Şeir deyil, böyük kəlamdır.

Padşah yenə saray əhlinə fikir vermədi. Onun gözü şairdə idi. Şair isə üzündə istehzalı ifadələr olduğu halda susurdu.

Padşah davam gətirə bilməyib soruşdu:

-Necə şeirdir?

Şair padşaha cavab vermək əvəzinə üzünü fərraşlara tutdu:

-Məni samanlığa qaytarın,-dedi:

Padşah qəzəblənib şairi saraydan birdəfəlik qovdu.

Şairin son sözü zərbül-məsəl kimi xalqın dilinə düşdü. Xalq mənasız və axmaq bir şöhrətə gülmək istəyəndə deyirdi.

-Məni samanlığa qaytarın.

# ANA ƏLİ

Qədim zamanlarda bir kişi vardı. Onun istəkli bir arvadı var idi, üç də uşağı. Elə bir vaxt gəldi ki, gənc ana vaxtsız xəstələnib yatağa düşdü. Ölüm ayağında ərini yanına çağırdı. Dedi:

-Ay kişi görürəm ki, daha ayağa dura bilməyəcəyəm. Bu yataq son yatağımdır. Bilirəm ki, mən öləndən sonra evlənəcəksən, sevimli balalarım ögey ananın əlinə düşəcəkdir. Səndən bir xahişim var. Mənim əlimi kəsib qurudarsan. Onu əppəkyapanın içinə qoyarsan. Ögey anaya deyərsən ki, acığı tutanda mənim yetimlərimi həmin əppəkyapanla döyərsən. Bu sözlərdən sonra ana gözlərini əbədi qapadı.

Ana deyən kimi oldu. Kişi ananın vəsiyyətlərini yerinə yetirdi. Ögey ana bədxasiyyətli qadın idi. Uşaqlara gün vermirdi. Həmişə də onları əppəkyapanla döyərdi. Lakin ögey ana görürdü ki, uşaqlar döyüldükcə kökəlir, ət-qana dolur, saralıb solmurlar. Bu iş ögey anaya bir dərd oldu. Bu qədər əzabın qabağında uşaqların gümrah qalması ögey ananı düşündürürdü. Çox fikirdən sonra ögey ana əppəkyapanı sökdü ki, bəlkə, əppəkyapanda bir hikmət var.

Ögey ana əppəkyapanı sökəndə qurudulmuş ana əlini gördü. Əli oradan çıxarıb atdı. Həmin vaxtdan uşaqlar döyüldükcə saralmağa başladı. Kişi bunun səbəbini ögey anadan soruşdu. Ana and içdi ki, uşaqları əppəkyapanla döyür. Kişi gedib əppəkyapanı sökür. Qurudulmuş ana əlini orada görmədikdə məsələnin nə yerdə olduğunu başa düşür və ögey ananı həmin gündən evdən qovur.

## VƏTƏN HƏSRƏTİ

Keçmişdə bir qoca loğman hökmdardan inciyir, baş götürüb yad bir ölkəyə gedir. İllər gəlib keçir, vəziyyət dəyişir. Xalqın rəyincə fərmanlar verən başqa hökmdar səltənəti ələ alır. Loğmanı vətənə qaytarmaq üçün elçi göndərir. "Qürbət xoşdur". Cavabını eşidən elçilər peşiman qayıdırlar. Hökmdar bir dəfə loğmana məktub və necə min dinar göndərib vətənə qayıtmasını tələb edir. Şahın hədiyyələri və məktubu gəldiyi kimi geri qayıdır.

İnadından dönməyən şah loğmanı vətənə gətirmək üçün çarə axtarır. Ölkəyə səs düşür.

Bir gün bir çoban hökmdara bildirir ki, mən loğmanı vətənə gətirərəm.

-Necə?

Bu sirdir, soruşmayın,-deyib, çoban yola düzəlir. Üç gün keçir. Doğrudan da, bir neçə gündən sonra loğman vətənə qayıdır. Hər yana səs yayılır. Şah bu xəbəri eşidir, qanı qaralır, dərhal loğmanı saraya çağıtdırıb deyir:

-Bu necə olan işdir? Sən çobanı şahdan üstün tutdun? Mənim elçilərimi saymadın, hədiyyələrimə məhəl qoymadın, çobanın sözü ilə qayıtdın?

Loğman hökmdarı təmkinlə dinləyir. Əlini cibinə salır, bir yovşan çıxarıb deyir:

-Mənə bəxşiş, hədiyyə lazım deyil. Bax, məni ana vətənin ətri ilə dolu olan bu yovşan gətirdi. Mən çobanın bu hədiyyəsini iyləyib kədərləndim, göz yaşım onu islatdı. Başım hərləndi. Ürəyim sızladı, bədənim əsdi. Gözümün önündə vətən torpağı canlandı. Ona görə də vətənə gəldim.

## XEYİRSÖYLƏMƏZ

Bir dəfə birisi neçə illik səfərdən qayıdırmış, yolda xeyirsöyləməz çıxır bunun qabağına. Fikirləşir ki, bu zalım hökmən mənə bəd xəbər verəcək, yaxşısı budur mən onu qabaqlayım. Xeyirsöyləməzi ağzını açmağa qoymur, tez soruşur.

-Ay xeyirsöyləməz qardaş, bizim ala köpək nə təhərdir?

Xeyirsöyləməz deyir:

-Ala köpək öldü.

-Ə, niyə?

-Ət yeməkdən.

-Nə əti?

-At əti, mal əti, qoyun əti.

-Haradandır bu qədər ət, ə?

-Sizin heyvanların leşi.

-Ə, nə olmuşdu bizim heyvanlara?

-Hamısı qırıldı.

-Ə, niyə?

-Baxan olmadı.

-Bəs dədəm, anam?

-Eh, haçandı ölüb.

-Bir növ oğlan doluxsunub deyir.

-Ta denən evimiz yıxıldı da.

Xeyirsöyləməz deyir:

-Vallah evinizin yıxılmasını bilmirəm, alaçığınızın dirəyi bazarda satılırdı.

## YAZACAQ YAZSIN

Bir nəfər qız oyun havalarını çox gözəl oynayırdı. Ərə gedəndən sonra ona oynamağı qadağa edirlər. Əri

Qurana əl basdırıb, tövbə elətdirir. İllər keçir, qadının əri ölür, dul qalır. Qocalır.

Bu kənddə yenə toy imiş. Həmin arvad da toya gəlir. Birdən çalğıçılar onun havasını çalırlar. Qadın ehtirasla düşüb oynamağa başlayır. Qıraqdan arvadlardan biri deyir:

-Az, bə toba eləməmişdin? Mələykələr o dünyada günah yazacaq.

Qadın süzə-süzə deyir.

-Yazacaq yazsın, pozacaq pozsun, yazacaq yazsın, pozacaq pozsun!

## BU XINA O XINADAN DEYİL

Bir arvad həmişə sevə-sevə qızının saçlarına xına qoyardı. Aradan illər keçir. Qız böyüyür. Elə vaxt gəlir ki, ana öz qızını gəlin köçürməli olur. Toyun sonuncu günü ana öz əlləri ilə saçlarına xına qoyur. Lakin əvvəllər xına qoyduğu kimi deyib, gülmür. Hətta bu son ayrılıqda gözləri yaşarır.

Qız anasından soruşur:

-Ana, sən həmişə saçlarına xına qoyanda gülürdün. İndi niyə gözlərindən yaş gəlir?

Anası deyir:

-Qızım, bu xına o xınadan deyil.

## AĞILLI ARVAD

Bir zalım padşah, bir də özü kimi vəziri olur. Həmin vilayətdə bir də bir ağıllı, zəkalı alim olur. Hörməti gündən-günə artır. Padşahla vəzir onu aradan götürmək istəyirlər.

Lakin necə? Elə ittiham etməli idilər ki, onu

müdafiə edə bilməsinlər.

Hiyləgər vəzir buna da çarə tapır. Padşahın qulağına nə isə pıçıldayır. Bir gün padşah saray qulluqçularının hamısını yığdı, alimi də yanına çağırdı və dedi:

-Sən alimsən, eşitdiyimə görə, hər şeyi bilirsən. Bu gün tərəziyə qoyub bir qoyun çəkdirmişəm. Onu sənə verəcəyəm. Sən də üç ay o qoyunu saxlayacaqsan, hər gün mənim təyin etdiyim qaydada yemini, suyunu verəcəksən. Üç ay tamam olanda, qoyunu səndən geri alacaq, tərəziyə qoyub çəkəcəyəm. Bir misqal artmış və əsgilmiş olsa, onda deyəcəyəm sən alim deyilsən, yalançısan, başını vurduracağam. Yox əvvəlki çəkisini saxlamış olsa, sənin alimliyini təsdiq edəcəyəm.

Bu sözlə padşah qoyunu verib alimi buraxdı. Alim ağır fikirlərdən bulud kimi tutulmuş halda gəldi. Alimin arvadı çoban qızı idi, atası ömrünü dağlarda, qoyun sürülərinin içində keçirmişdi. Qız da atası kimi səbirli, dözümlü və sədaqətli idi. Ərini fikirli görüb tez yanında oturdu.

-Sənə nə olub belə?-deyərək dərdinə qaldı. Alim əhvalatı danışdı.

-Ay, kişi,-dedi gecənin xeyrindən, gündüzün şəri yaxşıdır. Dur şam elə, bir az bağçada gəz, sonra gəl yat, səhər açılsın görək nə edirik.

Özü isə gecə ikən atasının dalınca adam göndərdi.

-Dədə, başının bir tərəfi qırxılmış, o biri tərəfi qırxılmamış da olsa, qoy gəl, dayanma.

İki gün keçməmiş çoban özünü şəhərə yetirdi. Qızından məsələnin nə yerdə olduğunu öyrəndikdən sonra bir anlıq fikrə getdi.

Sonra başını qaldırıb gülümsədi və dedi:

-Heç fikir eləmə, dağa qayıdıb bir canavar tutub,

göndərərəm sənə, hər gün padşahın qoyduğu qayda ilə qoyunun yemini, suyunu verərsən, ancaq gündə bircə dəfə gətirib canavarı ona göstərərsən. Nə yeyib hamısını tökəcək, arxayın ol.

Alim çobanını dediyi kimi etdi. Üç aydan sonra padşah alimə bir söz deyə bilmədi, vəzirinin isə paxıllıqdan ürəyi partladı. O gündən camaatın nəzərində alimin hörməti birə on artdı.

## SÖZ DEMƏK QAYDASI

Bir padşah yuxu görür. Səhər durur yuxu yozanlara yuxusunu söyləyir. Birinci yuxuyozan deyir ki, qohumlarınızın hamısı qırılacaq, sən tək qalacaqsan. Padşah onun boynunu vurdurur. İkinci, üçüncü yuxuyozanlar da gəlib deyirlər:

-Qohumlarınızın hamısı qırılacaq, tək qalacaqsan.

Padşah onların da boynunu vurdurur. Axırda bir qoca kişi gəlib deyir ki, mən padşahın yuxusunu yozacağam. O, padşahın yanına gedir. Onu dinləyib deyir:

-Möhtərəm qibleyi aləm, siz xoşbəxtsiniz ki, ömrünüz uzun olacaq, qohumlarınızın hamısından çox yaşayacaqsınız.

Bu sözdən sonra padşah qocaya xələt verib, onu hörmətlə yola salır.

## NAMƏRDİN KƏLİ QAÇAR

Bir vilayətdə kasıb bir kişi vardı. Kəndlinin var-yoxu bir kəli var idi. Yerini o kəllə şumlayır, taxılını o kəllə döyərdi. Kəndlinin kəli çox hünərli idi. Həmin vilayətin xanı çox baha qiymətə bir kəl almışdı ki, kəndlinin kəlini

döyüşdə məğlub etsin.

Xan kəli qırx gün tövlədə bəsləyir. Kəndli də öz kəlinə gücü çatan qədər qulluq edir. Qırx gündən sonra meydan hazırlanır. Xan əmr eləyir ki, kəndlinin kəlini gətirsinlər. Kəndli xana yalvarır ki, mənim kəlim sənin kəlinin tayı deyildir. Xan sözə baxmır. Kəlinin qalib gəlməsinə inanır. İnanır ki, kəlinin qalib gəlməsi bütün ölkəyə yayılacaq.

Nəhayət, kəlləri açıb meydana buraxırlar. Xanın kəli kök, ətli-canlı, kəndlininki isə cansız idi.

Kəllər döyüşə başlayırlar. Xan görür ki, onun kəli basılır. kəndlinin kəli ona güc gəlir. Nökərlərə əmr eləyir ki, kəndlinin kəlini bir tərəfdən döysünlər. İki nəfər kəndlinin kəlini döyməyə başlayır. Kəndli dayana bilmir. Arıq kəli üçün ürəyi yanırdı. Hərdən deyirdi:

-Xan, namərdin kəli qaçar.

Lakin xan heç nə eşitmək istəmirdi. Kəndlinin kəli isə döyüldükcə qızırdı. Xanın kəlinin 2-3 dəfə dizini yerə gətirdi. Döyüldükcə kəl xanın kəlini basmağa başlayırdı. Axırda isə xanın kəli meydandan qaçdı. Kəndli dedi:

-Xan, gördünmü? Mən sənə dedim ki, namərdin kəli qaçar.

Xan öz kəlini güllə ilə vurub yerə sərdi.

## GƏLİN VƏ QAYNANA

Bir oğlanın qoca bir anası var idi. Oğlanın arvadının qaynanası ilə arası yox idi. Gəlin həmişə xörək çəkəndə qabın dibinə yastı daş qoyardı ki, qaynanası az xörək yesin. Qaynana isə qışqırıq salmamaq üçün oğluna demirdi. Axırda qaynana baş alıb ərdə olan qızının yanına getdi. Bir müddət qızının yanında qalır. Qızının əri gəlib görür ki, bu arvad buradan evə getmək istəmir. Ət

almışdı. Arvada deyir ki, qızının başı qarışıqdır, götür bu əti döy. Arvad əti döyəndə oğlan xəlvətcə bir az arvadın çadrasının ucuna qoyur. Bir azdan sonra arvadın çadrasının ətəyindən tutub deyir:

-Ağbirçək vaxtında əti niyə oğurlayırsan?

Arvad başa düşür ki, bunların hamısı onu evdən qovmaq üçün bir bəhanədir. Arvad oğlunun evinə tərəf yola düşür və deyir:

-Altı daş, üstü aş olsa da, giyəv kölgəsindən oğul kölgəsi yaxşıdır. Bu sözü oğlu da eşidir və şübhələnir. Arvadı xörək çəkəndə deyir:

-Mən anamla birlikdə yeyəcəyəm. Bu zaman məsələ açılır, oğlan arvadını boşayır.

## XUX

Bir kəndliyə necə olmuşdusa padşahın qəzəbi tutmuşdu. Kəndli qorxurdu. Bilirdi ki, padşah onu bərk cəzalandıracaq. Dərdini bir dəllala söyləyir, çarə istəyir. Dəllal deyir ki, elə eləyərəm ki, padşah səni cəzalandırmaz. Bu şərtlə ki, gərək mənə bir qoyun verəsən.

Kəndli razı olur. Dəllal deyir:

-Padşah səndən nə soruşarsa, deyərsən, "Xux".

Səhərisi padşah kəndlini çağırtdırır. Nə soruşursa, kəndli deyir:

-Xux.

Padşah kəndlini dəli hesab edib, azad edir.

Evlərinin qapısında dəllal deyir:

-Ver mənim qoyunumu.

Kəndli deyir:

-Xux.

Təəccüblənən dəllal deyir:

-Hamıya Xux, mənə də Xux!

## YEYƏN ÖLMƏZ

Padşahın aşpazı bir dəfə yaxşı xörək bişirmişdi. Padşahın qabağına qoyanda deyir:

-Bu xörəkdən yeyən ölməz.

Bu söhbətdən bir müddət keçəndən sonra padşah ağır xəstələnir. Xəstəlik getdikcə şiddətlənir. Aşpazı yanına çağırır. Deyir:

-Bəs, deyirdin ki, sən bişirən xörəkdən yeyən ölməz?

Yeyə bilmirəm, ölürəm, axı!

Aşpaz dedi:

-Yeyə bilmirsən, ona görə də ölürsən. Yesən ölməzsən.

## PAXIL QONŞU

Bir nəfər kasıb kəndli padşahdan hədiyyə istəyir. Bunun üçün qışda evində gülbəsər əkir. Gülbəsər yetişəndə padşaha hədiyyə aparır. Padşah buna yaxşı bir hədiyyə verib yola salır. Bunu kəndlinin paxıl qonşusu bilir. Arvadına deyir ki, gərək mən də padşaha sovqat aparam, böyük bir hədiyyə alam. Paxıl qonşu yazda xiyar və turp əkib padşaha hədiyyə aparır. Təlisin dibinə turp tökür, üstünə xiyar qoyur. Padşah onu qəbul edir. Nə gətirdiyini soruşur. Kəndli xiyarı padşaha göstərir. Həmin vaxt xiyar bol olduğuna görə, padşah elə hesab edir ki, kəndli onu ələ salıb. Əmr edir ki, gətirdiyi bütün şeyləri kəndlinin başına vursunlar. Xiyar başına vurulduqca, kəndli deyir:

-Allah, betərindən saxlasın!

Padşah onu döyənləri dayandırır. Padşah deyir ki, sən nə üçün belə deyirsən?

Kəndli deyir:

-Təlisin dibi turpdur. Onunla məni döysəniz, öləcəyəm. Ona görə deyirəm ki, Allah, sən bundan betərindən saxla.

## HƏR KƏSİN DƏRDİ ÖZÜNƏ BİR DƏVƏDİR

Bir kəndlinin dəvəsi itir. Kişi dəvəsini axtarır. Gəlib bir kəndə çıxır. Kəndin kənarındakı bulağın başında bir qıza rast gəlir. Bikef halda qıza salam verir. Qız salamı alır. Kişinin fikirli olduğunu görən qız səbəbini soruşur.

Kişi deyir:

-Dərdim böyükdür. Dəvəm itib. Bu tərəflərdə dəvə görməmisən ki?

Qız etinasız halda işi ilə məşğul olur və deyir:

-Məni də istədiyimə vermirlər.

Kişi deyir:

-A qızım, nə danışırsan, mənim dərdim dəvə dərdidir, dəvəmi soruşuram, dəvəm itib.

Qız deyir:

-Elə hər kəsin dərdi özünə bir dəvədir.

## TƏRLAN QUŞU

Ala qarğaya deyirlər ki, get tərlan quşu gətir, ala qarğa gedib öz balasını gətirir.

Deyirlər ki, biz sənə tərlan quşu demişdik.

Qarğa deyir:

-Hər kəsin balası özünə tərlan quşudur.

## KİŞİ DEYİLSƏN

İki nəfər dağları gəzməyə çıxır. Çox gəzirlər. Axırda gəlib bir yaylaqda elat obasına çatırlar. Çox ac olduqlarına görə alaçıqlara tərəf gedirlər ki, bəlkə, bir nəfər onları qonaq edə.

Qarşıya çıxan birinci alaçıqdan bir kişi bayıra çıxır. Gələnlərdən biri deyir:

-Ay qardaş, yol adamıyıq. Burada bir kişi olar ki, bizi qonaq eləsin?

Kişi deyir:

-Gedin o qarşıdakı alaçığa. O alaçığın sahibi sizi qonaq edər.

Bu söz qonaqlara çox pis təsir edir. Biri acıqlanıb deyir:

-Deməli, onda sən kişi deyilsən!

## HAZIRCAVAB OVÇU

Qədimdə bir müsəlman ovçusu tazısı ilə ova çıxır. Ov ovlaya-ovlaya dağları gəzir. Gəlib bir erməni kəndinə çıxır. Orada yol kəsə olduğuna görə kəndin içindən keçib evlərinə qayıtmaq istəyir. Bu vaxt tazını görən kənd itləri tökülüb onu bərk boğurlar. Dərisini didik-didik edirlər. İt sahibləri gəlib itləri bir-birindən ayırırlar. Kəndlilərdən biri zarafatla azərbaycanlıya deyir:

-A canım, mollanın axmaqlığıdır ki, bir belə keşişin içinə gəlir. Onu da bu günə salırlar.

Ovçu deyir:

-Molla nə bilirsən ki, keşişlər tutağandır?!

## TƏNBƏKİ

Bir kişi dincəlmək üçün eşşəyini yolun qırağına ötürür ki, otlasın. Özü də qəlyan çəkməyə başlayır. Eşşək gedib tənbəki (tütün) əkilən yerə girir. Kişi buna fikir vermir. Bu vaxt oraya gələn kolxozçulardan biri eşşəyi tənbəkinin içində görüb deyir:

-A kişi, qoyma, eşşəyi tənbəkilikdən çıxar.

Eşşək sahibi deyir:

-Eşşək tənbəki yeməz.

O biri kişi deyir:

-Bəs, eşşək də tənbəki yemirsə, sən niyə tənbəki əkirsən?!

## XƏSİSİN SÖZÜ

Bir varlı kişi olur. O, həddindən artıq xəsis imiş. Dostlar sözü bir yerə qoyurlar ki, gəlin onu tovlaşdıraq. Mərhum oğlunun adına bir saray tikdirsin. Amma görürlər ki, sarayın əsil xərcini ona desələr, heç razı olmayacaq.

Dostlarından biri deyir ki, sarayın az xərclə başa gələcəyini deyək. Birinci mərtəbə tikilib qurtarandan sonra deyərik ki, pul çatmadı. O vaxt məcbur olub pul verəcək. Sarayın mühəndisi kələyə düşür. Hər dəfə pul istəyəndə üzü danlanır. Xəsis varlıdan pul çıxanda elə bil canı çıxır. Bu bina tikilib hazır olandan sonra cavanlar burada yetim uşaqlar üçün konsert düzəldirlər. Dövlətliləri də bura çağırırlar. Həmin xəsis varlı da burada imiş. Qonaqların döşünə nişan taxıb pul yığırlarmış.

Axırda gəlib sarayı tikdirənin qabağına çatırlar.

O, üç manat pul verir.

-A kişi, sən neyləyirsən, bu nədir? Kiçik oğlun beş yüz manat verdi.

Onun cavabı bu oldu:

-Mənim oğlumun atası milyonerdir, o istədiyi qədər verə bilər. Amma mənim atam samançı olub.

## ARVAD YAXŞI OLARSA

Bir padşah rəiyyətinin vəziyyəti ilə tanış olmaq üçün vəzir-vüzərası ilə bərabər şəhərləri, kəndləri gəzirlər. Günlərin birində qəribə bir hadisənin şahidi olur. Görür ki,cavan bir xarrat, mahnı oxuya-oxuya dəmir zindanın üstündə taxta yonur. Baltanı taxtaya nə qədər bərk endirirsə, balta bir dəfə də olsun zindana toxunmur. Şah vəzirdən soruşur:

-Bu necə şeydir vəzir? Nə təhər olur ki, xarratın baltası zindana dəymir?

Vəzir deyir:

-Şah sağ olsun, yəqin, xarrat evdə arvadı ilə mehriban dolanır.

Bu cavab hökmdarı çox düşündürür. O, qaş qaralanda vəzirlə birlikdə təğyir-libas edib xarratın evinə getməyi qərara alır. Şahın xidmətkarları xarratın yerini öyrənirlər. Şahla vəzir cındır kəndli libası geyinib, oraya yola düşürlər. Qapını döyəndə xarrat gülər üzlə onların qabağına çıxır, soruşur:

-Kimi istəyirsiniz, qardaşlar?

Vəzir cavab verir ki:

-Yol adamıyıq, qonaq istəyirsinizmi?

Sənin evində gecələmək olarmı?

Xarrat deyir:

-Allaha da qurban olum, qonaqlarına da. Arvad da onları gülərüzlə qarşılayır.

-Əziz qonaqlara gözüm üstündə yer var,-deyir. A kişi, xoş gəliblər, səfa gətiriblər. Allah verəndən nə varsa, onlara qurbandır.

Şah vəzirə baxır, mənalı-mənalı gülümsəyir. Onun ehtimalının düz çıxdığını görüb dərin fikrə gedir. Onlar mahalları gəzib, paytaxta qayıdandan bir-iki il sonra yenə səyahətə çıxmalı olurlar. Həmin şəhərə gələndə şahın yadına həmin xarrat düşür. Gəlib onun dükanının qabağından keçəndə görür ki, o, bu iki ildə azı iyirmi il qocalıb, beli ikiqat olub, saqqalı ağarıb. İndi qaşqabaqlı olub, yenə taxta yonur.

Şah vəzirinin üzünə baxıb soruşur:

-Buna nə olub, görəsən?

Vəzir cavabında deyir:

-Şah sağ olsun, yəqin indi arvadı onu pis yola verir.

Onlar yenə təğyir-libas olub, axşamüstü xarratın evinə yola düşürlər. Xarrat qonağı içəri çağıranda arvadı onun üzünə çığırır.

-Boyna boz ip ölçüm. Çörəyimi boğazımdan kəsib onlara verməyəcəyəm ki!

Şah yenə də vəzirinin üzünə baxır, acı-acı gülümsəyir.

## MƏN BİLİRƏM

Bir kişi boş bir dağarcığın içinə yumru bir daş salıb yol ilə gedirdi. Başqa bir kəndin qırağından keçəndə kənd itləri onun üstünə cumur. Kişi özünü qorumaq məqsədi ilə dağarcığı hərləyib, qabaqdan gələn itin təpəsindən elə vurur ki, it yıxılır, o biri itlər qayıdır.

Boş dağarcıqdan itin yıxıldığını görən başqa bir kişi deyir:

-O boş dağarcıqda nə hikmət var ki, itin başından dəyən kimi it yerə sərildi.

O cavab verdi:

-Mən bilirəm, it bilir, dağarcıqda nə var.

## TÜLKÜLÜYÜ SÜBUT ELƏMƏK

Bir tülkü kəndin kənarından qaçırmış. Birisi soruşur ki, a tülkü lələ, sənə nə olub, niyə qaçırsan?

Tülkü deyir:

-Padşahın acığı tutub, əmr verib ki, dovşanları yığıb öldürsünlər.

Həmin adam deyir:

-Axı, sən niyə qaçırsan, sən ki, dovşan deyilsən?

Tülkü deyir:

-Düzdür, ancaq mən tülkülüyümü sübut eləyincə dərimi boğazımdan çıxararlar.

## BAYQUŞ İLƏ QIRĞININ SÖHBƏTİ

Bayquşla qırğı söhbət edirdi. Qırğı bayquşdan soruşur ki, siz nəsil neçə il yaşayırsınız?

Bayquş cavab verdi:

-Üç yüz il.

Bayquş soruşdu ki, bəs siz neçə il ömür sürürsünüz?

Qırğı cavab verdi:

-Üç il, beş il.

Bayquş təəccüb elədi. Elə bu zaman qarşıdan bir kəklik üçür. Qırğı kəkliyin dalınca şığıyır. Kəklik özünü qaratikan kolunun üstünə atır. Qırğı da hücumla bura atılanda tikanlar sinəsini dəlik-deşik edir.

Yaralı halda yerə yıxılanda can verməyə başlayır. Bayquş gəlib ölən qırğıya baxıb deyir:

-Bu hirs-hədağa ki, sizdə var, hələ beş il də sizə çoxdur.

## NAXIRÇININ QIZI

Bir naxırçının gözəl bir qızı olur. Padşah bir gün ova çıxır. Naxırçınını qızını görüb ona aşiq olur. Gedib saray adamlarından naxırçının qapısına elçi göndərir. lakin, naxırçı elçiləri qəbul etmir. Onlara mənfi cavab verir.

Padşah vəzir-vəkili, saray adamlarını təkrar-təkrar göndərsə də, naxırçıdan müsbət cavab ala bilmir. Axırda padşahın qoca vəzirlərindən biri xəbər göndərir ki, naxırçınını yanına onunla həmpeşə olan, yoldaşlıq edən bir adam göndərmək lazımdır.

Padşah belə də edir. Naxırçının yoldaşlarından bir qrupunu onun qapısına göndərir. Qızın atası gələnləri ehtiramla qarşılayır, qonaqlıq düzəldir.

Gələnlər qızı padşaha istəyirlər. Deyirlər ki, qızını padşaha niyə vermirsən?

Naxırçı cavab verir:

-Padşah nə zaman sizin kimi beş kişini mənim yanıma göndərdi ki, mən də qızımı vermədim?

## DUZDAN ŞİRİN QARDAŞ

Bir bacının qardaşı uzaq səfərdən gəlmiş imiş. Bacısı qardaşını qucaqlayır və deyir:

-Ay duzdan şirin qardaş!

Qardaş bacıdan inciyir ki, ona niyə belə söz dedi.

Bir azdan sonra bacısı ziyafət verir, lakin heç bir xörəyə duz salmır.

Qardaşı xörəyi yeyəndə görür ki, tamı, duzu yoxdur. Bacısına deyir:

-Xörəyə nə üçün duz salmamısan?

-Mən sənə deyəndə ki, duzdan şirin qardaş, sən

məndən incidin. Onu bil ki, duzsuz heç nəyi yemək olmaz. Duz hər şeydən şirindir.

## PADŞAHIN PALAN QOYMASI

Padşah bir gün vəziri ilə ova çıxmış idi. Bərk boran olur. Çən-duman hər yeri bürüyür. Padşahla vəzir yolu itirib, azırlar. Evə gəlib çıxa bilmirlər. Gedib bir xaraba dama rast gəlirlər. Orada gecələməyi qərara alırlar. Gecə padşah soyuqdan dayana bilmir. Vəzirə deyir ki, axtar gör burada nə var, soyuqdan ölürəm. Vəzir axtarıb damın dibindən bir palan tapır. Padşaha bir palan tapdığını deyir. Padşah deyir:

-Adın demə, bas belimə.

## KEÇİ MƏSƏLƏSİ

Bir çoban bir gün sürünü otararkən bir dərədən bir keçi tapır. Keçini evə gətirir. Bundan sonra çoban o dərədən keçdikcə axtarır ki, yenə keçi tapsın.

## TÜLKÜ, ŞİR VƏ ÇAQQAL

Şir yol ilə gedirdi. Qarşısına bir tülkü çıxdı. Gördü ki, tülkü yeriyə bilmir.

Dedi:

-Sənə nə olub?

-Acından ölürəm.

-Gəl yapış quyruğumdan min dalıma.

Şir tülkünü dalına alıb bir düzənliyə gətirdi. Orada bir at otlayırdı. Şir bir dəfə nərə çəkib tülkünün yanına gəldi.

Dedi:

-Tüklərim necədir?

-Tülkü dedi ki, bayaqdan inək kimi görünən tüklərin indi biz-biz olub. İkinci nərədən sonra soruşdu ki, indi necədir?

Tülkü dedi:

-Ox kimidir.

Üçüncü nərədən sonra şir dedi ki, gözlərim necədir?

Tülkü dedi:

-Od kimi yanır.

Şir bir hücumda atı yerə sərib öldürdü. Tülkü atın ətindən doyunca yeyib yoluna davam etdi.

Səhərisi bir ac çaqqala rast gəldi. Onu yanına salıb ova apardı.

Düzənlikdə bir ata rast gəldilər.

Tülkü o tərəf-bu tərəfə qaçıb vaqqıldadı. Çaqqala dedi: -Tüklərim necədir?

Çaqqal dedi:

-Elə əvvəlki kimi.

Tülkü dedi:

-Denən ox kimidir

Çaqqal elə dedi:

Tülkü ikinci, üçüncü dəfə də vaqqıldayıb gəldi.

Çaqqal dedi:

-Denən gözlərin od kimi yanır.

Çaqqal həmin sözləri təkrar elədi. Tülkü yenə də şir elədiyi kimi o tərəf, bu tərəfə qaçıb vaqqıldaya-vaqqıldaya atın üstünə cumdu.

-At qoşa təpiklə tülkünü yerə sərdi.

Tülkünün öldüyünü görən çaqqal yetirib, tülkünü söküb yeməyə başladı.

Tülkü başını qaldırıb çaqqalın üzünə baxdı. Çaqqal dedi: -Bu dəfə tüklərin ox kimidir, gözlərin də od kimi yanır.

## DAĞLI İLƏ ARANLININ DOSTLUĞU

Bir dağlı ilə aranlı dost olur. Vaxt gəlir, dağlı aranlını qonaq çağırır. Qabağında heyvan kəsir. Lakin çörək qıt olduğuna görə buğda çörəyi olmur. Dostunun qabağına arpa çörəyi qoyur. Bir müddətdən sonra aranlı dağlını qonaq çağırır. Yeyib-içdikdən sonra çayçıya çıxırlar. Onlar hərdən zarafat da edərmişlər.

Aranlı zarafata salıb deyir:

-Ay, camaat mənim bu dostum qonaq çağırmışdı. O qə-dər arpa çörəyi verdi yedim ki, karvansaranın yanından keçəndə "hoqquş" dedilər. Özümdən asılı olmayaraq dayan-dım.

Bu söz dağlıya bərk toxunur.

Deyir:

-Ay camaat, dostum məni xəcil elədi. İndi də məni eşidin. Hamı bilir ki, çörəyə ehtiram vardı. Məlumdur ki, arpa çörəyi yeməklə heç kim eşşək olmaz. Yəqin, bunun zatında eşşəyə dönüklük var.

Camaat dağlının sözünü təsdiq edir.

## QURD YAĞI

Bir kəndə bir gözəl gəlin gətirmişdilər. Dərisi şırmahı kimi elə ağ idi, su içəndə boğazından görünərdi. Gəlin bulağa su gətirməyə gedəndə, kimi ona pəncərədən tamaşa eyləyər, kimi də yolunu qəsdən bulağın üstündən salardı. Sonra əri qısqandı.

Gəlini evdən eşiyə çıxmağa qoymadı. Gəlinə dedilər:

-Sənin paltarına qurd yağı sürtüblər.

Gəlin ərinin gözünə xoş görünməkdən ötürü əlinə gələni dərvişlərə, mollalara, cindarlara payladı. Bir şey

çıxmadı. Sonra xörəyinə, çayına hər şey qatıb yedi. Qonşuların əskisindən kəsib yandırdı. Ərinin paltarlarından mollalara göndərdi. Sonra qohumlarından-əqrabalarından, kişinin qohumlarından şikayətlənməyə başladı. Gəlinə elə gəldi ki, onlar bu evə gələndə özləri ilə qurd yağı gətirirlər.

Hamı qurd olur, o da quzu.

Dualar kömək eləmədi. Gəlin xəstələndi. Get-gedə əriyib çöpə döndü. Hamının tanıdığı tanınmaz oldu.

Pəncərədən yenə baxırdılar. Bulağın üstündən yenə yol salırdılar. Daha onun gözəlliyinə yox, rənginin sarılığına baxmaq üçün.

Sonra heç kim baxmadı. Daha o yoldan gedən-gələn də görünmədi. Qurd yağı axırda qurd olub onu içindən yedi. Ərinə gözəl görünmək istədikcə ərinin gözündən düşdü. Evi dağıldı. Paltarlarının hamısını verdi ona-buna. Qurd yağı sonra onu saldı çöllərə. Ayaqyalın, başıaçıq. Ona yaxın düşüb dindirmək-danışdırmaq istəyəndən də qaçırdı ki, səndə qurd yağı var. Gəlirsən ki, üstümə sürtəsən.

## PADŞAH VƏ BAĞBAN

Padşah vəzir vəkili ilə gəzməyə çıxmışdır. Bir kəndin qırağında padşah köhnə bağbana rast gəlir. Bağbanla görüşdükdən sonra deyir:

-Qoca, deyəsən dağa qar yağıb?

-Dağ nədir, hələ arana da qar yağıb.

-Qoca, ikidəsən, üçdə?

-Üçdəyəm.

-Yaxındasan, uzaqda?

-Yaxında.

Niyə tez tərpənmədin?

-Tərpənmişdim. Ellər apardı.

İki qaz göndərsəm yola bilərsən?

-Çox yaxşı yolaram.

Bu söhbətdən sonra onlar ayrılıb yollarına davam edirlər. Yolda padşah vəzir-vəkilindən soruşur:

-Bağbanla mən nə danışdım?

Vəzir də, vəkil də bilmədilər ki, padşah nə danışıb.

Padşah dedi ki, sabah gəlib nə danışdığımızı deməsə-niz, boynunuzu vurduracağam.

Vəzir-vəkil əlacsız qalır. Hərəsi bir kisə qızıl götürüb qocanın yanına gəlirlər. Qocadan padşahla nə danışdığını soruşdular. Qoca hərəsindən 500 tümən pul alıb söhbət açır:

-Padşah mənə dedi ki, deyəsən dağa qar yağıb.Yəni başın ağarıb. Hələ saqqal da ağarıb..

Sonra dedi ki, ikidəsən, üçdə? Yəni öz ayağınla gəzirsən, çəlik də götürürsən?

Dedim ki, üç ayaqlıyam, yəni çəlikliyəm.

Soruşdu ki, yaxındasan-uzaqda, yəni yaxını görürsən, uzağı?

Dedim:-yaxını.

Padşah soruşdu:

-Niyə tez tərpənmədin? Yəni niyə tez evlənməmişdin ki, övladların səni saxlaya?

Cavab verdim ki, evlənmişdim. Oğlum olmadı, qızımı da ellər apardı.

Axırda padşah dedi ki, iki qaz göndərsəm yolarsan?

Qaz deməklə o, sizi nəzərdə tuturdu ki, mənə pul verdiniz.

Bundan sonra vəzir-vəkil padşahın yanına qayıtdılar.

## SARBAN VƏ DƏVƏ

Bir gün sarbanın dəvəsi qocalır. Əldən-əyaqdan düşür. Gedib uzunqulaq alır ki, işinə yarasın. Sonra işi elə gətirir ki, yoxuşdan keçəndə dəvənin yükü ağır olur.

Sarban dəvəsinin ovsarını bağlayır uzunqulağın quyruğuna, keçib gedirlər.

Bir gün də sarban özü qocalır. Ölüm yatağına düşür. Bütün dostlarından, yoldaşlarından halallıq istəyir. Sonra fikirləşir ki, gedim dəvəmlə də halallaşım.

Sarban ömrünü-gününü dəvəsi ilə keçirmişdi. Yaxşı günün də, yaman günün də dəvə görmüşdü. Yaxşısına da bələd idi, yamanına da.

Dəvəsi onu bağışlayır. Halallıq verir. Amma bir şeyi deyir, bağışlaya bilmirəm, Sarban, bir dəfə sən mənim ovsarımı uzunqulağın quyruğuna bağlayıbsan...

Sarban başa düşdü ki, elədiyi yaxşılıqları bir səhvi ilə qaralayıb. Dəvənin gözündən öpür. Öləndə ayılır. Amma gec idi.

## HAQQ AXTARAN KİŞİ

Bir kişi var idi. Çox halal idi. Hər işini düzgünlükdə görərdi. Həmişə deyərdi: "Sən haqq ilə ol, haqq özü səni tapacaq".

Yaxın adamları deyərdi ki, sən haqq ilə olsan da, düzgün olsan da, nahaq işlər səni yaxalaya bilər. Kişi isə bu sözlərə məhəl qoymazdı.

Bir gün iş belə gətirdi ki, o şəhərdə padşahın xəzinəsini yardılar. Şübhələnən adamlardan ikisini tuturlar. Bunlardan biri də həmin kişi idi. Tutulanların hər ikisinin də boğazına kəndir saldılar. Kişi xırıldamağa başladı. Əsil oğru bu kişinin nahaqdan asıldığını görüb

deyir:

-Onun heç bir təqsiri yoxdu. Xəzinəni mən yarmışam.

O biri kişini azad edirlər. Yerdə qohumları, tanışları deyir:

-Bəs sən deyirdin haqq ilə olanı nahaq tutmaz?

Kişi deyir:

-Haqq həmişə yerini tapar, ancaq haqq yerini tapınca bir az xırıldatmağı olur.

## MOLLA VƏ DƏRZİ

Bir dərzi mollanın yanına gəlir ki, günahlarının bağışlanması üçün məsləhət alsın. Molla deyir ki, etdiyin əməllər üçün tövbə et, and iç. Bəlkə, o dünyaya üzü ağ gedəsən. Dərzi and içir, tövbə edir.

Bundan sonra molla deyir ki, indiyə qədər müştərilərdən qırtıb aldığını gərək mənə verəsən.

Dərzi soruşur:

-Bəs sənə niyə verim?

Molla deyir:

-Mən aparıb o dünyada parçanı yiyələrinə verib, sənə halallıq alacağam.

Dərzi deyir:

Elədirsə, o dünyada halallığı özüm alaram.

## ÖZGƏSİNƏ QUYU QAZAN ÖZÜ DÜŞƏR

Bir ağılsız hökmdar var idi. Sarayda çoxlu alim saxlayırdı. Bunlardan biri hamısından ağıllı və bacarıqlı idi. Buna görə də başqalarının onu görməyə gözü yox idi. Çalışırdılar ki, bir təhər onu aradan götürsünlər. Hörmətdən salsınlar. Belə bir vaxtda hökmdarın anası

öldü. Xainlər bu fürsətdən istifadə etməyə başladı. Hökmdara dedilər:

-İstəyirsən, anan əkir-mənkirin suallarına doğru cavab versin, cəhənnəm əzabı görməsin, onda həmin alimi də ananla birlikdə torpağa basdır. Verilən bütün suallara o cavab versin, ananın canı qurtarsın.

Axmaq hökmdarın tez ağlına batdı. Alimləri bir yerə yığdı. Hamısı o biri alimi təriflədilər, hamıdan bilikli olmasını dedilər. Hökmdar məqsədini o alimə dedi:

Alim daşın haradan atıldığını bilib, şad halda dedi:

-Mən buna çox şadam. Ancaq mənim bunlardan bilikli olduğumu bu alimlər təsdiq edirmi?

Hamısı bir ağızdan dedi:

-Bəli, təsdiq edirik.

Onda alim dedi:

-Belədirsə məni özünə saxla. Səni o dünyanın əzabından qurtarım. İndi bunlardan ikisini ananla birlikdə basdır. Onun canını sorğu-sualdan qurtarsınlar.

Hökmdar bunu eşidib sevindi və belə də etdi. Başqasına quyu qazanların başçıları quyuya düşdü.

## İKİ DOST

Qonşu kənddən bir yetim oğlan gəlib qıraq kənddə qoyuna gedirmiş. Nökərlərin biri ilə dostluq eyləyir. Loxmanı tək yemirlər. Çox mərd oğlan imiş. Elə nökər də ondan geri qalmazmış. İkisinin də adı-sanı dillərə düşür. Kənddə bir qız gəlmə oğlana vurulur. Sən demə, nökər də qızı sevirmiş. Ürəyini aça bilmirmiş. İş elə gətirir ki, qıza görə dostların arasında inciklik düşür. Qızı başqası qaçırmaq istəyir. Qız da gəlmə oğlana xəbər göndərir ki, özümü öldürəcəyəm. Oğlan nökər dostuna deyir ki, qız özünü öldürəcək. Nökər oğlan məhəl

qoymur. Sonra araları soyuyur. Gəlmə oğlan bir gecə qızı götürüb qaçır. Kənddən çıxır. Dostlar olurlar düşmən.

Nökər oğlan daha kənddə qalmaq istəmir. Bir gün qonşu kəndə iş dalınca gedirmiş. Görür ki, arxın üstə bir balaca xurcun düşüb. Gedib götürür. İçində qızıl sırğa, üzük, almaz bir ağ dəsmala bükülmüşdü. Bir o yana baxır, bir də bu yana. Görür heç kəs yoxdur. Haraylayır. Hay verən olmur. Yarı yoldan qayıdıb gəlir. Oğlan daş-qaşı verib yaxşı bir ev tikdirir. Ürəyindən tikan çıxır ki, heç olmasa ev-eşiyi oldu. Namərd dostdan hayıf alaram,-deyir. Bir gün də evdən çıxıb başı aşağı getdiyi yerdə qabağına ağbirçək arvad çıxır.

-Kimi axtarırsan, ay nənə?

-Kimim var, kimi axtaram, ay bala, gəzirəm görüm, məni kim qapısına buraxacaq. Oğlan fikirləşib eləmir.

-Mənim də heç kəsim yoxdur,-deyir. Gəl mənə ana ol. Mən də sənə bala. Dolanaq. Arvad razılaşır. Gəlib ana-bala dolanırlar. Bir gün anası deyir:

-Ay, oğul, bə nə vaxta kimi subay qalacaqsan? Mənim də bir ayağım burda, bir ayağım gorda. Ölüb elərəm, tək qalarsan. Şükür, evin-eşiyin də var.

-Neyləyim, ay ana, özün bir halal süd əmmişini tap.

Ağbirçək gedib bir qız axtarır, tapır. Toy günü oğlan bütün dostlarını çağırır. Həmin qadın deyir:

-A bala, yadından çıxan olmadı ki?

-Yadımdan çıxan yoxdu. Amma mənim bir əsl dostum var idi. Mənə namərdlik elədi. Qalan bircə odur.

-Çağır, bala. sən əsl ol. Qoy, o utansın.

Oğlan arvadın sözündən çıxmır. Toy gecəsində keç-miş iki dost, iki düşmən kimi bir-birinə dalın çevirib otururlar. Oğlan toya çağırdığına peşman olur. Dözmür,

açıb hamısını danışır.

-İnsan çiy süd əmib. həyatda dost yoxdur. hamı namərddi,-deyib oturur.

Gəlmə oğlan deyir ki, insan çiy süd əmsə də, ən yaxşısı insandır. Dünyada dost da var, qardaş da. İnsana inanmaq lazımdır. Mən sənin dostunam. Düşmənin yox. Bizim istədiyimiz qız özünü öldürmək istəyirdi. Sənə dedim. İnanmadın. Axırda qızı da götürüb çıxmalı oldum. Bu mənim namərdliyim yox, dostluğum idi. Qız salamat qaldı.

Hamı bir-birinin üzünə baxır. Oğlan dinmir. Onun ağbirçək anası da əlini qoynuna qoyub gəlmə oğlanını söhbətinə qulaq asır.

-Sən bir gün qonşu kəndə gedəndə arxın üstündən balaca xurcun tapdın. Eləmi? O qızıl sırğaları, üzükləri, daş-qaşları, nənəm qulaqlarından çıxarıb mənə vermişdi ki, hamısı gəlinə çatsın. Ata-babamızdan yadigar idi. Mən gəlinə vermədim. Onların hamısını xurcuna qoydum ki, dostum var, onu kasıblıqdan qurtarmalıyam. Sonra gətirib yolun üstünə tullayıb gizləndim. Bildim ki, özünə versəydim, götürməzdin. Heç mən səni sındırmaq da istəməzdim. Həmin daş-qaşlarla ev tikdirdin.

Gəlmə oğlan mat qalmışdı. Hər şeyi olduğu kimi danışırdı.

-Bir gün də sənin qabağına ağbirçək qadın çıxdı. Dedi ki, kimsəsizəm. Gedəcək yerim yoxdu. Sən də dedin gəl mənim evimə, ana-bala olaq. O arvad mənim anam idi. Ona demişdim ki, təkcə mənə ana olma, mən evləndim. Get indi də dostuma ana ol. Onun heç kəsi yoxdu.

Təzə bəylə bərabər bütün məclis suya dönmüşdü. Elə bil heç kəs nəfəs almırdı. Otaqlar boş idi. Kəlmə oğlan danışmırdı.

-Sonra bu ağbirçək arvad sənə nə dedi?

Dedi ki, gəl səni evləndirim. Sənə bir qız tapdı. Bir könüldən min könülə qıza vuruldun. İndi toyundur. Xoşbəxt ol. Bu qız da mənim bacımdı. Onu da sənə mən vermişdim. Nökər oğlan xəcalətindən yer yarılsaydı girərdi yerə. İki dost, iki düşmən olmuşdu. İndi iki düşmən oldular iki qardaş.

## İKİ QARDAŞ

Qədimdə iki qardaş yaşayırmış. Yetim imişlər. Güzəranları pis keçirmiş. Böyük qardaş çörək qazanmaq, işləmək əvəzinə, kiçik qardaşı öyrədir ki, oğurluq elə. Toyuqların yumurtasını gətir.

Kiçik qardaş əvvəl qorxur, ürək eləmir.. Böyük qardaşı narazı qalır. Üstə düşür. Danlayır.

Sonra qonşunun samanlıqda həmişə yumurtası itir. Qonşu elə bilir it dadanıb. Sonra ev yarılır. Dildə-ağızda oğrunun söhbəti gedir. Bir gün də kənddə at oğurlanır. Bu dəfə tutulur. Divan qurulur. Hamı tələb edir ki, asılsın. Kiçik qardaş böyük qardaşı ilə vidalaşmaq üçün möhlət istəyir. Verirlər. Kiçik qardaş xahiş edir.

-Qardaş-çıxart dilindən öpüm. Camaat mat qalır. Bu necə öpüşdür?

-O dil mənim atam olub nəsihət verib. Ana olub yalvarıb. Qardaşım olub danlayıb. Bacım olub ağlayıb.

Böyük qardaşının ürəyi kövrəlir. Dilini çıxarır. Kiçik qardaş onun dilini dibindən dişləyib atır. Camaat mat qalır. Bu necə vidalaşmaqdır? Kiçik qardaş deyir ki, mən o dilin badına getdim. Məni oğurluğa, əyriliyə o dil öyrətdi.

# DƏLLƏK QASIM VƏ MEHDİ AĞA

Keçmişdə Kür qırağında dəllək Qasım adlı bir usta olub. Mehdi ağa həmişə üzünü ona qırxdırarmış. Bir gün iş elə gətirir ki, ağa, dəllək Qasımın dayısı çoban Qaranı sürünün dalında yatdığı yerdə güllə ilə vurur. Qəbri indiki ağ yol deyilən yerdədir. Kürün o tayında, vurulduğu yerdə.

Çoban Qara çox igid imiş. Bəylərlə arası olmazmış. Özündən qaravəlli düzəldib, bəyləri orada-burada lağa qoyarmış. Kənd də onu çox istəyərmiş.

Sonra çoban Qaranın qohumları ilə Mehdi ağanın qo-humları qanlı bıçaq olurlar. Kənddə hamı gözləyirmiş ki,görsün, Mehdi ağa bu dəfə üzünü kimə qırxdıracaq. O, dəllək Qasımı evinə çağıtdıranda qohumları deyirlər:

-Getmə, ağa səni öldürməyə aparır. Mehdi ağanın qohumları üstə düşür ki, boğazını niyə düşmənin ülgücünə verirsən?

Dəllək Qasım da, Mehdi ağa da heç kəsin sözünə baxmır. Amma hər iki tərəfin adamı yarlı-yasaqlı pusqunda durumuş.Dəllək Qasımın anası oğluna qarğayır ki, sən mənim qardaşımını qanının yerdə qoysan, öz qanına bələnərsən.

Mehdi ağa başa düşür ki, dəllək Qasımı çağıtdırmasa, camaat deyər ki, qorxdu. Kəndin gözündən düşərdi. Kənddə danışırdılar. Deyərdilər ki, Qasım kişinin üzünü sabunlayıb ülgücü çəkir. Boğazına gələndə rəngi qaçır. Ağappaq ağarır. Mehdi ağanın arvadı qışqırır ki, -ay Qasım, əl saxla, evimi yıxma!-Elə bilir daha iş işdən keçdi.

Kənddə camaat hər dəfə dəllək Qasımın ağanının evinə getdiyini eşidəndə gözləyirdi ki, bir qan düşəcək. Dəllək Qasım bir yerdə deyib ki, mən bilirəm Mehdi ağa

mənim düşmənimdir. Dayımın qanı gərək onda qalmasın. Amma mən öz sənətimə xəyanət edə bilmərəm. Mənim əlimdə ülgüc boğaz kəsmək üçün yox, üz qırxmaq üçündür. Bu sözə görə dəllək Qasımın anası naxoşlayır. Yorğan-döşəyə düşür. İllər xəstəsi olur. Sonra arvad çatlayır, ölür. Dəllək Qasım öz qohumları ilə düşmən olur. Ona çatdırırlar ki, bir yolluq canını qurtarmaq üçün Mehdi ağa səni də dayın kimi vurmaq istəyir. Öz qohumların da səni vuracaq.

İki düşmən arasında qalır.

Bir dəfə ağanın üzünü qırxdığa yerdə rəngi ağappaq ağarır. Ülgücü gətirib düz ağanın boğazında saxlayır.

-Ay Qasım, neyləyirsən?-Mehdi ağa özünü itirən kimi olur. Sonra görür ki, dəllək Qasım heç nə eləmək istəmir. Kişini ayaq üstə tər basır. Əlindən ülgüc düşür. Özü də ülgücün dalınca yıxılır. Elə oradaca keçinir.

## QAÇAQ KƏRƏM

Kərəm camaatın əlində-ovcunda olana göz dikməzdi. Əl tutardı. Bunun üstündə Kərəm ağalarla vuruşub, çöllərə düşdü. Öz qardaşları ilə düşmən oldu. Qeyrətli adam idi. Kərəmin igid adını ləkələmək üçün sonra bir dəstə yol kəsən camaatın canına daraşmışdı. Kimin əlində, xurcunundu nəyi olurdusa, soyurdular. Alırdılar əllərindən. Bu xəbər bir gün gedib Kərəmin özünə çatır. Kərəm atını minir, yoldaşlarını yığır başına, çıxır o qulduru axtarmağa. Amma tapa bilmir. Bir gün meşənin ağzında yolun talaya çıxacağında qabaqlarını kəsirlər.-Dayanın,-deyirlər. Hamınız atdan tökülün, nəyiniz varsa, yığın bizim xurcunlarımıza.

Kərəm də, yoldaşları da mat qalırlar ki, bu necə işdir?

Kərəm dözməyib soruşur:

-Siz kimsiniz? Onlardan bir qaşqabaqlısı Kərəmin üstünə acıqlanır ki, artıq-əskik danışma. Nə deyirlər tez əməl elə. Yoxsa hamınızı xəncəldən keçirərəm.

Kərəm bir də soruşdu?

-Siz kimsiniz? Bizim heç kəslə işimiz yoxdu. Yataqlara gedirik. Kürün o tayına. Çobanlara azuqə, pal-paltar aparırıq. Qabaqdakının acığı tutur. Az qalır Kərəmi qamçu ilə vursun.

-Əyə, nə çox ağartdın! Mən qaçaq Kərəməm! İndi eşitdin?!

-Eşitməmisən, köpəkoğlu!

Kərəm barmağını dişləyir.

-Kərəmin adını eşitmişik. O, heç kəsi söyməz, yol kəsməz. Belə də qışqırmaz. Elə bil öz səsinə özün valeh olubsan.

Kərəm Kərəmə rast olur.

Kərəmin yoldaşları istəyirlər əl-qol açsınlar. Kərəm özü keçir qabağa. O belə qələt eləməzdi, -Qaçaq Kərəm mənəm!

O biri yerində donub qalır. Dili topuq çalır. Atdan düşür. Kərəm də düşür.

Biz qarışıq düşməmək üçün, gərək bir-birimizdən fərqlənək. Hamısı Kərəmin qərarını gözləyir. Quldur Kərəm Qaçaq Kərəmi yaxşı tanıyırdı. Bilirdi ki, yaman yerdə axşamlayıb. Camaat onun əlindən zara gəlmişdi. Quldur Kərəm elə bilirdi, Qaçaq Kərəm daha İrana keçib, burada yoxdu.

İstəyir Kərəmi qəfildən vursun. Kərəm aman vermir. Onun qulağınını ikisini də kəsir.

-Qoy indən belə mənə Qaçaq Kərəm, sənə də Kərə Kərəm desinlər,-deyir.

## KİŞİ SAĞ AYAĞINI ATAR

Bir comərd olur. İgid. Gətirib onu şaz qapısına gözətçi qoyurlar. Bir gün bir arvad gəlib qapıdan keçmək istəyir. Yalvarıb-yaxarır. Xahişə, şikayətə, gəlmişəm,deyir. Nəhayət, icazə verir. Arvad addımını atan kimi, qapıçı belindəki xəncəri çıxarıb onu öldürür. Şaha xəbər çatdırırlar ki, sənin yanına şikayətə, xahişə gələn arvad xeylağını gözətçi öldürüb. Tez onun ölümünə fərman verilir. Özünü sındırmır. Öldürün,-deyir. Amma arvadı da soyundurun o, kişidir.

Comərdin dediyi düz çıxır. Kişiymiş. Üstə də tapança gedirmiş şaha öldürməyə. Amma o, arvad deyil, kişidi. Soyundururlar ki, elədir.

Gözətçidən soruşurlar.

-Hardan bildin? Cavab verir ki, tərpənəndə əvvəlcə sağ ayağını atdı. Bildim ki, arvad deyil, kişidir. Arvad xeylağı olsaydı, sol ayağını atardı.

Comərdi buraxırlar.

## ARVADIN İBRƏT ALMASI

Uzaq vilayətdə bir mehriban ailə yaşayırdı. Ər-arvad çox mehriban dolanırdılar. Kişinin adı Həsən, qadının adı Gülcamal idi. Həsən özünü xoşbəxt hiss edirdi.O qədər şövqlü idi ki, daşı, kərpici birinci mərtəbədən üçüncü mərtəbəyə atardı.

Qoca bənna fəhlədəki bu güc, bu həvəsə heyran qalmışdı.

Həsən bir gün evə gələndə görür ki, arvadı üzünə soyuq baxır. Bir-iki gün belə keçir.

Bir gün bənna görür ki, Həsən daşı-kərpici daha əvvəlki kimi ata bilmir.

Səbəbini soruşur:

-Həsən deyir:

-Usta, dərdim ağırdır.

Həsən arvadınının başqa fikirə düşdüyünü hiss edir. Bir gün də evə gələndə yenə arvadını qaşlı-qabaqlı görür. Saxsı aftafasının götürüb əllərini yumaq istəyəndə salıb sındırır.Elə qışqırır ki, Gülcamal yanına gəlir. Kişinin bir aftafadan yana belə -ah-vay etməsini görüb deyir:

-Bir aftafa nədir ki, ondan yana belə edirsən7

Həsən deyir:

-Gülcamal, bir aftafadan yana belə etmirəm. Amma üz-gözüm öyrəşmişdi. Əlimə yatırdı. Təzəsin alam, üz-gözüm öyrəşə. Ona qədər qocalıb əldən gedərəm.

Bu, Gülcamala təsir edir. Gülcamal başa düşür ki, Həsəndən boşanıb başqasına gedib, onun xasiyyətinə uyğunlaşınca ömür gəlib keçər. Səhvini başa düşür və mehriban dolanırlar.

## TAYLI-TAYINI TAPMASI

Padşahın bir oğlu var idi. Oğlunu lap kiçik vaxtından evləndirir. Yaşca ondan çox böyük olan bir qızı zorla oğluna gəlin gətirir. Bəy otağında qız göz yaşı tökə-tökə oğlanı gözləyir. Nəhayət, oğlan gəlir. Qıza heç bir söz demədən yıxılıb yatır. Qız əvvəlcə də elçilərə demişdir ki, oğlanın hələ aşıq oynatmalı vaxtıdır. Buna görə də özü ilə oğlan evinə aşıq da gətirmişdi.

Qız işi belə görəndə gətirdiyi aşıqları oğlanın cibinə doldurur. Oğlan səhər yuxusundan durub geyindi. Cibindəki bəzəkli aşıqları görəndə sevindiyindən atılıb düşdü. Qıza təşəkkürünü bildirdi. Atasının yanına getdi.

Atası soruşdu:

-Gəlin necədir, sənə yaxşı arvad seçmişəmmi?

Oğlan dedi:

-Çox yaxşı adamdır. Mənə bir cib bəzəkli aşıq da verib.

Söz padşaha çox bərk təsir elədi. Səhvini indi duydu. Qız demək istəyirdi ki, uşağın hələ aşıq oynatmalı vaxtıdır.

Padşah dedi:

-Qız çox düzgün hərəkət edib. Mən səhv eləmişəm.

## QURDU KÜT BASAR

Qonşu kənddə iki çoban olur. Onlar bir-biri ilə dost olur. Çobanların birinin iti yaman olur. Canavarlar onun qorxusundan sürüyə yaxın düşə bilmirlər. Ancaq o biri çobanın sürüsündən canavarlar tez-tez heyvan aparıb yeyir. Ona görə də çoban o biri dostuna sifariş göndərir ki, onun yaxşı itləri vardır. Birini mənə versin.

Çoban bir heybə küt yapdırıb o çoban dostuna göndərdi. Çoban kütü alan kimi başa düşdü ki, dostu nə demək istəyir.

Dost demək istəyir ki, qurdu it yox, küt basar. Əgər sən də itlərə yaxşı baxsan, qurda qoyun verməzlər.

## KARLA QULAQLININ SÖHBƏTİ

Bir kişi bir karla yoldaşlıq edirdi. Bir gün o kar kişiyə dedi.

-Gəl dost olaq.

Kar kişi dedi:

-Karla qulaqlının dostluğu tutmaz. Bu işdən keç. O, əl çəkmədi. Onlar dost oldular.

Bir gün sağlam kişi bərk xəstələnmişdi. Dostunun

xəbəri yox idi. Bunu oğlu gəlib kar dostuna xəbər verdi.

Kar kişi öz-özünə dedi:

-Gedəcəyəm dostumun yanına. Deyəcəyəm necəsən? O deyəcək yaxşıyam. Mən də deyəcəyəm - Allaha şükür

Kişi gedir. Aralarında bu cür söhbət olur.

Xəstə dostu təəccüblənir. Onların dostluğu pozulur.

Kar kişi səbəbini öyrəndikdən sonra deyir:

-Mən sənə dedim ki, karla qulaqlının dostluğu tutmaz.

## İKİ DOST

İki dost olur. Onlar çox mehriban imişlər. Dostlardan biri dostuna etdiyi hörməti, verdiyi hədiyyələri cib dəftərinə yazırmış. Bu məsələ bilinir. Bunları istəməyənlərdən biri gedib o biri dostuna xəbər verir.

Dostu inanmır. Axırda bir gün dostuna deyir.

-Camaat arasında deyirlər ki, bizim bir-birimizə verdiyimiz hədiyyələri sən yazırsan. Dostluqda belə şey olarmı?

O biri dostu gülüb deyir:

-Bəli, əziz dost, mən bir-birimizə etdiyimiz hörmətləri, verdiyimiz hədiyyələri ona görə yazırdım ki, dostluğumuz əbədi olsun. Bir şeytan aramızı vuranda baxıb deyim ki, bir belə hörmətin, duz-çörəyin qabağında dostluğu pozmaq, çörəyi tökmək olmaz.

Bu sözlər dostunun da beyninə batır. Ona təşəkkür edir. Onların dostluğu əbədi olaraq davam edir.

## QOYUN VƏ KEÇİ AYAĞI

İki qardaş bir şəhərə gedir. Bazara çıxırlar. Biri görür ki, qəssab ət satır. Ancaq kök ət ucuzdur, arıq ət

baha. Qəssabdan soruşur ki, bu necə işdir? Arıq əti baha, kök əti ucuz satırsan?

Qəssab deyir:

-Görmürsənmi kök ət keçi ayağından, arıq ət qoyun ayağından asılıb.

## TƏCRÜBƏ

Bir müdrikdən soruşurlar:

-Bu ağılı kimdən öyrəndin sən?

-Dəlilərdən.

-Necə?

-Onların etdiyini mən etmədim.

## USTAD VƏ ŞAGİRD ƏHVALATI

Alim, filosof, ustad bir müəllimin şöhrəti dünyanı tut-muşdu. Ona təbiblər-təbibi deyirdilər. Hamının dərdinə çarə tapar, çarəsizlərə ümid verərdi. Onu ilahi bir varlıqlı kimi tanıyırdılar.

O, ömrü boyu neçə-neçə şagirdlərə öz sənətinin sirlərini öyrətmiş, onların simasında özünü görmüşdü.

Bağban bəslədiyi ağaclarla fəxr etdiyi kimi, saçları süməyə dönmüş bu nurani insan da şagirdləri ilə fəxr edirdi.

Təbiblər-təbibi ən yaxşı şagirdlərindən birini öz yerinə hazırlamaq üçün yanında saxlayır.

Təbiblər-təbibi bu gənc şagirdinin istedadına, zəkasına heyran qalmışdı. Artıq şagird xalq arasında da şöhrət qazanmışdı. Onun adı gələndə hamı ehtiramla baş əyərdi. Ustadı bundan fərəhlənər, nurani sifətində təbəssüm görünərdi.

Bir gün böyük bir məclisdə şagirdini qabağına

çağırıb deyir:

-Oğul, bu gündən sənə "Təbib" adı verirəm. Bu adı el içində doğrult!

Ustad və şagird neçə illər bir yerdə işləyirlər. Lakin şöhrət "Təbibin" gözlərini get-gedə qapayırdı. Ustadına yuxarıdan aşağı baxırdı. İstəyirdi ki, ustadından ayrılsın. Şan-şöhrəti daha da artsın. Ustad bunu hiss edir, lakin üzə vurmurdu.

"Təbib" adi bir söz üstə "Təbiblər-təbibindən" incidi. Ondan ayrılıb başqa bir şəhərə getdi. Bir neçə ildən sonra ustad eşitdi ki, şagirdi ağır xəstəliyə tutulub. Cərrahiyyə edilməlidir. Tez həmin şəhərə gedir. Təbibi müalicə edən həkimlərə bildirir ki, onu mən operasiya etməliyəm. Lakin qoyun, hələlik bundan xəbəri olmasın.

Təbibə bihuşdarı veriləndən sonra ustadı əməliyyata başlayır. Operasiya çox müvəffəqiyyətlə keçir. "Təbiblər-təbibi şagirdinin sağalacağına ümidvar olduqdan sonra doğma yerinə qayıdır.

Bir müddətdən sonra Təbib onu operasiya edən adamın kim olduğunu öyrənir.

Sağalan kimi müəllimin yanına gedir. Özünü ustadınının ayaqlarına yıxır. Böyük qonaqlıq düzəldir. Camaatın gözü qarşısında bir daha "Təbiblər-təbibi"nin əllərindən öpür, üzr istəyir.

Bir daha müəllimindən ayrılmır. "Ustadı ustad kimi tanımayan ustad ola bilməz-deyir".

## ACGÖZ KİŞİ

Bir kişi çox acgöz və tamahkar idi. Dünya varından gözü doymurdu. Bir dəfə də çox torpağı olmasına baxmayaraq, o yerin hakimindən torpaq istəyir. Hakim dedi:

-Bir nəfəsə qaçmalısan. Hara qədər qaçsan, sənə bir o qədər torpaq verəcəyəm.

Deyilən yerə kimi qaçmağa başlayır. O qədər qaçır ki, nəfəsi kəsilib yerə yıxılır. O, tez əllərini qabağa uzadır ki, bir az da olsa, torpağa artıq sahib olsun.

## ÜRƏK YEYƏN SƏRKƏRDƏ

Bir zülmkar sərkərdə olur. İşğal etdiyi ölkədə hər gün bir adamın ürəyini camaatın qarşısında yeyir. Ona görə belə edir ki, camaatın gözü qorxsun. Həmin yerdə olan bir oğlan xalqın canını qurtarmaq üçün zəhər içir və sərkərdənin yanına gəlir. Onun bütün nöqsanlarını, rəzil və alçaq adam olduğunu üzünə deyir. Sərkərdə əmr edir ki, oğlanın da ürəyini çıxarsınlar.

Oğlan deyir:

-Unutmayın ki, ürəyimi yeməklə siz də öləcəksiniz.

Sərkərdə bu sözə inanmır və əhəmiyyət vermir. Sərkərdə oğlanın ürəyini parçalayıb yeyən zaman zəhərlənib ölür.

Beləliklə, igid oğlan öz həyatını qurban verməklə xalqı bu zülmkardan xilas edir.

## QARAÇI OĞLAN

Bir qaraçı öz oğlunu aparıb padşaha satır. Padşah soruşur ki, onun əlindən nə gəlir?

Qaraçı deyir:

-İnsanın, atın, kəllənin zatın yaxşı tanıyır. Oğlan bir müddət burada qalır. Bir gün bu şəhərə başqa məmləkətdən satmaq üçün at gətirirlər. Padşahın oğlu atı almaq istəyir. Padşahın yadına düşür ki, qaraçı oğlan atın zatını yaxşı tanıyır. Oğlanı gətirirlər, ata baxır. Ata minib

o tərəf-bu tərəfə sürür. Qayıdıb padşahın oğluna deyir:

-Bu at yaxşı at olsa da, səni xətaya salar. Çünki bu at kiçik vaxtı camış südü əmib. Harada su görürsə oraya qaçır. Səni çaya qərq edər. Çayın ortasında yerə yatır. Padşah inanmır. Axırda ilxıçını gətirib məsələni soruşurlar. İlxıçı deyir:

-Kiçik vaxtı bu atın anası ölüb. Onu camış südü ilə mayalandırmışam. Bir müddət camış südü əmib.

Atı geri qaytardılar.

Bir dəfə də başqa padşah bu padşaha xəbər göndərir ki, sənə bir quru kəllə göndərəcəyəm. Onun ağırlığında qızıl göndərməlisən. Göndərməsən ölkəni dağıdacağam. Padşah əmr edir ki, kəllənin ağırlığında qızıl versinlər. Kəlləni tərəzinin bir gözünə qoyub, o biri gözünə nə qədər qızıl qoydularsa, kəllə olan göz yenə ağır gəldi. Hamı təəccüb etdi.

Padşah əmr elədi qaraçı oğlanı çağırdılar. Qaraçı oğlan gəlib dedi ki, kəlləni deşin. Onda yüngülləşər. Elə də etdilər. Bu dəfə kəllə tam yüngülləşdi.

Padşah bunun səbəbini oğlandan soruşdu. Oğlan cavab verdi: Bu kəllə böyük bir alimin başıdır. Deşdikdən sonra fikirləri göyə uçdu, kəllə yüngülləşdi. Padşah oğlanı saraya aparıb dedi:

-Sən həm də yaxşı adam tanıyansan, de görüm mən necə adamam? Oğlan cavab verdi ki, siz qaraçı oğlusunuz. Padşah dedi ki, bunu haradan bildin?

Oğlan dedi:

-Atam məni sənə verəndə çox mübahisə etdin, ucuz qiymətə aldın. Padşah əmr elətdirib anasını çağırtdırır. Anasından məsələni soruşur. Anası boynuna alır, deyir ki, mənim oğlum olmadığına görə atan məni boşamaq istəyirdi. Həmin gün qonşu qaraçı da yatmışdır. Onun oğlu, mənim qızım oldu. Üstündə pul verib səni

qızımla dəyişdim.

Padşah oğlanın ağlına heyran qalır və taxt-tacı qıza təhvil verir.

## ƏZRAYILI ARZULAYAN

Bir kişi çox qocalmışdı. Köməyi yox idi. Meşədən odun qırıb dalına şəlləmişdi. Çox yorulmuşdu. Dedi:

-Hardasan, ay Əzrayıl, canımı al, o dünyada rahat yaşayım.

Bu zaman Əzrayıl qabaqdan çıxıb dedi:

-Məni neyləyirsən?

Özünü itirən qoca deyir:

-Çağırdım ki, gəlib bu odun şələsin dalıma qaldırasan.

Əzrayıl odun şələsini dalına qaldırır. Qoca yoluna davam edir.

## BİR İŞ GÖRSƏN FİKİRLƏŞ

Bir gün padşah şəhəri gəzərkən yol qırağında oturan bir qocaya rast gəlir. Qocadan soruşur ki, sənətin nədir?

Qoca cavab verir ki, söz satıram.

Padşah deyir:

-Bir sözün qiyməti neçədir?

Qoca cavab verir ki, min tümən.

Padşah deyir ki, çox bahadır.

Kişi deyir ki, hələ mən ucuz satıram.

Padşah min tümən verir. Kişi deyir:

-Bir iş görsən fikirləş, fikirləşməsən peşman olarsan.

Padşah yoluna davam edib gedir. Bu haqda çox

fikirləşir. Həmin sözü qızıl hərflərlə yazıb boynuna taxır.

Bir gün padşah xəstələnir. Deyirlər ki, qan almaq lazımdır. Padşahın yerinə keçmək istəyən vəzir, bir dəllək tapır. Deyir ki, qanı zəhərli ülgüclə al. Padşah ölsün, yerinə mən keçim, səni də vəzir götürüm. Dəllək razılaşır. Padşahın yanına gəlir. Zəhərli ülgücü çıxarıb qan almaq istəyəndə gözü padşahın boynundakı yazıya sataşır. Rəngi saralır və əlləri titrəyir. Tez ülgücü dəyişmək istəyir. Padşah yapışır dəlləyin biləyindən. Deyir ki, ülgücü niyə dəyişirsən? Həmin ülgüclə qan al, yoxsa boynunu vuracağam. Dəllək qorxub bütün əhvalatı padşaha danışır. Padşah vəziri cəzalandırır. Beləliklə, min tümənə alınan söz padşahın canını qurtardı.

## VƏFALI QADIN

Bir vilayətdə bir sərgərdan qadın vardı. Ayaqyalın, başıaçıq kəndin içində dolaşardı. Üst-başı da tökülmüşdü. Deyirdilər, əlli yaşı var. Yetmiş yaşlıya oxşayırdı. Ağ gün adamı ağardır, qara gün qaraldır.

Bir oğlanı sevirmiş. Oğlan da kənddə nökər imiş.

Qız qonşudan qayıdanda bir bəy onu doqqazdan götürüb qaçır, arvadının üstə günü aparır. Nökər xəbər tutan kimi özünü yetirir bəyin evinə. Bir gülləylə qanına bələnir. Nökərin yoldaşları aparıb qəbiristanda basdırırlar.

Bəy qızı döyür, məcbur eləyir, yaşayırlar. Amma deyirlər gəlin arabir nökər oğlanın qəbri üstə xəlvəti gedib-gələrdi. Deyirdilər düz otuz il o qəbrin üstündən qatdama, fəsəli, şirni, pul əskik olmayıb.

Bir gün əri gəlini pusur, qəbrin üstə gəldiyi yerdə tutub bərk döyür. Evdə göz dustağı saxlayır.

Bəyin düşmənləri var imiş. Bir gün meyitini öz qanına bələmiş halda qapıya gətirirlər. Qadın meyitin başı

üstə gəlib dayanır. Hamı gözləyir ki, şivən qoparacaq. Ağlamır. Aşağı əyilib ərinin sinəsindən axan qanı başına sürtür. Ağ saçları qıpqırmızı qızarır. Camaat mat qalır. Sonra arvad yüyürür qəbiristanlığa. Nökər oğlanın qəbri üstə dayanıb ağlayır.

-O, mənim qara saçlarıma ağ həna sürtmüşdü. Cavanlığımı qocaltmışdı. İndi mən ağ saçlarımı həna ilə boyayıb sənin yanına gəlmişəm, qalx!-deyir.

## İNSAF QALMADI

İki nəfər uzaq bir yerdə işləməyə gedir. Gedərkən birinin ailəsi hamilə imiş.

Onlar bir müddət işlədikdən sonra bədəncə zəif və yoxsul olan yoldaş kiçik bir küpdə qızıl tapır. Sevincək gedib yoldaşına xəbər verir. Onlar doğma yerlərinə tərəf yola düşürlər. Yolda qızılı bölərkən o biri yoldaş qızılın hamısını götürür. Yoxsul yoldaşını da öldürmək istəyir. Yoldaşı çox yalvarır, yoxsul kişi əlacsız qalıb deyir ki, qızılın hamısını sən götür, məni öldürmə. Ailəm, uşaqlarım başsız qalar. O deyir ki, öldürəcəyəm. Əlacsız qalan yoxsul kişi deyir:

-Nainsaf, öldürürsən, öldür. Ancaq yoldaşıma deyərsən ki, oğlu olsa, adını "İnsafqalmadı" qoysun.

Yoxsul kişini yoldaşı öldürür. Gəlib onun vəsiyyətini arvadına çatdırır. Deyir ki, ərin hələ işləməyə qaldı. Vaxt dolanır. Nainsaf kişi qocalır. Arvadın oğlu olur. Adın İnsafqalmadı qoyur. Oğlan böyüyür. Necə olursa atasını öldürən kişi ilə bir gün yoldaş olur. Yoxsul kişini öldürdüyü yerdə qoca kişi gülümsəyir. Oğlan nə üçün gülümsədiyini soruşur. O, demək istəmir. Oğlan deyir ki, deməsən öldürəcəyəm. Kişi əlacsız qalır bütün əhvalatı danışır.

Oğlan bunun atasının qatili olduğunu bilir və kişini öldürür. Deyir ki, haqq həmişə öz yerini tapar.

## MEHRİBAN AİLƏ

Cah-cəlallı bir padşah olur. Onun şəhərində bir ailə olur. Çox varlanır, hörmət qazanır. Yaman deyənlər həmin ailə haqqında padşaha pis xəbərlər verirlər. Padşah həmin evin ağsaqqalına sifariş göndərir ki, var-dövlətindən birini saxla, qalanlarını alacağam. Ağsaqqal evə gəlir. Bütün ailəni başına yığır. Əhvalatı danışır. Hərə bir tədbir tökür. Biri deyir ki, dəvələri saxlayaq, biri deyir ki, inəkləri saxlayaq, xülasə, hərə bir fikir söyləyir.

Axırda ağsaqqal kiçik gəlinin fikrini soruşur. Gəlin deyir:

-Hökmdara denən ki, bizim mehribanlığımızı, bir-birimizə olan hörmətimizi əlimizdən almasın. Var-dövlət hamısı düzələn şeydir.

Ağsaqqal gedib əhvalatı hökmdara danışır. Hökmdar başa düşür ki, bu var-dövlət ancaq mehribanlıqla, hörmətlə əldə edilir. Ona görə də onlara toxunmur.

## DÜNYANIN ÇƏRXİNİN DOLANMASI

Bir padşah qızını başqa bir padşahın oğluna gəlin aparırdılar. Hamı şad, gülərüz idi.

Gəcavə yolla gedərkən bu cah-cəlalı görən bir nurani kişi gecavənin qabağına keçir. Deyir, saxlayın, mənim bu cəh-cəlallı gəlinə bir sualım var. Sarban gəcavəni saxlayır. Qoca deyir:

-Qızım, bu xoşbəxtlik ki, indi səni tapıb, şahlıq

taxtından yenə şah taxtına ayaq qoyursan. Yenə dərdin varmı?

Qız deyir:

-Dərdim çoxdur, baba. Gücüm çatsaydı gərdişin çarxın ağır çəkiclə yerə elə mıxlayardım ki, çarx bir də fırlanmazdı. Necəydisə elə qalardı.

Qoca gəlinə xoşbəxt günlər arzulayır. Ancaq qızın sözləri qocanı fikirə salır. Ürəyində qızın sözlərindəki hikməti təsdiq edir və həmin sözləri cib dəftərinə yazır.

İllər keçir... Vaxt dolanır. Həmin kişi bir gün küçədə dilənən vaxtsız qocalmış qadına rast gəlir. Qadın nə isə ona tanış görüünür. Onu sorğu-suala tutur.

Kişi deyir:

-Qızım, yadındamı, filan vaxtı sən gəlin köçürdün. Sənin qabağını qoca kişi kəsib sənə sual verdi.

Gəlin kişini tanıyıb dedi:

-Yadındamı, dedim ki, ixtiyarım ola, fələyin çarxını qoymaram hərlənə.

Bilirəm ki, fələyin çarxı gah qalxır, gah yenir. Atamın və qaynatamın düşmənləri hücum edib adamlarımızı, ərimi, atamı qırdı. Torpaqlarımızı zəbt elədilər.

İndi mən də küçələrdə dilənçi olmuşam. Fələyin çarxı fırlanır, onu bir nöqtədə saxlamaqda insan acizdir.

## GÜNAHSIZ UŞAQ

Bir padşah qorxulu dərd ilə naxoş olmuşdu. Həkimlər ərz edirdilər ki, bu xəstəliyə çarə yoxdur. Olsa da, cavan bir uşağın ciyəri sağaldar. Padşah əmrinə görə padşah buyuran nişanələrə uyğun bir uşaq tapdılar. Uşağın ata-anasını güclü pul ilə razı saldılar. Qazi də onu öldürməyə fitva verdi. Guya ki, padşahın səlamətliyindən

ötrü bir uşağın qanının tökülməsi caizdir. Elə ki cəllad uşağı öldürməyə qəsd elədi, uşaq göyə baxıb güldü. Padşah təəccüb edib, gülməyin səbəbini ondan soruşdu.

Uşaq cavab verdi:

-Ey padşah, övladın nazın çəkmək valideyn üçün fərzidir. İnsanları müdafiə etmək qazinin işidir və ədalət padşahın borcudur. Amma mənim atam və anam dünya nemətinə mənim qanımı satdılar. Qazi özü mənim ölməyimi lazım saydı və padşah öz səhhətini mənim ölməyimdə gördü. İndi Allahdan başqa, pənahım yoxdu. Ona görə göyə baxıb güldüm.

Padşah uşağın bu sözlərini eşidib ağladı. Sonra uşağın başın, gözlərini öpüb azad elədi. Deyirlər ki, padşah həmin həftə sağaldı.

## MƏNALI YAŞAMAQ

Bir qərib şəxs uzaq bir vilayətə gedir. Şəhərə girərkən yolu qəbiristanlıqdan düşür. Görür ki, qəbir daşlarının üstündə nə qədər yaşamaları haqda müxtəlif rəqəmlər yazılıb. Filankəs 5 gün, o biri 10 gün, digəri bir ay yaşayıb və sair. Qərib adam təəccüb edir. Fikirləşir ki, yəqin, bunları xəstəlik belə cavan yaşlarında qırıb. Lakin şəhərə girəndə görür ki, 60-70 yaşlarında qocalar da var. Bir şey baş açmır. Səbəbini bir qoca kişidən soruşur. Kişi deyir ki, o qəbir daşlarına yazılan həmin adamların keçirdiyi mənalı günlərdi. Yaxşı, xeyirxah əməllərlə keçirdiyi günlərin sayını göstərir.

Qərib kişi həmin ağsaqqala deyir ki, ölüm başımızın üstündədi. İnsan övladı ölümlə daim yol yoldaşıdı. Əgər mən burada ölsəm, qəbir daşıma yazdırarsınız ki, heç bir gün də yaşamayıb.

# AĞILLI TACİR

Bir vilayətdə bir ağıllı tacir yaşayırmış. Dövlətinin də həddi-hesabı yox imiş. O hər gün işini qurtarıb evə gedəndə deyərmiş. "Bu gün də baha alıb ucuz satdım".

Bu xəbər hökmdara çatır. Hökmdar o tacirin xatirini çox istəyirmiş. Fikirləşir ki, tacir müflisləşib. Ona kömək eləmək lazımdır. Adamlarına tapşırır ki, hamı alveri o tacirdən eləsin. Bir manat qiyməti olan mala beş manat versinlər.

Onlar belə də edirlər. Lakin görürlər ki, tacir əvvəl dediyi sözləri axşamlar yenə təkrar edir.

Vəziyyəti hökmdara çatdırırlar. Hökmdar taciri saraya çağıtdırırı. Tacir özü ilə bir böyük kisə də qızıl gətirir.

Hökmdar vəziyyəti soruşur. Tacir deyir:

-Böyük hökmdar sağ olsun ki, vəziyyəti nəzərə alıb, mənə kömək etmək istədiniz. Adamlarınız yalnız mənimlə alver etdilər. Baha qiymətə mal aldılar. İndi bu böyük kisədə gətirdiyim sənin adamlarından aldığım qızıldır. Mən o sözü ona görə deyirdim ki, mənim ömrümdən keçən hər gün mənə ömür əvəzi baha verilib. Lakin hər günü "elə-belə" keçirdiyimə görə "baha alıb, ucuz satdım", deyirdim.

Padşah məsələni anlayıb, tacirin ağlına heyran qalır.

# MALYEMƏZ XƏSİS

Bir vilayətdə bir malyeməz xəsis olur. İşi-peşəsi mal yığmaq idi. Elə bil özünün də boğazı tutulmuşdu. Kişinin qızıllarından xəbər tutan lotular onu güdməyə başladılar. Nəhayət, imkan tapıb, qızılları oğurladılar.

Lakin xəsis bir çarə edə bilmir. Bir gün həmin lotular kişinin dükanının qabağına gəlib onunla alver edirlər. Sonra isə yeməkxanada kişini qonaq edirlər. Xəsis kişi möhkəm ac idi. Lotular ona dörd cür xörək, hər cür naz-nemət gətirdilər. Xörəklərin ətirindən məst olan kişi yeməyə girişmək istədi. Lakin nə qədər çalışdısa, boğazından tikə də keçmədi. Adəti idi. O öz malını yeyə bilməzdi. Amma başqaları qonaq çağıranda lum-lum udardı. Bəs indi nə olub? Fikir onu götürmüşdü. Boğazından tikə keçmirdi ki, keçmirdi. Birdən nə fikirləşdisə, ayağa qalxıb lotubaşının ətəyindən yapışdı. Dedi:

-Bu yeməklər mənm qızıllarımın hesabına alınmışdır. Ona görə də boğazımdan tikə keçmir. Qızıllarımı siz götürmüsünüz. Qızıllarımı verin.

## SİRR SAXLAMAMAĞIN NƏTİCƏSİ

Bir padşah mülazimlərindən birinə deyir ki, sənə bir sirr deyəcəyəm. Heç kimə demə:

-Qardaşımdan şübhələnirəm, qorxuram məni öldürər. Ondan bir şey başa düşsən, fürsət verməyib onu öldürərsən.

Mülazim gedib bu sirri o biri qardaşa deyir. Qardaşı bu mülazimdən razı qalır. Vaxt gəlir padşah qocalıb ölür. Yerinə bu biri qardaş keçir. Əmr edir ki, o mülazimin başını kəssinlər. Mülazim deyir:

-Mənim günahım nədir ki, belə fərman verirsən?

Padşah deyir:

-Sənin günahın odur ki, qardaşımın hesabına yaşaya-yaşaya onun sirrini saxlamadın. Mənim sənə nə etibarım ola bilər?

## BİR MƏZLUMUN DADINA YETMƏK YÜZ MİN HƏCCDƏN ƏFZƏLDİR

Bir padşah bir abidin yanına gedir. Deyir:

-Ey Şeyx, mən həccə getmək istəyirəm, lakin camaat razı olmur ki, vilayət bisahib qalmasın. Eşitmişəm ki, sən iyirmi dəfə həccə getmisən. Nə olar, bir həccin savabını mənə sat. Mənə itaət hasil olsun, sənə dövlət! Abid deyir:

-Doğrudur, mən iyirmi dəfə həccə getmişəm. Hər dəfə də payı-piyadə ziyarət edə-edə, getmişəm. Mən bu həcclərin savabını sənə verirəm. Padşah dedi ki, mən bütün xəzinəmi verərəm.

Abid dedi:

-Ey padşah, bir məzlumun ədalətlə dadına yetməyin savabını mənə ver, mən cəmi həcclərimin savabını sənə verim. Bir məzlumun dadına yetmək yüz min həccdən əfzəldir.

## QARDAŞ DƏRDİ BULUNMAZDI

Rəvayətə görə, bir padşah hücum edib başqa bir padşahın torpağını tutur. Ailəsini, uşaqlarını əsir edir. Padşahın bacısı da əsir düşür. Qalib padşah məğlub padşahın bacısına deyir:

-Ərini, qardaşını və oğlunu asdıracağam. Ancaq sənin arzunla onlardan birini azad edəcəyəm. Səhərə qədər fikirləşib cavabının deyərsən. Qadını səhər padşahın yanına çağırırlar. Nə fikirləşdiyini soruşurlar. Qadın qardaşının azad edilməsini xahiş edir. Padşah təəccüblənir. Nə üçün ərini, ya da oğlunu deyil, qardaşının sağ qalmasını soruşur.

Qadın deyir:

-Ər eldəndi, oğul beldəndi, amma qardaş dərdi bulunmazdı.

## QADIN SƏDAQƏTİ

Qədim zamanlarda bir padşah hücum edib başqa bir vilayəti tutur. Qoşun şəhərə girməmişdən əvvəl belə bir elan verdirir. Mənim qadınlarla işim yoxdur. Qoşun şəhərə girməmişdən qadınlar şəhərdən çıxmalıdır. Qadınlar şəhərdən çıxanda yalnız bir qiymətli şeylərini apara bilərlər.

Padşahın əmri oxunan zaman qadınlar yavaş-yavaş şəhərdən çıxmağa başladılar. Padşah uca bir təpənin başına çıxıb bu mənzərəni seyr edirdi. Görür ki, qadın dəstələrinin axırında bir qoca arvad yavaş-yavaş gedir dalında da bir səbət. Padşah hiss edir ki, qadının arxasındakı səbətdə ağır bir yük var. Şübhələnir, adam göndərir, həmin arvadı tutub yanına gətirirlər. Baxırlar ki, səbətdəki qoca bir kişidir. Padşah deyir:

-Ay, arvad, axı mən demişdim ki, hər qadın bir qiymətli şeyini götürüb çıxsın, sən nə üçün qoca kişini aparırsan?

Qarı deyir:

-Sən demişdin ki, hər qadın onun üçün qiymətli sayılanlardan bir şey aparsın. Mənim üçün də qiymətli bu kişidir. Onu aparıram.

Padşah dərin fikirə gedir. Əmr edir ki, kişilərə də dəyməsinlər.

## KİŞİNİN MƏSLƏHƏTİ

Ahıllıq dövrünü yaşyan bir kişi vardı. Yaşının bu çağında da gözəllik qarşısında əriyər, bu mövzuda söz-söhbətdən doyymazdı. Bir gün yol ilə getdiyi vaxt küçədə

qabağına gözəl, -göyçək, ürəklərə od salan bir qız çıxır. Kişi hal əhli idi. Qızı başdan ayağa süzür. Hiss edir ki, qızın ala gözlərində qəm buludları oynaşır. Qıza yaxınlaşıb deyir:

-Sənə ki Allahtala bu gözəlliyi, bu boy-buxunu verib: niyə gözlərində qəm buludları oynaşır? Qız yaşlı kişiyə tərs-tərs baxıb deyir:

-Sənə nə var? Dərdliyəm, dərdsizəm, özüm bilərəm. Yolu düz yeriyə bilmirsən, tanımadığın adama söz atırsan?

Kişi geri durmaq istəmir. Qızdan əl çəkmir ki, dərdini de, bəlkə, köməyim dəydi.

Doluxsunmuş halda qız deyir:

-Məndən səviyyəcə aşağı olanlar, tay-tuşlarım ərə gedib, ev-eşik yiyəst olublar. Yaşım keçib, bu yaşa qədər üzümə baxan olmayıb! Nə kömək eləyəcəksən, de görək?! Çarə tapa bilməyən kişi deyir:

-Qızım adın nədir?

Qız deyir:

-Həqiqət.

Kişi:

-Qızım get adını dəyişdir, bu zəmanədə həqiqətin üzünə tüpürən yoxdu. Hələ qala insan ola.

## BALA DAĞI

Bir dəvə saxlayan, dəvələrlə çörək pulu qazanan kişi olur. Başqa bir nəfər gəlib kişidən dəvə almaq istəyir. Bəyən-diyi dişi dəvənin ovsarından yapışıb, dəvə sahibinə deyir:

-Bu dəvəni bəyəndim, qiymətini de. Alacağam. Amma nöqsanı nədir? Düzünü de.

Dəvə sahibi deyir:

-Elə bir nöqsan yoxdu. Amma ürəyində xal var.
Dəvənin müştərisi təəccüblənir. Necə yanı xal var? Sən bunu necə bilirsən? İnanmıram. Dəvə alan kişi dedi:
-Dəvəni kəsəcəyik. Ürəyində xal olmasa, başqa bir dəvəni aparacağam. Bunun da əti mənim olacaq. Əgər dəvənin ürəyində xal olsa, bunun ətinin pulu, bir də başqa bir dəvənin pulunu mən sənə verəcəyəm.

Dəvəni kəsirlər. Dəvənin ürəyindəki xalı sahibkar müştərisinə göstərir. Dəvə yiyəsinin sözünün düz çıxmasına təəccüblənən müştəri deyir:

-Sən nədən bildin ki, bunun ürəyində xal var?

Sahibkar deyir:

-O dəvə birinci dəfə doğanda bir yaşında cavan balası öldü. Ürəyindəki o dağ cavan ölən balanın xalı idi.

## GÖZÜNƏ ÇÖP BATAN KİŞİ

Qədim zamanlarda bir neçə biçinçi çöldə qalır, taxıl zəmisini tez biçib başa vurmağa çalışırdılar. Biçinçilər mömün adamlar idi. Hər gün üç dəfə namaz qılar, Allahtalaya dua edərdilər. Yenə günorta namazını qılmaq üçün dəstəmaz alıb, namaza durdular. Namaz qılanlardan biri yaşlı, səbirsiz, həm də baməzə adam idi. Biçin yerində isti günün altında namaz qılan bu kişi tələsik namaza başlayır. Səcdəyə gedərkən diqqətsizlik etdiyinə görə gözünə çöp batır. Kişi tələsik çöpü çəkib çıxarır, əl qaldırır haqq dərgahına deyir:

-Kəräminə qurban olum, ay Allahtala, qılma deyirsən qılmayım da, bəs mənim gözümü niyə çıxardırsan?

## İNANMIRAM TÜLKÜ ÇIXA

3-4 nəfər birlikdə ova getmişdilər. Çöldə təsadüfən bir tülküyə rast gəldilər. Tülkünün qovmağa başladılar. Tülkü qaçıb yuvasına girdi. Nə qədər əlləşdilər, tülkünü yuvadan çıxarda bilmədilər. Əlacsız qalıb yuvanın bir neçə yerdən ağzını hördülər ki, tülkü çıxıb qaça bilməsin. Bir nəfəri də orada gö-zətçi qoydular, qalanları kəndə getdilər ki, qazma, bel, kərmə, küləş gətirib yuvaya tüstü versinlər, bu qayda ilə tülkü çıxsın, onu tutsunlar. Tülkü yuvasının yanında qalan kişi gözləməkdən yorulur, səbirsizlik edir. Yuvanın ağzındakı hörgünü sökür ki, görsün tülkü neyləyir. Elə bu vaxt tülkü açılan deşikdən çıxıb qaçır, canını qurtarır. Kişi yoldaşlarının qorxusundan yuvanını ağzını əvvəlki kimi hörür. Yoldaşları gəlib çıxır. Başlayırlar yuvanı qazmağa. Nə qədər çalışırlar, tülküdən bir nişanə görünmür. İşin nə yerdə olduğunu bilən gözətçi kişi isə hərdən deyirmiş:

-İnanmıram burdan tülkü çıxa. İnanmıram burdan tülkü çıxa.

## TÜLKÜNÜNKÜ BİR ALLAHA QALIB

Bir kişi ova gedirdi. Qabağına bir dəstə adam çıxdı, onlardan biri salam-kəlamdan sonra dedi:

-Qardaş ov qanlı! Nə ovuna gedirsən?

-Bu aralarda bir tülkü var, çox ziyankarlıq edir, gedirəm onun axırına çıxam. Görək bir iş görə biləcəyikmi?

Yolçu dedi:

-Yaxşı tüfəngin var. Onunla tülkünü vurarsan. Bəs iti, külüngü, beli, şişi, kərməni, küləşi neyləyirsən?

Ovçu dedi:

-İti salacağam tülkünün üstünə, qovalayıb qatacaq yuvaya. Külüng və bel ilə yuvanı qazacağam. Kərmə və küləş ilə od yandırıb yuvaya tüstü verəcəyəm. Bayıra çıxanda diri tutam, ya da tüfənglə vuram.

Yolçu dedi:

-Sənki belə hazırlıqlı gedirsən, tülkününki bir qalıb Allaha.

## BƏY QUŞ

Bir hökmdar başının adamları ilə ova gedirdi. Gördülər ki, çəmənlikdə gözəl, yaraşıqlı bir ceyran otlayır. Ceyranı hər tərəfdən dövrəyə aldılar. Adı Süleyman olan bu padşah əmr edir ki, ceyranı diri tutmalıdırlar. Kimin yanından, başının üstündən qaçsa, o adam cavabdehdir. Ceyranı da o tutmalıdır. Ceyrana tərəf yaxınlaşırlar. Ceyran düz Süleyman padşahın başının üstündən tullanıb qaçır. Süleyman padşah təkbaşına ceyranın dalına düşür. Nə qədər qovursa, çata bilmir. Axırda ceyran qaçıb bir mağaraya girir. Süleyman padşah da dalınca. Mağaranın ağzında Süleyman padşahın qabağına gözəl bir qız çıxır deyir:

-Nə istəyirsən, məramın nədir?

-Mənim ceyranım qaçıb bura girib, onu istəyirəm.

Amma qızın gözəlliyi Süleyman padşaha necə təsir edirsə şappıltı ilə yerə sərilir, huşu başından çıxır. Ayılanda başının üstündə qoca bir qarı görür. Qarı deyir:

-Oğul, nə istəyirsən, muradın nədir?

-Mənim ceyranım qaçıb, bu mağaraya girib. Üstəlik də burda bir qız məni sinəmdən oxladı. Ona vuruldum. Dünya malından səni qəni edərəm, o qızı mənə ver.

Qarı deyir:

-Bilirəm barmağındakı üzük dünyanın ən qiymətli, sehrli üzüklərindən biridir. Üzüyü nişan əvəzi ver, vaxt tamam olanda gəlib qızı aparersan.

Süleyman padşah məcbur qalıb padşahlığına bərabər olan üzüyü nişan əvəzi verir.

Qarı dedi:

-Eşitmişəm ki, sən quşların dilin bilirsən. Bir şərtim də budur ki, bütün quşları çağırtdırasan, onların cəsədlərindən bir gözəl qalaça tikdirəsən. Onda arzunuz yerinə yetər.

Gözü o gözəl qızdan başqa, heç nə görməyən padşah o saat razılaşdı. Geri qayıdıb əmr elədi ki, bütün quşlar bura yığışsın. Belə də oldu. Təkcə bayquşdan başqa, bütün quşlar yığışıb gəlirlər. Bayquş isə xəbər göndərdi ki, mən gəlmərəm. Bu şərtlə gələrəm ki, üç sualıma cavab versin.

Süleyman padşah razılaşdı. Bayquşun sualları belə idi.

-Dünyada ölü çoxdur, ya diri?

-Diri çoxdur.

Abadan çoxdur, ya xaraba?

Padşah fikirləşib dedi:

-Yəqin abadan çox olar. Gör nə qədər şəhərlər, kəndlər var.

Üçüncü sual belə idi:

-Dünyada arvad çoxdur, ya kişi?

Yenə padşah fikirləşib cavab verdi.

-Kişi arvaddan çox olar. Padşahların qoşunlarının hamısı kişidir.

Bayquş cavab verdi ki, sualların üçünə də səhv cavab verdin. Birincisi, ölü diridən çoxdur. Ölənlər ölüb, ölməyənlər də öləcək. İkincisi xaraba abadandan çoxdur.

Xaraba qalan qalıb, qalmayanlar da qalacaq. Üçüncüsü arvad kişidən çoxdur, arvad sözünə baxan kişi də elə arvaddır.

Süleyman padşah elə bil yuxudaydı, ayıldı. Bir qızdan ötəri quşların nəslinin kəsilməsinin nə olduğunu indi bildi. Atını həmin mağaranın qabağına sürdü. Qarını səslədi. Qarı çıxdı, nə istədiyin soruşdu. Süleyman padşah dedi:

-Ana, sevdamız baş tutmadı, üzüyümü ver gedim. Bir qızdan yana bütün quşların nəsilini kəsə bilmərəm.

-Qarı padşahı içəri apardı. Böyük bir sandığı açıb dedi: -Üzüyün oradadır, götür. Padşah bir-birinə bənzəyən hansı üzüyü götürdüsə, üstündə "Süleyman" yazıldığını gördü. Bu işə mat qaldı.

Qarı dedi:

-Oğul, təəccüblənmə. Bu dünyaya sənin kimi yüzlərlə Süleymanlar gəlib-gedib. Sən nə əvvəlincisən, nə də sonuncu. Mən dünyayam. Gah ceyran şəklinə düşürəm, gah cavan qız, gah da qarı şəklinə düşürəm. Bayquşun sözlərindən nəticə çıxaran Süleyman peyğəmbər o quşun adın "Bəy quş" qoydu.

## ƏN VARLI ADAM

Bir vilayətdə bir əzazil hökmdar olur. Boy-buxunda alçaqboy, arıq, cılız olsa da, hökmü yeri-göyü titrədirdi. Zülmkarlıq edirdi. Xəzinəni vergiləri artırmaq, çapıb talamaq hesabına doldurmuşdu. Bununla çox qürrələnirdi ki, atamdan mənə miras qalan var-dövləti yüz qat artırmışam. Ağlına nə gəldisə onu edərdi. Bir gün nə fikirləşdisə, vəziri yanına çağırdı və dedi:

-Məndən varlı kimdisə onu tapmalısan. Qırx gün möhlət verirəm. Tapa bilməsən, boynunu vurduracağam.

Vəzir bilirdi ki, heç bir vilayətdə bundan varlı

hökmdar, ya adi şəxs ola bilməz. Ona görə də axtarışa çıxıb, əziyyət çəkməyi mənasız saydı. Gedib evində oturub istirahət etməyə başladı. Arvadına dedi:

-Onsuz da, iki aşıq, bir saqqa boyu olan bu zalım mənim boynumu vurduracaq. Mən ondan dövlətli adam tapa bilməyəcəyəm. Beləliklə, yaxşı yeməklərdən yedi, istirahət elədi. Qırxıncı günü yaşadığı kənddən yola düşüb zülmkar padşahın şəhərdə yerləşən qızıl sütunlu sarayına doğru çar-naçar irəliləməyə başladı. Çöllü-biyabanda bir sürü qoyun otaran çobana rast gəldi. Çoban boy-buxunlu, iri gövdəli, pəhləvan cüssəli bir şəxs idi.

Çobanın yanına çatanda salamlaşdılar. Çoban yolçunun çox bikef olduğunu hiss elədi. Ona görə də soruşdu.

-Yolçu qardaş, niyə qəm dəryasına batmısan? Nə dərdin var? De, bəlkə, köməyim dəydi.

Vəzir fikirləşdi ki, bunun mənə nə köməyi dəyəcək? Heç... deyib, yoluna davam etmək istədi. Çoban əl çəkmədi ki, dərdini deməsən buraxan deyiləm.

Vəzir vəziyyəti olduğu kimi çobana danışdı.

Çoban dedi:

-Mən ondan varlıyam. Apar onun yanına. Varlı olmağımı sübut edim. Vəzir könülsüz razı oldu. Çoban sürünü yoldaşına tapşırıb, vəzirlə birlikdə saraya doğru yola düşdü. Gəlib saraya çatdılar. Hökmdar onları qəbul elədi.

Çoban hökmdara dedi ki, mən səndən varlıyam.

Padşah gülüb dedi:

-Bir sürü heyvanın qiyməti nədi ki, sən məndən varlı olasan?

Çoban cavab verdi:

-Bu dünyanı heç kim tutub qalmayacaq. Bir gün gələn axırı bir gün gedəcək. Gedəndə də topladığı var-

dövlətdən heç nə apara bilməyəcək. Apardığı yaxşı və pis əməlləri olacaq. Məzarının yerləşdiyi torpaq sahəsi, bir də 2-3 metr kəfənlik onun olacaq. Baxanda mənim məzarım səninkindən 3-4 dəfə böyük olacaq, kəfənim də o qaydada. Deməli, mən səndən varlıyam. Padşah dərin fikrə getdi. Çobanın sözlərində həqiqət olduğunu dərk elədi. Çobana ənam verib, yola saldı və bundan sonra ölkəni ədalətlə idarə etməyə, əlsiz-ayaqsıza, yetim-yesirə əl tutmağa başladı. Çobanın sözləri ona böyük dərs olmuşdu.

## DƏRİN HİKMƏT

Qürbət eldə yaşayan bir nəfər eşidir ki, doğma vətənində yaşayan dostu onun görüşünə gəlmək istəyir. Ona görə də yanına gələcək dostuna sifariş göndərir: Bu qürbət diyara, mənim yanıma gələndə mənə özünlə doğma yurdun gül-çiçəyinin şəhdini, sərin suların lətafətini, dərələrin yarpızını, dağların kəklikotu ətrini, torpağımızın hərarətini, elimizin yenilməz gücünü, anamın əllərinin nişanəsini gətirin.

Dostu sifarişi eşidən kimi üz tutur çəmənliklərə. Güldən-çiçəkdən dəstə bağlayır. Dərələrdən yarpız, dağların döşündən kəklikotu yığır. Amma suların lətafətini, ana əllərinin nişanəsini apara bilməyəcəyini xatırlayanda onu fikir götürür. Dostunun arzusunu yerinə yetirə bilməyəcəyini düşünüb, çox məyus olur. Belə yerdə ulu məsləhəti köməyə çatır. Oğlan dərdini dünyagörmüş, müdrik bir ağsaqqala danışır. Ondan məsləhət istəyir.

Qoca gülə-gülə deyir:

-Oğul, sənin dostun çox ağıllı adamdır. O, sənə yaxşıca bir bağlama göndərib. Sən o bağlamanı aça bil

məmisən. Ona öz torpağımızdan yetişmiş buğda unundan çörək bişirtdir. Xəmir üçün suyu dağın ətəyindəki qayadan axan bulaqdan götür. Dostunun dedikləri, bu vətən çörəyində öz əksini tapacaq. Onu dostuna ərməğan aparanrsan.

## NƏFSƏ QALİB GƏLMƏK

Bir vilayətdə dünyanın ən məşhur pəhləvanlarından biri yaşayırdı. Dövrün adamları onu həm də gözəl insan, mərdlik, səxavət və ürfan nümunəsi bilirdilər. O, bir gün digər bir ölkəyə gedir ki, oranın ən güclü pəhlivanı ilə güləşsin. Bu, həm də vilayətin hökmdarının arzusu idi. Pəhləvan həmin yad ölkəyə çatır. Şəhəri gəzməyə çıxır. Təsadüfən qara çadralı qoca bir qarıya rast gəlir. Qarı camaata halva paylayırdı. Bu pəhləvana da halva verdi. Dedi ki, sən də mənim oğlum üçün dua elə. Pəhləvan dua edəcəyini bildirir və soruşur ki, oğluna nə bəla üz verib? Qarı deyir:

-Mənim oğlum bu vilayətin birinci dərəcəli pəhləvanıdır. Sabah başqa ölkədən gələn güclü, məşhur bir pəhləvanla güləşməlidir. Bizim böyük ailəmizin bütün dolanışığı oğlumun pəhləvanlığına bağlıdır. Əgər o yıxılsa, abrımız getməklə yanaşı, həyatımız məhv olacaq. Mən qoca qadın da aradan gedəcəyəm.

Gəlmə pəhləvan qarıya dedi:

-Ana, arxayın ol, mən dua edəcəyəm ki, sənin oğlun qalib gəlsin.

Yol gedə-gedə bu pəhləvan fikirləşirdi ki, necə hərəkət etsin? Gəlmə pəhləvan bildirdi ki, sabah qalib gəlsə, onu böyük uğurlar, şan-şöhrət, var-dövlət gözləyir. Məğlub olsa şöhrət pillələrindən yuvarlanıb aşağılara düşəcək. Nə etsin, necə qərar versin?

Ona halva verən qarının ümidsizliklə döyünən gözləri onun yadından çıxmırdı. Şöhrət yoluna gedən nəfsinə qalib gələ bilərmi?

Yarış günü gəlmə pəhləvan müşahidə etdi ki, rəqibi ondan zəifdi. Asanlıqla qələbə çalıb, şöhrət çələnginin yeni pilləsinə yüksələ bilər. Lakin bu, onu etmədi. Bir az güləşdikdən sonra özü yıxıldı. Bununla rəqibinin ondan güclü olduğunu göstərmək istədi. Rəqibi isə onun sinəsinin üstünə sıxdı.

Gəlmə pəhləvan bu hərəkəti ilə nəfsinə qalib gəldi. Elə qəhrəmanlıq göstərdi ki, bütün qəhrəmanlıqlardan üstün idi. Bu hərəkəti hər adam edə bilməzdi. Yalnız öz nəfsinə qalib gəlməyi bacaran şəxslər edə bilərdi.

## TORPAQDAN PAY OLMAZ

Hunlar yaşayan ölkəyə düşmən hücum etmək istəyir. Düşmən elçi göndərir ki, Hun hökmdarı var-dövlətinin yarısın verməlidir. Əks halda, ölkəsinə hücum edəcəyik.

Hun hökmdarı qoşun başçılarını, əyan-əşrəfi yığıb müşavirə aparır. Məsləhət istəyir. Qoşun başçıları müharibə aparmağı üstün tuturlar. Döyüşə hazırlanmağı lazım bilirlər. Lakin hökmdar qan tökülməsin deyə, müharibə olmasın istəmir. Sərkərdələrin narazılığına baxmayaraq, padşah düşmənin tələbini yerinə yetirir. Bir müddət sakitlik olur. Dişi şirəyə batan düşmən hökmdarı ikinci dəfə sərhəddə qoşun çəkir. Bu dəfə də Hun hökmdarının atını istəyir. Bu dəfə də məşvərət çağırır. Sərkərdələr mütləq döyüşə başlamağı məsləhət bilir. Atı heç vəchlə düşmənə verməməyi üstün tuturlar. Deyirlər:

-Hökmdarın atını heç vaxt düşmənə vermək olmaz. At namusdur.

Lakin hökmdar da qan tökülməsin deyə, bu dəfə də güzəştə getməyi məsləhət bilir.

Deyir:

-Bir at nədir ki, ondan ötəri qan tökək, qurbanlar verək.

Məsələ padşahın nəzərdə tutduğu kimi həll edilir.

Azğınlaşmış düşmən üçüncü dəfə hökmdarın oğlun istəyir. Yenə padşah qan tökülməsin deyə, güzəştə gedir. Yüzlərlə şəhid verilməsin deyə, oğlunu girov verir.

Gözün qan tutmuş, yeri-göyü görməyən düşmən bir müddət sonra yenidən elçi göndərir. Elçilər bu dəfə onların sərhəddinə yaxın olan təpəlik, daşlıq, qayalıq tikanlar, qanqallar bitirən bir kiçik torpaq sahəsin istəyir.

Yenə məşvərət çağrılır. Sərkərdələr hökmdarın üstünə qalxır, qəti etirazların bildirirlər. Padşah son söz demək üçün ayağa qalxır. Deyir:

-Sizinlə razıyam. Qan tökməməkdən ötəri mən var-dövlətimin yarısını, atımı düşmənə verdim. Hətta bunun üçün oğlumun da girov verilməsinə razı oldum. Ancaq indi dədə-babalarımızdan bizə miras qalan, gələcək nəsillərə əmanət kimi saxlanan torpaqlarımızdan pay istəyirlər. Hər bir qiymətli şeydən keçmək olar, təkcə torpaqdan pay olmaz. Torpaq həm də bizim namus-qeyrət payımızdır. Silahlanıb bizi zəif bilən düşmənə son sözümüzü deməliyik. Bir qarış torpağı da düşmənə verə bilmərik.

Hunların bu qərarını eşidən düşmən qorxub geri çəkilir, bir daha bu torpaqlara yaxın düşməkdən çəkinir.

## MÜƏLLİM UCALIĞI

Teymurləngin nəvəsi Şahruxun üçüncü oğlu Baysunqur Mirzənin müəllimi Mövlana Xəlil əsəbiləşib onu vurur, alnı qanayır. Mövlana Xəlil qaçıb Xəttat Mövlana Fəxrəddin Cəfərin evində gizlənir.

Özünə gələn Baysunqur qanını yuyur, yoldaşlarına bunu heç kimə bildirməməyi tapşırır. Müəlliminin dalınca adam göndərir. Müəllimini tapırlar. Lakin qapını açmır. Baysundur özü gəlib qapını açır. Müəllimi onun ayaqlarına düşür. Lakin Baysundur onu yerdən qaldırır. Özü müəllimin ayaqlarına düşür. Onun üzündən öpür, üzr istəyir və qiymətli hədiyyələr verir.

Sonralar həmin Baysunqur Mirzə görkəmli alim, şair və xəttat olmuşdur. Şöhrət zirvəsinə çatanda da onun həyatında böyük rolu olmuş müəllimi Mövlana Xəlili həmişə yad etmiş, heç vaxt yaddan çıxarmamışdı.

## SONA FƏDAKARLIĞI

Quşlar, heyvanlar arasında elələri var ki, onların məhəbbət aləmi bəzən insanlar arasında olan məhəbbət dünyasından yüksəkdə dayanır. Çöllər yaraşığı, təbiət bəzəyi olan sonalar da belə bir ömür yaşayır. Bu haqda bir ovçu belə nəql edirdi:

-Bir dəfə göldə üzən ördəyə atəş açarkən, qəfil atılan atəş göldə üzən sonalardan birinə dəydi, özüm də peşman oldum. Sağ qalan sona öz quş dilindəki fəryadı ilə şivən qoparırdı. Üstümə hücum edirdi. Qabağımda dayanıb, üzümə baxırdı. Sanki baxışlarıyla mənə deyirdi:

-Məni də vur, canım qurtarsın.

Çox peşman olmuşdum. Vurduğum ovu da götür-

məyib, geri qayıtdım. Əhvalatı sonralar yaşlı ovçulardan birinə danışdım.

O da mənə dedi ki, sona cütlərindən biri vurularsa, ölərsə, sağ qalan sona ya özünü həlak edir, ya da ömrünün axırına qədər tək yaşayır. Ona yaxınlaşan əks cinsdən olan sonanı didib, parçalamaq istəyir.

Yaşlı ovçunun bu söhbəti heç vaxt yadımdan çıxmırdı. Bu maraq təxminən iki ay sonra məni yenə çəkib həmin gölün yanına apardı. Göldə yenə sonalar cüt-cüt üzür, bir-birinə mehr-ülfətlərini öz quş dilləri ilə bildirirdilər. Tayın vurduğum bədbəxt sona isə qəmli-qəmli tək üzür, qorxudan ona başqa bir sona da yaxınlaşmaq istəmirdi. Deməк sonalar ömürdə bir dəfə sevir, bir dəfə ömrünü əks cinsə bağlayır və ömrünün sonuna qədər də ona sadiq qalır.

Bəli, məhəbbət cəfakeşləri olan sonalar insanlara ibrət olacaq belə bir ömür yaşayırlar-sona fədakarlığı.

## MİRZƏ ƏLİXAN LƏLİ

Görkəmli Azərbaycan şairi Mirzə Əlixan Ləli ədəbiyyatımızda əsasən satirik şair kimi tanınmış, dərin zəka və istedad sahibi olmuşdur. Həm də onun yumorlu, duzlu-məzəli söhbətləri dillər əzbəri kimi indi də xalq arasında yaşayır. Görkəmli söz ustası şairliklə yanaşı, həkimlik sənətinə də dərindən bələd imiş. Elə buna görə də Mürzəfərəddin şah onu özünə həkim təyin eləmişdir. Son vaxtlar qocalığına görə saraya gəlib-getməsi çətinləşmişdi. Ona görə də şahdan bir at istəyir ki, saraya gediş-gəlişi asanlaşsın. Şah xidmətçilərə bu barədə göstəriş verir.

Tikanlı sözlərinə görə Mirzə Əlixan Ləli ilə arası olmayan, bu sahəyə baxan xidmətçi şairə qoca, beli yara

bir yabı verir.

Bir gün yenə Mirzə Əlixan Ləli şahın yanında olanda ondan bir eşşək istəyir. Şah soruşur:

Eşşəyi neyləyirsən?

O belə cavab verir:

-Öldürüb dərisini mənə verilən yabının belindəki yaralara yamayacağam.

## NADİR ŞAH VƏ KƏNDLİ

Səfəvilər sülaləsinin hökmdarlığına son qoyan Nadir şah qaçaqçılıq, quldurluq yolundan şahlığa qədər yüksələn bir yol keçmişdir. Onun adı gələndə xidmətçilər, rəiyyət zağ-zağ əsərmiş.

Bir gün hardansa gələn Nadir şah çöldə bir kəndli ilə rastlaşır. Kəndlidən onu tanıyıb-tanımadığını soruşur. Diribaş, dildən iti olan kəndli onun Nadir şah olduğunu deyir. Nadir şah kəndlidən soruşur:

-De görüm Rüstəm Zal güclü idi, ya mən?

Kəndli deyir:

-Rüstəm zal padşahlara tabe idi, sən isə heç kimə tabe deyilsən.

Şah yenə soruşur:

-Şah Abbas əzəmətli idi, ya mən?

-O şahlığı irsi olaraq ələ almış, sülalələrinin yolunu davam etdirmişdi. Sən isə hakimiyyəti qılınc gücünə ələ almısan!

-De görüm Allah böyükdür, ya mən?

Kəndli sərt cavab verir:

-O, göydə bildiyin eləyir, sən isə yerdə. Məni belə işlərə qarışdırma.

# QOCANIN PADŞAHA İBRƏT VERMƏSİ

Keçmiş zamanlarda bir əzazil padşah varmış. Onun ölkəsində bir neçə millət yaşayırmış. Padşah başqa millətləri incidir, başlarına oyun açırmış. Buna görə də azlıq təşkil eləyən millətlər yavaş-yavaş ölkəni tərk edirdilər.

Bir gün padşahla vəziri dağların belinə dolanan yolla gedirmişlər. Onların qarşısına ağsaçlı, nurani bir qoca çıxır. Zalım və özündən razı şah qocanı saxlayıb soruşur:

-Qoca, sən bu vilayətin şahının işindən razısanmı?

Qoca heç bir söz deməyib, onlardan aralanır. Dağın çəmənzar döşündəki çiçəklərdən iki dəstə yığır, bağlayıb şahın yanına qayıdır. Əlindəki iki çiçək dəstəsini şaha göstərib soruşur:

-Şah sağ olsun! Bu çiçək dəstəsinin hansı qəşəngdir?

Şah qızıl üzüklü barmağı ilə müxtəlif çiçəklərdən olan dəstəni göstərib:

-Bax, bu dəstə,-deyir. Yaxşı və qəşəngdir. O birindən ətirlidir, qoca.

-Millətlər də belədir, oğul,-deyə qoca sözə başlayır.

Millətlər də çiçək kimidir.

Ölkədə millətlər müxtəlif olanda o daha gözəl görünür.

Qocanın millətləri çiçəklərlə müqayisə etməsi şaha bir ibrət olur.

Padşah o vaxtdan ölkədə yaşayan bütün millətlərə eyni gözlə baxır. Həmin millətlər bir-biri ilə daha mehriban davranır, mehriban dolanır, mehriban yaşayıb ömür sürürlər.

İki düşmən olur. Onların düşmənçiliyinə qohum-əqrəba, tayfa-toluq da qoşulur. Düşmənçilik getdikcə dərinləşir. Tale elə gətirir ki, düşmən tərəflərdən birinin ailə üzvləri və özü təbii fəlakət nəticəsində məhv olur. Ailədən təkcə azyaşlı bir oğul sağ qalır.

Quş uçurulması nəticəsində düşmən tərəfdən olan ailənin başçısı padşah seçilir. Bu padşah eşidəndə ki, düşmənin özü və ailə üzvləri həlak olublar, təkcə azyaşlı bir oğlan uşağı sağ qalıb, onun saraya gətirilməsini əmr edir. Sarayda düşmənin oğlunun naz-nemət içində bəslənməsini təmin etdirir. Uşağa hər cür qayğı göstərilir. Adi suyu da ona xidmətçilər içirir. Ürəyi istəyən yeməkləri yedirirlər. Bir sözlə, uşağın əlin ağdan qaraya vurmasına imkan vermirlər. Uşaq bu şəraitdə böyüməyə başlayır.

Padşahın qohumları, yaxınları padşaha irad tutur, onu məzəmmət edirlər. Axırda padşahın qardaşı qəbuluna gedir. Təklikdə ona deyir:

-Səni başa düşə bilmirik. Bizim qatı düşmənimizin övladını nə üçün öldürtdürmür, yağ içində böyrək kimi bəslədirsən?

Padşah qardaşına deyir:

-Bunu mən bilərəm, xahiş edirəm, mənim işimə qarışmayın.

Qardaşı narazı halda sarayı tərk edir.

Padşah bu qayda ilə düşmənin oğlunu on səkkiz yaşına qədər naz-nemət içində böyütdürür. On səkkiz yaşı tamam olanda xidmətçilərə deyir ki, daha bəsdi. Onu saraydan azad edin, aparıb məscidin qabağına ötürün. Bundan sonra necə dolanacaq, özü bilər.

Bir müddətdən sonra padşaha xəbər gətirirlər ki, oğlan məscidin qabağında dilənir.

Padşah gülərək deyir:

-Mən bilirdim ki, elə ərköyün, naz-nemət içində böyüyən uşağın axırı belə də olacaq. Heç bir iş görməməyin, ərköyünlüyün aqibəti belə olar. Ən böyük qisas elə belə olar.

## AĞILLI QUL

Türk Sultanlarından birinin Ayaz adlı qulu vardı. Çox ağıllı, dərakəli, sözünün, hərəkətinin yerin bilən, böyüklə böyük, kiçiklə kiçik kimi davranan qul idi. Bu hərəkətlərinə, eləcə də iti zəkasına görə Sultanın bu cavan quldan xoşu gəlir, ona xüsusi rəğbət bəsləyirdi. Sultan Ayazın vəzifəsini get-gedə böyüdürdü. Ayaz da öz ağılı, sədaqəti ilə ona tapşırılan işlərdə Sultanın ona inamını, etimadını doğrultmağa çalışırdı. Ayazın belə inam, belə hörmət qazanması, Sultanın gözündə uca olması başqa qullarda, xidmətçilərdə paxıllıq, nifrət hissi doğururdu. Amma türk Sultanının qorxusundan biruzə vermirdilər.

Bir gün türk Sultanının yaşlı xəzinədarı vəfat edir. Sarayda uzun müddət xidmət edən mənsəb sahiblərinin çoxu bu mühüm vəzifəyə kimin qoyulacağı, xəzinənin kimə etibar ediləcəyi ilə maraqlanır. Bir çoxu özlərinin bu vəzifəyə etibar ediləcəyinə inanır, bu işə özlərini layiqli namizəd hesab edirdilər. Nəhayət, türk Sultanı qərarını verdi. Sevimli qulu Ayazı xəzinədar elədi. Sultanın bu qərarı sarayda bomba kimi partladı. Qulu istəməyənlərin sayı bir az da çoxaldı. Ayazın əleyhdarları yeri düşdükcə Sultanın qulağını doldurur, Sultanın sevimli qulunu gözdən sağmağa çalışırdılar. Xüsusilə Sultana yaxın olan əyanlardan bir nəfərinin gözü Ayazı heç götürmürdü. Onun hər hərəkətini xəlvəti izləyir, bir nöqsan tapmağa çalışırdı. Türk Sultanının yataq otağından xəzinəyə açılan

xəlvəti deşikdən imkan düşdükcə Ayazı müşahidə edirdi. Nəhayət, qəribə hərəkətlərindən şübhələnir və Sultana Ayazın ona xəyanət etdiyini deyir. Əyana inanan türk Sultanı da Ayazın hərəkətlərini müşahidə edir. Boş vaxtı başlayanda görür ki, onun sevimli qulu olan Ayaz xəzinənin qapısını açıb içəri girdi. Qapının dalını vurdu. Qiymətli daş-qaş saxlanan sandığı açdı. Oradan bir dəst əvvəllər geyindiyi cır-cındır paltarını götürdü. Dua edə-edə əynindəki qiymətli paltarla gəlib güzgünün qabağında durdu. Sonra onu soyunub köhnə, cındır paltarını geyinib, güzgüyə baxdı. Sonra əlini göyə qaldırıb, uca səslə dedi:

-Kəramınə min şükür, İlahi! Sultanın əli ilə məni bu mərtəbəyə sən çıxardın. Bu cındırın içində əvvəllər mən kim idim, bu zər-zibanın içində indi kiməm? İlahi, mənə elə ağıl, dərrakə ver ki, keçmişimi unutmayım, qudurub yolumdan çıxmayım, Sultana sədaqətimi daha da artırım!

Sonra soyundu. Cındır libasını qiymətli daş-qaş olan sandığa qoyub bağladı.

Bu hərəkəti, bu sözləri Sultan gözü ilə gördü, qulağı ilə eşitdi. Zəndində yanılmadığına görə üzünə xoş bir təbəssüm qondu. Bir azdan sevimli xəzinədarını yanına çağırdı və dedi:

-Bu günə qədər əgər xəzinəmi sənə etibar etmişdimsə, bu gündən sonra qəlbimi də sənə etibar edirəm. Qəlbimin də sultanı sən oldun.

## MÜƏLLİM UCALIĞI

İstanbul türklərin iradəsi, əzmkarlığı, cəsurluğu nəticəsində fəth edilmişdi. Xalq İstanbulun fəth edilməsi ilə əlaqədar bayram şənlikləri keçirirdi. Gözəl bir yaz səhəri idi. Qələbə çalmış türk ordusu İstanbul şəhərinə daxil olurdu. Şah Sultan Məhəmməd və yanında qoca müəl

limləri gəlirdi. Adamlar onları sevinclə qarşılayırdılar. Onların başına gül-çiçək dəstələri səpirdilər. Şəhər əhalisi qoşunun qabağında gedən atlılardan birini şah hesab edib, ona gül atırdı. O isə qabaqda gedən gənc şahı göstərib deyir:

-Çiçəkləri onun başına səpin.

Şah isə müəllimini göstərib deyir:

-Çiçəkləri onun başına atın. O, mənim müəllimimdir. Bu qələbə üçün mən öz müəllimimə borcluyam.

## NÖQTƏNİN QÜDRƏTİ

Əlişir Nəvai öz qəzəllərinin üzünü zəmanəsinin ən savadlı xəttatına köçürtdürürdü. Necə oldusa bir gün həmin xəttat xəstələndi. Bundan xəbər tutan və özünü məşhur xəttat hesab edən bir nəfər Əlişirin yanına gəlib:

-Mövlanə, razı olsaydınız, qəzəllərinizin üzünü mən köçürərdim,-dedi:

Şair xəttatın dediklərinə razı olub üzünü köçürmək üçün qəzəllərini ona verdi.

Bir gün bir böyük şair məclisində Əlişirin qulağına:

-Məlikül-şüəranın özü səhv edirsə, başqalarından nə gözləmək olar?-sözləri gəldi.

Söhbətin nədən getdiyini o saat anlayan şair təzəcə üzünü köçürtdürdüyü qəzəlini alıb baxanda, nə görsə yaxşıdır? Əli sınmış xəttat "göz" sözündəki nöqtəni qoymadığından "kor" kimi oxunub. Şeirin də mənası dəyişilib, tərsinə olub.

Əlişir Nəvai məclis əhlinə baxıb:

-Gözümü kor edənlər kor olsun, dedi və xəttatı qovdu.

## TEYMURLƏNG VƏ ƏBDÜLQADİR MARAĞAYI

Təbrizə hakimlik edən Miranşahın arvadı Xanzadə xanın Teymurləngə Miranşahın xəzinəni dağıtmasından, kef məclisləri qurmasından şikayətlənir. Teymur onları cəzalandırmaq üçün dəstə göndərir. Musiqiçiləri dar ağacından asırlar. Görkəmli müsiqişünasımız Əbdülqadir Marağayı qaçıb, dar ağacından canını qurtara bilir. Burada ələ keçməmək üçün Bağdada gedir. Aradan bir müddət keçir. Teymur Bağdadı tutmaq üçün ikinci dəfə qoşun çəkir. Burada yenidən Əbdülqadir Marağayı ilə rastlaşır və onu tanıyır. Cəzalandırmaq istədikdə Əbdülqadir Marağayı avazla Quran oxuyur. Bu, Teymurləngə təsir edir, onu bağışlayır. Miranşahın da yerinə oğlunu qoyur.

## CƏLALƏDDİN RUMİ DƏRGAHI

Ya olduğun kimi görün, ya göründüyün kimi ol, deyən böyük şəxsiyyət, görkəmli filosof Cəlaləddin Rumi dərgahına hər adamı şagirdliyə götürməzdilər. Onun biliyi, savadı, əxlaqı, tərbiyəsi, dözümlülüyü, iradəsi, nəfsinə qalib gəlmək bacarığı yoxlanardı. Bu tələblərə cavab verməyəni dahi filosof öz məktəbinə qəbul etməyi yasaq etmişdir. Rumi dərgahında çalışanlar da bu qaydaya əməl edərdilər. Cəlaləddin Rumi dərgahına üz tutan gənclərə üç gün sudan başqa, heç bir ərzaq, çörək vermirdilər. Onlar müəyyən ibadətləri yerinə yetirirdilər. Üç gündən sonra onun cəmiyyətə qəbul edilməsi barədə qərar verilərdi. Həmin gənc ayaqqabılarına baxardı. Ayaqqabılarının istiqaməti dəyişibsə, deməli, qəbul edilməyib. Dəyişməyibsə qəbul edilib. Belə adamları nəfsə qul olmayanlar hesab edirdilər.

## MÜƏLLİMƏ HÖRMƏT

Böyük fateh Teymur ağır döyüşlərdən, şanlı qələbədən sonra məclis keçirirdi. Belə məclislərə dəvət edilən saray adamlarından heç kimin cürəti olmazdı ki, yubansın. Lakin bugünkü məclisə böyük fatehin hörmətli vəziri yubanmışdı. Məclis əhli vəzirin ağır cəza alacağını yəqin etmişdi. Əsəbdən sifəti qaralmış Teymurun qorxunc sifətinə baxmağa kimsə cürət etmirdi. Belə bir zamanda vəzir içəri girdi. Teymur nə üçün yubandığının səbəbini soruşdu.

Vəzir cavab verdi:

-Ulu hökmdarım, bura gələndə yolda qoca müəllimimə rast gəldim. Onunla hal-əhval tutdum. Onu keçmədim ki, arxam müəllimə tərəf çevrilər. Bu səbəbdən yubandım.

Müəllimlə bağlı bu sözləri eşidən ulu Teymurun əsəbdən gərilmiş sifəti ayazıdı. Bunu hiss edən məclis əhli rahat nəfəs aldı. Müəllimi hər şeydən uca tutan Teymur vəziri bağışladı.

Sonralar özü dünyadan köçmək ərəfəsində olanda vəsiyyət etdi ki, onu sevimli müəllimi Mir Bərəkənin ayaqları altında dəfn etsinlər.

## DAĞSIZ, DÜYÜNSÜZ ADAM OLMAZ

Bir görkəmli sərkərdə saysız-hesabsız ağır döyüşlər keçirmiş, çoxunda da qalib gəlmişdi. O, anasının yeganə oğlu olduğuna görə, anası onunla nəfəs alır, onunla bir ürəkdə döyünürdü. Atası döyüşlərin birində dünyadan vaxtsız köçəndən sonra anası ona həm ata, həm də ana olmuşdu. Anası gözüylə od götürə-götürə onu böyütmüş yüksək təlim-tərbiyə vermiş, igid bir sərkərdə səviyyəsinə

yüksəlməsinə nail olmuşdu. Belə bir ananın igid oğlu döyüşlərin birində ağır yaralandı. Sağala bilməsinə, demək olar ki, ümid yox idi. Sərkərdə ölümün yaxında olduğunu hiss edirdi.

O, anasını yanına çağırtdırdı. Ona aşağıdakı vəsiyyəti elədi:

-Sənə saysız-hesabsız adam başsağlığı vermək üçün bura gələcək. Dərdi olanları bir qapıdan, olmayanları digər qapıdan ötürərsən.

Vəsiyyəti bitər-bitməz oğlu dünyadan köçür. Ana oğlunun vəsiyyətini yerinə yetirmək istəyir. Tapşırır ki, dərdi olanlar birinci qapıdan, olmayanlar ikinci qapıdan çıxsın.

Ana görür ki, oğlunun yasında ona təskinlik verməyə gələn insanların hamısı birinci qapıdan çıxdı. İkinci qapıdan bir nəfər də çıxmadı.

Ana oğlunun demək istədiyini indi başa düşdü. Demək, oğlu ona təsəlli vermək istəyib. Demək istəyib ki, bu dünyada dərdsiz, dağsız, düyünsüz adam ola bilməz. Dünyanın bu gərdişindən insan təsəlli tapmalıdır.

## XƏTAİ UCALIĞI

Ərazisi bir milyon iki yüz min km$^2$ olan, vahid Azərbaycan dövləti yaradan böyük Azərbaycan hökmdarı Ş.İ.Xətai vəsiyyətlərinin birində demişdir: "Ey türk oğulları, bir ovuc torpağımızı dünyanın var-dövlətinə,dilinizin bir sözünü ləl-cəvahirata dəyişməyin, onları qoruyun və gələcək nəsillərə çatdırın".

14 yaşında hakimiyyətə gələn Ş.İ.Xətai Şirvanşah Fərrux Yaşar, Əlvənd Mirzə, Şeybani xan üzərində parlaq qələbələr çaldıqdan sonra nüfuzu, şöhrəti daha da artdı.

Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırdı. Avropa ölkələri ilə diplomatik danışıqları bu dildə aparıldı. Sarayda yaradıcı adamlara, söz xiridarlarına şərait yaratdı. Elə buna görə də ətrafda yaşayan dövlətlər onunla hesablaşmağa, dostluq binası qoymağa başladı. Belələrindən biri də özbək hökmdarı Sultan Hüseyn Bayqara idi. O, Ş.İ.Xətaiyə dostluq məktubu yazır və hədiyyə olaraq ona bir neçə rəqqasə göndərir.

Eyş-işrətə vaxtı olmayan Xətai göndərilən rəqqasələrə baxıb deyir:

-Mən vuruş adamıyam. Belə mühasibləri də istəmirəm. Mən gərək rahatlanmadan məmləkətin ətrafında at cövlan etdirəm, müqəddəs sərhədlərimizin kəsilməsinə imkan verməyəm.

## İNSANLARA MƏRHƏMƏT HİSSİ İTMƏMƏLİDİR

Bir ərəbin gözəl bir atı olur. Bu at çoxlarının, o cümlədən Əbüsüfyan adlı varlı bir ərəbin xoşuna gəlir. Atı satın almaq istəyir. Nə qədər pul təklif edirsə, at sahibi atını satmır. Əbüsüfyan da inadından dönmür, nəyin bahasına olur-olsun, atı ələ keçirməyə çalışır. Bir gün Əbüsüfyan dilənçi paltarı geyir. Əvvəldən ərəbin səfərə çıxacağını, hansı yollardan keçəcəyini öyrəndiyinə görə həmin yolun üstündə xəlvət bir yerdə gizlənir. Atın ayaq tappıltılarını eşidib, yolun kənarına yenir. Bu vaxt atlı ərəb gəlib yetişir. Dilənçi qiyafəsinə girmiş Əbüsüfyan sızıltılı səslə xahiş edir ki, buralarda qalıb qurda-quşa yem olaram. Məni də şəhərə apar.

Mərhəmətli ərəb deyir:

-Gəl tərkimə min, gedək.

Cavab verir ki, xəstəyəm, gücüm-qüvvətim tükənib, ata minmək üçün mənə kömək elə.

Ərəb atdan düşüb, onu ata mindirir. Bu zaman Əbüsüfyan atı qamçılayaraq aradan çıxır. Atı qaçırır. Ərəb bu dilənçi qiyafəsində olan şəxsin Əbüsüfyan olduğunu duyur.

Arxadan çağırır.

-Ya Əbüsüfyan, dayan sənə sözüm var.

Əbüsüfyan atı saxlayır.

Ərəb deyir:

-Səndən soruşsalar ki, atı necə aldın? Demə ki, dilənçi paltarı geyib qaçırmışam. Bu əhvalat yayılsa, bundan sonra Ərəbistanda əlsiz-ayaqsızlara inanmazlar. Onlara kömək edən tapılmaz.

Əbüsüfyan ərəbin sözündən mütəəssir olur. Atdan düşüb, onu sahibinə qaytarır.

## TƏKƏ BƏY

Dağ keçiləri və dağ qoyunlarının (onlara arqalı da deyirlər)öz yaşam tərzi var. Əsasən insan yaşayan yerlərdən uzaq, dağlıq zonalarda məskən salan bu heyvanlar haqda da maraqlı rəvayətlər mövcuddur. Təkələr dişilərlə yaz fəslində ülkər doğanda görüşərlər. Ulduz doğmayınca dişi heyvanlara toxunmaq olmaz. Hər kiçik sürünün bir təkəsi olur. Ulduzun çıxmasını müşahidə etməyə başlayan təkə başını dik qaldıraraq, gözün ulduz çıxan səmtə dikir. Saatlarla bu vəziyyətdə ağrılara dözərək gözləyir. Bəzən o qədər gözləyir ki, boyun əzələləri quruyur, təkə yerə yıxılıb, bir müddət yarımcan vəziyyətdə qalır. Ayağa duran kimi, gözünü yenə ulduz çıxan səmtə dikir.

Kiçik sürüyə başçılıq etmək üçün təkələr döyüşər. Qalib çıxan sürüyə təkəlik edər. Payızda yeyib yağlanan təkənin gözünə heç nə görünməz. Soruşanda ki, bu sürü kimindi? Gərlənə-gərlənə özünü qabağa verər, şeşələnər.

-Mənim sürümdür,-deyər.

Elə ki, bu proses qurtarır. Çöllərdən ot-ələf də tükənir, yağmurlu, çovğunlu günlər başlayır, sürüyə başçılıq eləyən təkə bəyin qıçları bir-birinə dolaşır.

Sürüyə çatıb, onlarla ayaqlaşa bilmir. Gah yıxılır, gah durur, gah buynuzları yerə ilişib yeriməyə imkanı vermir. Ondan soruşurlar ki, bu sürü kimindir?

Bəyirə-bəyirə cavab verir:

-Mən nə bilim kimindir? Heç çata bilirəm ki, biləm də sürü kimindi. Təkənin bəyliyi belə başa çatır.

## İNSAN PİSLİK ETMƏMƏLİDİR

Görkəmli alman filosofu İ.Kant çox maraqlı həyat tərzi keçirmişdir. Həyatda çox dəqiq olmuş, qarşıya qoyulan hər işi vaxtında, dəqiq həyata keçirməyə , həll etməyə çalışarmış. Rəvayətə görə, hətta o hansı döngədən, yoldan keçəndə onu müşahidə edənlər saatın neçə olduğunu deyərmişlər. Ömrü boyu öz ideyalarını həyata keçirmək, nəzəriyyələrinin doğruluğunu sübut etmək uğrunda mübarizə aparmışdır.

Bu böyük şəxsiyyətin ölüm ayağında yanında təkcə xidmətçisi dayanmışdır. Onun ölümlə çarpışdığını görən xidmətçi ağlamağa başlayır. Bunu hiss edən görkəmli alim yavaş-yavaş başını qaldırır xidmətçiyə deyir:

-Nə üçün ağlayırsan?

Mən çox rahat ölürəm. Ömrüm boyu ideyalarım uğrunda mübarizə aparmışam, ancaq heç kimə pislik etməmişəm.

## LƏYAQƏTİ QORUMAQ HƏR ŞEYDƏN UCADIR

Plutaxın bir hekayətində deyilir ki, Milet şəhərində qızlar heç bir səbəb olmadan özlərini öldürürmüşlər. Qarşısını heç vəchlə almaq mümkün olmurmuş. Nə qədər çalışırdılarsa, bu faciəli hadisənin qarşısını ala bilmirdilər. Şəhər hakimi əmr edir ki, özün öldürən qızları lüt assınlar. Belə də edirlər. Bundan sonra qızların ölümü dayanır. Cavan qızlar özlərini öldürənlərin ləyaqətlərinin tapdalanmasını görüb, daha özlərini öldürmürlər.

Bir xalq misalında deyildiyi kimi: " Əgər var-dövlətini itirmisənsə, heç nə itirməmisən. Əgər sağlamlığını itirmisənsə, çox şey itirmisən. Əgər ləyaqətini itirmisənsə hər şeyini itirmisən".

Hər bir insan övladı ləyaqətini qorumalı, həm də başqasının alçaldılmasına heç vaxt razı olmamalıdır.

Ləyaqəti alçaldılmış adam üçün yaşamağın da mənası olmur.

## QARAÇI QADIN

Bir vilayətdə gözəl bir qaraçı qızı öz gözəlliyi ilə şöhrət tapmışdı. Həm də gözəl rəqqasə idi. Ətrafına yığışan adamların arasında süzə-süzə dolanışığı üçün onlardan pul və hədiyyələr də qəbul edərdi. O qədər sıxıntı, aclıq, məşəqqətli günlər çəkmişdi ki, küçədə, qaldığı dalana oxşar mənzildə yerə düşən çörək qırıntıların götürüb, ağzına atar, öz-özünə dua edərdi.

-Allah dadınıza çatsın, yaman gün görməyəsiniz. Mən yazıqdan bir tikə çörək əsirgəməyəsiniz. Əliniz-ayağınız var olsun!

Günlərin bir günü bir nəfər varlı-karlı kişi qaraçı

qıza vuruldu. Onu özünə arvad elədi, evinə apardı.

Yoxsulluqdan vara qovuşan, hər cür naz-nemətlərlə təmin olunmuş evi görən qaraçı qızı sevindiyindən nə edəcəyini bilmirdi. Evin kişisi tacir idi. Qaraçı qızını evdə qoyub, tezdən işinə gedər, axşam qayıdardı. Həmişə əlidolu dönərdi evə. Qaraçı qızının isə elə bil ağzı bağlanmışdı. Bu zəngin evdə döyunca çörək yeyə bilmirdi. Elə bil boğazı tutulmuşdu. Qaraçı qızı görür ki, bir müddət belə getsə əriyib çöpə dönəcək, acından öləcək. Çox düşündü, çarə axtarmağa başladı.

Axırda çörək qırıntılarını kişi evdə olmayanda evin içinə səpələyir, evi süpürə-süpürə yerdən götürüb bir-bir ağzına atır, aclığının qarşısını almağa çalışırdı. Çörək qırıntılarını ağzına atdıqca əvvəllər vərdiş elədiyi sözləri yenə dilinə gətirir, deyirdi:

-Allah dadınıza çatsın, bu yetimdən bir tikə çörəyi əsirgəməyin. Allah köməyiniz olsun, səxavətli əliniz əl tutsun. Qarnımı doyurdunuz, Allah əvəzin versin!

Qaraçı qızı uzun illər öyrəndiyi vərdişdən əl çəkə bilmir, aclığını bu qayda ilə dəf etməyə çalışırdı.

## XƏSİSİN CAVABI

Bir xəsis kişi olur. Evdə ailə üzvlərinin də yeməklərində, geyimlərində xüsusi qayda tətbiq etmişdi. Bir tikə çörəyi də özgəsinə qıymazdı.

Günlərin birində bu xəsis kişiyə dostluq etdiyi bir nəfər qonaq gəlir.

Evin qadını təzə inək kərəsindən, şordan, pendirdən evdə olan imkana görə qonağın qabağına qoyur. Qonaq da ac olur. Yeməyə bərk girişir. Xəsis kişi görür ki, qonaq kərə yağın yarıdan keçirib. Pendir olan qabı qonağın qabağına itələyir və deyir:

-Yağ ziyan eləyir, bir az da pendirdən ye.

Qonaq isə pendiri yana itələyir, yenə yağla şora girişir və onun acığına deyir:

-Mənə yağ xoş gəlir, doyunca yeyəcəyəm.

Xəsis kişi qonağın bu hərəkətinə lap cin atına minir. Acıqlanıb deyir:

-Xoşuna gələr da. Əziyyət çəkib, tər töküb qazanmamısan ki? Müftə yeməyi kim yeməz? Ona görə də yeməyə aclıqdan çıxmış kimi girişmisən. Özün qazansan, aclıqdan çıxmış kimi yeməyə təpilməzsən?

## BU BAŞ O XONÇADA DURMAZ

1955-ci ilin yayında böyük şairimiz S.Vurğunun Kəlbəcərdə məşhur İstisu sanatoriyasına getməsi, orda el sənətkarı Dədə Şəmşirlə görüşməsi, onunla deyişməsi dillərdə dastan olmuşdu. Aşıq Şəmşir böyük Vurğuna cavab olaraq dediyi şeirin son bəndini aşağıdakı kimi yekunlaşdırmışdı.

Şəmşirlə görüşün qaldı yadigar,
Unutma nə qədər canında can var.
Səndən dərs almağa diyarbadiyar,
Gəzərəm əlimdə şam-çıraq səni.

Ümumiyyətlə, Dədə Şəmşirin şeirləri böyük ürək sahibi olan S.Vurğuna çox gözəl təsir bağışlamışdı. Ona görə də Aşıq Şəmşirin əldə olan şeirlərini alıb Bakıya aparmış, orada kitab şəkilində çap elətdirmişdi. Buna görə də Aşıq Şəmşirin şöhrəti tezliklə elimizə-obamıza yayılmışdı.

Bir müddət bundan sonra Aşıq Şəmşir Bakıya getməli olur. Gedəndə S.Vurğuna Güllü nənənin tutduğu kiçik bir dəridə olan motal pendirini pay aparır.

O vax akademiyada məsul vəzifədə işləyən S.Vurğuna A.Şəmşirin onunla görüşə gəlməyin və bir

kiçik motal pendiri də gətirdiyini deyirlər.

Böyük şair Aşıq Şəmşiri və gətirdiyi motal pendirini kabinetinə çıxartdırır. İş yoldaşlarına, yaxınlarına şair telefonla zəng edir. Təzə çörək də götürüb onun kabinetinə gəlmələrini tapşırır. Tökülüb gəlirlər. Həmin gün S.Vurğunun otağında bir şadlıq, bir təntənə olur ki, gəl görəsən.

Sonralar S.Vurğun dünyadan vaxtsız köçəndən sonra A.Şəmşir bir müddət əlinə qələm almır. Bakıya gedir, şairin qəbrini ziyarət edir. Nəşr olunmamış şeirlərini də toplayıb, nəşriyyata aparır. Aradan uzun müddət keçsə də, yeni nəşr ediləcək kitabından bir xəbər çıxmır. Bir dəfə Bakıya gedəndə özü ilə iki ramka dağ qoxulu, dağ rayihəli beçə balı da aparır. Aşıq beçə balını da götürüb, nəşriyyat direktorunun kabinetinə girir.

İnsanlıqdan uzaq olan direktor neçə yerə zəng vurur, işçiləri kabinetinə yığır və deyir:

-Aktlaşdırın, mənə rüşvət vermək istəyir.

Belə bir vəziyyəti gözləməyən Dədə Şəmirə çıtmıq vursaydın qanı tökülərdi.

Direktor əsəbi halda üzünü aşığa tutub deyir:

-Sən məni kimin yerinə qoymusan?

Aşıq deyir:

-Mən səni S.Vurğunun yerinə qoymaq istəyirdim. Səhv etmişəm, bu baş o xonçada durmaz.

Ayağa qalxdı. Oturanların xəcalətli çöhrəsini süzdü.

Dedi:

-Bunları deyə bilmərəm, amma səni qabağıma qoyub, yüz il iyləsəm, də səndən kişi iyi gəlməz.

## MƏRHƏMƏTLİ ANA

Bir padşah qonşuluqda yerləşən başqa bir padşahın torpağını zəbt etmək istəyir. Sərhəddə qoşun yığdırır. Özünə düşmən bildiyi padşahı təkbətək döyüşə çağırır. Ölkəsi təhlükədə olan padşah qılınc-qalxanını götürür, amma zireh geyinmir. Çünki anası zirehi ona vermir. Deyir ki, zireh paltarının üstündə göyərçin yuva qurub, təzə bala çıxarıb. Zireh geyimi götürsək, yuva dağılar, körpə balalar məhv olar. Allahtalaya xoş getməz.

Ona görə də padşah döyüşə geyimsiz gedir. Hücum edən padşah rəqibindən bunun səbəbini soruşur.

Döyüşə zirehsiz gələn padşah əhvalatı olduğu kimi danışır. Bu əhvalatı eşidən düşmən padşah ananın belə mərhəməti, ana qəlbinin ülviyyəti qarşısında baş əyir. Müharibə etmədən geri qayıdır.

Deyir:

-Belə mərhəmətli anası olan ölkənin torpağına hücum etmək Allahtalaya xoş getməz.

## İNSANLARA İNAMI QORUYAQ

Bir ölkədə xeyirxah, əməli-əqidəsi ilə düz, insanlardan mərhəmət əlini əsirgəməyən ləyaqətli bir şəxs yaşayırdı. Əlsiz-ayaqsız, ehtiyac içərisində yaşayanların himayədarı idi.

Müqəddəs ziyarətgahları, o cümlədən Kəbə evini ziyarət etmiş "Hacı" adını qazanmışdı. Bu adı şərəflə, ləyaqətlə daşıyırdı. Onun gözəl yerişli, gözəl görkəmli bir atı vardı. Bu atı çox istəyər, həmişə bu atı minib, səyirtməkdən zövq alardı. Çoxları hacıya yüksək pul təklif etmişdi ki, atı alsınlar. Lakin ata nə qədər yüksək qiymət

qoyulsa da, hacı atı heç kimə verməmişdi.

Başqa bir vilayətdə də bir at həvəskarı yaşayırdı. Say-seçmə atlar saxlayırdı. Harda xoşuna gələn at görsəydi, sorağın alsaydı, onu əldə etməyə çalışardı. Günlərin bir günü dostları buradan çox uzaqda yaşayan hacının qiymətli atı haqqında ona danışdılar. Bu adamın həmin vaxtdan narahatlığı başladı. Atı ələ keçirmək üçün yollar axtarırdı. Bilirdi ki, hacı o atı heç kimə satan, pay verən deyil. Buna baxmayaraq, o vilayətə adamları ilə birlikdə getdi. Atı aralıdan gördü, bəyəndi. Çox yüksək qiymətlə almaq istədi. Amma hacı milyonlara da olsa, atı satmayacağını bildirdi. Onda bu at həvəskarı bu atı xəyanətkarlıq yolu ilə əldə etməyə çalışdı. And içdi ki, o atı əldə etməyincə rahat ola bilməyəcəyəm. Hacının yaşadığı kənddən özünə gizli yolla "dost" da tapdı. Onu pul ilə ələ aldı. Tapşırdı ki, gözdə-qulaqda olsun. Hacı bu atla səfərə çıxanda ona xəbər versin. Həm də hara və hansı yollardan keçəcəyini öyrənsin.

Nəhayət, hacının cümə axşamı meşələr arasından keçən dağ yolu ilə uzaq səfərə çıxacağını at həvəskarına çatdırdılar.

Yağmurlu bir gün idi. Hacı qalın meşələr arasında keçən cığırla gedəcəyi yerə çatmaq üçün irəliləyirdi. Axşamın toranlığı idi. Birdən hacı atın səksəndiyini, fınxırdığını hiss elədi. Diqqətlə baxanda qabaqda, yolun ortasında bir qaraltının çabaladığını gördü. Bir az da yaxına gəldi. Qaraltının adam olduğunu gördü. Kənardan səslədi:

-Ay adam, ay insan övladı, nə olub, niyə bu palçığın içərisində eşələnirsən? Nə kömək lazımdı?

Başdan ayağa palçığa, löhməyə bulaşmış adamdan iniltili səs gəldi:

-Aman günüdü, ay Allah adamı, kömək elə, qıçım

sınıb, ayağa dura bilmirəm. Burda qalsam qurda-quşa yem olacağam. Bir sürü körpə külfətim var.

Bu iniltili, qəlb göynədən sözləri eşidən hacı varından yox oldu.

Dedi:

-Sən nə danışırsan?

İnsan da insanı belə yerdə darda qoyarmı? Narahat olma, səni özüm ata mindirib, qarşımıza çıxan birinci kəndə aparacağam. Orda mənim yaxşı dostlarım var. Sənə lazım olan köməkliyi edəcəyik.

Atdan düşüb, palçıq içində eşələnən adama yaxınlaşdı. Qolundan tutub, qaldırmaq istədi. Üst-başı palçıq içində olan kişinin fəryadı göyə yüksəldi. Amma hacı yenə fikrindən dönmədi. Üst-başı bulaşsa da, çox çətinliklə kişini qaldırıb atın üstünə qoydu, cilovdan yapışıb atı çəkməyə başladı. İnilti, sızıltı hələ də çəkilməmişdi. Bir az bu vəziyyətdə yol gedəndən sonra hacı kişinin vəziyyətini bir də soruşdu. Kişi ufuldaya-ufuldaya hacıya dua etməyə başladı. Qıçının ağrısını bir az səngidiyini bildirdi. Yolun bir yarısında iblis donuna girmiş adam hacıya hıqqıldaya-hıqqıldaya dedi:

-Mənə böyük haqq qoydunuz! Allah-tala əvəzini versin! Ağrım bir az azalıb. Utanıram. Cilovu verin özüm atı sürüm, siz əziyyət çəkirsiniz.

Saf qəlbli hacı düşünmədən atın yüyənini kişiyə verdi. Atın üstündə hacının ağzına qədər dolu olan xurcunu da vardı. Hacı atın arxasına keçən kimi naməlum adam atı qamçılayıb aradan çıxdı. Hacı dərindən sarsıntı keçirdi. Bu qədər sadəlövhlüyünə, aldandığına görə hönkürə-hönkürə ağlamağa başladı. Atı, artıq, əldə etmiş o simasız insan hacının hönkürtüsün eşitdi. Təəccüb elədi. Atı bir az geriyə sürüb dedi:

-Ay hacı, sənin var-dövlətin başından aşır. Bu at

nədir ki, ondan ötəri ağlayırsan?

Bu, sənə yaraşmaz!

Hacı cavab verdi:

-Ey alçaq xislətli insan, mən bir at üçün ağlamıram. Ona görə ağlayıram ki, bu gündən sən mənim insanlara olan inamımı itirdin! İnamımı itirdin! İnamımı qırdın!

## VƏZİRİN PAXILLIĞI

Bir gün Şah Abbas vəziri Allahverdi xanla ölkəni gəzməyə çıxmışdı. Libasların dəyişmişdilər ki, onları heç kim tanımasın. Öyrənmək istəyirdilər ki, ölkədə vəziyyət necədi, xalqın güzəranı necə keçir?

Hakimlər xalqla necə rəftar edir?

Şəhərdən xeyli aralı bir kəndin yaxınlığından keçərkən bir kəndliyə rast gəldilər. Kəndlinin qabağında bir ulaq, ulağın da üstündə iri xurcun vardı. Şah Abbas kəndlidən soruşdu.

-Hardan gəlib, hara gedirsən?

Eşşəyin üstündəki xurcundakı nədir?

Kəndli cavab verdi:

-Öz həyətimdə gülbəsər becərmişəm. İndi bu nübar gülbəsərdən Şah Abbasa pay aparıram. O da, yəqin ki, əvəzində nəsə verər. Gətirib kəsbkarlığımı edərəm.

Şah Abbas dedi:

-İşdi, birdən Şah sənin sovqatını qəbul eləmədi, onda nə edəcəksən?

Başqaları Şaha qızıl-gümüş hədiyyə aparır, sən isə gülbəsər.

Kəndli yenə ötkəmliklə cavab verdi:

-Neyləmək olar, varın verən utanmaz. Birinin gücü qızıl-gümüşə, birininki də gülbəsərə çatır.

Şah yenə əl çəkmədi:

-Hədiyyəni qəbul etməsə neyləyəcəksən??

Kəndli acıqlanıb dedi:

-Qəbul etməsə bu ağacı soxaram onun gözünə.

Bu söhbətdən sonra ayrıldılar. Hərə öz yoluna davam etdi. Şah Abbas və vəziri ayrı yolla saraya qayıtdılar. Şah Abbas kəndlini bir də görmək istəyirdi. Bu əsnada şaha xəbər gətirdilər ki, elçi daşının üstündə bir kəndli əyləşib. Qəbula gəlmək istəyir. Şah Abbas kəndlinin saraya gətirilməsini əmr etdi. Qəbula gələn kəndli Şah Abbasa hədiyyə olaraq nübar gülbəsər gətirdiyini söyləyir. Şah cavabında:

-Sənin hədiyyən lazım deyil. Qaytar apar!

Qəbul edilməsə nə edəcəksən? Yolda qabağına çıxan yolçulara nə danışdın? Düzünü de. Kəndli pis yerdə axşamladığını görüb deyir:

-Dedim ki, qəbul eləməsə, bu ağacı soxaram şahın gözünə.

Şah uğunub getdi.

Tapşırdı ki, kəndliyə lazımı qədər hədiyyə, çoxlu qızıl-gümüş versinlər. Belə də etdilər. Xurcunu doldurub, ulağın üstünə atdılar.

Vəzir Allahverdi xan paxıllıqdan nə edəcəyini bilmirdi. Kəndli gedəndən sonra Şaha dedi:

-Şah sağ olsun.

Bu necə işdi? Mən ömür boyu sizə xidmət etmişəm, bu qədər hədiyyə verməmisən. Gedib o kəndliyə verdiyin qızıl-gümüşü alıb gətirəcəyəm.

Şah Abbas gülümsəyib deyir:

-Bacara bilirsən, get al gətir.

Vəzir atı minib kəndlinin dalınca yola düşür. Kəndliyə çatıb deyir:

-A kişi, bu qədər qızıl-gümüşü hara aparırsan? Suallarıma doğru cavab verməsən, dolu xurcunu alıb saraya

aparacağam. De görüm, göydəki ulduzların sayı nə qədərdi?

Kəndli deyir:

-Eşşəyimin tüklərinin sayı qədər. İstəyirsən say.

-De görüm dünyanın ortası haradır?

Kəndli əlindəki çomağı yerə batırıb deyir:

-Buradı, istəyirsən ölç, yoxla!

Bir söz tapmayan vəzir deyir:

-Yaxşı, de görüm Allah hardadır.

Kəndli deyir:

-Mən o müqəddəsin adını ulağın üstündə deyə bilmərəm. Cavabı atın üstündə verə bilərəm.

Vəzir Allahverdi xan atdan düşür, atı kəndliyə verir. Kəndli xurcunu da atın üstünə alır, atı minir və deyir:

-Allah o görünən uca dağın dalındadır. İstəyirsən, get yoxla.

Bu sözü deyib, ata bir qamçı vurub, aradan çıxır.

Pis vəziyyətə düşən vəzir əlacsız qalıb, ulağı minir və geri dönür.

Pəncərədən vəzirin gəldiyini görən Şah hiss edir ki, vəzir utandığından saraya gəlmək istəmir. Dalınca adam göndərir, saraya gətirirlər.

Şah gülüb deyir:

-Hə, işlər necədi, vəzir? Mən insafsızlıq edib, at verməmişdim, yaxşı oldu ki, atı da sən verdin.

Vəzir Allahverdi xan utandığından qıpqırmızı qızardı.

## ƏSLİN BİRUZƏ VERƏN

Bir padşahın oğlu yox idi. Arvadı hər dəfə bir qız doğurmuş. Padşahın altı qızı vardı. Qadını yenə hamilə idi. Padşah arvadına sifariş göndərir ki, bu dəfə də oğlu

olmasa, öz xoşu ilə sarayı tərk eləsin. Onu boşayacağam. Padşahın sifarişini eşidən zavallı qadın nə edəcəyini bilmirdi. Elə bil ürəyinə dammışdı ki, yenə qız olacaq. Dərd-qəm içində çapalayır, bir çarə tapa bilmirdi. Etibarlı mamaçalardan biri ona kömək edəcəyinə vəd vermişdi. Nəhayət, vədə tamam oldu. Gecənin birində zavallı qadın yenə qız doğdu. Ancaq bunu gizli saxladılar, padşaha bildirmədilər. Ona söz verən mamaçanın təşəbbüsü ilə həmin gecə bir oğlan uşağı doğan qaraçı ilə danışdılar. Güclü pul verib, uşaqları dəyişdirdilər. Qaraçı qadın padşahın qızını, padşahın arvadı isə qaraçı qadının oğlunu böyütməyə, saxlamağa başladı. Uşaqlar artıq 15-16 yaşa çatmışdılar. Lakin padşah oğlunun bəzi hərəkətlərindən şübhələnməyə başlamışdı. Padşahın arvadına xidmətçilik edən qaraçının qızının hərəkətlərindən xoşu gəlirdi. Bir gün qaraçının qızın və oğlun da götürüb çölə, gəzintiyə apardı. Bir gözəl çəmənlikdə gözəl bulaqlar axan meşəlik yerdə dayandı. Əvvəlcə oğlandan soruşdu:

-Oğlum, bu gözəl yerdə nə tikmək, nə qurmaq yaxşı olardı?

Oğlan cavab verdi:

-Bir daxma tikmək, meşədəki ağaclardan da kəsib, ələk, xəlbir, şadara üçün taxta düzəltmək lazımdır. Bundan sonra isə ələk, xəlbir və şadara düzəldib satmaq lazımdır.

Qızdan soruşdu:

-Qızım, sən nə düşünürsən? Burda nə qurmaq, yaratmaq yaxşı olardı?

Qız cavab verdi:

-Belə gözəl yerdə dəbdəbəli saray tikmək daha çox məqsədə uyğun olardı.

Bu iki yeniyetmənin sözləri padşahın şübhələrini daha da artırdı. Saraya dönən kimi arvadını hüzuruna ça-

ğırtdırdı. Oğlandan şübhələndiyini dedi. Oğlanın onun doğma oğlu olub olmadığını soruşdu. Dedi ki, düzgün danışmasan, sənin də, qaraçının da, mamaçanın da boynunu vurduracağam.

Dəhşətə gələn qadın həqiqəti boynuna aldı. Onun qorxusundan belə etdiyini də dedi. Qaraçı və mamaçanın günahsız olduğunu söylədi.

Həmin günün səhərisi padşah qaraçı oğlunu öz valideynlərinə qaytardı. Qızını isə saraya gətirdi.

## KARIN KÖNLÜNDƏKİ

Bir karın qonşusu naxoş idi. Kar adam qonşusunu yoxlamağa getdi. Gedə-gedə yolda öz-özünə fikirləşib dedi:

-Mən karam. Naxoşla nə danışacağımı əvvəlcədən hazırlayım. Çünki o dediyinin çoxunu eşitməyəcəyəm.

Naxoşun yanına gəldikdə soruşaram:

-Qonşu, necəsən?

O deyər:

-Yaxşıyam.

Mən də deyərəm:

-Allaha şükür!

-Həkimin kimdir?

O deyər:

-Filankəs:

Mən də deyərəm:

-Xoş qədəm olsun. Yediyin nədir?

Deyər:

-Şorba.

Deyərəm:-Nuşu canın olsun.

Bu fikirlərlə naxoşun evinə getdi. Salamdan sonra

soruşdu:

-Qonşu, necəsən?

Naxoş dedi:

-Ölürəm.

Kar dedi:

-Allaha şükür!

Həkimin kimdi?

-Əzrayıl.

-Xoş qədəm olsun.

-Yediyin nədir?

-Zəhrimar.

-Nuş can olsun!

Odur ki, deyərlər "Karın könlündəki".

## MƏNZİLİ DƏYİŞƏK

Xanım evə gələn ərinin boynuna sarılıb, onu bir neçə dəfə öpəndən sonra dedi:

-Bilirsən nə müsibət üz verib?

-Yox, əzizim bilmirəm!

-Qonşumuzun arvadı da mən alan paltardan alıb.

-Zərər yoxdu, pul verərəm başqasını tikdirərsən.

Mən bundan da yaxşı çıxış yolu fikirləşmişəm.

-Nə?

-Evi dəyişək.

## SƏKSƏNDƏNDİ

Bir dövlətli qoca varmış. Çox xəsis və namərd imiş. Susundan yanana Allahın bir qurtum suyunu da verməzmiş. Saxladığı nökərin də qarnını doyurmazmış. Bir gün şəhər əhli görür ki, bu kişinin nökəri küçədə acından ölür. Bir nəfər insanpərvər adam vəziyyəti belə görüb,

dövlətli kişinin yanına gedir. Deyir:

-Sənin var-dövlətin başdan aşır. Amma sənin nökərin küçədə acından ölür.

Qoca tövrünü dəyişmədən:

-Kasıbçılıqdandı,-deyir.

-Bəs sənin kimi adlı-sanlı adamın nökərinin o vəziyyətdə qalmasına nə deyirsən?

-O da kasıbçılıqdandı.

-Axı o nökər sənə var-dövlət qazanır, sənin qabağında işləyir, tər tökür.

-Kasıbçılıqdandı.

Həmin xeyirxah adam qocaya dərs vermək istəyir. Əyninə həkimlik paltarı geyir.

Şəhərə səs saldırır ki, xaricdən gəlmiş məşhur həkimdi. Həmin qoca da dərdlərinə çarə etmək üçün özünü həkimin yanına salır. Xəstəlikləri haqda bir xeyli danışır. Həkim formasında olan o, alicənab insan deyir:

-Dərdin ağırdı. Tək baxmaq üçün beş qızıl verməlisən.

Kişi beş qızılı çıxarıb verir.

Deyir:

-Gözüm yaxşı görmür.

-Səksəndəndi.

-Oynaqlarım ağrıyır.

-Səksəndəndi.

-Mədəm ağrıyır.

-O da səksəndəndi.

Beləliklə, xəsis kişi nə deyirsə, səksəndəndir, cavabını alır.

Axırda hirslənib deyir:

-Səni lənətə gələsən, nə deyirəm elə deyirsən "Səksəndəndi". Mənim pulumu ver. Həkim paltarı geyən o şəxs içəridən qocanın nökərin çağırtdırır və beş qızılı

ona verir. Qoca kişi çığırır. Bu da həşdatdandı, cavabın alır. Axırda deyir:

-Bu kişi bilirdi kasıbdı. Fərqiniz odu ki, o dövlətlənə bilər. Sənin qocalığın əbədidir. Buna çarə yoxdu.

## QADIN SƏDAQƏTİ

Bir ixtiyar qoca günlərin birində evinə sərxoş gəlir. Düz 60 il bir dam altda baş yastığa qoyduğu özü kimi ixtiyar qarısına deyir.

-Ay Tükəzban, Allah sənin atana rəhmət eləsin! Mənim sədaqətli, dəyanətli, səxavətli ömür-gün yoldaşım olmusan. Altmış illik həyat salnaməsini birgə başa vurmuşuq. Bütün bunlar üçün sağ ol, ay qarı! Amma özün də bilirsən ki, arvad qocalanda evə köpək, kişi qocalanda isə nökər lazım olmur. Sən əvvəllər də yanşaq idin. Çox danışmağı, qeybət qırmağı xoşlardın. O vaxtlar mən papağımı qoyardım söyləndiyin yerə, deyərdim: - Ay Tükəzban, istədiyini de, sonra axşam evə gələndə onu başıma qoyub, tənələrini duymağa çalışaram. Bəlkə, o dediklərin beynimə girdi. Amma indi səbatsız, səbirsiz olmuşam. Deyirəm ki, gəl bir də oturaq, sonuncu dəfə ilqarımızı təzələyək, çörək kəsək. Sonra isə bir-birimizə tənəli, kinayəli söz - zad demədən ayrılaq. Dost kimi ayrılaq! Axı, səninlə əhd-peymanımız olub. Zarafat deyil e, düz altmış il bir yerdə olmuşuq. Bu evin ən qiymətli ləlcəvahiratı nə varsa, götür get obası köçmüş, yurdu boş qalmış ata yurduna, dudmanına. Axı, orada da bir çıraq yandıran olmalıdır. Kişi sözünü qurtardı. Tükəzban onun kimi də etdi. Süfrə açdı. Kişi tut arağından nuş elədi, xumarlandı. Xeyli vaxt keçəndən sonra gözünü açdı. Açdı və gördü ki, bir böyük intəhasız səhradadır. Səmada qəribə ulduzlar cilvələnir. Qabaqda ulduzlar sayrışanda,

gözə dəyən naməlum sarban gedir. Kişi gözlərini açıb, bunun röya, bunun yuxu olmadığını, gerçəkliyi duyub, qışqırar:

-Sarban, ay sarban, saxla bu qəfiləni, söylə görüm bu nə həngamədir? Mən hara, bu səhrayi-kəbir hara?

Sarban dinmir.

Kişi arabadakı pal-paltarlı yatmış olduğu yorğan döşəyindən durar. Düşər, gələr düz sarbanın qənşərində dayanar. Deyər:

- Ay adam kimsən?

Daşdan səs çıxar, sarbandan səs çıxmaz. Sonra kişi gecənin qaranlığında bu qaralan sarbanın başına, üzünə əl gəzdirər. Yanaqlardan göz yaşının istiliyini hiss edib, təhəmmül olmayan təlaş, heyrət və təəccüblə bir də soruşar:

-Tanrını sevirsənsə, ay adam, kimsən? Bu səhraya məni niyə gətirmisən? Kişi qiyafəsindəki sarban hönkürə-hönkürə sözə başlayır:

-Ay qocalığında yorğalıq niyyətinə düşən ömür-gün yoldaşım! Mənəm də, biçarə Tükəzban! Məni it yerinə bassan da, sənin son sözündən də çıxmadım. Özün dedin ki, bu evdə ən qiymətli ləl-cəvahirat nə varsa götür, get lələsi köçmüş, yurdu boş qalmış ata yurduna, öz dudmanına.

Mən də səni seçdim. Bu yaşda mənə ləl-cəvahirat nə lazım? Kişiyə də, arvada da biz yaşda yalnız və yalnız qulaq yoldaşı lazımdır. Odur ki, səni götürüb, aparıram dədəm evinə...

Kişi səhvini boynuna alıb, yolun yarısından sədaqətli, dəyanətli ömür-gün yoldaşının arabasının səmtini dəyişdirir... Şirinli-acılı günlər keçirdiyi öz ata yurduna, dudmanına qayıdırlar.

# TEYMURLƏNGİN ARVADI BİBİXANIM VƏ MEMAR ƏHVALATI

Rəvayətə görə, ulu Teymur gözəl xanımı Bibixanımın şərəfinə gözəl bir tarixi yadıgar-məscid tikdirmişdi. Bu məscid haqqındakı əfsanə saf, təmiz məhəbbətin qüdrətini, ilahi gözəlliyini əks etdirir. Bu əfsanəyə görə, həmin məscidi Teymurləngin arvadı Bibixanım tikdirmişdi. Əri növbəti ölkələr fəth etmək üçün hərbi yürüşlərə gedən zaman məscidin tikintisinə rəhbərliyi sevimli xanımı Bibixanıma tapşırmışdı. Bibixanım işin keyfiyyətlə və sürətli aparılması üçün səylə çalışırdı. İstəyirdi ki, dünyanı lərzəyə salan fateh əri qayıdana qədər bu məşhur, tarixi abidəni tikdirib qurtarsın. Lakin onun səylərinə baxmayaraq, tikinti ləng gedirdi. Bibixanım elə buna görə baş memarı yanına çağırıb, bunun səbəbini soruşdu.

Baş memar rəng verib, rəng aldı. Lakin iradəsini toplayıb, ürəyindən keçənləri Bibixanıma anlatdı. Bildirdi ki, o Bibixanıma vurulub. Onun gözəl sifətinə doyunca baxmaq üçün tikintini yubatdırır. Dediyinə görə, tikinti nə qədər yubanarsa, o da gözəllikdən süslənmiş bu ilahi varlığın üzünə daha çox baxa bilər. Təsəllini bunda tapar.

Uzun danışıqdan sonra işi sürətləndirməyin yeganə şərti olaraq, onun məhəbbətini istəmişdir. Cavabında Bibixanım demişdi:

-Kənizlərimdən hansını istəsən seç, sənə bağışlayıram. Amma bu fikirdən keç, fikrindən daşın. Qadın qadındır. Bax, bu boyalı yumurtaları görürsənmi, hərəsi bir rəngdə, müxtəlif ölçüdədir. Görünüşləri qırmızı, biri yaşıl, biri göy, biri sarı və sair rənglərdədir. Əlavə olaraq biri yumru, biri uzunsov, biri iri, biri xırdadır. Amma sındırıb yeyəndə görürsən ki, hamısı bir dadır. Qadınlar da belədir.

Memar etiraz edib bildirmişdir ki, bu iki stəkandakı mayenin ikisi də ağ rəngdədir. İkisi də dupdurudur. Lakin biri adi sudur, o biri al şərabdır. Birini içəndə adama heç bir təsiri olmur, o biri adamı içəridən qızışdırır, ürəyinə od salır. Qadınlar da belədir!

Memarın böyük məhəbbəti qarşısında əlacsız qalan Bibixanım duvağının üstündən ona bir busə verməyə razı olur. Lakin memarın məhəbbət odu ilə yanan nəfəsi duvağın üstündən də Bibixanımın üzünü qarsır və orada silinməz iz qoyur.

Hərbi yürüşdən qələbə ilə qayıdan Teymur uzaqdan yeni ucalmış əzəmətli məscidi görüb nə qədər sevinirsə, arvadının üzündəki ləkədən o qədər narahat olur Soruşur:

-Bu nədir?

Bibixanım hər şeyi olduğu kimi nəql edir.

Dəhşətli dərəcədə qəzəblənmiş Teymur əmr edir ki, memarı tutub hüzuruna gətirsinlər. İşin nə yerdə olduğunu bilən memar qaçıb məscidin minarəsinə qalxır və göyərçin olub səmalarda uçur. Səmanın mavi rənginə qarışaraq gözdən itir.

## SİZİ ALLAH HESAB EDİRDİM

Böyük fransız filosofu Volteri gerçək istəyən bir alim onun yaşadığı yerə getmiş və yazıçının qardaşı qızı Deni tərəfindən mehribanlıqla qarşılanmışdı. Ancaq alim nə qədər gözləmişdisə Volteri görə bilməmişdi. O çıxıb getməkdən qabaq belə bir məktub yazıb qoymuşdu. "Mən sizi həmişə Allah hesab edirdim. İndi tamamilə arxayın oldum ki, haqlıymışam. Çünki sizi görmək mümkün deyildir".

Bu duzlu, həm də tikanlı qeyd Volterin o qədər xo-

şuna gəlmişdi ki, o qonağın arxasınca qaçmış, onu qucaqlayıb öpmüşdü.

## AŞIĞA CAVAB

Dağ kəndlərinin birində Qurban adlı bir kişi xırman döyürmüş. Boyunduruğun bir tərəfinə at, bir tərəfinə də eşşək qoşmuşdu. İmkansızlıq, kasıbçılıq olduğuna görə Qurban kişi məcburiyyət qarşısında belə etmişdi. Atla eşşək də boyunduruqda uyğun gəlmir, gah at qabağa gedir, gah da xırmandan kənara çıxırdılar. Bunun əzabını da Qurban kişi çəkirdi. Hövsələsi tükənirdi.

Bu vaxt yoldan bir aşıq keçirdi. Çiynində sazı, yanında balabançısı var idi. Aşıq Qurban kişiyə "Bərəkətli olsun, yorulmayasan, qollarına qüvvət"-demək əvəzinə söz atır:

-A kişi, atı qoşubsan boyunduruğa, lap yaxşı.

Bəs o boğazına bağladığın nədir?

Qurban kişi cavab verir:

-O da aşığın yanında balabançısı olan kimi bir şeydir.

Cavab yersiz söz atan aşığa şillə kimi dəyir.

## M.F.AXUNDOVUN MÜDRİKLİYİ

Böyük mütəfəkkir, görkəmli yazıçı, dramaturq, ictimai xadim olan M.F.Axundov xalqının maariflənməsi, elm və mədəniyyət, təhsil sahəsində irəliləməsi üçün əlindən gələni əsirgəmirdi.

O, həmvətənlərinə kamillik dərəcəsinə yüksəlmək üçün aşağıdakı yeddi vəzifəni yerinə yetirməyi tövsiyyə edirdi.

O yazırdı:

-İnsanların yeddi vəzifəsi vardı. Əgər insan onların hamısını yerinə yetirərsə, kamil adam sayılar. Əgər bəzilərini yerinə yetirib, bəzilərini yetirməzsə, naqis insan sayılır və əgər bu yeddi vəzifədən heç birini yerinə yetirməzsə, bəşəriyyət dairəsindən çıxaraq, heyvanlıq dərəcəsinə daxil olar.

Birinci vəzifə ondan ibarətdir ki, insan pis əməldən çəkinməlidir.

İkinci vəzifə ondan ibarətdir ki, insan yaxşılıq etməyə çalışmalıdır.

Üçüncü vəzifə ondan ibarətdir ki, insan zülümü dəf etməyə çalışmalıdır.

Dördüncü vəzifə bundan ibarətdir ki, insan öz həmnövləri ilə cəmiyyətdə müttəfiq yaşamalıdır.

Beşinci vəzifə bundan ibarətdir ki, insan elm dalınca getməlidir.

Altıncı vəzifə bundan ibarətdir ki, insan hər yerdə elmi yaymağa çalışmalıdır.

Yeddinci vəzifə bundan ibarətdir ki, insan öz qüvvəsi və imkanı daxilində özünə müttəfiq olan cəmiyyət, öz həmvətənləri və öz həmfikirləri içərisində qayda və qanunları mühafizə etmək uğrunda mübarizə aparmalıdır. Bu çətin mübarizə yollarında sabaha doğru istiqamətlənmiş işıqlı yolları göstərməlidir.

## BURDA MƏNƏM, BAĞDADDA KOR XƏLİFƏ

Nəvələri hər axşam babanın başına toplanar, yeni nağıl, rəvayət, maraqlı əhvalat danışmasını xahiş edərdilər. Bir dəfə nəvələrdən biri babadan soruşdu:

-Baba "Burda mənəm, Bağdadda kor xəlifə" mə-

səli necə yaranmışdır?

Baba dedi:

-Uşaqlar müsəlman dünyasında həmişə hakimiyyət uğrunda qanlı vuruşlar, qanlı hadisələr baş vermişdir. X əsrdən başlayaraq Bağdadda da hakimiyyəti ələ keçirmək xəlifə olmaq uğrunda müharibələr gedirdi. Bu müharibədə məğlub edilənlərin gözünü çıxarır, onları dilənçi, səfil vəziyyətə salırdılar. Belə xəlifələrdən birincisi Əl-Qahir adlı bir şəxs olmuşdur. O, məğlub edilərək, gözləri çıxarılmış və 17 il şikəst yaşamışdır. Xəlifə Əl Mütəkki isə kor ediləndən sonra 24 il yaşamışdır. Ondan sonra taxta çıxmış Əl Müstəqfinin də gözləri çıxarılmışdır. Həmin gözləri çıxarılan xəlifələr də yaşadıqları müddətdə özlərini təkəbbürlü aparar, təkəbbürlü olmaları ilə fərqlənər, özlərini yekəxana aparardılar. "Burda mənəm, Bağdadda kor xəlifə" məsəli də həmin münasibətlə yaranmışdır. Hazırda bu ifadə özünü çox yüksək tutan, özünü hamıdan ağıllı, savadlı, fərasətli hesab edən, özündən başqa, heç kimi bəyənməyən, başqasının rəyini eşitməyən adamlar haqqında işlədilir.

## GÖZÜ ÇIXAN QARDAŞ

Şir, Canavar və Tülkü dost olurlar.

Şir deyir:

-Gəlin ova çıxaq.

Onlar bir inək, bir keçi və bir dovşan ovlayırlar. Geri qayıtdıqdan sonra Şir üzünü Canavara tutub onu bölməyi tələb edir.

Canavar inəyi Şirə verir, keçini özünə götürür, dovşanı isə Tülkünün qabağına atır.

Şir Canavarın belə bölgü aparmasından qəzəblənir. Onun başına möhkəm bir pəncə vurub, hər iki gözünü çı-

xarır. Tülkü Şirin qarşısında baş əyib deyir.

-Ey hörmətli Şir, bunu bölməyə nə var ki? İnək sizin günorta yeməyiniz, keçi axşam yeməyiniz, dovşan isə qəl-yanaltınız.

Şir bu sözlərdən xoşlanıb Tülkünü tərifləyir və belə "ədalətli" bölgünü kimdən öyrəndiyini soruşur. Tülkü bir tərəfdə yıxılmış Canavarı göstərib deyir:

-O, gözü çıxmış qardaşımdan öyrəndim.

## ÖZ GÜCÜNÜZƏ VƏ AĞLINIZA ARXALANIN

Bir hökmdar sarayda yüksək vəzifəyə adam təyin etmək üçün ölkəsindəki qabaqcıl insanları sınaqdan keçirməyə qərar verir. Bunun üçün ətrafına güclü və ağıllı adamları toplayır. Hökmdar onları indiyə qədər görünməyən böyük bir qapının yanına gətirərək deyir:

-Ey ağıllı insanlar, mənim bir problemim var. Bu problemi kimin həll edəcəyini görmək istəyirəm. Qarşınızdakı hökmdarlığın ən ağır və ən böyük qapısıdır. Kim bu qapını aça bilər?

Saray adamlarının bəziləri başlarını aşağı salaraq, qapını aça bilməyəcəklərinə eyham vurmuşlar. Saray adamlarına nisbətən daha ağıllı insanlar qapını bir xeyli nəzərdən keçirdikdən sonra bu işdə aciz qaldıqlarını etiraf etmişlər. Bu ağıllı adamlar belə deyən zaman saray əhli problemin həll edilməyəcək qədər çətin olduğuna inandılar.

Ancaq bir vəzir qapının yanına gələrək onu nəzərdən keçirmiş, əlləri ilə yoxlamış, açmaq üçün müxtəlif üsulları sınaqdan keçirmiş və nəhayət, qapıya toxunaraq açmağa müvəffəq olmuşdur. Sən demə, qapı açıq imiş. Adamlardan ancaq qapını açmağa cəhd etmək tələb olu

nurmuş. Əl ilə qapını açmaq heç kimin ağlına belə gəlməmişdir. Hökmdar vəzirə:

-Sən ancaq gördüyünə və eşitdiyinə inanmaqla kifayətlənmədin, öz gücünə arxalanmaq istəyini sınamaq qərarına gəldin. Buna görə də saraydakı vəzifəni sənə verirəm,-dedi.

## XOŞBƏXTLİK NƏDİR?

Bir kasıb uzaq bir səfərə çıxmalı olur. Ayağında ayaqqabısı, başında papağı olmadığı üçün bu səfər zamanı çox əziyyət çəkir. Ayaqlarını daşlar əzir, başını gün yandırır. Yorulub əldən düşür. Dincini almaq üçün oturur, dərindən düşünür, bu vəziyyətdə özünü ittiham etməyə başlayır. Özünü qınayaraq deyir ki, sənin tay-tuşların dəvə karvanları ilə yola çıxırlar, sən isə ayağına geyinməyə ayaqqabı da tapmırsan. Bu yaşa qədər gəlmisən, qarnına qarın dolusu çörək yediyini də xatırlamırsan. Bəli, kasıb özünü xeyli danlayandan, qınayandan sonra durub yoluna davam edir. Gəlib bir kəndin kənarına yetişir. Baxır ki, yolun kənarındakı iri bir daşın üstündə təxminən özü yaşda bir adam oturub. Yolçu diqqət edib görür ki, meh əsdikcə həmin adamın şalvarının balaqları havada oynayır. Baxır ki, adamın ayaqları dizdən aşağı yoxdur. Daşın dibində isə bir cüt qotazlı çarıq qoyulub. Əlini cibinə salır ki, ona bir şey versin. Amma onun cibində nə zaman pul olmuşdu ki? Yolçu kəndin çıxışındakı bir bulaqdan su içib, əl-üzünü yaxşıca yuyandan sonra yoluna davam edir. Daha onun ayaqları əvvəlki kimi ağrımırdı.

Bayaqdan çarığı olmadığına görə özünü qınayan yolçu ayaqları olmayan insanı görəndən sonra ayaqlı olmağın nə qədər xoşbəxtlik olduğunu sanki indi dərk elədi. Şükürlər etdi ki, çarıqsız da olsa, ayaqlı olmaq

böyük xoşbəxtlikdir. Çox vaxt insan özündən daha pis vəziyyətdə olanı görməyincə həyatı qiymətləndirməyi bacarmır. Yolçu da məhz bu hissləri yaşayırdı. Çoxumuz insanlardan fərqlənmək, hamıdan üstün olmaq istəyirik. Amma illərlə yataqda zillət çəkən xəstədən bu barədə soruşun və görün ki, normal addımlaya bilməyin, istədiyini yeyə bilməyin özü nə qədər böyük nemətdir. İnsan öz xoşbəxtliyini uzaq yolların o başında - Qaf dağının o üzündə axtarmamalıdır. Hər kəs əmin olmalıdır ki, onun könlünü rahat edən xoşbəxtlik hardasa ətrafdadır və onu tapmağa çalışmalıdır.

## İSMAİLİYYƏ NAKAM İSMAYILIN ADIN YAŞATDI

Bir gün Zeynalabdin Tağıyev Bakı milyonçusu Musa Nağıyevdən soruşur:

-Ağa Musa, Allah rəhmət eləsin oğlun Ağa İsmayıla. Onun xatirəsini əbədiləşdirmək istəyirsən?

-Əlbəttə, istəyirəm.

-Odur, mənim açdığım qız məktəbinin alt tərəfi boşdur. Orada bir mülk tikdir, adını qoyaq "İsmailiyyə". Heç olmasa yazığın adı yaddan çıxmasın. İstəyirsən, Musa?

-Əlbəttə istəyirəm.

Söhbəti eşidənlər Ağa Musanı təbrik edir, ona uğur diləyirlər. Səhər Ağa Musa başılovlu gəlir Tağıyevin evinə, başlayır giley-güzara:

-Ay Hacı, bu nə işdi sən mənim başıma açdın? Məni müflis edib, küçələrə salmaq istəyirsən?

-Nə olub a kişi, açıq danış.

-Atam, atam daha nə olacaq, o bina bir neçə min manata başa gələcək! Məndə o qədər pul hardan?

-Ağa Musa, varidatını 2 milyona almaq istəyirəm. Sat alım.

-Atam, atam, mənim 50 milyon manatlıq varidatımı 2 milyona almaq istəyirsən?-deyə hirslənir və Hacının evini tərk edir.

"İsmailiyyə" binası tikildi. Bu gün istiqlaliyyət küçəsində yerləşən Elmlər Akademiyasının binasına bir çox bakılılar indi də köhnə adı ilə "İsmayiliyyə" deyirlər. Milyonçu Musa Nağıyevin vaxtsız vəfat etmiş oğlu İsmayıl xalqımızın yaddaşında məhz bu binaya görə qalıb.

## HÖKMDAR VƏ FİLOSOF

Bir gün Makedoniyalı İsgəndər filosof Diogenlə görüşmək qərarına gəlir. Gənc Makedoniyalı hökmdarı Diogenə yaxınlaşanda filosof günün qabağında uzanıb qızınırdı. İsgəndər salam verib dedi:

-Diogen, əgər bir arzu-istəyin varsa, de, yerinə yetirim.

Diogen yerindən qımıldanmayıb, sakitcə dedi:

-İsgəndər, mümkünsə, bir az kənara çəkil, günün qabağını tutmusan.

Filosofun bu məğrurluğundan heyrətə gələn İsgəndər sonralar demişdir:

-And olsun tanrıma ki, əgər İsgəndər olmasaydım, Diogen olmaq istərdim.

## KİR VƏ TOMRİS

Qədim zamanlarda Azərbaycanda qədim Massaget tayfaları yaşayırdı. Onlara Tomris adlı müdrik bir qadın başçılıq edirdi. Bir dəfə qüdrətli İran hökmdarı Kir elçi

göndərib, Tomrislə evlənmək istədiyini bildirdi. Əslində o, bu yolla Massagetləri özünə tabe etmək istəyirdi. Tomris elçilərə rədd cavabı verdi. Bunu eşidən Kir bərk qəzəbləndi və Massagetlərə xəbər göndərdi:

-Bilin ki, mən qana susamışam. Ya tabe olun, ya da sizi qan içində boğacağam.

Beləliklə, İran ordusu ilə Massagetlər arasında müharibə başlandı. Döyüşlərin birində Kir hiylə işlədib, Tomrisin oğlunu əsir götürdü. Tomris Kirin yanına elçi göndərib dedi:

-Ey qaniçən, oğlumu qaytar, torpaqlarımı tərk et, yoxsa səni qanla doyduracağam.

Lakin Kir qadının sözlərinə əhəmiyyət vermədi. Tomrisin oğlu isə ölümü şərəfsiz həyatdan üstün tutaraq, özünə qəsd etdi. Son və qəti döyüşdə Massagetlər İran ordusunu darmadağın etdilər. Kir döyüş meydanında öldürüldü. Tomrisin əmri ilə onun başını qanla dolu tuluğa salıb Araz çayına atdılar. Bu dəhşətli mənzərəni seyr edən Tomris nifrətlə dedi:

-Sən qana susamışdın, indi iç doyunca.

Tomris qan tökmək istəmirdi. Lakin o, dostu duzçörəklə, düşməni isə qılınca qarşılamağı bacarırdı.

## ŞAH İSMAYIL

Şah İsmayıl Xətai 1487-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində, Şeyx Heydərin ailəsində dünyaya gəlmişdir. Onun atası ilə dayıları Sultan Yaqub və Rüstəm Mirzə arasında inciklik vardı. Şeyx Heydər döyüşdə həlak olduqdan sonra Rüstəm Mirzə İsmayılın qardaşlarını və anasını qətlə yetirdi. Şeyx Heydərin dostları yalnız balaca İsmayılı qaçıra bildilər. Rüstəm Mirzə eşidir ki, İsmayılı Gilanda gizlədirlər. Gilan hakiminin yanına adam göndərir

ki, ya İsmayılı ver, ya da boynun vurulacaq. Hakim deyir:

-Əgər Qurana and içsəm ki, İsmayıl Gilanda yoxdu, mənə inanarsınızmı?.

Rüstəm Mirzənin adamları deyirlər:

-İnanırıq.

Hakim tapşırır ki, İsmayılı gərməşov çubuqlarından toxunmuş səbətə qoyub, meşənin dərinliyində uca bir ağacın başından assınlar. Belə də edirlər. Bundan sonra Gilan hakimi əlini Qurana basır və deyir:

-And olsun Qurana ki, şeyx Heydər oğlu İsmayılın ayaqları mənim torpağıma dəymir.

Rüstəm Mirzənin adamları çıxıb gedir. Bu hadisədən altı il sonra 14 yaşlı İsmayıl tərəfdarların köməyi ilə hakimiyyətə gəlir.

## ŞAH İSMAYIL VƏ SULTAN SƏLİM

1514-cü ildə Osmanlı qoşunları Azərbaycana hücum etdilər. Cənubi Azərbaycanın Maku şəhəri yaxınlığındakı Çaldıran adlı yerdə qoşunlar üz-üzə gəldilər. Üç gün çəkən bu döyüşdə Şah İsmayılın qoşunu Sultan Səlimin sayca çox olan qoşununa məğlub oldu. Rəvayətlərin birində deyilir ki, Şah İsmayıl Çaldıran döyüşündə qılıncı ilə topların zəncirini doğrarkən bir topun lüləsini də kəsir. Bunu eşidən Sultan Səlim döyüşdən sonra ismarıc edir ki, İsmayıl həmin qılıncı ona göndərsin, Şah İsmayıl qılıncını Sultan Səlimə göndərir. Sultan saray əhlini yığır və onların gözü qarşısında qılıncla topa zərbə vurur. Heç nə hasil olmur. Şah İsmayıla məktub yazır ki, yəqin o, Çaldıranda məğlub olduğuna görə həmin qılıncı göndərməyib. Az sonra Sultan Səlim Şah İsmayıldan cavab alır. "Qılınc həmin qılıncdır, qol həmin qol deyil!"

## ADAMLAR DÜZƏLSƏ, DÜNYA DA DÜZƏLƏR

Yay tətili zamanı ata hər səhər oğluna söz verirdi ki, axşam onu gəzməyə aparacaq. Lakin hər dəfə işdən yorğun qayıdan ata sözün yerinə yetirə bilmirdi.

Bir axşam yenə uşaq atasına yaxınlaşıb, səhərki söhbəti ona xatırladır. Onda ata bir xəritə götürüb, onu qayçı ilə kəsərək bir neçə hissəyə bölür. Oğluna verir ki, xəritəni düzgün bərpa etsin. Yalnız bu halda onu gəzməyə aparacağını bildirir. Ata əmin idi ki 6-cı sinifə keçən oğlu bu işin öhdəsindən gələ bilməyəcək.

Beş dəqiqə keçmir ki, oğlu kəsilmiş hissələri yapışdıraraq, bərpa olunmuş hissəni sakitcə atasının qarşısına qoyur. Ata bu işi necə elədiyini soruşur:

-Ata, xəritənin arxasında adam şəkli var idi. Adamı düzəltdim, dünya da düzəldi.

Ata dodaqaltı dərdli-dərdli pıçıldadı:

-Bəli, sinələrinə döyüb, mənəm-mənəmlik iddiasından əl çəkməyən adamlar düzəlsə, dünya da düzələr.

## ŞEYX SƏFİ KİTABXANASI NECƏ OĞURLANDI

Şah İsmayılın babası Şeyx Səfi (1252-1334) Ərdəbildə zəngin bir kitabxananın əsasını qoymuşdu. Şah İsmayıl hakimiyyətə gələndən sonra babasının məqbərəsinə bitişik möhtəşəm bina tikdirərək kitabxananı ora köçürdü.

O, xaricdən gəlmiş səyyahları və dövlət xadimlərini bu kitabxanada qəbul edirdi.

XIX əsrin əvvəllərində İran ruhanilərinin rəhbərlik etdiyi Şeyx Səfi kitabxanası şərqdə ən zəngin kitabxana-

lardan biri sayılırdı. Burada olmuş rus şərqşünas alimləri kitabxananı ələ keçirmək üçün öz hökmdarlarına müraciət edirlər. Beləliklə, 1828-ci ildə Ərdəbili tutan rus generalı Suxtelen Şeyx Səfi kitabxanasının Rusiyaya köçürülməsi barədə tapşırıq aldı. O, kitabxanadakı din xadimlərini toplayaraq onlara dedi:

-Şeyx Səfi kitabxanasındakı kitablar Peterburqa aparılmalı, orada rus dilinə tərcümə olunmalıdır. Bundan sonra bütün kitablar geriyə - Ərdəbilə qaytarılacaq. Bunu deyib, o Şeyx Səfinin məzarı üstünə 800 qızıl onluq qoydu. Tamah din xadimlərinə güc gəldi və onlar kitabxananın daşınmasına icazə verdilər. Beləliklə, bir çox Azərbaycan şairlərinin və ustad xəttatların xətti ilə yazılmış nadir incilər Rusiyaya, ordan da dünyanın bir çox muzey və kitabxanalarına səpələndi.

Tamahın boğa bilməyənlərin ucbatından ən qiymətli mənəvi və maddi sərvətlərimiz də əlimizdən belə alındı.

## ELÇİYƏ ZAVAL YOXDU

Bu ifadə çox qədim tarixi olan bir adətlə əlaqədardır. Qalıb hökmdarlar məğlubları həmişə öz əsarətində saxlamaq üçün onların yaxın adamlarını zaval olaraq öz saraylarına gətirir, orada yaşamağa məcbur edirdilər. Eramızdan əvvəl 659-cu ildə Manna hökmdarı Ahşeri Assuriya ilə müharibədə öldürüldükdən sonra onun oğlu qaliblərlə sülh bağlayır və zaval olaraq öz qızını və oğlunu Assurbanıranın sarayına göndərir. Tarixdə bu cür faktlar çoxdur.

Bu mənada "Zaval" sözü girov anlayışına uyğun gəlir. Zaval kimi sarayda saxlanan adamlar özlərini azad, sərbəst hesab edə bilmirdilər. Yad mühitdə aciz, yazıq

görkəm alırdılar. Buradan da "zavallı" sözü meydana gəlmişdir.

Elçi sifəti ilə göndərilən şəxs ilə zaval olaraq saxlanıla bilməzdi. "Elçiyə zaval yoxdur" ifadəsi bu adətlə bağlıdır. Yəni elçini girov götürmək olmaz.

## DOQQUZLUQ GƏLMƏK

Bu ifadə dilimizdə "aldatmaq" mənasında işlənir. Qədim türk xalqlarında uğurlu və müqəddəs bir say kimi qəbul edilmişdi. Birisinə hədiyyə verərkən doqquz ədəd qiymətli şey alarmışlar. Tarixdən məlumdur ki, hicri 968-ci ildə türk Sultanı İran Şahı Təhmasibə doqquz baş at göndərmişdi. Onun göndərdiyi başqa hədiyyələrin də sayı doqquz ədəd olmuşdur. Hər birindən doqquz (Doqquz-doqquz) dənə göndərilən əşyaları bir hesab etmək (bir doqquz) onları göndərən şəxsə böyük cəfa əziyyət olurdu ki, bununla əlaqədar doqquzunu birə saymaq ifadəsi yaranmış və incitmək "əziyyət vermək" mənası kəsb etmişdir.

Bu doqquzlama adəti zaman keçdikcə funksiyasını itirir, real tərzində həyata keçirilməlidi.

Odur ki, hər şeyi doqquz vəd edib, onu yerinə yetirməmək anlayışı dildə "Doqquz" gəlmək (kələk gəlmək) ifadəsi şəkilində öz əksini tapıb.

İndi də biri digərinə kələk gəlmək istəyəndə əks tərəf bunu başa düşəndə deyir:

-Mənə "doqquz" gəlmə.

Öz diplomatik uğuru ilə Şirvani Teymurləngin talanından xilas edən Şirvanşah Xəlilülah İbrahim haqda da belə bir deyim işlənmişdi:

"Şirvanşah Teymurləngə doqquz gəldi".

## BARMAQ HESABI GÖSTƏRMƏK

Bu məsəl aldatmaq, söz verib üstündə durmamaq, heç bir şey verməmək mənasında işlənir. Bu məsəl haqqında məşhur Azərbaycan aktyoru N.Sarabski yazır.

İndi də mən barmaq hesabının nə olduğu haqqında məlumat verim.

-Bir kişi bir çobana yüz qoyun tapşırıb, bir il sonra alacağını bildirmişdi. Çoban isə qoyunların başına daş salıb, axırıncı qoyunun da başını kəsir. Qoyun sahibi çobanı gülər üzlə qarşılayır. Çoban isə barmaqlarını qatlayaraq qoyunlarının hesabını verməyə başlayır.

-Dolamadan dovdaq uçdu, həştadı ürkiyə düşdü. Qayadan uçdu dörd toğlu, dalınca da beş toğlu. Burdan getdik Muğana, üçün verdik soğana. Beşin verdik Fatı üçün tumana.

Biri yanı üstə yatdı.
Biri palçığa batdı.
Dünən ölüb birisi.
Bu da onun dərisi.

Biri bir nəfəri aldadanda, ona kələk gələndə deyirlər ki, barmaq hesabı gəldi.

## KOROĞLU, SÖZ DƏYİRMANDAKIDIR

Bu məsəl "Koroğlu" dastanından "Həmzənin Qıratı qaçırması" qolunda Həmzənin dilindən verilmişdir. Nə vaxtsa danışılmış şərtə və ya deyilmiş sözə eyham vurmaq məqsədi ilə işlədilir.

Dəyirmanda aldanmış Koroğlu Həmzəyə çox yalvarır ki, Qıratı qaytarsın. lakın keçəl Həmzə razı olmur. O deyir:

-Mən bilirəm ki, sən axırda gəlib Qıratı aparacaqsan. Öz atına sahib olacaqsan. Mən ona görə belə edirəm ki, ortada ağ bir günə çıxam. Hər nə vaxt ki, Toqata gəldin, atın üzəngisini özüm basıb, səni ona mindirəcəyəm.

Bir müddətdən sonra Koroğlu aşıq paltarında Toqata gəlir. Hasan paşa,adamları onu Qıratın yanına gətirirlər ki, Koroğlunun mahnılarından oxumaqla atı sakitləşdirsin. Guya at dəli olmuşdu, xəstələnmişdi. Bu yerdə Həmzə Koroğlunu tanıyır və özünü verir tövlənin qabağına. Həmzə görür ki, Koroğlu at yedəyində çıxdı tövlənin qabağına. Tez yüyürüb, atın üzəngisini basır və deyir:

-Koroğlu, söz dəyirmandakıdır.

## DƏRVİŞ VƏ YOLÇU

Qədimdə qəbul edilmiş qaydalara görə dərviş heç vaxt yalan danışmamalı və xəbərçilik etməməlidir.

Günlərin bir günü dərviş çöllü-biyabanda bir daş üstündə oturub dincini alırdı. Bu zaman bir adam onun yanından keçir, ayaq saxlayıb deyir:

-Ağa dərviş, mən şahın qəzəbinə gəlmişəm. Onun adamları məni axtarır. Sən Allah, hara getdiyimi soruşsalar, onlara heç nə demə.

Yolçu bu sözləri deyib yoluna davam etdi.

Bir azdan şahın adamları həmin yerə gəlib çıxdılar. Onlar bir adamı görüb-görməməyin soruşdular.

-Ey dərviş, burdan adam keçməyib?

Dərviş ayağa durdu.

Əvvəl oturduğu daşın yanından bir az aralanıb yuxarı çıxdı.

Bundan sonra şahın adamlarına dedi:

-Mən burda durduğum vaxt burdan adam keçməyib.

Beləliklə, dərviş həm yalan deməkdən , həm də xəbərçilik etməkdən qurtuldu.

## DİLİN BƏLASINA DÜŞMƏK

Bir çoban çöldə qoyun otarırdı. O, atını ağaca bağlamışdı. Yaxınlıqdan keçən bir varlı atını saxlayıb həmin ağaca bağladı. Özü də süfrəsini açıb çörək yeməyə başladı. Bunu görən çoban qışqırdı:

-Atını başqa ağaca bağla. Mənim atım vəhşidir. Vurub sənin atını öldürər.

Varlı cavab verdi:

-Heç nə olmaz, mənim atım özünü qoruya bilir. Bir azdan atlar dalaşmağa başladı. Çobanın atı şıllaq atıb, varlının atını öldürdü. Varlı yapışdı çobanın ətəyindən ki, atımın pulunu ver. Çoban qəti etiraz etdi. Axırda hakimin yanına gəlməli oldular. Divanxanaya çatan kimi varlı adam hakimə dedi:

-Bu çobanın atı mənim atımı təpiklə vurub öldürdü. İstəyirəm ki, atın pulunu versin. Hakim ədalətli adam idi. O, çobandan soruşdu:

-A kişi bu adam düzünü deyir?

Çoban dillənmədi. Hakim nə qədər çalışdısa, çobandan səs çıxmadı. Axırda hakim dedi:

-Deyəsən, bu çoban laldır. Ona görə başqa şahid tapmayana qədər mən sizin şikayətinizi qəbul etməyəcəyəm.

Varlı özündən çıxdı:

-Lal-zad deyil. Bir az bundan əvvəl dil-dil ötürdü.

-Nə deyirdi ki?

-Deyirdi ki atını mənim atımın yanına bağlama. Atını vurub öldürə bilər.

-Aha, deməli o, səni xəbərdar edib. Onda günah sənin özündədir.

Sonra hakim üzünü çobana tərəf tutdu:

-Çoban qardaş, bəs bayaqdan niyə dinmirsən?

Çoban dedi:

-Mən istəyirdim ki, bu kişi həqiqətin hamısını söyləsin.

Beləliklə, varlı adam öz dilinin bəlasına düşdü.

## ELM ÜSTÜNDÜR, YOXSA MAL?

"Mən elmin şəhəriyəm, Əli də bu şəhərin qapısıdır!" Bu sözləri ulu Peyğənbərimiz Məhəmməd Rəsulullah söyləmişdi. O, öz əmisi oğlu Əlinin ağlını və dərrakəsini çox yüksək qiymətləndirirdi. Allahın Aslanı ləqəbini qazanmış Əli İbn Əbutalib həmişə elmi var-dövlətdən üstün tuturdu. Həzrət Əlinin yüksək elminə şübhə edən bir neçə şəxs sözü bir yerə qoyur ki, bir-bir gedib Əliyə "Nəyə görə elm var-dövlətdən üstündür?,- deyə sual etsinlər. Əgər Əli hamıya eyni cür cavab versə, deməli, o, bir o qədər də elmli deyil.

Belə də edirlər. Bir-bir onun hüzürüna gedirlər. Həzrəti Əli biriciyə belə cavab verir:

-Elm üstündür. Çünki elm peyğəmbərlərdən, var-dövlət isə hökmdarlardan mirasdır.

İkinciyə deyir:

-Elm daha önəmlidir. Çünki elm sahibini qoruyur, malı isə sahibi qoruyur.

Üçünciyə isə deyir:

-Elm daha böyük ləyaqətdir.

Çünki mal sahibinin düşmənləri çoxdur, elm sahibinin isə dostları.

Dördüncüyə belə deyir:

-Elm daha üstündür. Çünki malı payladıqca azalır, elmi payladıqca çoxalır.

Beşinciyə cavab belə olur:

-Mal sahibinə "xəsis" deyərlər, elm sahibinə isə hörmətlə xitab edərlər.

Altıncı:

-Mal qəlbi qaraldır, elm isə nurlandırır, deyə yola salır.

Yeddinciyə cavab verir:

-Elmə çatan istəsə mala da çatar. Mala can atan isə elmdən uzaqlaşar.

Həzrəti Əlinin biliyini yoxlamaq istəyənlər onun elmin yüksək zirvədə olduğunu başa düşüb, Allahın Aslanını rahat buraxdılar.

## VAXTSIZ BANLAYAN XORUZUN BAŞIN KƏSƏRLƏR

Dilini ağzında saxlaya bilməyən, başqasının sirrini açan, yerli-yersiz danışan adamlar haqda belə deyirlər. Atalar sözü kimi işlədilən bu ifadənin yaranması qədim zərdüşlük ilə əlaqədardır. "Avesta"-da deyildiyinə görə, Yer üzündə birinci insan və birinci padşah Kəymurəs divlər tərəfindən öldürülmüş oğlu Hüşəngin intiqamını almaq üçün gedərkən bir ağ xoruzun bir ilanla vuruşduğunu və banladığını görüb Kəymurəs ilanı öldürür. Xoruzun banladığını yaxşı əlamət hesab edib evə gətirir.

İllər keçir. Bir dəfə xoruz axşam vaxtı banlayır.

xoruz bu vaxta qədər axşamlar banlamazmış. Ona görə adamlar xoruzun axşam vaxtı banlamasını yaxşı əlamət hesab etmirlər. Xoruzun bu vaxtsız banlamasından sonra gəlib gördülər ki, Kəymurəs ölüb. Bundan sonra xoruzun axşam (vaxtsız) banlaması yaxşı əlamət hesab edilmir. Guya belə xoruzun başı kəsilməsə, fəlakət üz verər.

## HÖKMDAR VƏ ALİM

Böyük alim, filosof Nəsrəddin Tusinin ən böyük xidmətlərindən biri Marağa rəsadxanasının yaradılması olmuşdur. Tusi Marağada tikiləcək rəsədxananın xərci haqqında Hülakü xana xəbər verdikdə hökmdar təəccüblə soruşmuşdu:

-Ulduzlar elminin nə faydası var ki, rəsədxanaya bu qədər pul qoyula?

Bu sualı eşitdikdə böyük alim məyus olmuşdu. O, tələb etmişdi ki, br neçə nəfər böyük bir çəlləyi şəhərin yanındakı təpəyə qaldıraraq oradan aşağı buraxsınlar. Çəllək vahiməli səs küy sala-sala aşağı yuvarlandıqca şəhər əhalisi arasında çaxnaşma düşmüşdü. Kimi zəlzələ baş verdiyini zənn edib təşvişə düşür, kim də burdan qaçmağa başlayır. Tusi və hökmdar kənarda dayanıb bu mənzərəni sakitcə seyr etmişlər.

Səs-küy ötdükdə Nəsrəddin Tusi hökmdara demişdi:

-Bu səs-küyün səbəbi bizə məlum olduğundan sakit idik. Əhali isə bunu bilmədiyindən narahat oldu. Yerdə sakit yaşamaq istəyirsənsə, göydəki hadisələri müşahidə etmək və öyrənmək lazımdır.

Bu yolla N.Tusi Hülakü xanı rəsədxananın tikintisi üçün lazım olan pulu verməyə razı salmışdı.

## İBN SİNA VƏ BƏHMƏNİYAR

Bir gün İbn Sina dəmirçi dükanının qabağından keçirmiş, Elə bu zaman bir uşaq yüyürə-yüyürə gəlib özünü çardağın altına salır, tövşüyə-tövşüyə dəmirçiyə deyir:

-Usta, anam deyir ocağımız keçib, köz versin.

Usta döşdüyü ilə alnının tərini silib uşağın əlinə baxdı. Get bir qab gətir, ovcunda aparmayacaqsan ki,?

Uşaq ayaqlarını yerə döydü.

-Apararam, sən od verməkdə ol!

Usta uşuğın üzünə baxıb başını buladı.

-Bala, yoxsa sənin əlin dəmirdəndi?

-Özüm bilərəm, sən közü ver, neyləyirsən necə aparacağam?

Usta baxdı ki, bu tərs uşağı sözlə başa sala bilmir.

Maşa ilə kürədən qıpqırmızı bir köz götürdü.

Yönünü bəri çevirəndə gördü ki, uşaq yerdə ovucuna torpaq yığıb, ona sarı uzadıb. Usta uşağın ağlına mat qaldı.

İbn Sinanı da heyrət götürdü, uşağın ağlına heyran qaldı.

Adını soruşdu.

Uşaq dedi:

-Bəhmənıyardır.

Belə deyirlər ki, İbn Sina həmin gündən Bəhməniyarın valideyini ilə danışıb, təlim-tərbiyyəsini öz üzərinə götürdü. Bir alim kimi onu yetişdirməyə başladı. Deyilənlərə görə, Azərbaycan nağıllarından bizə tanış olan loğman və onun şagirdinin protipi İbn Sina və Bəhməniyardır.

## MANQURT

İuanjianlar əsir tutduqları düşmən əsgərlərlə çox amansız davranırmışlar. İmkanları olduqda onlar əsiri qonşu ölkələrə qul kimi satmışlar. Bu əsir üçün xoşbəxtlik hesab olunurmuş. Çünki xilas olmağa ümid yeri qalırdı.

İuanjianların özləri üçün qul saxladıqları əsrləri dəhşətli tale gözləyirdi. Onların başına dəvə dərisi keçirib, dözülməz işgəncə verərək yaddaşını tamam yox eləyirmişlər. Bu işi, adətən davalarda əsir götürülmüş cavan döyüşçülərin başına gətirmişlər. Əvvəlcə dəvə kəsirmişlər. Dəvənin dərisini hissələrə bölüb buğlana-buğlana başı qırxılmış əsirlərin başına keçirirmişlər. Dərinin kəsilməyi ilə qırxıq başa yapışdırılmağı bir olurmuş. Başına dəri geydirilmiş əsrin tükləri qalın dəvə dərisini deşə bilməyib, içəriyə doğru uzanırmış və onun beynini zədələyib, yox edirmiş. Bu cür əsirlər keçmişi unudar, heç vaxt ağasına qarşı çıxmazmış. Belə əsirlərə manqurt deyirmişlər.

İndi kökünü, soyunu unudan, milli adət-ənənələri, milli varlığı yaddan çıxaran, buna məhəl qoymayan adamlara qarşı bu ifadəni işlədirlər.

## İBN SİNANIN UŞAQLIĞI

İbn Sina uşaq olarkən onların qonşuluğunda Ömər adlı həmyaşıdı yaşayırmış. Onlar bir mədrəsədə oxuyurmuşlar. Ömərin ən çox istədiyi ifadə "Mənə ver" İbn Sinanınki "Nə üçün" imiş. Uşaqların əlinə pul düşəndə Ömər fındıq, İbn Sina kitab alarmış.

Bir dəfə müəllim sinifdə Ömərin atası ilə söhbət edərkən İbn Sinanı tərifləyib onu Ömərə nümunə göstərir. Ömərin atası etiraz edir.

Deyir:

-Axı onlar eyni məktəbə, eyni müəllimin yanına gəlirlər. Bu necə ola bilər?

Müəllim ovcunu tutub Ömərə deyir:

-Oğlum, ovcumda iki buynuzlu, bir quyruqlu, dörd qıçı olan qara rəngli bir şey var.

Tap görüm ovcumdakı nədir? Ömər bir az fikirləşib sevincək deyir:

-Tapdım, camışdır.

Müəllim Ömərin atasını kənara çəkib deyir.

-Gördünüz, oğlunuzun az-çox savadı var, amma düşünmə qabiliyyəti, dərrakəsi yoxdur.

Sonra eyni sualla İbn Sinaya müraciət edir. İbin Sina cavab verir:

-Əlinizin içindəki camış şəkli ola bilər.

Uşağın cavabından müəllim razılıqla gülümsünür, onun məntiqi təfəkkürünə heyran qalır.

## XOŞBƏXTLİK VAR-DÖVLƏTLƏ ÖLÇÜLMÜR

Miladdan öncə VI əsrin ortalarında Asiyada iki böyük dövlət var idi. Midiya və Lidiya dövlətinin hökmdarı Krez adlı bir padşah idi.

Deyirlər ki, Krezin var-dövləti başından aşıb daşırmış. "Krez kimi varlıdır" ifadəsi də o dövrdən yaranıb. Varlı olduğuna görə Krez özünü çox xoşbət sayırdı. Bir gün Krez Afina hakimi Salonu qonaq çağırdı. O, müdrik Salona qızıl və daş-qaşla dolu xəzinəsini göstərib dedi:

-Sən mənim qədər xoşbəxt adam tanıyırsanmı?

Salon cavab verdi:

-Çox adamlar tanımışam ki, korluq çəkmədən uzun ömür sürüblər və sevimli dostlar arasında dünyala

rını dəyişiblər. Elə xoşbəxtlər də tanıyıram ki, vətəni uğrunda həlak olublar və həmvətənləri tərəfindən hörmətizzətlə dəfn ediliblər, indi də yad edirlər.

Sən mənim xoşbəxtliyimi bu sadə adamların adı həyatı ilə müqayisə edirsən?

-Padşah, sənin xoşbəxtliyinin haqqında o vaxt danışmaq olar ki, yaşadığın kimi də ömrünü başa vura biləsən.

Krez Salonun sözlərindən bir o qədər də xoşlanmadı. Ancaq bu sözləri yadında saxladı.

Bir neçə il keçdi. Midiyada fars əsilli Krez öz babası Astiaqı devirib İran Əhmənilər dövlətini yaratdıqdan sonra Lidiya ilə iran arasında müharibə başladı və Krez döyüşlərdən birində farslara əsr düşdü. Kir əmri verdi ki, Krezi tonqalda yandırsınlar. Krezi tonqalın yanına gətirəndə Salonun sözləri onun yadına düşdü və kədərli səslə qışqırdı.

-Ah, Salon, Salon!

Krezin qışqırdığını eşidən Kir əmr etdi ki, onu yanına gətirsinlər. Krez vaxtı ilə Salonla olan söhbətini Kirə danışdıqda Əhməni hökmdarı onu bağışladı.

Sonralar Kir Tomrisə qarşı müharibə edərkən Krez onun yanında məsləhətçi olmuşdu.

## BUNDAN FATIYA TUMAN ÇIXMAZ

Qədim əyyamlarda bir qarının Fatı adlı bir nəvəsi olur. Nəvəni çox ərköyün böyüdür. Nəvəsinə imkan verməzmiş ki, əlini ağdan qaraya vursun. Əlinə keçəni də Fatıya yedirdirmiş. Fatı həm də anadangəlmə gəlimli imiş. Yaş artıqca yoğunlayır, şişir, yekəpər, yaşından çox böyük görünən bir insana çevrilir.

Bir gün qarı ərinə tapşırır ki, Fatıya don tikdirmək üçün parça alıb gətirsin.

Kişi getdiyi şəhərdə bahalı bir parçadan Fatıya parça alır. Dükançı neçə metr parça lazım olduğunu soruşanda kişi Fatının yaşını deyir. Ona görə dükançı da bu yaş səviyyəsində parça vermişdi. Kişi sevincək parçanı aldığı başqa əşyalarla birlikdə evə gətirir. Qarı alınan parçanı nəvəsinin boyuna-buxununa tutur. Parçanın Fatının bədəninə uyğun olmadığını, az olduğunun görür və hirsli-hirsli deyir:

-Bundan Fatıya tuman olmaz!

Bundan Fatıya tuman olmaz!

Sonra bu söz-söhbət dilə-ağıza düşür. Bir iş alınmayanda deyirmişlər.

-Bundan Fatıya tuman olmaz. Fatıya 5-6 metr parça lazımdır ki, ona tuman tikmək olsun. Bundan Fatıya tuman olmaz!

## ƏLQƏMƏLİYƏ "SƏN ÖL" DEMİŞƏM

Dağ kəndlərinin birində Əlqəməli adlı bir şəxs sovet sədri vəzifəsində işləyirmiş. Əlqəməli kişi qanunpərəst, intizamlı, başqalarından da bunu tələb edən adam imiş. Sözü ağzından havayı çıxmazmış. Dediyi sözə əməl olunmalı imiş. Həm də işlədiyi müddətdə çalışmış ki, haqqı nahaqqa verməsin. Ona görə də kənddə nüfüz sahibi imiş. Həmin kənddə kasıb, əlsiz-ayaqsız hesab ediln bir sıravi kolxozçu var imiş. Bunun əsgərlik yaşı çatanda Əlqəməli kişi rayon hərbi komissarlığından göndərilmiş çağırış vərəqəsini həmin adama verir və əsgəri xidmətə getməli olduğunu bildirir. Adı Hümbətəli olan oğlan sovet sədrinə qəti etiraz edir ki, mən əsgərliyə getmə

yəcəm.

Müharibə dövrü kəndimizdən əsgər gedənlərin 50-60 nəfəri qayıtmayıb. Mən getsəm, anam acından ölər. O deyir, bu deyir, axırda əməlli-başlı qan qaralığı yaranır. Hümbətəli axırda çığıra-çığıra Əlqəməli kişiyə deyir:

-Sən bu kəndin uca kişilərindən birisən, hörmətli adamsan. Bax, sənə "sən öl" deyirəm. Mən əsgərliyə getməyəcəyəm.

Hümbətəli bir müddət dağda-daşda, aranda qohumlarıgildə gizlənir, gözə görünmür. İş yoğunlayır. İşə hərbi komissarın özü, milis rəisi qoşulmalı olur. Qohum-qəbilə də Hümbətəlini başa salmaq istəyir. Deyirlər ki, əsgərliyə mütləq getməlisən. Getməsən, səni həbs edərlər. O isə ağına-bozuna baxmadan deyirmiş:

-Mən kişiyəm. Əlqəməli kimi bir kişiyə "Sən öl" demişəm. Gedə bilmərəm. Bir mən əsgərliyə getməməklə sovet hökuməti yıxılmayacaq ki?

Axırda milis rəisi milis nəfərlərindən iki nəfəri Hümbətəlinin dalınca göndərir. Tapşırır ki, o gədəni yanıma gəirməyincə geri qayıtmırsınız.

Milis nəfərləri bir neçə gündən sonra dağda çobanların yanıda gecələyən Hümbətəlini yatdığı yerdə yaxalayırlar. Əllərin bağlayıb, qabaqlarına qatırlar. Nəhayət, bir-iki gündən sonra milis rəisinin yanına gətirirlər. Əsəbin cilovlaya bilməyən milis rəisi Hümbətəliyə bir tərs şillə vurur.

Deyir:

-De görüm, indi əsgərliyə gedirsən, ya yox?

-Yox gedə bilmərəm.

-A bala, niyə getmirsən ki? Səbəb nədi? Sənin taytuşlarının hamısı əsgəri xidmətdədir.

-Axı, mən Əlqəməliyə "Sən öl" demişəm. Ona

görə gedə bilmərəm. O kişinin üzünə baxa bilmərəm. Xəcalətli olaram.

Milis rəisi Hümbətəlinin bu sözündən qəh-qəh çəkib doyunca güldü. Sonra Hümbətəliyə dedi:

-Eyb eləməz, sən əsgərliyə getməyində ol. Biz Əlqəməlidən sənin əvəzindən üzr istəyərik.

## DULUSÇU VƏ ŞAGİRD ƏHVALATI

Bir vilayətdə öz işinin ustadı olan bir dulusçu var idi. O, öz işinin, sənətinin incəliklərini dərindən öyrənmişdi. Elə buna görə də hazırladığı dulusçuluq məmulatı bazarlarda yaxşı qiymətə satılardı. Hətta tacirlər bu ustad duluzçunun düzəltdiyi qabları aprıb xarici ölkələrdə də baha qiymətdə satırdılar. Bir gün qonşu kənddə yaşayan bir kişi dulusçu ilə qohum olan bir nəfəri də götürüb duluzçunun yanına gəldi. Xahiş etdi ki, onun yeniyetmə oğlu dulusçuluq sənətin çox sevir. Bu uşağı usta şagirdliyə götürüb, ona bu sənətin sirlərini öyrətsin.

Qohumunun ona ağız açmasına görə dulusçu sözlərini yerə sala bilmir. Həm də şagird yetişdirməyin səvab iş olduğuna görə razılıq verir. Oğlanın atası səhər oğlunu ustanın yanına gətirir. İlk baxışdan oğlanın gözləri ustanın xoşuna gəlmir. Buna baxmayaraq, sənətinin sirlərini oğlana öyrətməyə başlayır. Şərtə görə, iki il ustaya şagirdlik etməli idi. Ancaq oğlan bir il tamam olmamış ustanın yanından getdi ki, daha hər şeyi öyrənmişəm. Müstəqil duluzçuluq edəcəyəm. Oğlanın atası lazım olan alətləri alıb gətirdi. oğlan işə başladı. Əvvəl iş yaxşı getsə də sonra iş korlandı. Düzəltdiyi çölmək və digər şirli qablar çatdadı, şirə götürmədi. Neylədilərsə çarə tapa bilmədilər. Atası utana-utana dulusçunun yanına gəldi. Vəziyyəti danışdı,

yalvar-yaxar elədi. Kömək etməsini xahiş etdi.

Təmizürəkli, xeyirxah insan olan dulusçu dedi:

-Qablar kürədən çıxandan sonra soyumalı, sonra islanmış əsgi ilə təmiz silinməli, sonra şir-boya vurulmalıdır. Oğlanın atası soruşdu:

-Bəs bunu əvvəldən niyə demirdiniz?

Ustad dedi:

-Ürəyimə dammışdı ki, sənin oğlun naxələflik edəcək, ona görə də bu sirri öyrətməmişdim.

## İBN SİNA HAQQINDA MARAQLI RƏVAYƏTLƏR

Rəvayətə görə, İbn Sina dövründə elə böyük şöhrətə çatmışdır ki, görkəmli hökmdarlar belə, onun kölgəsində qalmışdı. Dövrünün böyük filosofu, astronomu, fiqhi, nücumu, təbabəti dərindən bilən, dərdlilərə şəfa verən müdrik bir insan kimi ad qazanmışdı.

Onun haqqında xalq yaddaşında çoxlu maraqlı əhvalatlar, rəvayətlər qalmışdı. Rəvayətin birində deyilir ki, bu müdrik insan uzaq və çətin bir səfərə yol alan dəvə karvanı ilə bir səfərə çıxmalı olub. Karvan ucu-bucağı görünməyən qum səhrasında fəlakətə düçar olur. qum qasırğası hərəkət etməyə imkan vermir. Ərzaq, xüsusilə su ehtiyatı tükənir, nə irəliyə, nə də geriyə hərəkət etmək imkanı olmur. İsti küləkli havada susuzluq karvan əhlini çox çətin vəziyyətə salmışdı. insanlar arasında susuzluqdan ölüm halları başlamışdı. İbn Sinanın da karvanda olduğunu bilən və ölümlə əlləşən insanlar arasında yaşamaq inamı yenidən baş qaldırdı. Hamı inanırdı ki, bu müdrik insan onları ölüm caynağından xilas edəcək. Əslində İbin Sina özü də pis vəziyyətdə idi. İnsanları qızmar

səhrada susuzluq girdabından xilas etmək üçün çarə axtarırdı. Nəhayət, bu zəka sahibi zavallı insanları ölüm məngənəsindən xilas etmək üçün qəti qərara gəldi. Karvanbaşına göstəriş verdi ki, dəvənin birinin yükünü açıb, o birlərinə yükləsin. Yükü açılan dəvənin qan damarı kəsilsin. Damardan axan qan hərəyə bir fincan olmaqla karvan əhlinə verilsin. İnsanlar təcili bu böyük dühanın göstərişinə əməl etdilər. Bir fincan isti dəvə qanı susuzluqdan yanan insanların təşnə ürəyinə bir sərinlik gətirdi. Suzuzluq demək olar ki, nisbətən aradan qalxdı. İnsanlar özlərində güc-qüvvə tapa bildilər. Bu müddətdə qum tufanı da dayandı. Karvan yola çıxdı. Məhz İbn-Sinanın müdrikliyi sayəsində onlarla insan ölümdən xilas ola bildi.

## MƏHƏBBƏT BƏLASI

Belə rəvayət edilir ki, Şərq ölkələrindən birində hökmdarın gözünün ağı-qarası madar bir oğlu vardı. Mərd, igid, mənəviyyatca zəngin bir gənc kimi formalaşmışdı. Padşah oğlunun boy-buxununa baxanda, onun əxlaqca gözəl insan olduğunu duyanda fərəh hissi keçirir, Ulu Tanrıya şükürlər edirdi.

Ancaq son vaxtlar yerişində-duruşunda əvvəlki şuxluğun olmaması, gözlərinin dərinliyində dərdli bir baxışın gizləndiyi ata-ananın gözündən yayınmadı. Anası, yaxınları oğlanı sorğu-suala tudular. Lakin heç nə öyrənə bilmədilər. Oğlan məhəbbət mübtəlası olmuşdu.

Amma bilirdi ki, sevdiyi qızı padşah heç vaxt saraya gəlin gətirməyə icazə verməz. Çünki əsilzadə deyildi. Oğlan bu dərdi çəkə-çəkə daxilən incəlir, əriyib çöpə dönürdü. Nəhayət, oğlan yorğan-döşəyə düşdü. Hökmdar elə bil yatmişdı, ayıldı. Sarayın tanınmış həkim

ərini oğlanı müalicə etməyə çağırdılar. Bundan nəticə olmayanda ətraf kəndlərdə, şəhərlərdə olan görkəmli həkimləri, loğmanları bu işə qoşdular. Həkimlər əllərindən gələnini etdilər. Lakin görülən işlərin heç bir müsbət təsiri olmurdu. Qoca vəzirin məsləhəti ilə qonşu ölkədə yaşayan İbn Sinanın dalınca hörmətli adamlar göndərdilər. Hökmdarın yalvarış, xahiş dolu məktubunu da İbn Sinaya verdilər. Mərhəmətli, xeyirxah insan olan İbn Sina oğlan yaşayan şəhərə gəldi və oğlanı həyata qaytarmaq uğrunda çarpışma başladı. İlk günlər müalicə üsullarına əl atdısa da, bir nəticəsi olmadı. Padşah oğlu son günlər yeyib-içmir, danışmır, gözlərini bir nöqtəyə dikib dayanırdı. Dahi İbn Sina dava- dərmanın elə bir xeyri olmadığını görüb, başqa üsula əl atdı. Apardığı söz-söhbətlərdən, üz-gözündə əmələ gələn dəyişik-likdən duydu ki, oğlan kimisə dəlicəsinə sevir, ancaq bunu üzə demir. İbn Sina bu böyük şəhəri, adamları yaxşı tanıyan bir adam tapıb, onun yanına gətirmələrini tapşırdı. Şərtinə görə, onun işinə heç kim qarışmamalı, dediyi sözlərə əməl etməli idilər. Şəhəri, şəhərin adamlarını tanıyan şəxslə qapının arxasını vurub, xəstənin yanında əyləşdilər. İbin Sina xəstənin nəbzinin döyüttüsünü baş barmağı ilə müşahidə etməyə başladı. Yanında əyləşən kişiyə dedi ki, şəhərin məhəllərini bir -bir aramla sadalasın.

Şəhərin ucqar bir məhəlləsinin adı çəkiləndə İbn Sina hiss etdi ki, oğlanın nəbzinin döyüntüsündə dəyişiklik əmələ gəldi. Nisbətən sürətlə döyünməyə başladı. Kişini dayandırdı dedi:

-İndi aramla o məhəllədə olan evlərin sahibinin adlarını say. Bir ev sahibinin adı çəkiləndə böyük filosof-insan sərrafı hiss etdi ki, oğlanın nəbzi əvvəlkindən fərqli və davamlı şəkildə vurmağa başladı. Üzünə təbəssüm

qondu. Bu dəfə kişiyə dedi:

-İndi filan evdə yaşayan adamların adlarını sadala.

Kişi deyilən evdəki adamların adını ucadan deməyə başladı.

İbn Sina hiss etdi ki, o evdə yaşayan bir qızın adı çəkiləndə oğlanın nəbzində ciddi dəyişiklik əmələ gəldi. Oğlanın bədənində bir dirçəliş hiss olunmağa başladı.

Adı çəkilən qız haqda məlumat verən kişi ilə geniş sorğu-sual apardı. Zənnində yanılmadığını təsdiqlədi. Sonra intizarla gözləyən padşahın yanına gəldi. Padşaha dedi:

-Əgər oğlunun sağalmasını istəyirsənsə təcili həmin qızı evə gəlin gətirməlisən. Oğlanla təklikdə bir yerdə qalmalıdır.

Sevincdən gözlərindən yaş axan padşah və arvadı bil-mirdilər ki, bu dahi şəxsiyyətə necə minnətdarlıq etsinlər. Elə səhərisi gün oğlanın canından artıq istədiyi həmin qızı gəlin gətirdilər. İki aşiq bir-birinə qovuşdu. Oğlan sağalıb ayağa durdu.

## TISBAĞA VƏ DOVŞAN

Böyük filosof, şair, təriqət başçısı Cəlaləddin Rumi buyurur ki, çölün ortasında bir tısbağa dovşana rast gəlir. Ordan-burdan söhbət açır, dərdləşirlər. Hər biri özünün qoçaqlığından, cəmiyyətdə, heyvanlar aləmində faydalı olmaqlarından dəm qılır. Hər biri özünü qarşısındakından üstün tutur. Dovşan deyir:

-Ay tısbağa qardaş, sən başqa sahələrdə, bəlkə də, məndən üstün ola bilərsən.

Amma cəldlikdə mənim qabağımda çox heyvan duruş gətirə bilməz. İstəyirsən gəl özümüzü sınayaq. Bax

o qarşıda görünən dağa tərəf qaçaq. Kim ora birinci çatsa, deməк, cəld, hünərli odur.

Məcbur qalan Tısbağa razılaşmalı olur. hər ikisi eyni vaxtda dağa tərəf qaçmağa başlayır. Dovşan sürətlə qaçıb, tısbağanı yarı yolda qoyur. Arxaya baxıb görür ki, tısbağa çox aralıdan asta-asta gəlir. Öz-özünə deyir:

-Tısbağa gəlib çatana qədər yuxumu alım, sonra qaçıb tısbağadan qabaq dağa çatarn.

Dovşanı yuxu tutur, ayılmır. Tısbağa gəlib onun yanından keçib dağa tərəf gedir. Şərtləşdikləri yerə çatır. Bir müddət sonra yuxudan ayılan dovşan tələsik dağa tərəf qaçmağa başlayır. O, inana bilməzdi ki, Tısbağa bu müddət ərzində gedib dağa çatar.

Ancaq dağa çatanda tısbağanı orada görüb çox pərt olur. Yatıb dala qaldığına görə özünü ürəyində danlamağa başladı. Amma gec idi. Tısbağa kimi ləng yeriyən bir heyvan ona qalib gəlmişdi. Belə yatanlar, füsəti bada verənlər, özünə həddən artıq güvənənlər çoz vaxtı məğlub olurlar. Odur ki, bu dolanbac dünyada gərək fürsəti əldən verməyəsən, görülməli işi vaxtında görəsən.

## DƏVƏSİ ÖLƏN KİŞİ

Bir nəfərin üç-dörd dəvəsi olur. xəstəlik düşür dəvələrin dərdinə çarə tapa bilmirlər. Birinci dəvənin ölüm xəbərini sahibinə çatdırırlar. Sahibkar saçlarını yolur, baş gözünə döür. İkinci, üçüncü dəvələrin də ölüm xəbərini eşidəndə kişi yenə saçın yolur, baş-gözünə döyür, fəryad qoparır.

Sonuncu dəvənin ölüm xəbərini də kişiyə çatdırırlar. Kişi sevincindən qışqırmağa başlayır. Təəccüblənən nökər səbəbin soruşur. Sahibkar kişi deyir:

-Ona görə sevinirəm ki, ölməyə daha bir şey qalmadı.

## YOLA NƏRDİVAN SALMAQ

İki naməlum kişi təsadüfən rastlaşır, eyni istiqamətdə yol getməli olurlar. Yolda kişinin biri o birinə deyir ki, gəl yola nərdivan salaq. Dünya işlərindən bixəbər, kəmsəvad kişi mat-mat dərviş qiyafəsində olan müsafirə baxıb, gözlərini döyür. Handan-hana deyir:

-Sən nə danışırsan? Yola nərdivan salmaq olarmı?

Müsafir kişi yol yoldaşının kal adam olduğunu görüb, heç nə demir. Nəhayət, gəlib yaşayış məntəqəsinə çatırlar. Bura nabələd olan müsafir kişi deyir:

-Allahın evi haradadır?

Gedim orada gecələyim

O biri kişi yenə bir şey başa düşmür. Deyir:

-A kişi ağlın başından çıxmayıb ki? Mən nə bilim Allahın evi haradadır? Yəqin, göydə olar da.

Axırda qonaq kişi soruşur:

-Bu yerin məscidi haradadır?

Yerli kişi məscidin yerin deyir. O, məscidə, o biri isə evinə gedir.

Bu kişinin ağıllı, savadlı, gözəl bir qızı vardı. Atası qonaq kişi ilə yolda olan söhbəti qızına danışır. Qız deyir:

-Ay ata, qonaq sənə demək istəyib ki, gəl yola nərdivan salaq. Yəni söhbət edək, mənzil başına tez çataq.

Allahın evi deyəndə isə məscidi soruşurmuş.

Qız bir bütöv qalın, bir dolu qab dolma, bir kasa da dolu süd verdi atasına ki, aparıb qonağa versin. Həm də tapşırdı ki, qonağa deyərsən, ay bütövdü, ulduz

çoxdu, dərya doludu.

Ata yolda tamahın boğa bilmir. Qalının yarısını, dolmanın bir hissəsini yeyir, südün yarısını içir. Qalanın aparıb məsciddə qonağa verir. Qızının sözlərini də qonağa deyir. Qonaq deyir:

-Qıza deyərsən ki, ay paradı, ulduz azdır, dərya yarımçıqdı.

Kişi gəlib qonağın sözlərini qızına danışır.

Qız atasına deyir:

-Nə üçün qalının, dolmanın, südün yarısını yemisən?

Ata mat qalır.

Qızına deyir:

-Sən nə bilirsən ki, mən qalını, dolmanı və südü yemişəm.

Qız deyir:

-Mən demişdim ki, ay bütövdü, yəni qalın bütövdü, para deyil. Ulduz çoxdu, yəni qab dolma ilə doludu. Dərya doludu. Yəni süd ağzına qədər silədi. Sən yolda onların bir hissəsini yemisən. Ona görə də qonaq kişi deyib:

Ay paradır, ulduz azdır, dərya yarımçıqdır.

Ata utandığından nə deyəcəyini bilmir.

Qıpqırmızı qızarır.

## ELM AŞİQLƏRİ

İslam aləminin ən görkəmli alimlərindən olan Əbu Reyhan Biruni ölüm yatağında idi. Onun qonşusu da görkəmli alim idi. Əbu Reyhan Biruni yoluxmağa gəlmişdi. Əbu Reyhanın son dəqiqələrini yaşadığını görür və göz yaşı axıdır. Ürəyində qəmli-qəmli pıçıldayır:

-Belə böyük alimin dünyadan getməsi bəşəriyyət üçün ağır itgidir.

Əbu Reyhan alim dostunu görəndə üzünə işiq gəlir, çox əziyyətlə dikəlmək istəyir. Çox çətinliklə dostundan fiqhə aid bir sualın cavabını soruşdu:

Dostu gözündən yaş, ürəyindən qan axıda-axıda dedi:

-İndi məsələ soruşmaq vaxtıdı?

Biruni dedi:

-Bilirəm ki, indi ölürəm.

Amma bu məsələni bilib ölməyim yaxşıdır, yoxsa bilməyib ölməyim? Tez cavabımı ver.

Alim dostu dərdli-dərdli sualın cavabını verir və sonra dözə bilməyib, evlərinə doğru yol alır. Evlərinə çatmamış Biruninin evindən nalə, fəryad səsi yüksəlir. Dostu qəmli-qəmli pıçıldayır:

"Bəli öyrənmək eşqi ölüm ayağında da elm aşiqlərini tərk etmir".

## DƏMİRLƏ QIZILIN SÖHBƏTİ

Bir gün bir parça dəmiri və qızılı zindan üstə döyüdürlər. Hər ikisinə eyni güclə zərbə vururlar. Qızıl ağrılara dözüb səsin çıxarmırdı. Dəmirinsə səsi aləmi başına götürmüşdü. Hay çəkir, fəryad qoparır, ağrı-acısını dünyaya çatdırmaq istəyirdi. Axırda dəmirin hay-harayına dözə bilməyən qızıl dedi:

-Ay dəmir, ikimiz də döyülürlər. İkimizə də eyni zərbələr dəyir. Bəs sən niyə belə çığırırsan, səsin göyə qalxır, fər-yadın ürəklərə od salır?

Dəmir dedi:

-Məni qınama. Mənim yerimə sən də olsaydın,

belə çığırar, fəryadınla dağa-daşa ün salardın. Mən çığırmazdım. Mənə ağır gələn odur ki, məni əzənlər özümdəndi. Ona görə nalə çəkirəm. Yoxsa səsim də çıxmazdı. Mənə ağır gələn budu.

## TORPAĞIN QƏDRİNİ BİLMƏK

Biri Afrika ölkəsinə yad vilayətdən qonaq gedir. Qonağı çox mehribanlıqla, hörmətlə qarşılayır, ona olmazın hörmət-izzəti göstərilir. Qiymətli ləl-cəvahirat, qiymətli atlas parçalardan hədiyyə verirlər. Gecə-gündüz qayğısında durur, ürəyi nə istəyirsə, yerinə yetirirlər. Qonaq ona göstərilən bu qədər hörmət-izzətdən xəcalət çəkir.

Hara gedirsə qabağında qurbanlar kəsilir, ayağı altına xalı-xalça salınır.

Nəhayət, qonaq öz vətəninə qayıtmaq istəyir. Onu təmtəraqla gəmi ilə yola düşəcəyi limana gətirirlər. Gəmiyə minməmişdən əvvəl hörmətli qonağın və müşaiyyət edən adamların ayaqqabıların qıçlarından çıxardılır, ayaqqabıların altına yapışmış torpağı qaşıyıb, yerə tökürlər. Sonra ayaqqabıları özlərinə verirlər. Qonaqlar bu hərəkətdən bərk narazı olurlar. Çırtmıq vursaydın, qanları tökülərdi.

Qonaqların pərtçiliyini görən dövlət adamlarından biri qonaqlara deyir:

-Siz nə üçün bizim bu hərəkətə pis baxır, narahatçılıq keçirisiniz?

Siz bizim əziz qonaqlarımızsınız. Sizə olan qayğımızdan, hörmətdən də bunu hiss elədiniz. Hələ verilən qiymətli peşkəşləri demirik. Amma biz heç vaxt razı olmarıq ki, hər gələn bizim vətən torpağımızdan bir qədər

götürüb aparsın. Ona görə də ölkə qanunlarına görə də vətənimizdən gedən hər bir qonağın ayaqqabısının altını qaşıdırıq ki, bu torpaq yad torpaqlara gedib tökülməsin. Biz vətən torpağının hər ovucunu ləl-cəvahiratdan üstün tuturuq.

Bu, bizim sizə qarşı olan hörmət və ehtiramımıza xələl gətirməməli, bizi düzgün başa düşməlisiniz. Torpağın bir ovucunun qədrini bilməyən, bütöv vətənin də qədrini bilməz.

## NƏSRƏDDİN TUSİ VƏ BOSTANÇI

Böyük alim, dövlət xadimi, Hülakü xanın vəziri olan N. Tusi başının adamları ilə uzaq səfərə çıxmışdı. Atlılar uzaq məsafə keçdiklərinə görə bərk susuzlamışdılar.

Lakin yaxınlıqda su tapa bilmədilər. N.Tusi mülazimlərindən birindən bu ərazidə harada su olması ilə maraqlandı. Mülazim qarşıda görünən dağların arxasındakı vadidə sərin sulu bulaqların, bağ və bostan olmasını bildirdi.

Atlılar atların həmin yerə doğru çapmağa başladılar. Nəhayət, yorğun və susuz yolçular gəlib həmin yerə çatdılar. Doğrudan da, vadi boyu gözəl bir mənzərə göz oxşayırdı. Yolçular atlarını bir bostanın kənarına sürdülər.

Bostançı ağıllı, müdrik, uzaqgörən bir şəxs idi. O, atlıları görən kimi, geyim-keçimlərindən adi adamlar olmadıqlarını duydu. Onlara yaxınlaşıb, xoş üzlə qarşıladı. Atların və özlərinin yerbəyer edilməsinə çalışırdı. Onlara sərin, buz kimi bulaq suyu verdi. N.Tusi bostançıya dedi:

-Bizi qarpıza qonaq edə bilərsənmi?

Bostançı gülərüzlə onları bostana dəvət etdi və dedi:

-Siz nə cür qarpız istəyirsiniz? susuzluğu yatıran, şirin, tam şirin olmayan?.

Hansından istəyirsiniz, sizə halaldır.

N.Tusi bostançının sözlərinə təəccübləndi. Dedi:

-Dediyin qarpızları necə fərqləndirəcəksiniz?

Bostançı gülümsədi və bildirdi ki, bu da bizim sənətimizdir.

Daha da maraqlanan Tusi bir-bir qarpızları göstərib, qarpızın dadını və rənginin necə olmasını soruşdu.

Bostançı əlini qarpızın üstünə sürtməklə qarpızın rəngini və dadının necə olmasını dedi:

Hətta hansı qarpızın susuzluğu yatırmasını, hansının həlalik yeməyə uyğun olmadığını bildirdi.

Beləliklə, bir xeyli qarpızı N.Tusinin təkidi ilə kəsdi. Qarpızların bostançının dediyi kimi olduğunu gördülər və bostançının zəkasına heyrət etdilər. Doyunca qarpız yeyəndən sonra yollarına davam etmək istədilər. N.Tusi cibindən bir kisə qızıl çıxarıb bostançıya verdi və buyurdu:

-Hərçənd bu sənin kəsib doğradığın, bizə verdiyin qarpızların müqabilində çox azdı. Sənin əməyin daha yüksək qiymətə layiqdir.

Bostançı təklikdə qızıl kisəsini N.Tusiyə qaytardı və dedi:

-Dədə-baba adətimizə görə qonaqdan, yol ilə bu tərəfdən keçən hər hansı şəxsdən pul, haqq almaq qəbahət sayılıb, günah hesab edilib. Siz məni xalqımızın bu gözəl adətini pozmağa məcbur etməyin.

N.Tusi buyurdu:

-Başın yaxşı başdı, heyif ki, qarpıza həsr olunub.

Bostançı dedi:

-Qurban, qarpız da Allahın bir nemətidir də.

Cavab Tusinin xoşuna gəldi. Rəvayətə görə, sonra-

ar N.Tusi bostançını Marağa rəsətxanasına dəvət etdi. Burada bostançı göy cisimlərinin öyrənilməsində məşhur alimlərindən biri oldu.

## ANBAR YIRTILANDA GƏLƏRDİN

Kolxoz quruculuğu illərində elə bir savadlı olmayan, dildən pərgar olan bir kişini ucqar dağ kəndində kolxoz sədri qoydular. Bu sədr gecəli-gündüzlü çalışır ki, başqa sədrlərdən fərqlənsin, onun kolxozunu hamı tərifləsin. Rayon böyüklərinin gözündə uca olsun. O vaxtın qanunlarına görə yığılan taxıl qazanılan əməkgünlərinə görə kolxozçulara verilməliydi. Sədr ad qazanmaq naminə kolxozçulara əməkgünlərinə qanuni çatandan artıq miqdarda cədvəl tərtib etdirib, anbardara verdirdir.

Qabağa düşənlər o hesabla taxılı alıb, evlərinə daşıyırlar.

Bir neçə gündən sonra məlum olur ki, kolxozçulara paylamaq üçün nəzərdə tutulan taxıl qurtarıb, kolxozçuların bir qisminə də taxıl çatmayıb. Narazıçılıq başlayır, şikayətçilərin sayı çoxalır. Sədrin idarəsinə şikayətə gəlirlər.

Bunları dinləyən sədr hirsli-hirsli deyir:

-Canınız çıxardı, anbar yırtılanda gələrdiniz!

## BAŞIM GÖYLƏRƏ DƏYƏRDİ

Bir müsəlman alimi zəmanəsinin məşhur xətiblərindən bir idi. Üç pillədən ibarət minbərdə oturub, camaat üçün moizə edirdi. Şirin və məzmunlu söhbətləri ilə dinləyənlərin biliklərinin zənginləşdirilməsinə, mənəvi tərbiyələrinin güclənməsinə təsir etməyə çalışırdı. Bir qadın ayağa qalxıb, ondan bir məsələ barədə fikirlərini

soruşdu. Alim cavabında dedi:

-Bilmirəm:

Qadın dedi:

-Bilmirsən, bəs başqalarından niyə üç pillə yuxarıda oturmusan?

Alin cavabında dedi:

-Ona görə ki, bu qədər bilirəm. Mən bildiklərimi siz bilmirsiniz. Ona görə sizdən üç pillə yuxarıda oturmuşam. Əgər bilmədiklərim qədər yuxarı otursaydım, başım göylərə dəyərdi.

## NƏFS MƏNİM QULUMDU

Bir gün İsgəndəri Zülgərneyn çıxır ölkəni səyahət etməyə. Bir şəhərin kənarında bir kərpickəsən qocaya rast gəlir. Padşah görür ki, qoca ona heç məhəl qoymur. Fikri ancaq öz işindədir. Çox həvəslə öz işini icra edir. Atın saxlayır. Cibindən bir ovuc qızıl çıxarıb səpir qocanın ayaqları altına.

Görür ki, qocanın halına təvafüt eləmir. Başının qaldırıb heç baxmır ki, görüm, bu pul səpən kimdi.

Başqaları olsaydı, İsgəndərin qabağında baş əyər, qızılları əlüstü yerdən yığar, hökmdara dua-sənə edərdi.

İsgəndərin səbr kasası dolub deyir:

-Ey qoca, yoxsa məni tanımırsan? Yəqin ki, bilmirsən mən kiməm?

Yoxsa belə laqeyd olmazdın.

Qoca qəddini düzəldir. Başdan-başa zər-ziba içində işıq saçan İsgəndərə baxır.

Gülüb deyir:

-Mən səni çox yaxşı tanıyıram. Sən mənim qulu-

mun qulusan.

Bu sözlər padşahı bərk tutur.

Deyir:

-Necə məgər? Mən harda sənin qulunun qulu ola bilərəm?

Qoca deyir:

-Mən öz nəfsimi çoxdan qul etmişəm. sən isə nəfsin qulusan. Yəqin, mənim qulumun qulusan. sənin yerə səpdiyin qızılların mənim gözümdə heç bir qiyməti yoxdur. Mən gözümü bu kərpiclərə, bu qəlibə dikmişəm.

Qocanın sözləri İsgəndəri xeyli, dərindən-dərin düşünməyə məcbur etdi.

## AĞSAQQALSIZ ÖLKƏ

Osmanlı Sultanlarından birinin vaxtında qonşuluqda yaşayan başqa hökmdar çox qudurqanlıq edir, qonşu xalqlarla çox pis davranır. Qonşu dövlətlərin torpağını mənimsənməyə çalışır, nahaq qanlar tökürdü. Getgedə tamah dişi itilənir, qonşudakı dövlətlərin heç birini saymırdı. Nəhayət, Osmanlı sultanı gözü ayağının altından başqa, heç yeri görməyən bu qudurğanın dərsin verməyi qərara aldı.

Xüsusilə padşahın müsəlmanlara qarşı qəddarlıq etməsinə görə müharibə başladı. Türk qoşunları onlardan sayca az olmasına baxmayaraq qalib gəldilər. Döyüşün sonunda at üstündə qalib ədasıyla meydana çıxan sultan atını düşmən əsgərlərinin cəsədlərinin qalaq-qalaq olduğu yerlərə sürdü.

Düşmən əsgərlərindən ölənlərin əksəriyyətinin cavan olması türk sultanının qəlbini ağrıtdı, döyüşə baş-

ladığına görə özünü qınadı. Üzünü vəzirə tutub dedi:

-Gözümə yaşlı cəsəd dəymir. Olmaya, bu məmləkətin bircə nəfər də saçı-saqqalı ağarmış sakini olmayıb?

Vəzir cavab verir:

-Qibleyi aləm, canın sağ olsun!

Bu məmləkətin ağsaqqalı olsaydı, bu günə düşərdilərmi?

## HƏR KƏS QABİLİYYƏTİNƏ GÖRƏ

Ucqar bir ölkədə çox varlı, adlı-sanlı şəxs yaşayırdı. Müsbət hərəkətlərinə görə böyük hörmət qazanmışdı. Bu şəxsin iki nökəri vardı. Hər ikisi təxminən eyni iş görür, ev sahibinin, mal-mülkünün idarə edilməsində iştirak edirdilər. Lakin ev yiyəsi hiss edirdi ki, nökərin biri tez başa düşən, ağıllı, diribaş, sözdən söz seçən insandı. O birisi çox gec başa düşən, deyilən sözün mənasını doğru qiymətləndirə bilməyəndir.

Sahibkar onların haqqın ödəyəndə tez başa düşən, ağıllı nökərə bir az artıq haqq ödəyirdi. Bir müddətdən sonra ikinci nökər sahibkara gileyləndi. Sahibkar dedi:

-Bu məsələyə bir də baxaram.

Aradan bir müddət keçmişdi. Sahibkar nökərləri ilə birlikdə əkin sahəsinin suvarılmasında iştirak edirdi. Gördü ki, bir az aralıdan dəvə karvanı gedir. Sözdə mətləbi gec anlayan nökərə təklikdə dedi:

-Atı min get o karvan haqda mənə müfəssəl məlumat gətir.

Nökər atı çapıb getdi və tez də qayıtdı. sahibkara dedi:

-Öyrəndim. Onlar iran ölkəsinə tərəf gedirlər.

Sahibkar bu nökəri yenidən karvanın dalınca gön-

dərdi.

Nökər ikinci dəfə xəbər gətirdi ki, karvanda 25 dəvə, 20 də at var.

Sahibkar həmin nökəri üçüncü dəfə də göndərdi ki, daha geniş məlumat gətirsin.

Həmin nökər bu dəfə də xəbər gətirdi ki, karvanın sahibi Kərbalayı Əzəmdir.

Sahibkar bu dəfə o biri nökəri göndərdi ki, karvan haqda məlumat öyrənsin.

İkinci nökər atı kəsə yolla sürüb karvanı qabaqladı. Karvanbaşı ilə ətraflı söhbət apardı. Gəlib sahibkara aşağıdakı məlumatı verdi.

-Karvan Hindistandan İrana tərəf gedir. Yükləri atlas, qumaş, ipək parçadan ibarətdir. Karvanda 25 dəvə, 20 at, 10 da xidmətçi var.

Karvan sahibi Kərbəlayı Əzəm əslən İranlıdır. Bir aydan sonra geri qayıdacaqlar

Sahibkar o biri nökəri də yanına çağırdı. Dedi:

-Mən bu nökərə səndən artıq haqq verməkdə haqlıyam. bir məsələni öyrənməkdən ötəri sən ora üç dəfə at sürdün. Müfəssəl məlumat da əldə edə bilmədin. Amma o biri nökər bir dəfə ora getməklə daha geniş, ətraflı məlumat gətirdi. O, ağılda, düşüncədə, səndən üstündür. Ona görə də artıq haqq alır.

## ƏDALƏTSİZLİK ELƏ AZDAN BAŞLAYIR

Bir hökmdar başının atlıları, can-cəlalı ilə ova çıxmışdı. Çox ədalətli, yetim-yesir qayğısına qalan padşah idi. Bir xeyli yol getmiş, güllü- çiçəkli bir dağın ətəyinə çatmışdılar. Burada ova başlayacaqdılar. Məlum oldu ki, duz götürməyiblər, qonşu kənddən

duz götürməyiblər, qonşu kənddən duz almaq lazımdı.

Padşah gedən nökərə tapşırdı:

-Duzu alanda pulun verməmiş alma. Mütləq haqq ödə.

Padşahın bu tapşırığından bir şey başa düşməyən nökər dedi:

-Qibleyi aləm sağ olsun. Bir az duz nədir ki, ona da pul verək?

Padşah dedi:

-Elə bütün zülmkarlıqlar, haqsızlıqlar əvvəldən azdan başlayıb, sonra azlar çoxala-çoxala dünyanı bürüyüb. Ədalətsizlik baş alıb gedir. Azın qabağı alınsa, çox da ayaq aça bilməz.

## QAZANLA ODUN SÖHBƏTİ

Bir gün bir ağıllı, bilikli hökmdar vəzirinə dedi ki, gəl paltarımızı dəyişək, təgyirlibas olaq. Çıxaq camaatın içərisinə, xalqın vəziyyətin yoxlayaq. Görək camaat necə yaşayır. Yerlərdə hakimlər xalqa zülüm etmirlər ki?

Vəzir də bu işin məqsədə uyğun olduğunu dedi:

Təgyir-libas olub yola çıxdılar. Yerli hakimlərdən ədalətli onlara da rast gəldilər, qudurub yolundan çıxanlara da, gözü ayağının altını görməyənlərə də.

Padşah vəzirə tapşırdı ki, xəlvəti lazimi qeydlər aparsın, yaddaşına xalqı əzən, qudurğan əyanları həkk eləsin. Saraya qayıdandan sonra onların hesabın kəsməlidir.

Həm də vəzirə deyirdi ki, hər bir hökmdar xalqın qəzəbindən qorxmalı, xalq qəzəbinin aşıb daşmasına imkan verməməlidir. Yoxsa, bu qəzəb, bu qalxan sel hakimiyyəti bir anda məhv edən, kükrəyən qəzəbin qarşı-

sına almaq olmaz.

Padşah vəzirlə gündüz yol gedərkən bir həyətdə yanar ocaq üstə qoyulan iri bir qazanda suyun pıqqapıqla qaynamasına rast gəldi. Ocaq nə qədər gur yanırdısa, Su da elə qəzəblə tökülüb, atəşi söndürməyə çalışırdı. Bu mənzərə elə bil padşahı sıkələdi. Onu xeyli düşünməyə məcbur etdi

Üzünü vəzirə tutdu:

-Vəzir, de görüm odla su arasında indi nə mübahisə gedir? Nədə rəqabətə giriblər?

Vəzir ağıllı, dünyagörmüş adam idi. Bir neçə dəqiqə ocağın güclü yanmasını, qaynar suyunsa daşıb ocağı keçirmək istəməsini seyr elədi.

Dedi:

-Qibleyi aləm sağ olsun! Ocaq gur yandıqca coşur, özündən çıxır, suya, qazana deyir ki, sizi belə odda yandıraram! Mənim qabağımda dura bilməzsiniz!

Qazandakı su da deyir:

-Çox qudurma! Sirkə nə qədər tünd olsa, səhəngi çatdadar. Məni daşdırsan, mən də daşıb səni keçirdərəm. Odun sönər, külün qalar.

Bu zülmkar, xalq qəzəbini coşduran hakimlərə bir misaldı.

Padşah razılıqla Vəzirin sözlərini təsdiqlədi.

Vəzirə göstəriş verdi:

-Hakimlərə tapşırır ki, xalqla mülayim, ədalətli rəftar etsinlər. Xalqın səbr kasasın heç vaxt daşdırmasınlar.

# PADŞAH VƏ PİNƏÇİ

Xalqın qeydinə qalan xalqla ədalətli davranmağa çalışan bir padşah olur. Vəzirə deyir:

-Təgyir-libas olub, elin içinə çıxaq. Görək, camaat necə dolanır? Gün-güzəran necə keçir?

Onlar paltarlarının dəyişib, bir müddət kənd və şəhəri gəzməyə başlayırlar. Razı qaldıqlırı məqamlar da olur, razı qalmadıqları məqamlar da. Padşahla vəzirin bu səfərinin sonu qışın ilk günlərinə düşmüşdü. Hava da çox soyuq idi.

Padşah vəzirə dedi:

-Gəl bu pinəçi dükanında bir az dincələk. Həm də görək pinəçi necə adamdı?

Hər ikisi pinəçi dükanına daxil olub, salam verdilər. Burada azca dincəlib, yollarına davam etmək istədiklərini bildirdilər.

Dükanın aşağı tərəfində, qapının ağzında oturmaq istədilər.

Pinəçi tez ayağa qalxdı, qonaqları hörmətlə qarşıladı. Onları yuxarı başa keçirdi.

Pinəçinin bu hərəkəti padşahın nəzərindən yayınmadı. Pinəçi ilə söhbət əsasında padşah dedi:

-Niyə doqquzu vurub, üçü ala bilmədin.

Pinəçi dedi:

-Otuz iki qoymadı.

Padşah əlini başına aparıb, başı üstə mənalı şəkildə fırladı.

-Pinəçi də əlini ağzının üstünə qoydu.

Qonaqların narazılığına bayxmayaraq, pinəçi onları kəklikotulu çayına da qonaq etdi:

Nəhayət, padşah və vəzir gəlib saraya çıxdılar.

Padşah vəzirə dedi:

-Biz pinəçi ilə nə barədə söhbət apardıq?

Sənə üç gün möhlət verirəm. Cavab verə bilməsən, vəzirlikdən əl çəkməli olacaqsan.

Vəzir nə qədər fikirləşdisə, bir şey anlaya bilmədi. Evdə ərini qaş-qabaqlı, bikef görən arvadı soruşdu.

-A kişi, nə olub, niyə qəm dəryasına batmısan?

Vəzir pinəçi dükanında olan vəziyyəti, padşahın ona üç gün möhlət verməsini qəmli-qəmli arvadına danışdı. Arvad da məsələni aça bilmədi. Ərinə dedi:

-Bu məsələni ancaq pinəçidən öyrənə bilərsən. Dur atını min, xurcununa paydan-ülüşdən qoyaq. Bir az da qızıl verərsən, pinəçi səni çətinlikdən qurtarar.

Vəzirin gözünə elə bir işiq gəldi. Arvadın məsləhəti elə bil beyninə batmışdı. Elə həmn an durub yola düşdü. Səhərisi pinəçinin olduğu şəhərə çatdı. Gətirdiyi xurcundakı sovqatı, bir kisə qızılı da söhbətə başlamamışdan əvvəl pinəçiyə verdi. Pinəçi çox arif adam idi. Məsələnin nə yerdə olduğunu o saat anladı. Deməк, vəzir padşahın təsiri ilə gəlib, ona sovqat gətirib.

Vəzir dedi:

-Biz dərviş paltarında sənin dükanına gələndə mənim yoldaşımla əl-qol hərəkəti ilə nə danışırdın?

Bu hikməti öyrənmək üçün soyuq gündə oradan bura at sürmüşəm.

Pinəçi zənnindən yanılmadığına görə gülümsədi. Söhbətə başladı.

-Padşah mənə deyəndə ki, niyə qoqquzu vurub üçü almadın?

Mən də dedim ki, otuz iki qoymadı. Padşah demək istəyirdi ki, doqquz ay işləmisən. Qazandığın bəs eləmədi ki, bu soyuq qışın üç ayın da işləyirsən?

Mən də dedim ki, qazandığımı otuz iki diş yedi qurtardı.

Əlin mənalı başı üstə hərləyəndə demək istədi ki, bu çətin zamanda başı salamat saxlamaq üçün nə etmək lazımdı?

Mən də əlimi ağzımın üstə qoydum. Bu o demək idi ki, dilimə sahiblik edə bilsəm, ağzımın qaytanın qırmasam, salamat dolanmaq olar.

Vəzir pinəçi ilə görüşüb, ayrıldı səhərisi öyrəndiyi hikməti padşaha çatdırdı. Cavabı pinəçidən öyrəndiyin də boynuna aldı. Padşah onu vəzifəsində saxladı.

## HƏM ÖZÜ DƏMİRÇİ OLUB, HƏM DƏ ANASI

Bir qadın uşağını mahir bir dəmirçinin yanına gətirib deyir:

-Usta, bu uşağı sizə şagird vermək istəyirəm.

-Çox əcəb.

-Usta, uşaq dəmirçilik sənətini neçə aya öyrənə bilər?

-Uşağın qabiliyyətindən asılıdı. Əgər qabiliyyətli uşaq olsa, dəmirçiliyi bir ilə öyrənə bilər.

-Mənim oğlum çox bacarıqlıdır.

-Daha gözəl.

Bir həftə keçir. Uşaq daha ustanın yanına gəlmir. Anasına da bildirir ki, daha hər şeyi öyrənmişdir.

Usta anadan soruşur:

-Uşağınız daha dəmirçixanaya gəlməyəcək?

-Bəli, gəlməyəcək. O, dəmirçiliyi bir həftəyə öyrənib başa çatmışdır.

-Necə?

-Bəli, bəli! Şiş düzəldəndə dəmiri döyüb izadır, bel

düzəldəndə dəmiri döyüb yastıladır...

Usta deyir:

-Afərin belə uşağa ki, bir həftədə həm özü dəmirçi olub, həm də anasına dəmirçilik öyrədib.

## HÜNƏR ODU ALMƏMMƏD VƏ PİRMƏMMƏDİN CANI ALINSIN

Bir ucqar dağ kəndində iki nəfər mərdimazar, ona-buna badalaq atan, mayaları şər işlərdən yoğrulmuş şəxs yaşayırmış.

Birinin adı Almənmməd, o birinin adı Pirməmməd idi. Kənddə neçə adamı nahaqdan şərə salıb, həbs etdirmişdilər. Kənddə olan kiçik, əhəmiyyətsiz sayılan bir işi o saat yuxarılara çatdırırmışlar. Ona görə də kənddə hamı onlardan qorxar, onlardan uzaq olmağa çalışardılar. Camaatın ah-naləsi də onları tutmurdu.

Bir gün bu kənddə yüngülvari bir zəlzələ oldu. Köhnə, uçuq-sökük binalardan bəziləri uçub dağıldı. Zəlzələ baş verən zaman kənddə bir fağır, yesir kişinin qorxudan ürəyi partladı, dünyasını dəyişdi. Camaat tökülüb hadisə yerinə gəldilər. Kişinin durduq yerdə belə qəfildən ölməsini Allahın möcüzəsi sayanlar da oldu. Bu söhbəti eşidən bir baməzə kişi zarafata salıb dedi:

-Bu rəhmətə gedən fağır, yesir bir adam idi. Bunu öldürməyə nə var ki? Elə mən də öldürə bilərdim.

Allahtalanın hünəri var, Alməmmədlə Pirməmmədi öldürsün, camaatın canı qurtarsın. Əsl möcüzə onda olardı.

## QABİLİYYƏTSİZ UŞAQ

Görkəmli el sənətkarı Aşıq Şəmşirin şöhrətləndiyi, adı dillərə düşdüyü vaxtlar idi. Umudlu kəndindən bir dostu uşağını Aşıq Şəmşirin yanına göndərir ki, ustad sənətkar uşağa aşıqlıq sənətinin sirlərini öyrətsin. Ustad aşıq dostunun sözünü yerə salmır. Uşaqla məşğul olmağa başlayır. nə qədər cəhd edirsə, korafəhm olan bu qabiliyyətsiz uşaq bir şey öyrənə bilmir. Uşaq özü də bu sənətə maraq göstərmir. Aşıqlıq öyrənən başqa şagirdlər bunu üstələyib keçirlər. Uşaqdan bir şey çıxmayacağını görən usta aşıq uşağı yanına çağırır. Ona bir taxta parçası verir. Deyir:

-Aparıb atana verərsən. Deyərsən ki, Umudluda belə taxta çoxdu. Bir nehrə qayırtdırsın. Dostuma deyərsən ki, səliqəli nehrə qayırtdırsın. Halbuki həmin taxtadan nehrə düzəltmək mümkün olmazdı.

Oğlan kəndə gedir, əhvalatı atasına danışır. Atası arif adam idi. Dədə Şəmşirin nə demək istədiyini o saat başa düşdü. Dostu demək istəyirmiş ki, bu uşaq çox qabiliyyətsiz, istedadsız uşaqdı. Bundan aşıq çıxmaz.

## DƏVƏ VƏ TÜLKÜ.

Günlərin bir günündə bir dəvə yoldan keçərkən qabağında tülkü gördü. Tülkü ona sataşmağa başladı. Dedi: -Dəvə qardaş, görərsən, mən bir gün səni yeyəcəyəm. Dəvə güldü, bir söz deməyib, işinin dalınca getdi. Azca getdikdən sonra öz-özünə dedi:

-Tülkünün yuvasının ağzına gedim, özümü ölülüyə vurum və görüm tülkü neyləyəcək?

Bu niyyətlə o tülkünün yuvasının yanına gəldi,

uzanıb özünü ölülüyə vurdu. Tülkü yuvasından bayıra çıxıb gördü ki, dəvə yıxılıb ölüb, özü də düz yuvasının ağzında. Dəvənin oyan-buyanını dişləyib sınamaq istədi. Dəvə tərpənmədi. Tülkü həvəslə dedi:

-Daha canı qalmayıb, ölübdü. Amma burda qoysam, çölün canavarı, çaqqalı, gəlib yeyər, özümə bir tikəsi də qalmaz. Yaxşısı budur ki, quyruğunu quyruğuma bağlayıb, aparım öz yuvama.

O, dəvənin quyruğunu öz quyruğuna düyünlədi və düyünün möhkəm olmasını yoxlamaq üçün bir neçə dəfə bütün gücüylə, dartındı. Bu vaxta qədər tərpənməyən dəvə işin bitdiyini görüb birdən yerindən qalxdı. Dəvədən asılmış tülkü o yan-bu yana yırğalanmağa başladı. Bir az yol gedəndən sonra canavara rast gəldilər. Canavar tülkünü bu halda gördü və dedi:

-Tülkü ağa, xeyir ola, bu vəziyyətdə hörmətlə hara təşrif aparırsınız?

Tülkü dedi:

-Hələ ki, özümə bəlli deyil. Böyüklərlə quyruq-quyruğa vermişik, görək bizi hara aparacaq?

## BİR TİKƏNİN SAVABLIĞI

Deyirlər ki, keçmiş vaxtlarda Şirvan kəndlərinin birində yeməyə bir tikə çörəyi olmayan bir kişi yaşayırmış. Ona yazığı gələn adamlardan biri deyir ki, ay kişi, özünü diri-diri niyə öldürürsən? Dur get qonşu kəndə, orda varlı bir dəvəçi yaşayır. Kömək istə, səni əliboş qaytarmaz.

Kasıb kişi sözü çevirmədi. Səhər tezdən durub qonşu kəndə yollandı, axtarıb dəvəçini tapdı. Dərdini ona söylədi. Bunu eşidən bu dəvəçi ilxıdan bir dəvə ayırıb

kasıb kişiyə verdi. Kasıb kişi:

-Allah verdiyin dəvənin min əvəzin qaytarsın, - deyir.

Kasıbın xeyir-duası dəvəçinin xoşuna gəlir. Ona yeddi dəvə bağışlayıb yola salır.. Kasıb kişi dəvənin birini o saat xıxırdıb minir, o biri dəvələri də yedəyinə alıb gedir. Amma bir neçə gün dilinə çörək dəymirdi. Aclıq ona yaman təsir eləmişdi. Bir kənddən keçəndə yol üstündəki darvazanı döyür. Ev yiyəsi səsə çıxıb xəbər alır ki, ay adam, nə istəyirsən?

Kasıb dəvədən enib ac olduğunu bildirir. Ev yiyəsi onu süfrə başına çağırır. Ortalığa bir parça duz-çörək qoyub deyir ki, olanımız budur. Kasıb bir parça çörəyi gözünə təpir, gözlərinə işıq gəlir. Durub dil-ağız eləyir, yoluna rəvan olur. Aradan bir gün keçir. Həmin çörək verən kişinin darvazasını bir də döyürlər. Bu dəfə gələn dəvəçi idi. Dəvəçi ev yiyəsini çölə çağırıb xəbər alır:

-Bu yerlərdən bir adamın yeddi dəvə ilə getdiyini görübsənmi?

Ev yiyəsi deyir ki, görmüşəm. Gəldi bir tikə də çörək kəsdik, halal xoşu olsun.

Axtarma, çoxdan gedib, çata bilməzsən.

Dəvəçi əlini dizinə vurub, yanıb yaxılır və deyir:

-Sən nə böyük savab iş görmüsən. Mən ona yeddi dəvə verdim, amma başım qarışıq olduğundan çörək təklif eləmədim. Sənin verdiyin bir tikə çörək mənim yeddi dəvəmdən qiymətli oldu.

## İSGƏNDƏRİN BUYNUZU VAR, BUYNUZU

Deyirlər ki, İsgəndərin başında buynuz bitmişdi. O, buynuzu saç ilə örtür, hamıdan gizli saxlayır, başını qırx-

dıranda isə hər dəfə dəlləyi öldürürdü. Tək bir dəlləyi qalmışdı o isə and içmişdi ki, heç kimə deməyəcək. Dəllək bu yolla özünü qurtarır. Bir müddətdən sonra dəlləyin qarnı köpməyə başlayır. O, çarəsiz qalıb çölə gedir, bir quyunun başına gəlib deyir:

-İsgəndərin buynuzu var, buynuzu.

Bundan sonra onun ürəyi sakitləşir, get-gedə qarnının şişi çəkilir. Çox keçmədən quyuda bir qamış bitir. Bir çoban onu kəsib tütək düzəldir. Tütək çalanda açıq aydın bu sözlər eşidilirmiş:

-İsgəndərin buynuzu var, buynuzu.

İsgəndərin yolu buradan düşəndə tütəyin səsini eşidir. Bu sirrin kim tərəfindən açıldığını yadına salır, dərhal dəlləyi yanına çağırtdırır. İsgəndərin hökmü ilə dəlləyin boynunu vururlar. İsgəndər başa düşür ki, sirri gizlətrnək çox çətindir.

## SAĞLAMLIĞIN SƏBƏBİ

Bir hökmdar Məhəmməd Peyğəmbərin yanına bilikli bir həkim göndərdi. Həkim bir neçə il Ərəbistan ölkələrində qaldı. Lakin bu müddət ərzində heç kim ona müalicə üçün müraciət etmədi. Nəhayət, o, Məhəmməd Peyğəmbərin yanına gəlib şikayətləndi:

-Məni sizin adamları müalicə etmək üçün göndəriblər. Ancaq bu müddət ərzində heç kim mənim yanıma gəlməyibdir ki, öhdəmə düşən vəzifəni yerinə yetirəm.

Peyğəmbər dedi:

-Bu camaatın bir adəti var: acmamış yeməzlər, doymamış yeməkdən əl çəkərlər.

Deməк, onların sağlamlıqlarının səbəbi bu imiş.

Sonra həkim təzim edib yeri öpdü və getdi.

## DƏNİZ SƏFƏRİ

Bir şah öz qulu ilə gəmiyə minmişdi. Demə, qul ömründə gəmiyə minməmiş, dəniz səfərinin ləzzətini görməmiş imiş. O, qorxudan əsməyə və ucadan ağlamağa başladı. Gəmidəkilər nə qədər çalışdılarsa, onu sakit edə bilmədilər. Qulunun bu halı şahın kefini pozdu. Lakin bir çarə tapa bilmədilər. Gəmidə bir adam var idi. O, vəziyyəti gördükdə dedi:

-İcazə versəniz, mən onu sakit edə bilərəm.

Hökmdar dedi:

-Son dərəcə hörmət göstərmiş olarsız.

Bu adam əmr etdi ki, qulu dənizə atsınlar. Qul neçə dəfə suya batıb çıxdı, sonra onun saçlarından gəmiyə tərəf dartdılar. O, iki əlli sükana yapışıb sallandı və elə ki, gəmiyə çıxdı, susub dinməz-söylənməz küncdə oturdu. Şaha bu qəribə gəldi, həmin müdrik adamdan soruşdu ki, burada nə sirr var?

Kişi cavab verdi:

-Bu qul dənizə batmaq qorxusu keçirmədiyindən gəmidəki sakitliyin qədrini bilmirdi. O da məlumdur ki, çətinliyə düşməyən sakitliyin qədrini bilməz. Ona görə indi sakitcə oturub.

## ƏN BÖYÜK VAR - DÖVLƏT

Təbriz şəhərində ağıllı bir qoca yaşayırdı. O, bir gün xiyabandan keçəndə gördü ki, cavan bir oğlan əl açıb dilənir. Cavan oğlan əl uzadıb ondan kömək istədi. Kişi baxıb gördu ki, oğlan sağlam bədənli, özü də gözəl, boylu - buxunludur. Dözə bilməyib dedi:

-Ay cavan, axı sən çox dövlətlisən!

Dilənmək, yolçuluq etmək sənin harana yaraşır?

Cavan təəccüb elədi.

Kişi oğlana dedi:

-İnanmırsansa, sınayaq. Bax sənə beş yüz tümən verirəm, əvəzində əlini kəsəcəyəm.

Cavan oğlan bu şərtə razı olmadı:

Ağıllı kişi oğlanı bir daha yoxlamaq üçün dedi:

-İki min tümən verim, gözlərini çıxardım?

Dilənçi oğlan bu təkliflə də razılaşmadı.

Kişi başdan-ayağa kimi cavanı süzərək dedi:

-Oğul, görürsənmi, necə dövlətlisən. O, qədər dövlətlisən ki, iki min tümən verirəm, almırsan. Dünyada ən böyük var-dövlət insanın sağlamlığıdır. Buna görə də ona - buna əl açmaqla öz qiymətli canını alçatma. At tənbəlliyin daşını, işlə, zəhmət çək. çörək qazan. Cavanlara qoşul, yaxşı ad çıxar!

Qocanın nəsihətindən sonra cavan durub üzr istədi. Bu gündən zəhmətə qatlaşacağına söz verdi.

## İŞ İNSANIN CÖVHƏRİDİR

Bir kişinin üç tənbəl oğlu varmış. İşləri, peşələri avara-avara gəzib dolanmaq, ona buna sataşmaq imiş. Kişi ömrünün axır günlərində onların sonrakı həyatından narahat olub deyir:

-Uşaqlar, özünüzə gəlin. Mən bu gün varam, sabah yox. Əlinizi işə alışdırın. Sonra gec olacaq, bir gün çörək tapmayacaqsınız.

Kişinin nəsihətləri oğlanlara təsir etmir. İlbəil qoca əldən düşür, ağır işlər görə bilmir, həyat-bacanı ot-əlaf basır. Ailənin başının üstünü kasıblıq alır. Ama oğlanlar

ayılmır ki, ayılmır. Bir müddət keçir. Günlərin bir günü qoca əl-ayağını uzadır ki, bəs yığılın başıma, ölürəm. Oğlanlar görürlər ki, doğrudan da, kişinin halı ağırdır, tez onun həndəvəninə yığılırlar. Deyirlər Ki, dədə, tez vəsiyyət elə görək, sən öləndən sonra biz başımıza nə çarə qılmalıyıq? Qoca deyir:

-Oğlanlarım, bu fərasət ki, sizdə var, bilirəm ki, mən öləndən sonra yuxudan günorta duracaqsınız. Odur ki siz balaca olanda hər cür hazırlıq görmüşəm. Sizin üçün çoxlu qızıl ehtiyatı görmüşəm. Qoymuşam iri küpəyə, basdırmışam həyətin...

-Hə, dədə, de görək həyətin harasında?

Kişi bundan artıq bir söz demir, ömrünü fərsiz oğlanlarına bağışlayır.

Oğlanlar tez hərəsi bir bel götürüb başlayırlar həyəti şumlamağa. Düz beş kərə torpağın altını üstünə çevirirlər, yenə bir şey çıxmır. Axırda küpdən əllərini üzüb yatırlar. Yazda oyanıb görürlər ki, həyət bar-bəhərlə doludur. Onlar bu işə mat qalırlar, gedirlər atalarının dostunun yanına. Əhvalatı kişiyə söyləyib bu işin sirrini soruşurlar. Kişi o saat işin nə yerdə olduğunu bilib deyir:

-Oğullarım, sizin rəhmətlik atanız çox ağıllı adam imiş. Yaxşı bilirmiş ki, siz tənbəlsiniz. Ona görə də qızıl məsələsini atıb ortalığa, amma yerini deməyib. Siz də həmin qızılı tapmaq üçün torpağı belləməyə başlayıbsınız. Ona görə də o biri ildə belə bol məhsulunuz olur. İndi dədənizin vəsiyyət etdiyi qızıl həyətinizdədir.

Gedin məhsulunuzu becərin, yığın, yediyinizi yeyin, artığını satın. Unutmayın ki, işlək evdə şadlıq olar, tənbəl evdə boşluq. İş insanın cövhəridir, balalarım.

## ZINQIROVU KİM ASACAQ

Sıçanlar Məstan pişiyin əlindən gözlərini aça bilmirdilər. Onlar gündüzlər zirzəmidə gizlənir, axşamın düşməsini, Məstan pişiyin yatmasını gözləyirdilər. Sən demə, Məstan gündüzlər yük üstündə xorhaxorla yatır, axşamlar isə pusquda dururmuş. Siçanlar yuvadan burnunu çıxaran kimi, Məstan da bircə-bircə onları tutub yeyirmiş.

Bir gün siçanlar toplaşıb götür-qoy etdilər, axırda belə qərara gəldilər ki, gecə Məstana hücum etsinlər, onu öldürsünlər.

Döşünə döyənlər çox oldu. Biri dedi:

-Mən Məstanın boğazından yapışıram.

O biri dedi:

-Mən onun quyruğunu üzərəm.

Başqa birisi dedi:

-Mən onun bığlarını yolaram!

Axşam düşdü. Siçanlar pişiyin marıtladığı deşiyin ağzına toplaşdılar. Hamısı bir-birinin üzünə baxdı. Ancaq Məstanın hənirtisi gələn kimi onlar qaçıb dağılışdılar.

Səhər yenə döşlərini döyürlər. Fikirləşdilər, fikirləşdilər, axırda belə qərara gəldilər ki, Məstanın boynuna balaca bir zınqırov bağlasınlar, səslənsin. Onlar da döyüşə hazırlaşsınlar.

Bəs zınqrovu pişiyin boynundan kim assın?

Söhbət bu yerə gələndə ata sıçan anaya baxdı, ana sıçan balaya baxdı, bala siçan da lap kiçiyə baxdı. Ancaq heç birindən səs çıxmadı.

## DOĞMALIQ

Şah Abbas əyalətlə tanış olmaq istəyirdi. O, əmr etdi ki, faytonu hazırlasınlar, özü də ona dörd seçmə at qoşsunlar. Şahın adamları cəld əl-ayağa düşdülər. Müxtəlif dövlətlərin bağışladığı seçmə atları faytona qoşdular.

Şah vəziri ilə səyahətə başladı. Onlar xeyli yol gedəndən sonra suyu o qədər də çox olmayan kiçik dağ çayından keçməli oldular. Çayın ortasına çatanda atlar dayandılar. Faytonçu nə qədər qamçıladısa da, atlar yerlərindən tərpənmədilər ki, tərpənmədilər. Elə bu vaxt odunla yüklənmiş bir araba çaya yaxınlaşdı. Arabaya iki arıq at qoşulmuşdur. Qoca arabaçı arabanı sürətlə sürüb çayı keçdi.

Şah təəccübləndi və əmr etdi ki, arabanı saxlayıb, qocanı şahın hüzuruna gətisinlər. Şah arabaçıya dedi:

-Qoca, mənim faytonum yüngül, faytona qoşulmuş atlar isə dünyanın seçmə atlarıdır. Onları cins atlar kimi mənə Türkiyədən, Əfqanıstandan, İspaniyadan və Fransadan göndəriblər. Necə olur ki, sənin iki qotur atın odunla yüklənmiş arabanı çaydan asanlıqla keçirdi, mənim seçmə atlarım isə çayın ortasında qalıb?

-Şah sağ olsun, özünüz dediniz ki, sizin faytona qoşulmuş atların hərəsi bir diyardan hədiyyə göndərilib. Nə qədər yaxşı bəslənsə də, onlar bir-birinə ögeydir. Birinci at özünü bərkə salmaq istəmir, ikinci ata arxayın olub güc vermir. İkinci üçüncüyə, üçüncü də dördüncüyə arxayın olub güc vurmur. Nəticədə fayton hərəkətdən qalır. Mənim bu iki atım ana-baladır. Ana istəmir ki, balasına güc düşsün, özü var gücü ilə arabanı dartır. Bala da anasını əziyyətə salmamaq üçün bütün gücünü sərf edir. Bax bu doğmalıqdır mənim arabamın sürətini artıran.

# NANKORUN AQİBƏTİ

Qərib eldə yaşayan tacirin yanına öz elindən-obasından bir cavan oğlan gəlib çıxır. Yad yer, qərib ölkə... Yaşlı tacir həmyerlisini qanadının altına çəkir. Əlinə pul verib, ona alqı-satqı öyrədir. Özü ilə məclislərə aparır, tanış-bilişinə qohumu kimi tanıdır.

Oğlan pulgir imiş. Beş tümənə anasının əlini də kəsərdi, dilini də. Elə ki, əli gətirir, özünə yer eləyir, başlayır eloğlusunun ayağının altını qazmağa. Şirin dili ilə beş-üç nəfər yaxşılıq itirən, çörəyi dizinin üstündə olan nankor gədə-güdəni öz tərəfinə çəkir. Yerli tacir onun hərəkətlərinə bənd olmur. Qurdgöz cavan elə bilir ki, tacir qorxur. Onun üstünə bir az da ayaq alır. Dövlətli, ağıllı ağsaqqallar cavan oğlana öyüd-nəsihət edirlər:

-Səni ona görə tanımışıq. Səni cərgəmizə çıxaran o olub. Çörək itirmə! Cavanlığa güvənib, sabahı unutma!

Qurdgöz oğlan üzdə peşman olduğunu bildirsə də, altdan-altdan işini görür.

Yaşlı tacirin işi düz gətirmir. Olan-qalanını satıb, başqa şəhərə köçür. Su daşıyıb satır, ailəsini bir təhər dolandırır. Bir gün padşah ölür. Yeni padşah seçmək üçün dövlət quşu uçururlar. Quş gedib suçunun çiyninə qonur. Beləcə üç dəfə qonandan sonra kişini gətirib taxtda oturdurlar.

Yeni padşah halallıqla, ədalətlə iş görür. Adamların bir-birinə inamın, etibarın qanunla möhkəmləndirir. Abadlıq işləri başlanır. Çox keçmir ki, ölkədə bir quldur dəstəsi peyda olur. Nə illah edirlərsə, dəstəni ələ keçirə bilmirlər. Padşah quldurları tamah toruna salıb tutdurur. Görür ki, quldurbaşı elə öz eloğlusudur. Qızıl-gümüş bunun gözünü elə tutub ki, ağlı başından çıxıb. Padşah onun quldurluqla əldə etdiyi var-dövləti xalqa paylayır. Ona deyir:

-Sən hörməti, insanlığı tapdadın, çörəyə, yaxşılığa qiymət qoymadın.

Əmr edib qızıldan əlcəklər tökdürür, quldurun əllərini onlara saldırıb bağlatdırır. Boynundan bir torba çörək asıb çölü-biyabana buraxdırır. Heç kəs ona yaxın getmir. O da əlləri qızıl əlcəkdə boynundakı çörəyin ətrini ala-ala dəli kimi çöllərə düşüb, qurd-quşa yem olur. Nankorun aqibəti belə olur.

## TƏBƏSSÜM

Bir axşam yekə uca çinarın altında məşhur filosofla bir gənc görüşdü. Söhbət zamanı insanlığı fərqləndirən iki əlamətin nə olduğunu soruşdu. O, belə cavab verdi:

-Yer üzündə insanlıq təbəssümün ilk dəfə görünməsi ilə başlanmışdır. Təbəssüm yalnız insana məxsusdur.

Mən xəstə və əsəbi insanları üzlərində təbəssümün olub-olmaması ilə müəyyən edirəm. Əsəbi adamın üzü gülməz. Təbəssümün olmadığı çöhrə göründə onun əsəbi və ya xəstə olduğunu anlayıram.

Təbəssüm ruhun, sağlamlığın müjdəçisidir.

Beşikdəki cocuğun ilk dəfə gülümsəməyə başladığı gün ailə səadətinə səbəb olur. Dostlar arasında səmimiliyi göstərən də təbəssümdür. Mən əhalinin həyat qabiliyyətini də onların təbəssümü ilə ölçürəm. Qədim türklər daim gülərüz olmuşlar. Bu səbəbdən xalqımız indi də gülərüzdü.

Üzü gülməyən adamlar heç bir işdə uğur əldə edə bilməzlər.

Bir balçı dükanına həmişə ən yaxşı bal gətirərmiş. Amma heç vaxt bal sata bilməzmiş.

O, dostuna gileylənir:

-Hamı bilir ki, ən yaxşı bal mənim dükanımda olur. Amma nədənsə, müştərilər onu bəyənməyib gedirlər. Qonşunun balı yaxşı olmadığı halda, onun dükanından müştəri əskik olmur. Bunun səbəbi nədir?

Dostu ona belə cavab verir:

-Səbəbi odur ki, sən bal satırsan, amma çöhrən sirkə satır. Amma o biri bal satanın üzündən təbəssüm əskik olmur. Ona görə də müştərisi çox olur. Çalışmaq lazımdır ki, insanların üzündən təbəssüm əskik olmasın. Bu uğura aparan yolun başlanğıcı olar.

## LOĞMAN VƏ QADIN

Loğmanın şöhrəti bütün dünyaya yayılmışdı. Hər kəs səhhəti üçün problemin həllini Loğmanda görürdü.

Bir qadın da oğlunu müalicə etdirmək üçün Loğmanın yanına gəlir. Loğmana deyir:

-Mənim oğlum xurmanı çox yeyir. Mümkünsə onu bu yoldan döndərin. Biz nə qədər çalışmışıqsa, müsbət təsiri olmayıb. Loğman qadına deyir:

-Bu gün gedin, sabah gələrsiniz.

Səhərisi gün qadın yenə oğlu ilə Loğmanın qəbuluna gəlir. Loğman cavan oğlana:

-Bala, çox xurma yeməyin bədənə zərəri var, yemə.

Qadın təəccüblənir. Loğmandan soruşur:

-Sən dünən bizi geriyə göndərdin. Əzab-əziyyətlə bu uzun yolu gedib, bir də qayıtdıq. Məgər indi dediyin sözü dünən deyə bilməzdin?

Loğman cavab verir:

-Deyə bilərdim. Amma haqqım yox idi. Çünki dünən özüm də xurma yemişdim.

# AĞABƏYİM XANIM

XVIII əsrin el sənətkarlarından biri də Ağabəyim xanımdır. O, İbrahim xan Cavanşirin qızıdır. Təəssüf ki, həyata yenicə göz açdığı zamanda onu İrana Fətəli Şahın sarayına aparmışlar. Ancaq o, şahı yox, əmisi oğlu Məmməd bəyi sevirmiş. Ona Batmanqılınc Məhəmməd də deyirmişlər.

Bir dəfə şah Ağabəyimdən soruşur ki, məni sevirsənmi?

O isə cavabında qətiyyətlə "yox" cavabını verir. Əlavə olaraq deyir:

-Mən başqasını sevirəm. Bir ölkədə iki şah olmadığı kimi, bir ürəkdə də iki məhəbbət ola bilməz.

Şah deyir:

-Boş sözdür. Mənim ürəyimdə yüz qadın yaşayır.

Ağabəyim xanım başını bulayıb deyir:

-Sürü yatağı ilə məhəbbət otağı başqa-başqa şeylərdir.

İstehza ilə deyilən bu sözlər şaha güllə kimi dəyir.

Bir dəfə Məhəmməd bəy Ağabəyim xanımı görmək üçün Tehrana gedir. Əlbəttə, şah xəbər tutsaydı, hər ikisini asdırardı. Ona görə də onlar gecə görüşməli olurlar. Sonralar bu görüşün aniliyi Ağabəyim xanım üçün ağır dərd olur. Bu hicran münasibəti ilə onun yazdığı qəzəldən cəmi bir beyt bizim dövrümüzə qədər gəlib çıxmışdır:

Əfsus ki, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

## ÇALA-ÇALA GƏLİRƏM

Bir kənddə camaatın toy-düyününü keçirmək üçün çalğıçı yox idi. Çalğıçıları gedib qıraq yerlərdən gətirirdilər. Bu dağ kəndində üç nəfər qərara aldı ki, zurna və nağara çalmağı öyrənsinlər. Beləliklə, həm kəndin toy-düyününü yola verərlər, həm də asan yolla pul qazanarlar. Camaat da istəyirdi ki, çalğıçılar öz kəndlərindən olsun. Ona görə də qıraqdan kəndə çalğıçı gətirmirdilər. Bu təzə çalğıçılar isə işlərinin öhdəsindən hələ də yaxşı gələ bilmirdilər. Havaları qaydasında çala bilmir, bəzən havaları bir-birinə qatırdılar.

Aradan neçə müddət keçmişdi. Kənddə yenə toy idi. Növbə ilə oyun havaları çalınır, camaat isə oynayıblar. Rəqslərin gözəl ifaçısı olan Şəmsəddin adlı bir kişi ortaya düşüb süzürdü. Amma çalınan hava sümüyünə düşmədiyinə görə oynaya bilmirdi. Çünki çalğıçılar kişinin oynadığı rəqsin əvəzinə, başqa hava çalırdı.

-A, zalımoğlu, "Heyvagülü"mü çal da! Sümüklərim yandı axı?!

Bu vaxt zurnaçı da hirsləndi. Zurnanı ağzından çıxardı və dedi:

-Ə, nə çığırırsan, e! Çala-çala gəlirəm də!

## VURDUQ ORDAN-BURDAN

Bir kənddə xəsis bir kişi yaşayırdı. İşi-peşəsi pul yığmaq idi. Deyilənə görə çörək yeyəndə, pişiyin də gözün bağlarmış. Bir gün bu xəsis kişi evdə təmir aparmaq üçün üç nəfər fəhləni evə gətirir. Görəcəkləri işləri göstərir. Yeməklərinə də quru çörək, su və şordan başqa, heç nə vermir. Normal yemədiklərinə görə fəhlə və usta

dildən düşür, yerişlərini də itirirlər.

Verilən haqqın müqabilində işi bir alay-qolay başa vururlar. Xəsis kişi gəlib işin nəticəsin yoxlayır. İşin çox hissəsin başdansovdu görən usta və fəhlələri kişi danlayır. Deyir ki, başdansovdu iş görmüsünüz. Fəhlənin biri deyir:

-Sən verdin şordan-mordan, biz də vurduq ordan-burdan. Verərdin ətdən-mətdən, biz də vurardıq bərkdən-bərkdən!

## FİRDOVSİ VƏ ÇOBAN

Belə rəvayət edirlər ki, görkəmli fars şairi Ə.Firdovsi "Şahnamə" əsərini yazmaq istəmədiyinə görə həbsxanaya salınır. Təsadüfən böyük şair her-hes bilməyən çobanla həbsxana kamerasında birlikdə olurlar. Ə.Firdovsi bu ahıl vaxtında nahaqdan həbs edilməsinə, əziyyətli günlər yaşamasına görə çox qəmlərə dalır və hönkür-hönkür ağlayır. Ağladıqca göz yaşları axaraq uzun saqqalı boyu aşağı yuvarlanır. Bir azdan şairin bu halını görən çoban da ağlamağa başlayır. Çobanın hönkür-hönkür ağladığını görən Ə.Firdovsi üzünü ona tutub deyir:

-Mən bu yaşımda nahaqdan tutulduğuma görə ağlayıram. Bəs sən nə üçün ağlayırsan?

Çoban deyir:

-Rəhmətliyin oğlu, mən ona görə ağlamıram. Ona ağlayıram ki, mənim sürümdə olan şöşbuynuz, uzun saqqallı erkəcimin də saqqalı sənin saqqalına bənzəyirdi. Yağış yağanda onun da saqqalından sənin saqqalında olduğu kimi su damcıları axırdı. Erkəcim yadıma düşdükcə sənin saqqalınla müqayisə edir, qanlı yaş tökürəm.

Böyük şair bu törpüdəyməyən çobanın sözünün əvvəlini-axırını bilməməsinə, onu erkəci ilə müqayisə etməsinə bərk sarsıldı. Öz-özünə qət etdi ki, belə adamla

bir yerdə həbsxana həyatı keçirməkdənsə, gedib "Şahnamə"ni yazmaq daha yaxşıdır. Qapıçını çağırıb əsəri yazmaq istədiyini Sultan Mahmud Qəznəviyə çatdırmağı xaşih etdi. Həmin gündən Ə.Firdovsi əsəri yazmağa başladı. Əsərin yazılışı uzun illər vaxt apardı. Bu möhtəşəm əsər yazılıb başa çatandan sonra Sultana təqdim edildi. Şərtə görə Sultan Mahmud əsərin bir beyitinə bir qızıl verməli idi. Amma sarayda olan bəzi bədxahlar əsərin bu qiymətə layiq olmadığını Sultana bildirdilər.

Sultan Mahmud fikrin dəyişir, qızılı gümüşlə əvəz edir. Hökmdarın bu hərəkətindən çox pərt olan bu böyük şair Tus şəhərinə çatana qədər həmin gümüş pulları dilənçilərə paylayıb qurtarır. Həmin puldan ancaq hamamda yuyunmaq üçün xərcləyir.

Sonralar səhvini başa düşən Sultan Mahmud dəvə karvanı ilə qızıl pulları şairə göndərir. Rəvayətə görə, şəhərin bir darvazasından karvan içəri daxil olanda, o biri darvazadan şairin cənazəsin çıxardırlar. Hökmdarın hədiyyəsini şairin qızına vermək istəyirlər. Məğrur qız isə bu qədər qiymətli hədiyyəni qəbul etmir, geri qaytarırlar.

## MÜƏLLİM ŞƏRƏFİ QORUNMALIDIR

Görkəmli xeyriyyəçi, xeyirxah əməllər sahibi, yetim-yesir anası Hacı Zeynalabdin Tağıyev Azərbaycan tarixində özünəməxsus layiqli yer tutmuşdur. O, öz vəsaiti hesabına bir çox zəkalı azərbaycanlı övladlarını xarici ölkələrdə oxutdurmağa göndərmişdi. Hacının xeyirxah əməllərin, maarif və mədəniyyətin inkişafı üçün gördüyü işləri saymaqla qurtaran deyil. Günlərin bir günü Hacı göstəriş verir ki, qabaqcıl ziyalılar üçün beş mərtəbəli yaşayış binası tiksinlər. Onun vəsaiti hesabına bina tikilir, istifadəyə vermək üçün hazırlanır. Hacı tapşırır ki, binada ona

da yaşayış binası ayırsınlar. Lazımi məqam yetişəndəHacını binanın açılışına dəvət edirlər. Görkəmli xeyriyyəçi bütün binaları gəzir, kimlərə binada yer verildiyini öyrənir. Ona da ikinci mərtəbədə yer ayırmışdılar. Bu məşhur xeyriyyəçi birinci mərtəbədə kimə ev verilməsi ilə maraqlanır. Məlum olur ki, birinci mərtəbədə H.B.Zərdabiyə yer ayırıblar. Hacı buna qəti etiraz edir və deyir:

-Hər işi yaxşı görmüsünüz, avadanlığı xaricdən gətirtmisiniz. Bircə səhviniz onda olub ki, H.B.Zərdabi kimi xalqının qeydinə qalan, dərdlərinə qəmxar olan gözəl bir müəllimə, savadlı ziyalıya birinci mərtəbədə, mənə isə ikinci mərtəbədə yer ayırmısınız. Müəllim şərəfi hər yerdə uca tutulmalıdır. Ona görə də təcili onun yerini ikinci mərtəbəyə, yəni mənə ayrılan evə, məni isə birinci mərtəbədəki onun yerinə dəyişin. Mənim haqqım yoxdur ki, H.B.Zərdabi kimi ziyalıdan üstə yaşayım. Biz müəllim şərəfini həmişə uca tutmalıyıq. Müəllimsiz cəmiyyət məhv olar, nadanlıq girdabına düşə bilər.

## EVƏ GƏLƏN KİŞİ OLMALIDIR

Bir nəfər uzaq yollar yormuş, uzaq dağlar-dərələr aşmış, nəhayət, axşamüstü yorğun-arğın gəlib bir kəndin kənarına çatmışdı. Gecələmək üçün bu kənddə elə bir dostu, tanışı yox idi. Ona görə də qarşısına çıxan ilk evin darvazasını döydü. Qapıya 11-12 yaşlarında bir oğlan uşağı çıxdı. Qərib qonaqdan kimi istədiyini soruşdu:

-Qonaq vəziyyəti oğlana danışdı. Gecələmək üçün yer olmadığını bir daha bildirdi. Evin kişisinin çağırmağı xahiş etdi.

Oğlan bildirdi ki, evin kişisi elə atamdır. O da burada yoxdur. Bir neçə gün də olmayacaq.

Qapıda dayanan qonaq dedi:

-Deməək, evdə kişi yoxdursa, o evdə gecələmək düz deyil. Yaxşısı budur, gedim gecələmək üçün ayrı yer axtarım.

Oğlan isə bu qərib, yorğunluğu üz-gözündən bilinən qonağı evə aparmağa çalışırdı. Qonağın tərəddüd etdiyini görüb dedi:

-Evin kişisinin evdə olması o qədər vacib deyil. Əsas odur ki, kişisiz evə gələn kişi olsun, əsl kişi xarakterinə malik olsun.

Bu sözdən sonra qonaq qalmağa razılıq verir.

## VƏTƏN HƏR ŞEYDƏN ŞİRİNDİR

Rəvayətə görə, Qarabağ xanlığı ilə İran arasında etibar qazanılmasına, inamsızlığın aradan qaldırılmasından ötəri Qarabağ xanının qənirsiz gözəlliyə, ədəb-ərkana malik şair təbiətli qızı Ağabəyim xanımı Fətəli şaha ərə verirlər. Bir növ məcburi şahın hərəmxanasındakı üç yüzdən artıq qadının içərisinə atırlar. Bədbəxt Ağabəyim xanımın göz yaşlarını heç kim quruda bilmir. Baxmayaraq ki, Fətəli şah onu baş hərəm təyin edir, ona olmazın qayğı göstərir, yenə Ağabəyim xanım Qarabağı, gözəlliyə bələnmiş Şuşa dağlarını heç vaxt yaddan çıxara bilmir.

Şah onun xatirini çox istəyirdi. Bunu Ağabəyim xanım hiss edirdi. Bir gün söhbət zamanı şaha dedi:

-Mən istəyirəm bütün daş-qaşımı satam. Onun puluna Tehranda Qarabağda bitən ağaclardan, gül-çiçəklərdən ibarət gözəl bir bağ saldıram. Orada ancaq Şuşada bitən "xarı bülbül gülləri"ni də özüm əkib becərəcəyəm.

Bu sözlərdən təəccüblənən şah dedi:

-Mənim var-dövlətim, xəzinəm bəs eləmir ki, sən daş-qaşlarını satmaq istəyirsən?

Lakin Ağabəyim təkidindən əl çəkmədi və şahın

razılığını aldı. Gözəl bir yerdə bağ salındı. Bütün ağaclar, güllər-çiçəklər Qarabağdan gətirildi. Burada əkildi, becərildi. Təkcə "xarı bülbül" adlanan çiçək bu yerlərə uyğunlaşa bilmədi. Nə qədər qulluq göstərilsə də göyərmədi, quruyub məhv oldu. Bu hal Ağabəyim xanımı da qüssələndirdi. Həm də Vətən həsrəti onu daim sıxır, əzirdi. Bir dəfə qəmli-qəmli bu bayatını göz yaşları içərisində oxuyurdu:

Mən aşiqəm Qarabağ
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Ağabəyim xanımı həddən artıq istəyən Fətəli şah təsadüfən, Ağabəyim xanımdan xəbərsiz bayatını eşitdi və çox mütəəssir oldu. Sevimli qadınına dedi:

-Sənə göstərilən bu qədər diqqət, qayğı, hörmət bəs eləmir ki, o cür bayatı çəkirsən? Səndən inciyirəm. Ağabəyim xanım vəziyyətdən çıxmaq üçün dedi:

-Siz mənim sözlərimi səhv eşitmisiz. Mən bayatını aşağıdakı kimi demişəm:

Mən aşiqəm Qarabağ
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə döndü,
Yaddan çıxmaz Qarabağ.

Əslində isə Ağabəyim xanım ömrünün sonuna qədər qəlbinin bir parçası olan Qarabağı yaddan çıxarmadı.

## GÖVHƏR AĞA

Qarabağ xanı İbrahim xanın gürcü knyazı Abaşidzənin qızından doğulmuş Gövhər Ağa adlı qızı dövrünün tanınmış, sayılıb-seçilən xanımlarından biri hesab edilirdi.

Molla məktəbində ərəb və fars dillərini də mükəmməl öyrənmişdi. 1769-cu ildə İbrahim xanın Şuşada tikdirdiyi məscidi sonralar Gövhər Ağa təmir etdirib, əvvəlkindən də gözəl şəklə saldırmışdır. Ağıllı, tədbirli, xeyirxah bir xanım olmuşdur. Lakin gözəlliyinə, mərifətinə, dərin biliyinə baxmayaraq, taledən yarımamışdı. Təmir etdirdiyi məscid tarixdə Gövhər Ağa məscidi kimi şöhrət tapmışdı. Bu cür xanım-xatın, daxili aləmi ilə zahiri aləmi vəhdət təşkil edən gözəli mərifətindən, elmdən, mədəniyyətdən xəbəri olmayan bir adama-Xankişi bəyə ərə verirlər. Gövhər Ağanın kəsilib atılan dırnağına dəyməyən Xankişi bəy bu dağ çiçəyinin həyatını öz nadanlığı ilə odlara qalayır. Məhz bu münasibətlə dövrünün şair təbiətli insanlarından olan Kərbəlayi Qəhrəman adlı bir nəfər bu haqq-hesaba gəlməyən uyğunsuz izdivac haqda aşağıdakı bir beyt şeiri yazmışdır.

Xərmöhrəyə layiq olmayan xər,
Səd heyf, cahanda tapdı Gövhər.

## QARI VƏ CAVAN

Un əyirməklə məşğul olan qoca bir qarıdan soruşurlar:

-Tanrının varlığını sübut etmək üçün hansı dəlilin var?

Həmin qadın dərhal toxucu dəzgahından əlini çəkir və cəhrənin çarxı dayanır. O belə deyir:

-Bu kiçiklikdə çarx onu fırladan olmasa dayanır. Necə ola bilər ki, bu böyüklükdə dünya, onun bütün ulduzlu göyləri, Günəşin və Yer kürəsi ilə birlikdə heç bir yaradanı olmadan, heç bir hərəkətverəni olmadan fırlanmaqdadır və öz hərəkət və seyrini davam edir?!

## DAHİ İSGƏNDƏR

Böyük İsgəndər dünyadan köç edəndə ətrafında olanlara bir vəsiyyətnamə verdi. Tapşırdı ki, vəsiyyətnaməni mən öləndən sonra açsınlar.

İsgəndər gözlərini dünyaya yumdu. Vəsiyyətnamə açıldı, oxundu. Heç kim vəsiyyətnamədən baş açmadı. İsgəndərin müəllimini çağırdılar. Vəsiyyətnaməni ona verdilər. Oxudu və dedi:

-Mən İsgəndərin dahi olduğunu bir daha anladım.

Soruşdular:

-İsgəndər bu vəsiyyəti ilə nə demək istəmişdi?

İsgəndərin müəllimi dedi:

-İsgəndər vəsiyyətnamədə yazıb:-Mən öləndə cənazəmin qabağına əli silahlı əsgərlərimi düzün, sol tərəfdə var-dövlətli əyan-əşrəfi düzün. Cənazəmin arxa tərəfində göz yaşları ilə məni təqib edən kasıbları düzün. Əllərimi tabutdan eşiyə qoyun, sol əlimə bir qədər qızıl qoyub bağlayın, sağ əlim isə boş qalsın.

Soruşdular:

-İsgəndər bununla nə demək istəmişdi?

-İsgəndər demək istəyib ki, bu qədər ordu ilə dünyanı fəth elədim. Bu qədər alim-üləma, varlı əyan-əşrəf ilə oturub durdum. Heç biri bu gün mənə kömək edə bilmədi. Dərdimə yanan yenə kasıblar oldu. Onlar mənim üçün göz yaşı tökdülər. Dünyanın var-dövləti əlimdə idi. Amma bax, yenə əliboş gedirəm. Məndən yadigar qalan isə xeyirxah işlərim, savab əməllərimdir.

## HALALLIQ

Yaşı keçmiş, ölkədə halallığı, düzlüyü ilə tanınan padşah bir gün belə bir göstəriş verir: Düzlüyü, halallığı ilə tanınan qırx nəfər adam seçib mənim hüzuruma gətirin ki, indidən öz yerimə bir halalzadə şəxs seçim. Qırx nəfər inanılmış adam seçib padşahın yanına gətirdilər. Padşah onlara baxıb, hər birinə bir gül toxumu verdi. Göstəriş verdi ki, toxumu əkib becərin, qırx gündən sonra mənim hüzuruma gətirin.

Qırx gün tamam oldu. Həmin adamlar saraya yollandı. Təkcə yetimçiliklə böyümüş bir biçarə həmin adamlarla birlikdə saraya gedə bilmədi. Utandığından evdən eşiyə çıxmadı. Anası söylədi:

-Oğul, sən də get.

Oğlan qəmli-qəmli dedi:

-Anacan, mən əliboş dibçəklə hara gedim? Həmin qırx adamdan otuz doqquzunun əkdiyi toxum göyərdi. Təkcə mən əkdiyim göyərmədi.

Ana təkid etdi. Əlacsız oğul çar-naçar saraya yollandı. Boş dibçəklə axırda dayandı ki, xəcalət çəkməyini heç kim görməsin.

Dibçəklərdə gözəl, ətirli güllər açmışdı. Ətrafa xoş rahiyəli ətir saçılırdı. Hər kəs padşaha xoş gəlmək üçün əkdiyi gülü, onun bihuşedici ətirini tərifləyirdi. Axır ki, padşah gəlib çıxdı. Bir-bir dibçəklərə nəzər saldı. Gəlib yetim oğlanın yanında dayandı.

-Oğul, sənin dibçəyin niyə boşdu?-deyə soruşdu.

-Nə qədər qulluq etdim, bitmədi ki, bitmədi!

Padşah taxtında əyləşib dedi:

-Camaat, mən əsil varisimi tapdım. Çünki o, əsil halalzadədir. O, yetim oğlanı yanına çağırdı və dedi:

-Məndən sonra mənim varisim sənsən, Mən bütün toxumları qaynatmışdım. Halallığa təkcə sən sadiq qaldın.

# DUA NEYLƏR YAĞ-QAYMAĞA

Azərbaycan xalqının görkəmli, nakam taleli şairi M.Müşfiqin atası Mirzə Qədir İsmayılzadə də dövrünün tanınmış ziyalılarından olmuş, maraqlı şeirlər yazmış, sözün, sənətin qədrin bilənlərin nəzərin cəlb etmişdir. Hətta "Şah İsmayıl" operasının liberettosun da yazmışdır. Bu görkəmli şəxsiyyət ailəsini dolandırmaq üçün məktəbdarlıq və mollalıqla məşğul olmuşdur.

Müasirlərinin yazdığına görə bir qadın onun yanına gəlir. Əvvəlcədən yazdıracağı duanın pulunu da verir. Sonra duanın nə məqsədlə yazılacağını aşağıdakı kimi söyləyir:

-Mirzə, neçə aydı ki, mal-heyvanımızın südünü sağıb, qatıq eləmişəm. Şükür, 3-4 eymə məhsulum var. Sabahdan başlayacağam nehrəni çalxalamağa. Gərək mənə elə dua yazasan ki, nehrədən bolluca yağ, ayran çıxsın. Ayrandan da şor hazırlayacağam, ayran aşı bişirəcəyəm.

Qadını diqqətlə dinləyən Mirzə Qədir ürəyində onun avamlığına gülür, lakin əliboş da geri qaytarmaq istəmir.

Sonralar dillərdə əzbər olan bir bənd şeiri dua kimi yazıb, arvada verir. Savadsız qadın "dua"nı alır və sevinə-sevinə evinə dönür.

Şair dua əvəzinə yazmışdı:

Anam-bacım, xanım ağa,
Dua neylər yağ-qaymağa?
Ayağını bərk bas yerə,
Başla nehrə çalxamağa.

## HƏLƏ BU, ƏVVƏLKİLƏRİN BƏLASIDIR

Bir mömin, Allaha yaxın, xeyirxah əməllər sahibi olan bir kişi imanlılara həmişə nümunə göstərilərdi. Onun başqalarından əsas fərqi ondaydı ki, sözü ilə əməli bir olardı. Zahirdə necə idisə, dalda da elə olardı.

Bir gün bu quran-iman sahibi olan kişi yol ilə piyada harasa iş dalınca gedirdi. Arxadan bir cavan atlı gəlirdi. Gəlib qocaya çatanda salam verdi və soruşdu:

-Hər hansı bir yaramaz hərəkətə qarşı qarğış edərlərsə, qarğış neçə müddətə günahkarı tutar?

Kişi cavab verdi:

-3-4 aya, yuxarısı altı aya.

Bu sözlər qocanın ağzından çıxan kimi cavan oğlan kişinin başından papağın götürüb, aradan çıxdı.

İmanlı kişi mat-məətəl atlının arxasınca baxmağa başladı. Sonra sakitcə yoluna davam etdi. Gəlib bir xəndək dərənin yanından keçəndə gördü ki, həmin cavan atlı atı ilə birlikdə xəndəkdən yuvarlanıb dərənin dibinə düşüb. Oğlanın qıçı sınıb. Heç bir söz demədən dərəyə yenir, papağın götürüb başına qoyur. Oğlan kişini görüb deyir:

-Bəs sən deyirdin qarğış altı aya tutar?

Kişi sakitcə cavab verdi:

-Hələ bu əvvəl elədiyin əməllərin nəticəsidir. Bu gün elədiyin əməlin cəzası isə hələ qabaqdadır.

## İKİ BOSTANÇI

İki bostançı eyni sahədə qonşuluqda bostan əkmişdilər. Axıra yaxın bostançının birinin bostanının verdiyi bol məhsul görünməyə başladı. O birisininki isə saralıb soldu, məhv oldu. Bostanı məhv olan bostançı qonşusu

nun yanına gəldi. Qonşusunun bostanındakı qarpızın birin gözaltı elədi ki, bir gün qırıb, uşaqlara töhfə aparsın. Qonşusunun yanına gəlib hal-əhval tutdu. Dedi:

-Necə ola bilir ki, eyni torpaq sahəsi, eyni su ilə suvarılan mənim bostanım belə məhv olsun, əlim boşda qalsın. Sənin də bostanın belə barlı-bərəkətli olsun?

Qonşusu dedi:

-Mən bostanı əkəndə Allahın adına əkmişəm, yəqin, ona görə belə olub. Bostanı bol bəhər verən kişi harasa getməli oldu. Vəziyyəti belə görən qonşu çəpərin altından əlini uzatdı ki, nəzərdə tutduğu yekə qarpızı oğurlasın.

Birdən qəfildən göy guruldamağa başladı.

Oğurluq edən kişi tez əlini geri çəkdi. Qorxaq halda üzün göyə tutub qorxa-qorxa dedi:

-Kərəminə qurban olum. Nə tez duyuq düşdün?

Qorxma, oğurluq eləmirəm. Əlimlə qarpızın yetkinliyini yoxlamaq istəyirdim.

## MIXDAN ASILI QALIB

Bir nəfər aşıqlıq sənətinə, saza-söhbətə çox maraqlı, həvəskar idi. Bir çox aşıq şeirlərini: qoşma, gəraylı, təcnis, cığalı, təcnis, divani, dodaqdəyməz, dildönməzi əzbər öyrənmişdi. Yalvar-yaxarla atası onu ustad aşıq yanına şagirdliyə qoydu. Ailə kasıb olduğuna görə atasının belə işlərə imkanı çatmırdı.

Ustad aşığın təklifi ilə ilk olaraq şagirdə saz alınmalı idi. Ondan sonra aşıqlar geyən formada paltar tikilməliydi. Kişi məcbur qalıb deyilənləri həll etmək üçün evdə olub-qalan bir-iki qoyunu satmalı oldu. Aşıq paltarın və sazı alandan sonra ustadı dedi:

-Hə, bunları almaqla lap yaxşı iş gördünüz. İndi

qaldı bir aşıq papağı. Onu və xrom çəkməni alsan, əsil aşığa oxşayarsan.

Bunları eşidən atanın qanı bərk qaraldı. Ancaq məcbur idi. Girdiyi meydandan yarımçıq çıxmaq istəmirdi. Bir yaşlı aşıq dostu vardı. Məcbur qalıb xrom çəkməni ucuz almaq üçün ona müraciət etdi. Sağ olsun, dostu da onun sözün yerə salmadı. Bir orta səviyyəli xrom çəkməni pulsuz-parasız ona bağışladı.

Kişinin sevincinin həddi-hüdudu yox idi. Qalırdı bir də buxara papaq. Onu da alsa, oğlu əsil aşığa oxşayacaq. Toylarda çalıb oxuyacaq, nəmər yığacaq, ailənin dolanışığına köməyi dəyəcək. Bu fikirlər aləmində kişi oğlu ilə birlikdə soraqlaşa-soraqlaşa bir papaqçı dükanı tapdı. Dükana daxil oldular. Salam-kəlamdan sonra mıxdan asılmış papaqların qiymətini soruşdular. Papaqtikən elə qiymətlər dedi ki, kişinin ayağının altından yer qaçdı. Hirsli-hirsli papaqtikənə baxıb dedi:

-Elə belə qiymətlər demisən ki, papaqlar da mıxdan asılı qalıb da!

## ŞÜKÜRLÜ BƏNDƏ

Bir vilayətdə kasıb, dindar bir kişi yaşayırdı. Ailəni güc-bəla ilə bir qarın ac, bir qarın tox saxlayırdı. Hər gün məscidə gedər, namazın qılar, Allahtalaya dua edərdi.

Bu kişinin əynində neçə yerdən yamaq vurulmuş paltarı, cırılmış, altı qopmuş bir ayaqqabısı var idi. Bir gün də məscidə ibadətə gedən zaman gördü ki, ayaqqabısı cırılıb. Özü özün danlamağa başladı. Əllərin qaldırdı göyə. Üz çevirdi Allahtalaya:

-Xudabəndi təbərük-təala! Sənin cəlalına, min şükür! Ömrüm boyu ibadətimdən qalmamışam. İnsanlığa yaraşmayan işlərdən həmişə uzaq olmuşam. Bacardığım

ədər də çalışmışam. Günlərim də çox vaxt məsciddə, ibadətdə keçib. Bütün bunların müqabilində bir tikə çörəyi, ala-babat bir paltarı, ayaqqabını mənə nə zülümlə qismət edirsən. Ailə-uşaq yanında da xəcalətliyəm. Mənə bir qapı aç, işıqlı yollar əta elə! Axı mən sənin sadiq, şükürlü qulunam!

Bu vaxt əlil arabasında, iki qıçı olmayan bir kişinin gülə-gülə ibadətə getdiyini gördü. Bu kişi yenidən özünə qayıtdı. Allahtala qarşısında günahkar olduğunu, naşükür düşdüyünü indi dərk elədi. Yenidən üzünü göylər aləminə tutdu. Əllərini göyə qaldırdı, böyük yaradana üz tutdu:

-İlahi Pərvərdigarə, naşükür düşdüm. Səndən sənə şikayət etdim. O, iki qıçı olmayan kişini görüb, özümə gəldim. Günahımdan keç, bu aciz qulunu bağışla! Sən əhv edənsən, bağışlayansan!

## ABIR-HƏYA PƏRDƏSİ

Bir kişi uzaq bir yolla səfərə gedirdi. Piyada yolla gedərkən yol qırağında bir ilana rast gəldi. Ürəyində götür-qoy etdi ki, öldürüm, ya öldürməyim? Nə fikirləşdisə, getdiyi yoldan geri qayıtdı, ilanı öldürməyə çalışdı. İlanı yaraladı, amma öldürə bilmədi. İlan qaçıb aradan çıxdı. Kişi də yoluna davam etdi. Yolun bir yarısında kişi oturdu ki, bir az dincəlsin. Elə bu vaxt həmin yaralı ilan, boynuna sarındı. Başını qaldırdı ki, alnının ortasından vursun. Amma vurmadı, açılıb getdi. Yolun bir yarısında kişi su içmək istəyərkən ilan yenidən boynuna dolandı. Başın qaldırıb alnından vurmaq istədi. Amma bu dəfə də çalmadı, açılıb getdi. Kişi bir təhər qonaq qalacağı kənddə bir evə getdi. Ev yiyəsi tanış olduğuna görə mehribanlıqla qarşıladı. Yolçu kişi yolda başına gələnləri dindar, mömin ev yiyəsinə danışdı. İki dəfə yaralı ilan onu sancmaq im-

kanı olsa da sancmadığını dedi. Elə bu vaxt həmin ilan həyətdə yenidən göründü. Mömin kişi əllərini göyə qaldırdı.Dedi:

-Ey Allahın heyvanı, dilə gəl, sualıma cavab ver! Məqsədin bu bədbəxti öldürməkdisə, iki dəfə imkanın oldu. Bəs niyə sancmadın ki, ölsün, birdəfəlik canı qurtarsın. Yazıqdı, günahından keç, onu bağışla!

İlan:

-Bu şərtlə bağışlayaram ki, gedib yeddi evdən dilənsin. Pay-püş, sədəqə alıb gətirsin.

Mömin kişi qonaqçısına deyir ki, ilanın şərtini yerinə yetirməlisən.

Kişi əvvəlcə etiraz edir, bu işi icra etmək istəmir. Amma qorxudan dilənməyə gedir. Dilənib aldıqlarını gətirib ortaya qoyur. Elə bu vaxt hardasa gizlənmiş ilan qəfildən kişinin üstünə tullanır, boynuna dolanır. Başın qaldırıb, gözlərinə tamaşa edir və bu dəfə zavallı insanın alnından çalır. Mömin kişi yenə dillənir:

-Ey Allahın heyvanı, niyə şərtinə əməl etmədin, bu bədbəxti burda öldurdun?

İlan:

-Mən iki dəfə onu sancmaq istəyəndə gözlərində abır-həya pərdəsinin olduğuna görə vurmadım. Bu dəfə gözlərinə baxanda gördüm ki, ona-buna əl açmaq onun gözlərində abır-həya pərdəsini puça çıxarıb. Orada daha abır-həya, utanmaq pərdəsi qalmayıb. Ona görə sancdım.

## HEÇ BİR ŞEY

İran sərhəddi təzə açılan vaxt bir nəfər bir karton qutu lampoçka aparırmış. Sərhədd keçid məntəqəsində sərbaz lampoçka qutusuna bir möhkəm təpik vurub soruşur:

-Bu nədir?

-Ağa, əgər birini də vursan, heç bir şey.

## XEYİRXAH İNSAN

Bir kişinin gözəl bir atı var idi. Günlər keçdikcə atın səsi-sorağı hər tərəfə yayılırdı. Atın tərifi bir tacirə çatdı. Tacir yubanmadan atı görməyə can atdı. Atı gördükdə gözlərinə inanmadı. At, doğrudan da, tərif olunandan da yaraşıqlı idi.

Tacir atın sahibini tapıb, atı satın almaq istədiyini bildirdi. Kişi, tacirə atı satmayacağını qəti şəkildə söylədi. Tacir nə qədər çalışdısa da, kişini yola gətirə bilmədi. O', kişinin yaxından tanıyan adamları soraqlaşıb tapdı, onlarla söhbət etdi. Məlum oldu ki, kişi çox səxavətli, namuslu və xeyirxah insandır.

Tacir çox götür-qoy etdikdən sonra fırıldaq işlətmək fikrinə düşdü.

Atın sahibi bir gün atına minib səfərə yola düşdü. Bunu tacir də bilirdi.

Kişi xeyli yol getdikdən sonra bir yerdə üz-gözü tük basmış, dilənçi libasında bir adama rast gəldi. Kişinin ona yazığı gəldi, kömək etmək fikrinə düşdü. Dilənçi yalvarmağa başladı ki, allah xatirinə, ona kömək edib ordan çıxarsın. Yoxsa qurda-quşa yem olacaq. Kişi dilənçiyə dedi ki, durub atın tərkinə minsin. Dilənçi cavab verdi ki, ayağa qalxmağa taqəti yoxdur. Kişinin dilənçiyə çox yazığı gəldiyindən atdan düşdü. Onu atının belinə qaldırdı, istədi ki, özü də ata minsin, elə bu vaxt dilənçi atı çapdı. Kişi taciri tanıdı və bərkdən çağırdı:

-Tacir, atı saxla, ulu Tanrıya and olsun ki, atı almayacağam, onu sənə bağışlayacağam. Ancaq bir şərtlə ki, heç bir yerdə bu söhbəti açıb söyləməyəsən.

Tacir atı yavaşladıb dedi:

-Yaxşı razıyam, Ancaq nə üçün söyləməyim?

-Bunu eşidəndən sonra heç kəs dilənçiyə, yoxsula inanmayacaq, onlara əl tutmaq istəməyəcək.

## SÜLH DOĞURAN YALAN FİTNƏ TÖRƏDƏN DOĞRUDAN YAXŞIDIR

Bir padşah bir əsirin öldürülməsinə əmr vermişdi. Yazıq əsirin ümidi kəsildikdə ağzına gələni deyib padşaha söyüşlər yağdırdı. Padşah yanındakılardan əsirin nə danışdığını soruşdu. Xeyirxah vəzirlərdən biri dedi:

-Ey hökmdar, o deyir ki, qəzəblənəndə özünü saxlaya bilən adam, başqalarının da günahını bağışlaya bilər.

Padşahın rəhmi gəldi, əsiri ölümdən azad etdi.

Xeyirxah vəzirin rəqibi olan başqa bir vəzir dedi:

-Hökmdarın hüzurunda yalan danışmaq bizim kimi adamlara yaraşmaz. Bu əsir padşahı söyüb təhqir etdi.

Padşah bədxah vəzirə hirslənib dedi:

-Onun yalanı sənin doğru sözündən xeyli xoş idi.

Müdriklər demişlər: "Sülh doğuran yalan fitnə törədən doğrudan yaxşıdır".

## KİM NƏ EDİRSƏ ÖZÜNƏ EDİR

Bir insafsız hərbçi rəhmdil bir dərvişin başına daş vurdu. Dərviş intiqam ala bilmədiyi üçün daşı götürüb saxladı.

Bir gün hökmdar həmin hərbçiyə qəzəblənib onu quyuya saldırdı. Dərviş bunu eşitdi, saxladığı daşı götürüb quyunun başına gəldi və daşı başına saldı. Hərbçi soruşdu:

-Sən kimsən, məni niyə daşla vurursan?

-Mən o adamam ki, bu daşı sən filan vaxt haqsız mənim başıma vurmuşdun.

-Bəs indiyə qədər harada idin?

-Xidmətdə olduğun vaxt səndən qorxurdum, indi

isə acığımı çıxmağa fürsət düşübdür.

Yaxşı demişlər: "Kim nə edirsə, özünə edir".

## ŞÜKÜRLÜ BƏDƏL

Bir kənddə Hüseyn adlı bir bədxasiyyət adam var imiş, ləqəbi isə Hüsü imiş. Nəinki qonşular, hətta ondan 2-3 km aralıda yaşayan kənd adamları da ondan narazı idilər.

Hüsü kişinin Bədəl adlı xeyirxah, ağıllı bir qonşusu var imiş. Hüsü hansı bir xoşagəlməyən iş görürmüşsə, Bədəl kişi allaha şükür edərmiş.

Bir gün Bədəl kişi dəhnədən su vurub həyətlərini suvarırmış, birdən su kəsilir. Çıxıb görür ki, suyu Hüsü kişi kəsib, deyir ki, həyətə suyu təzəcə vurmuşdum, eybi yoxdur, bir şey ki, kəsmisən suvar, ancaq qurtaranda mənə xəbər ver. Hüsü kişi nə isə donquldana-donquldana gedir. Axşamüstünə qədər səbr edən Bədəl kişi gedib qonşusundan suyu qurtarıb-qurtarmadığını soruşur. Qonşusu cavab verir ki, həyəti qurtarmışam, indi də demi yerləri suvarmaq istəyirəm.

Bədəl kişi öz-özünə yenə həmişəki kimi şükür edə-edə gedirmiş. Bu vaxt qarşısına çıxan bir həmkəndlisi soruşur:

-İndi nəyə şükür edirsən, ay Bədəl kişi? Suyunu kəsib həyəti suvarıb, indi də indiyədək heç vaxt suvarılmayan demi yerlərə suyu düzüb, sən də şükür edirsən.

-Mən də elə ona görə şükür edirəm ki, əgər allah məni Hüsü yaratsaydı, nə edərdim?!

## ÇALIŞ BAĞIŞLA

Harun ər Rəşidin oğlanlarından biri hirslənmiş halda atasının yanına gəlib dedi ki, filankəsin oğlu anamı söydü. Harun məmurlarından soruşdu:

-Belə adamın cəzası nədir?

Biri öldürməyi, digəri dilini kəsməyi, o biri işdən qovmağı məsləhət gördü.

Harun isə oğluna müraciət edib dedi:

-Oğlum, mərdlik odur ki, bağışlayasan. Əgər bağışlaya bilməsən, sən də onun anasını söy. Lakin elə etmə ki, intiqam həddini aşsın, çünki belə olduqda biz elm öyrənən şagird, o isə iddiaçı olar.

## NƏ ETSƏN QARŞINA ÇIXAR

Bir neçə vəzifəli şəxs gəmiyə oturmuşdu. Birdən arxadan gələn bir qayığın çevrildiyini gördülər. Qayığın içindəki iki qardaş burulğana düşdü. Vəzifəli şəxslərdən biri gəmiçiyə dedi:

-Onların hər ikisini xilas et, hər biri üçün sənə 50 dinar verərəm.

Gəmiçi dərhal suya atılıb qardaşlardan birini xilas etdi, o biri boğulub öldü. Gəmidəkilərdən biri dedi:

-O biri qardaşın əcəli çatmışdı, buna görə gəmiçi o birini tuta bilmədi, bunu tutdu.

Gəmiçi güldü və dedi:

-Orası elədir, ancaq birincini qurtarmağa mən özüm çox çalışırdım, çünki bir dəfə biyabanda piyada qaldığım vaxt o məni dəvəyə mindirib xilas etmişdi, o biri qardaşdan isə uşaqlıqda qamçı yemişəm.

Yaxşı demişlər: "Yaxşılıq etsən də, özünə qayıdır, pislik etsən də".

## QEYBƏT ETMƏK OLMAZ

Bir uşaq gecələr ibadətlə məşğul olur, dini elmlərə çox maraq göstərirdi. Bir gecə atası ilə birlikdə səhərə qədər yatmayıb quran oxudular. Ətrafda hamı yatmışdı. Uşaq atasından soruşdu:

-Bunların biri də başını qaldırmır, heç olmasa iki rükət namaz qılsın, sanki ölüdürlər.

-Ey əziz oğlum, xalqın qiybətini etməkdənsə, yatsaydın daha yaxşı olardı.

## CƏNNƏT VƏ CƏHƏNNƏM

Bir xeyirxah adam yuxuda gördü ki, padşah cənnətdədir, zahid cəhənnəmdə. Yuxuda soruşdu ki, camaat bunun əksini gözləyirdi. Nida gəldi ki, bu padşah yoxsullara yaxşılıq etdiyi üçün cənnətdə, o zahid şahlara yaxınlıq etdiyi üçün cəhənnəmdədir.

## ZAHİD TAPILMADI

Bir padşah bir pis işə düşmüşdü. Əhd etdi ki, əgər iş onun istədiyi kimi həll olunsa, zahidlərə çoxlu pul bağışlansın.

İş padşahın istədiyi kimi qurtardı. Padşah əhdini yerinə yetirmək üçün xüsusi qullarından birinə bir kisə qızıl pul verdi ki, aparıb zahidlərə paylasın.

Qul çox ağıllı imiş, bütün günü şəhərdə gəzib axşam şahın hüzuruna qayıtdı. Qızıl kisəsini onun qarşısına qoydu və dedi:

-Nə qədər axtardımsa da, şəhərdə bir zahid tapa bilmədim.

Padşah hirslənib soruşdu:

-Mənim bildiyimə görə, ölkədə 400 zahid var.

-Ey böyük hökmdar, əsl zahidin qızılı olmaz, olan isə zahid olmaz.

## QIZILI ALİMLƏRƏ VERƏRLƏR.

Şam abidlərindən biri meşədə yaşayır və ağac yarpağı geyməklə dolanırdı. Bir padşah onun yanına gedib dedi:

-Məsləhət olsa, sizin üçün şəhərdə bir saray tikdirərəm. orada həm asudə ibadət edərsiz, həm də camaat sizin hikmətli sözlərinizdən faydalanar, pak əməllərinizdən ədəb öyrənərlər.

Zahid əvvəl razı olmadı, sonra razılaşdı.

Padşah onun üçün gözəl bir saray tikdirdi, göyçək kənizlərindən birini, onun ardınca yaraşıqlı, gözəl bir qulam da zahidə bağışladı.

Zahid ləzzətli xörəklərdən yeyib, təmiz paltarlar geydi, dadlı meyvə və şirələrin ətrindən məst olub, gözəl kəniz və qulamın gül camalından zövq almağa başladı, başı eyş-işrətə qarışdı.

Hökmdar ikinci dəfə onun yanına gələndə gördü ki, zahidin əvvəlki solğun rəngi dəyişmiş, ətə-qana dolub qıpqırmızı qızarmışdır. Abid ipək yastığa söykənmiş mələk kimi gözəl qulam onun başı üstündə tovuz quşu kimi bir çətir açmışdır.

Padşah zahidin gümrah olmağına sevinib dedi:

-Mən iki cür adama məhəbbət bəsləyirəm, bir alimə bir də zahidə.

Ağıllı vəzir dedi:

-Ey hökmdar, məhəbbətin şərti budur ki, bacardıqca hər ikisinə yaxşılıq edəsən; alimlərə qızıl verəsən ki, daha artıq elm qazansınlar, zahidlərə bir şey verməyəsən ki, zahid olaraq qalsınlar!

## AĞILLI MÜRŞİD

Bir mürid öz mürşidinə dedi:

-Adamların əlindən zara gəlmişəm. O qədər görüşümə gəlirlər ki, vaxtımı alır, narahatlığıma səbəb olurlar. Onlardan xilas olmaq üçün mənə bir yol göstər.

-Yoxsullara borc ver, varlılardan borc istə, bir daha ətrafına dolanmazlar.

## ÇİRKİN ARVADLARA KOR ƏR GƏRƏKDİR

Bir alimin həddən artıq çirkin bir qızı var idi. Çoxlu cehiz, var-dövlətə baxmayaraq qızı alan olmurdu. Nəhayət, alim qızını bir kora verməl məcburiyyətinədə qaldı.

Deyirlər, həmin şəhərə bir əcnəbi həkim gəldi. O, o qədər məharətli idi ki, kor gözünü də aça bilirdi.

Bir gün camaat alimdən soruşdu:

-Nə üçün kürəkənini müalicə etdirmirsən?

-Qorxuram ki, gözü açılandan sonra qızı bəyənməyib boşasın.

Yaxşı demişlər: "Çirkin arvadlara kor ər gərəkdir".

## XƏLƏT MƏSƏLƏSİ

Bir dərvişin bir şeyə artıq dərəcədə ehtiyacı var idi. Biri ona dedi:

-Filan adam çoxlu var-dövlət sahibidir, əgər möhtac olduğunu bilsə mütləq kömək edər.

Dərviş dedi:

-Axı, mən onunla tanış deyiləm.

-Mən tanış edərəm.

Onlar birlikdə həmin adamın evinə getdilər. Dərviş içəri girəndə qaraqabaq, sallaqdodaq bir adam olduğunu gördü və tez geri döndü. Bələdçi soruşdu:

-Niyə qayıtdın?

-Onun xələtini sir-sifətinə bağışladım.

## ODUNÇUNUN SƏXAVƏTİ

Səxavətdə ad çıxarmış Hatəmdən soruşdular ki, dünyada özündən saxavətli adam görüb, eşitmisən?

-Bəli, bir dəfə 40 dəvə qurban kəsib ərəb əmrləri ilə səhranın bir guşəsinə çəkilmişdik. Meşədə şələ bağlayıb aparan bir odunçu gördüm. Dedim ki, nə üçün Hatəmin qonaqlığına getmirsən, bu saat bütün xalq onun süfrəsi başına toplanmışdır.

Odunçu dedi ki, Hatəmdən minnət görməkdənsə, öz əlinin əməyi ilə dolanmaq yaxşıdır.

Mən onu özümdən daha səxavətli və mərd gördüm.

## BÖYÜK HİKMƏT

Bir gün Musa Peyğəmbər gördü ki, çılpaq bir dərvişi quma basdırıblar.

Dərviş dedi:

-Ya Musa, dua et, Allah mənə var versin, yoxsulluqdan canım boğazıma yığılıb.

Musa peyğəmbər dua edib getdi.

Bir neçə gündən sonra münacatdan qayıtdıqda gördü ki, həmin dərviş zəncirlənmiş və başına çoxlu adam toplanmışdır.

Musa peyğəmbər soruşdu:

-Buna nə olub?

-Şərab içib, dava salıb, adam öldürüb. Son vaxtlar hansı səbəbdənsə, yamanca qudurubdur. İndi isə edam

olunmasını əmr ediblər.

Musa peyğəmbər Allahın hikmətinə bir daha heyran olub "afərin" dedi, Allaha dua etdiyi üçün üzr istədi və fikir etdi ki, allah nə etdiyini yaxşı bilir. Lazım olsa idi, elə o dərvişə vaxtında dövlət verərdi, daha mənim duama görə yox.

## SEVİNC VƏ KƏDƏR

Bərdədə cəvahir satanlar içərisində bir dəvəçi ərəblə tanış oldum. O, nağıl etdi ki, vaxtilə çöldə yolu azmışdı, yeməyə bir şey olmadığı üçün ölümü gözünün önünə almış idi. Bu an bir kisə qızıl tapmış, güman etmiş ki, içərisindəki yeməkdir, çox sevinmiş, o sevinci indi də yadından çıxartmayıb.

Kisəni açanda görmüş ki, mrvaridir, elə kədərlənmiş ki, hələ də o acınacaqlı halını unuda bilmir.

## VƏFALI İT VƏFASIZ ADAMDAN YAXŞIDIR

Bütün kainatın ən əzizi insan, ən rəzili itdir. Lakin ağıllı adamların hamısı bu fikirdədir ki, vəfalı it vəfasız insandan yaxşıdır.

Bir itə bir tikə çörək verəndə,
Unutmaz yüz kərə bassan da daşa.
Alçağa bir ömür çörək yedirsən,
Bir dəfə tünd olsan, başlar savaşa.

## ƏCƏLİ ÇATIB

Əli-ayağı olmayan bir adam bir qırxayağı öldürdü. Yoldan ötən bir arif onu görüb dedi:

-Çox təəccüblüdür! Görünür, bu qırxayağın əcəli

çatıbdır ki, qırx ayağı ola-ola əlsiz-ayaqsızın əlindən qaçıb qurtara bilməyib.

## AĞIR GÜNLƏR UNUDULMASIN

Məşhur milyonçu və xeyriyəçi H.Z. Tağıyev pula güvənib yolu azmamaq üçün bənnaçılıq etdiyi baltanı imarətindəki otaqlardan birinin divarından qapı ilə üzbəüz asmışdı ki, hər qapını açanda ötən ağır və yoxsul günlərdən xəbər verən bu aləti görsün.

## DƏRDSİZ İNSAN YOXDUR

Xeyli vax idi ki, bir nəfərin gözləri tutulmuşdu. Dərdinə çarə tapmaq üçün getmədiyi loğman qalmamışdır. Loğmanlardan biri: "Əgər heç bir dərdi olmayan insan tapsan və köynəyini gözlərinə sürtsən, gözləri açılar" -demişdir. Kor çox axtardı, sonra yaşlı bir adam ona: "Bu dağın arxasındı bir çoban var, onun heç bir dərdi yoxdur, onun yanına get" - dedi.

Çox əzab-əziyyətdən sonra çobanı tapdı, həqiqətən, çobanın dərdi yox idi. O, niyyətini çobana açdı. Köynəyini ver gözümə sürtüm. Mən də bu dünyanı işıqlı görüm -dedi.

Çoban bir az susdu, sonra dərin bir ah çəkib dedi: "Axı, mənim heç köynəyim də yoxdur...".

## QANCIQ QALDI YAZA

Ucqar dağ kəndlərindən birində tənbəl, ev-eşiyin işini vaxtında görməyən bir kişi olur. Bir iş görəndə də zor-bəla ilə görərmiş. Ona görə də arvadla günü qeylü-qalda keçərmiş.

Payızın axırlarında bu kişinin ev iti kimi saxladığı qancıq ölür. Tənbəl kişi ölmüş qancığı vaxtında həyətdən sürüyüb bir tərəfə aparmır. Bu barədə evdə söz-söhbət düşdükcə "bu gün-sabaha" salır, işin icra eləmir.Havalar daha da soyuyur. Axar sızqa sular donur. Donmuş buz şaxtada şişib, həyət-bacanı tutur. Bir vaxt görürlər ki, buz şişib qalxıb, qancıq da qalıb buzun altında. Daha cəsədi buzun altından çıxarmaq da çox çətinləşir. Bu barədə arvadın tənəli, kinayəli sözlərini eşidən kişi işin çox çətinə düşəcəyini görüb deyir:

-Ay arvad, az çığır-bağır sal! İş işdən keçib. Qancıq qaldı yaza.

İndi bir iş vaxtında görülməyəndə insanlar bu məsəli çəkir. Hər bir işin vaxtında görülməli olduğunu xatırladırlar.

## USTANIN BAŞDANSOVDU İŞ GÖRMƏSİ

Bir şəhərdə insaflı, haqqı nahaqqa verməyən, işlətdiyi ustanın, fəhlənin əməyin qiymətləndirməyi bacaran bir sahibkar vardı. Çalışardı ki, hər kəsin haqqı düzgün olaraq özünə çatsın, həm də vaxtında. Ulu Peyğəmbərimizin aşağıdakı məsəlini tez-tez iş icraçılarına da xatırladırdı: "Ulu Peyğəmbərimiz buyurmuşdu ki, gərək işlətdiyin insanların haqqını düzgün və alnının təri qurumamış verəsən".

Bu sahibkarın binalarını tikən gözəl, işinin ustadı sayılan bir bənnası vardı. Bənna artıq qocalmışdı. Hiss edirdi ki, tikintisinə başladığı yeni binanı tikib başa çatdırandan sonra sahibkar, yəqin ki, onu təqaüdə göndərəcək.

Amma iş usta fikirləşən kimi olmadı. Bina başa çatandan sonra sahibkar ondan təkidlə xahiş etdi ki, bir bi-

nanı da tikib başa çatdırsın. Bundan sonra onu təqaüdə göndərsin.

Sahibkarın xatirini istəyən, onun sözünü yerə salmamağa çalışan usta məcburiyyət qarşısında qaldı. Sahibkarın təklifinə yarıkönül razılaşmalı oldu. Binanın tikintisi başlandı. Amma usta işə əvvəlki həvəslə girişmədi. Çalışırdı ki, binanı bir təhər, alay-qolay başa vursun. Bu sahibkarın da gözündən yayınmadı. Ancaq bir söz demədi.

Nəhayət, usta işi başdansovdu, bir alay-qolay başa vurdu.

Həmin gün binanın tikilib başa çatdırılması münasibəti ilə ustanı yanına çağırdı. Həmin binanın dülgərlik işlərini usta və əli altında işləyən fəhlələr görmüşdülər. Binanın açarlarını sahibkar ustaya verdi. Onun əllərini sıxdı. Təqaüdə getməsi münasibəti ilə ona əlavə hədiyyələr verdi. Həmin binanın da ona bağışlandığını bildirdi.

Sahibkardan belə hərəkət gözləməyən usta xəcalətdən qıpqırmızı qızardı. Ömrünün sonlarında elədiyi bu səhvi üçün daxilən özü-özünü danlamağa başladı. Başın qaldırıb xəcalətdən sahibkarın üzünə baxa bilmirdi. Ömrünün bu ahıl çağında elədiyi bu səhv hərəkət sanki ömürboyu namusla gördüyü işlərə də kölgə salmışdı. Amma gec idi. Usta bu hissləri əvvəldən fikirləşməli olduğunu duyurdu.

## DOST BORCU

İllərin sınağından çıxmış iki dost olur. Onlar ucqar bir dağlıq ərazidə yaşayırmışlar. Sevinclərini də bir yerdə paylaşar, dərdlərini də bir yerdə bölüşərmişlər. Onları yaxşı tanımayanlar, gənc nəsil onların bir-birinə olan mehr-ülfətinə görə elə bilərdilər ki, qardaşdılar. Bu

dostluğu gözü götürməyənlər də vardı. İnsanlığa ləkə, cəmiyyətə qara çalı olan belə adamlar çalışırdılar ki, bu iki sadiq, vəfalı, başqalarına yaxşı örnək olan bu dostların araların vursunlar. Təxminən qırx ilə qədər dostluq etdikləri ötən illər ərzində heç bir qüvvə onların dostluğunu poza bilməmişdi. Dostlardan birinin xarakteri sakit, ağır, samballı olsa da, ikincisi çox səbirsiz və kəmhövsələ idi. Amma ürəyi təmiz idi. Aralarında müəyyən problem yarananda ağır oturub batman gələn dost səbrlə işləri qaydasına salar, dostunu da uyğunsuz hərəkətlərdən çəkindirərdi. Amma bir gün işlər bərk əydi. Bu ideal dostluğu qəbul edə bilməyən, ancaq başqalarına etdikləri pislikdən nəşə duyanlar, nəhayət, ömrün ahıl dövründə suyu bulandırıb, araya nifaq toxumu səpdilər. Səbirli dost çalışdı ki, yenə əvvəllər olduğu kimi hər şeyi yat-yut eləsin, bu yaşda illərin sınağından çıxmış dostunu itirməsin. Lakin nə qədər çalışdısa, dostunu inadından döndərə bilmədi. Sonuncu görüşdə yenə dostuna əl uzatsa da, kəmhövsələ dostu onun əlin rədd elədi və görüş yerindən sürətli addımlarla uzaqlaşmağa başladı. Dostunun bu səhv hərəkətindən sarsılan səbirli dost arxadan o səbirsiz insanı səslədi:

-Hara gedirsən? Dayan! Mənə olan borcunu gəl qaytar, sonra hara gedirsən, get!

Arxasınca deyilən bu sözlərdən bərk tutulan kəmhövsələ dost sürətlə, hirsli halda geri döndü. Səsin başına ataraq dedi:

-Nə borcum var? Nə qədərdi de! Nəyim varsa satıb borclarımı ödəyəcəyəm! Deməli, deyilənlər doğru imiş. Sən namərd adam imişsən! Borclu olmadığım halda mənə şər atırsan.

Hirsindən-hikkəsindən barıt kimi partlamağa çalışan dostunu zəndlə süzən səbirli dost dedi:

-Sənin mənə maddi cəhətdən heç bir borcun yoxdu. Borcun ömrünün qırx ilidi. Bu qırx il ömrü mən sənə, sən də mənə həsr eləmisən. Qaytar ömrümün qırx ilini! Sonra hara gedirsən, get!

Səbirsiz dost elə bil yatmışdı ayıldı. Vəfalı, sadiq dostunu indi anladı. Yetirib dostunun boynunu qucaqlayıb, hönkür-hönkür ağlamağa başladı. Bu biri dost da ona qoşuldu. Xeyli ağlayıb yüngülləşəndən sonra kəmhövsələ dost bir daha dostuna sarıldı. Günahkar olduğunu boynuna aldı və dedi:

-Düz deyirsən, ömrümüzdən keçən qırx ilin dostluğunu heç nə ilə əvəz edə bilmərik. Qarşında baş əyirəm! Dostluğumuz isə davam etməlidir.

## ÜÇ GÜNDƏN ARTIQ YAŞAYA BİLMƏYƏN ŞEİR

Bir nəfər şeir yazmaq həvəsinə düşən cızmaqaraçı böyük yunan filosofu və şairi Sofoklu bezdirmiş imiş. Hər gün şeir adına ləkə olan yazılarını filosofun yanına aparır, şeirləri oxuyur, sonda Sofoklun fikirlərini bilmək istəyir. Bu dahi şəxsiyyətin də üzündən gəlmir ki, bu ortabab şairi özündən uzaqlaşdırsın.

Bir gün yenə tezdəndən qapını kəsən bu zəif şairə Sofokl deyir:

-Üç misra şeir yazmaq üçün üç gün zəhmət çəkmişəm.

Belə sözü eşidən bu ortabab şair deyir:

-Mən üç günə yüz sətir yazaram.

-Əlbəttə,-deyə, Sofokl onun sözün kəsir:

-Ona görə də sizin yazdığınız şeir üç gündən artıq yaşamır.

## SOKRATIN CAVABI

Bir nəfər görkəmli filosof Sokratla bərk höcətləşir. Bağıra-bağıra deyir:

-Mən ölsəm də səndən intiqam alacağam.

Sokrat isə tövrünü dəyişmədən yumşaq səslə deyir:

-Mən isə ölsəm də səni özümə dost edəcəyəm.

## SƏMƏD VURĞUN UCALIĞI

Seminariya tələbəsi Səməd Vəkilovun dilavərliyindən xoşu gəlməyən təkəbbürlü bir müəllim lövhədə cümlə təhlil edərkən, Səmədin başını aşağı salıb nəsə yazdığını görür və hirslənir. Onu seminaristlər içində pərt etmək üçün yazı taxtasındakı cümləni göstərib deyir:

-Vəkilov Səməd, durun bu cümlənin təyin və tamamlığını tapın!

Səməd ayağa qalxır, amma söhbətin nədən getdiyini bilmir. Müəllim sualını yenidən təkrar edir. Səməd cümləni oxuyur. Sən demə, o cümlədə nə təyin varmış, nə də tamamlıq. Səməd bir az fikirləşib cavab verir:

Başımda fırlanır yenə dumanlıq,
Burda nə təyin var, nə də tamamlıq.

Müəllim pərt olur, seminaristlər qəhqəhə çəkib gülürlər.

## NYUTONUN CAVABI

Görkəmli ingilis alimi İsaak Nyuton bağda gəzərkən başına alma düşür. O, bundan sonra ümumdünya cazibə qanununu kəşf edir. Sonralar ondan soruşurlar:

Alma çox adamın başına düşüb. Necə oldu ki,

ümumdünya cazibə qanununu onlar yox, sən tapdın?

-Çünki mən onu çoxdan axtarırdım,-deyə görkəmli alim cavab verir.

## ÖLÜMDƏN GÜCLÜ MƏHƏBBƏT

Keçili kəndi tarixi qəhrəmanlıq ənənələri ilə Azərbaycan tarixinə öz möhürünü vurmuş kəndlərimizdən biridir. Mənfur erməni vandallarına qarşı hələ 1905, 1918-ci illərdə aparılan ölüm-dirim savaşında, eləcə də sovet quruluşuna baş əyməyən kənd igidlərinin neçə illər ərzində çarpışmaları kəndin adını tarixlərə həkk eləyib. Sovet quruluşunu qəbul edə bilməyən, qaçaq hərəkatına başçılıq edən 23 yaşlı Qaçaq Quşdanı hökumət adamları heç bir vəchlə aradan götürə bilmirdilər. Nəhayət, yuxarıdan göstəriş verilmişdi ki, onun sevimli həyat yoldaşı qəhrəman Gülnazı ələ keçirsinlər. Onda Quşdan Gülnazı azad etməkdən ötrü gəlib özü təslim olacaq.

Nəhayət, belə bir fürsəti həyata keçirmək üçün şərait yarandı.

Gülnaz dünyaya gətirdiyi yeganə qızı Çiçəyi 3-4 ay idi ki, kənddəki qohumların, xüsusilə Mina bibisigilin zirzəmisində qorxu-hürkü içərisində saxlayırdı. Qarlı bir qış günü hökumət adamları Gülnazın gizli saxlandığı yeri təxminən öyrənə bildilər. Əhvalatı bilən Mina nənə fürsət tapıb körpə uşağı dalına şəllənmiş Gülnazın qaçıb aradan çıxmasını təşkil etdi.

Yarım saat keçməmiş hökumət adamları həyətə doluşdu. Gülnazı tapa bilməsələr də qalın qarı yara-yara çaya doğru gedən iz onları duyuq saldı. Bir metrdən artıq qarı yara-yara irəliləyən Gülnaz ölümü bahasına olsa da belə, aradan çıxmağa çalışırdı. Bilirdi ki, onun tutulmasın

eşidən Quşdan mütləq gəlib təslim olacaq. Bu da onun ölümü demək idi. Kəndin aşağısında sərt qayaları iki yerə bölmüş çayın dar adlanan hissəsində hökumət adamları onu diri tutmağa çalışırdılar. Hər tərəf tutulmuşdu. Təkcə çaya tərəf 200 metrə qədər ucalığı olan sərt qaya tərəf açıq idi. Mühasirə daralırdı. Ələ keçməkdənsə şərəfli ölümü seçən Gülnaz bir göz qırpımında qayanın başından özünü körpəsi də dalında çaya tulladı.

Onun bu hərəkəti hökumət adamlarını belə, sarsıtdı. Qayanın başından dibi görünməyən dərinliyə boylanan və bir şey görməyən hökumət adamlarından vəzifəcə üstün olanı dedi:

-Gəlin gedək. Bu 200 metr yüksəklikdən düşənin yüz canı olsa da, sağ tikəsi qala bilməz.

Gülnazı və körpəsini Ulu tanrı özü qorumuşdu. Körpəsinə heç bir şey olmamış, özünün isə bir az qıçları sıyrılmışdı.

Bu sərt, soyuq havada qayanın nisbətən quru qalan qayanın carına qısılan Gülnaz gecə kənd yatışana qədər gözlədi. Bundan sonra bu şaxtalı gecədə ancaq suyun içi ilə gedirdi ki, qalın qarda izi bilinməsin. Qıçlarının keyləşdiyini, qüvvəsinin tükəndiyini hiss etsə də, heç olmasa Quşdanın yadigarı olan körpəsinin salamat qalmasını istəyirdi.

Nəhayət ki, özünü yarımcan halda Mina bibisigilə çatdıra bildi.

Yaza qədər orada gizli yaşayan Gülnazı sonralar aran kəndlərindən birinə apardılar. Beləliklə, ölümə qalib gələn məhəbbət Quşdan yadigarının sağ qalmasına səbəb oldu.

## DAHİLİK YANĞISI

Deyirlər ki, İtaliyada intibah dövrünün ən məşhur sənətkarlarından biri də məşhur heykəltəraş Mikolancelo olmuşdur. Mikolancelo məşhur əsəri olan "Piqmalyon"u yaradarkən ona vurulmuşdu. Heykəlin istədiyi şəkildə alınmasında o qədər səy və əmək sərf etmişdi ki, bunu bütün əsərlərinə sərf etdiyi vaxta, əməyə və səyə bərabər sayırdı. Heykəltəraş dizi üstə oturan heykəlin qarşısında duraraq demişdir: "Qalx və yeri!" Heykəlin yerimədiyini görən sənətkar əlləri ilə üzünü örtərək hönkür-hönkür ağlamışdır.

## SÜLH QUŞU

Qədim yunan rəvayətlərinə görə müharibə allahı hərbi yürüşə hazırlaşmış və bu barədə qərar vermişdi. Lakin aşağıda verilən səbəbə görə müharibə allahı hərbi yürüşdən qalmalı oldu. Buna səbəb onun hərbi papağında göyərçinin yuva salması idi. Müharibə allahı göyərçinin yuvasın dağıtmamaq, körpə balaları məhv etməmək üçün hərbi yürüşdən imtina etdi.

Göyərçinin sülh quşu, sülh rəmzi sayılması da elə bu rəvayətlə bağlıdır. Həm də göyərçin yeganə quş növüdür ki, bir-birləri ilə, eləcə də başqa quşlarla heç vaxt döyüşməzlər.

## QANLI CİNAYƏTLƏR

Dünyanın hər yerindən gələn turistlər Belorusiyanın Xatın kəndində böyük vətən müharibəsində alman faşistlərinin məhv etdiyi iki yüz otuz min sovet vətəndaşının məzarı üstünə əkliilər qoyurlar. Xatın kəndində 26 evin soba borularının yuxarısına kilsə zəngləri bərkidilmişdir.

Bu zənglər hər dəqiqədən bir səslənərək bura gələnləri həmişə sayıq olmağa, bir daha müharibəyə yol verməməyə çağırır. Lakin erməni cəlladları qan yaddaşımız olan Xocalıda bundan da dəhşətli cinayətə yol verdilər. 1992-ci il fevralın 25-i və 26-da rus havadarlarının köməyi ilə Xocalı şəhərini yer üzündən sildilər.

8 ailə tamamilə məhv edildi, 613 nəfər öldürüldü, 1250 nəfər əsir götürüldü, 498 nəfər əlil oldu. 150-nin isə taleyi hələ də bilinmir. Qaçıb canlarını qurtarmamağa çalışanların çoxu isə qarlı-şaxtalı çöllərdə donub məhv oldular. Gələcək nəsillər bu qanlı cinayəti heç vaxt unutmamalıdır.

## ULU PEYĞƏMBƏRİMİZİN ZƏKA NURUNDAN

Sevimli ümmətinə beşik evindən qəbir evinə qədər öyrənməyi, oxumağı vəsiyyət edən bu dahi şəxsiyyət buyurmuşdur: "Alimlər dünyanın çırağı, axirətin nurudur".

Həm də qeyd eləmişdi ki, üç şeyi hər şeydən çox sevirəm:

-Yer şumlayan əkinçinin xışının səsini

-Vətəni qoruyan əsgərin sümbəsinin səsini

-Yazı yazan alimin vərəq üstə xışıltı salan qələminin səsini.

## GÖZƏL NİTQİN QİYMƏTİ

Əxlaqi dəyərlərlə zəngin olan "Qabusnamə"ni yazan Keykavus oğluna nəsihətində yazırdı: "Ey oğul, bütün sənətlər sırasında ən gözəli və qiymətlisi natiqlikdir. Dilini gözəl danışmağa öyrət. Dili xoş olanın havadarı çox olar".

## BÖYÜK SABİRİN CAVABI

Görkəmli şairimiz, böyük satirik M.Ə.Sabir ağır xəstə olarkən naşir H.İ.Qasımov xəstəxanaya şairi yoluxmağa gedir. Şairin vəziyyətinə qəmlənir. M.Ə.Sabir ölüm ayağında da zarafatından qalmır, deyir:

-Pərişan olmayın, əcəlimiz yetişmişsə, neyləməli?

N.İ.Qasımov ondan icazə istəyir ki, naşiri olduğu qəzetdə ona yardım üçün ianə elanı versin.

Acı-acı gülümsəyən Sabir deyir:

-Çox sağ olun! İanə elanı verməyə ehtiyac yoxdur. Bircə bu dediklərimi yazarsan:

-Ətimi və qanımı millətimin yolunda çürütdüm. Əcəl imkan versə, sümüklərimi də xalqıma həsr edəcəyəm.

## NƏRİMAN NƏRİMANOVUN OĞLUNA MƏKTUBUNDAN

1922-ci ildə Azərbaycanda rus bolşevizminin siyasətinə mane olduğuna görə onu respublikadan kənarlaşdırıb, Moskvaya apardılar. Orada Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri kimi fəaliyyət göstərirdi. Lakin böyük ədib vaxtilə inandığı bolşevizmdə kobud səhvlərə yol verildiyini görürdü.

O vaxt oğlu Nəcəf təxminən 6 yaşında idi. Bir növ kiçik oğluna vəsiyyət xarakterli məktubunda yazırdı: "Əziz oğlum Nəcəf, mənim ömrüm daim mübarizələrdə, tufanlara sinə gərməkdə, xalqımızın xoşbəxtliyi yolunda çarpışmalarda keçmişdir. Əgər tale mənə aman versə, səni elə böyütməyə çalışşacağam ki, mənim bəşəriyyət və xalqım qarşısında göstərdiyim kiçicik bir xidmət qədər gələcəkdə öz xalqına bir xidmət göstərmiş olasan. Bunun

üçün ətrafındakı insanları yaxşı tanımağı bacarmalısan. Bir insanı yaxşı tanımaq istəyirsənsə, həmin adamı vəzifəyə qoy. Onda o adamı daha yaxşı tanımaq olar".

## İLDIRIM BƏYAZİD VƏ TEYMURLƏNG

Əsasən Avropa dövlətlərinin təhrik və fitvası ilə İldırım Bəyazidlə (1354-1403) Teymurləng Ankarada üz-üzə gəlməli oldular. İki qardaş türk övladları bir-birlərinin qanını tökməyə başladılar. İldırım Bəyazid Ankara döyüşündə Teymura məğlub oldu, əsir düşdü. Əsirlikdə qəfəsdə saxlanan Bəyazidi Teymur hər gün təhqir edirdi. Təhqirlərə dözməyən Bəyazid qəfəsdə damarlarını kəsib, özün öldürür. İki türk övladını döyüşə təşviq edən Azərbaycan hökmdarlarından Qara Yusif və Əhməd şah Cəlairi də bu işdə mühüm rol oynamışdı. Teymurdan qaçıb Bəyazidə sığınan bu iki şəxs sonralar düşmən olmuşlar.

## SEYİD ƏZİM ŞİRVANİNİN CAVABI

Qədim Azərbaycanın tarixi mədəniyyət mərkəzlərindən olan Şamaxıda bir sıra görkəmli söz sənətkarları yetişmişdir. Bunlardan Xaqani, Nəsimi, Nişat Şirvani, Bahar Şirvani, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət və bir çox başqalarını misal göstərə bilərik. Bunun müsbət tərəfi ilə yanaşı, mənfi tərəfləri də özünü göstərmişdir. Bir çox cızmaqaraçılar ortaya çıxıb şeir yazmağa, özlərini böyük söz ustalarına oxşatmağa çalışmışlar.

Beləlrindən biri də Şamaxıda yaşayan, S.Ə.Şirvaniyə qohumluğu çatan Miri adlı bir şəxs idi. Şairlik istedadı olmadığı halda, arzusu, fikri mütləq şair olmaq idi. Bir dəfə yenə öz aləmində şeir yazmağa başlayır. Aşağıdakı bir misranı yazır:

Məclis arəstə olub öz Mirisiylə

Ardın düzəldib yaza bilmir ki, bilmir. Oğluna verir ki, apar ver S.Ə.Şirvaniyə, qoy dalın yazıb düzəltsin. Kağızı alıb oxuyan, bu şairfasonların əlindən boğaza yığılan Seyid Əzim bərk əsəbiləşir. Misranın arxasına aşağıdakı kimi bir misra yazır:

O, bir qələtdir edib,
Həm ölüsü, həm dirisiylə.

## YA GƏLƏRƏM, YA DA...

Xalq şairi S.Vurğun aspiranturada oxuyan zaman bir dəfə dərsə gecikənlər sırasında onun da adını çəkirlər. Səməd etiraz edib deyir:

-Kecikmək yarımçıq adamların işidir. Mən heç vaxt gecikmərəm. Ya gələrəm, ya da heç gəlmərəm.

## AŞIQ ƏLƏSGƏRİN CAVABI

Bir gün Aşıq Ələsgəri qonaq sifətilə toya dəvət edirlər. O, təzə tikdirdiyi böyük papağını başına qoyub toy evinə gedir. Sözünün yerin bilməyən toy iştirakçılarından biri aşığa sataşmaq məqsədilə deyir:

-Aşıq, papağın nə böyükdür. Onun yarısını kəsib qardaşına versənə!

Aşıq hazırcavablıqla deyir:

-Narahat olma, qardaşımın papağı mənimkindən də böyükdür.

## SƏNİN İNTİZARINI ÇƏKİR

Həsən bəy Zərdabi haqqında jandarm idarəsinə yazılan böhtançı məktublar gündən-günə artırdı. Bunun

üçün də onun evini güdməyə xüsusi xəfiyyə təyin eləmişdilər. Ancaq bu xəfiyyə həm gənc, həm də təcrübəsiz idi. Yazıçının arvadı Hənifə xanım eyni adamın bir neçə gündən bəri onların pəncərəsinə göz zillədiyini ərinə xəbər verdikdə, Həsənbəy qadınını sakit etmək üçün zarafatla demişdir:

-Mətləb aydındır. Nədən qorxursan? xəyalpərəst cavandır. Bir neçə gün pəncərənin qabağında gəzib səni görməyəndən sonra, rədd olub gedəcəkdir. Hənifə xanım gülümsəyib demişdir:

-Xeyr, əzizim! O, mənim yox sənin intizarını çəkir.

## İNKİŞAF ETMƏK

Roma heykəltəraşlarından biri şəhərin mərkəzində gözəl bir heykəl yaradır. Həmin şəhərdən bir müddət çıxıb gedir. Bir də on ildən sonra geri qayıdır. Gəlib yaratdığı heykəlin qarşısında durub çox diqqətlə baxır. Hönkür-hönkür ağlayır. Ağlamağının səbəbini soruşurlar. Deyir ki, on ildən sonra mən bu heykələ baxıram. Bir nöqsan tapa bilmədim. Demək, bu on ildə mən heç inkişaf etməmişəm. Ona görə ağlayıram.

## FİLLƏRİN ÖLÜMÜ

Hindistanda neft mühəndisi işləmiş bir kişi bu əhvalatı aşağıdakı kimi nəql etdi:

-Bir dəfə Hindistanda olarkən neçə illər bir yerdə işlədiyim yaxın dostumla rastlaşdım. Meşənin kənarında idik. Mənə dedi ki, fillərin ölümünə baxmaq istəyirsənmi? Dedim ki, maraqlı olar. Getdik meşənin ortasında göl olan bir dalda yerdə dayanıb, filləri müşahidə etməyə başladıq. Təbiətin bu nəhəng heyvanının qəribə ölümü var. Lap in-

sanın ölümü kimi təsirlidir. Fil ölümünün yaxınlaşdığını hiss eləyir. Bütün fillər bu ağır xəbəri bilir, bir yerə toplaşırlar. Canını təhvil verəcək fil qabaqda, digərləri isə arxada kədərli, məhzun halda qəbiristanlığa yollanırlar. Ölüm yerinə çatanda ölməyə gələn fil təklənir, gözlərindən yaş tökə-tökə xortumunu sıra ilə düzülmüş bütün fillərin xortumuna sürtür, sanki onlarla halallaşır və sonra ağır addımlarla qəbiristanlığın içərisinə doğru gedir. Qəbiristanlığın dərinliklərinə çatanda dönüb son dəfə dostlarını, yoldaşlarını, balalarını gözü yaşlı süzür. Bu anda filin bədəninə şiddətli titrətmə gəlir. O yekəlikdə heyvan ölümün dəhşətindən əsim-əsim əsir, uçunur və tappıltı ilə yıxılır. Çox çəkmir ki, nəhəng skeletlərin arasından, torpaqdan, kovuş kalafalıqlardan marıqda durmuş atlı qarışqalar canı hələ tamam üzülməmiş, qanı soyumamış fili qurd iştahı ilə didişdirməyə başlayırlar. Bu faciəli mənzərəni görən fillər qəbiristanlığın kənarından ağır, ləngərli addımlarla qəmgin-qəmgin geri qayıdırlar.

## ÖLÜMDƏN SONRAKI HƏYAT

Sultan Səlim Xəlifəni məğlub edəndən sonra peyğəmbərin əlbəsə sandığını, ox və yayını, qılıncını, Həzrət Əlinin, Osmanın, Əbubəkirin, Ömərin qılınclarını, Həzrət Osmanın öldürüldüyü zaman oxuduğu dəri cildli quran qənimət olaraq İstanbula gətirmişdir. Bu əşyalar Topqapı sarayında xüsusi otaqda saxlanılır. Mütaliəni çox sevən Sultan Məhməd Fateh sarayda zəngin bir kitabxana yaratmışdır.

Saraydakı maraqlı eksponatlar içərisində müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə buraxılan saat və silah kolleksiyaları da çox maraqlıdır.

1839-1853-cü illərdə Sultan Məcidin Avropa üslubunda tikdirdiyi Dolmabağça sarayının özü bir muzeydir.

Bu sarayın quruluşunda simmetriya əsas götürülmüşdür. Saray 2 bölümdən, 28 salondan, 380 otaqdan ibarətdir. Birinci bölüm rəsmi-inzibati dairə, ikinci bölüm isə xüsusi dairədir. Sarayın zinyət şeylərinə 14 ton yarım qızıl işlənmişdir. Sultan Məcid Avropadan rəssamlar dəvət etmiş, saray üçün rəsmlər çəkdirmişdir. Böyük rus rəssamı Ayvazovski uzun illər bu sarayda yaşamış və işlənmişdir. Sultanın tapşırığı ilə gözəl şəkillər çəkmişdir. Sultan Məcid özü də rəssam olmuşdur. Onun çəkdiyi şəkillər içərisində zülmət fonunda ağ at folklordan gəlmə arzu-murad mənasını daşıyır.

Sultanın bu sarayda verdiyi fərmanlar, hökmlər unudulmuş, ondan bir at şəkli qalmışdır. Görünür, insan ürəyindən xəbərsiz verilən soyuq fərmanların ömrü ürəyin odu ilə yaranan bu at şəklinin ömründən az olmuşdur. Sultan öldü, yaratdığı at şəkli yaşayır. Vaxtilə bu sarayda yaşayan rəssamlar Sultanın qarşısında baş əyər, onları dolandırdığına görə özlərini sultana borclu sayardılar. İndi Sultan xatırlandığına görə rəssamlara borcludur. Ölümdən sonrakı həyat da elə budur.

Böyük Atatürk ömrünün son illərini bu sarayda yaşamışdır. Öldüyü anda saat dayandırılmışdır. 1938-ci il 10 kasım saat 9 $^{05}$ dəqiqə.

## SƏBƏBİN TAPMAQ

Rəvayətə görə İsgəndərin "Boykefalı" adlı bir atı varmış. Atı ram etmək heç kəsə müyəssər olmur. Kim minmək istəyirsə yıxır. İsgəndərin müəllimi Aristotel məsləhət görür ki, atın belə dəlilik etməsinin səbəbini öyrənsinlər. İsgəndər atın bütün əhliləşmə prosesinə diqqət yetirir. Görür ki, at hər dəfə kölgəsini görəndə qorxub "dəli" olur, adamları yıxır. İsgəndər bunu yəqin edib, özü

minməyə gedir. Müəllimi Aristotel mane olmur. İsgəndər atın üstünə tullanıb, üzü günəşə doğru çapır. Nəticədə at sakitləşib ram olur. Deməli, insan qorxu hissinin səbəbini öyrənib, qorxuya qalib gələ bilər.

## GÖZLƏRİNİ ÇIXARAN OĞLAN

İş elə gətirir ki, üsyan zamanı şahın bütün ailəsini, 10 oğlunu qırırlar. Bircə kiçik oğlu qalır. Onu dayəsi aparıb, ayrı bir məmləkətdə saxlayır. Oğlan böyüyüb çobançılıq edir. Yaşa dolur. Bir gün bir qəsrə rast gəlir. Qəsr haqda dərvişdən soruşur. Dərviş deyir ki, bu qala divarlarının arxasındakı bağda şah on iki arvadını saxlayır. Onları günəşə belə qısqanır. Oğlan bu qəsr ilə maraqlanmağa başlayır. Qala divarının açıq yerindən şahın kiçik arvadını görür. Onlar yol tapıb hər gün görüşürlər. Şahın adamları işi bilir. Nəhayət, oğlanı tutub, şahın hüzuruna aparırlar. Lakin şahın hansı arvadı ilə görüşdüyünü bilmirlər. Çobana nə qədər işgəncə verirlərsə də, görüşdüyü qadını ələ vermir. Şah çox arif, ruhlu bir şəxs imiş. O, gözlərin ifadəsindən hər şeyi duya bilirmiş. Qərar verir ki, səhərisi qadınlar bir-bir oğlanın və özünün qabağından keçməlidilər. Oğlanın gözlərindəki ifadədən hansı qadınla olduğu bilinəcəkdir. Oğlana xidmətçilərdən biri çatdırır ki, qadınları onun qarşısından keçirəcəklər.

Şah səhərisi çarmıxın yanında taxt düzəltdirir. Oğlanla üz-üzə, göz-gözə dayanır. Qadınlar bir-bir çadralı halda gətirilir. Oğlanın qabağına çatanda çadraların açırlar. Şah gözün oğlanın gözünə dikib, adi işarədən başa düşəcəkdi ki, oğlan hansı qadını sevir. Hansı ilə görüşüblər. Bundan sonra hər ikisi çarmıxa çəkilməli olacaqlar. İşi əvvəlcədən bilən oğlan gecə gözlərinə mil çəkmiş imiş.

Ona görə də qadınlar keçdikcə şah oğlanın gözlərindən heç bir işarə başa düşmür. Deyir:

-Arvadlarımı aparın, onların heç bir günahı yoxdur.

Səhərisi şahın kiçik arvadı həmin yerdə oğlanı görür və deyir:

-Gəl qaçaq, yaxşı fürsətdir.

Oğlan deyir ki, heç bir yana səni apara bilmərəm. Səni ələ verməməkdən ötəri gözümə mil çəkmişəm. Mən koram.

## VÜKTOR HÜQONUN MƏKTUBU

Deyilənə görə, ən qısa məktubu V.Hüqo yazmışdır. O, bir dəfə "Səfillər" romanının əl yazmasını naşirə göndərir. Uzun-uzadı suallar verməK, müxtəlif şərtlər barəsində geniş danışmaq istəməyən yazıçı əlyazması ilə birlikdə naşirə bir məktub da göndərir. Məktubda cəmi bir işarə yazılır: "?"

Yazıçının bütün şərtləriylə razılaşdığını bildirən naşir də yazıçıya göndərdiyi cavab məktubunda təkcə bir işarə yazır: "!"

Bu, o deməK idi ki, əsəri nəşr etmək üçün bütün şərtlərinə razıyam.

## ANTİK DÖVR FİLOSOFLARININ MÜDRİKLİYİ

1.Ərəstundan soruşurlar:

-Adamların əksəriyyətindən sən nə ilə fərqlənirsən?

Ərəstun belə cavab verdi:

-Onlar yemək üçün yaşayırlar, mən isə yaşamaq üçün yeyirəm.

2. Sokratı edam yerinə apararkən bir qadın onu

görüb ağlaya-ağlaya deyir:

-Vay mənim halıma, onlar səni öldürməyə hazırlaşırlar, halbuki sən heç bir cinayət etməmisən!

Sokrat ona dedi:

-Ay axmaq! Doğrudanmı sən istəyirsən ki, mən cinayət edim, edama layiq olum və bir cani kimi olüm?

3. Əflatundan soruşdular:

-Müsibətə düşən adam özünə nə ilə təsəlli verə bilər?

O belə cavab verdi:

-Ağıllı adam onunla təsəlli tapır ki, olacağa çarə yoxdur. Axmaq isə bununla özünə təsəlli verir ki, başqalarının da başına bu müsibət gəlmişdir.

## NƏCƏF BƏY VƏZİROV

Nəcəf bəy Vəzirov ömrü boyu ədəbi-bədii əsərlərinə bir qəpik də olsun qonorar almazmış, daim onu xeyriyyə cəmiy-yətlərinə bağışlarmış. 1913-cü ildə "Kaspi" qəzeti müxbiri ondan sual etdi ki, siz nə üçün ədəbi muzddan imtina edirsiniz?

Vəzirov ona cavab vermişdir:

-Bu mənim prinsipimdir. Mən hələ vicdanımı itirməmişəm ki, xalqımın maariflənməsinə kömək edən yazılarımdan qazanc götürəm.

Sonralar M.Ə.Sabirə ianə toplamaq üçün elan veriləndə ilk yardımı da edən ədibin qızı Sara xanım Vəzirova olmuşdur.

## ŞAH İSMAYIL XƏTAİ

Xətai elm və sənət adamlarını yüksək qiymətləndirirdi. Sarayda yaradıcı adamlara hər cür şərait yaradıl-

masını təşkil etdirmişdi. 1514-cü ildə məşhur Çaldıran müharibəsi zamanı Şah İsmayıl döyüş meydanına getməmişdən əvvəl sarayın ən məşhur xəttatı Nişaburini və misilsiz ustad rəssam Kəmaləddin Behzadı bir mağarada gizlətmiş və demişdir:

-Kim bilir, bəlkə, müharibədə öldüm, yaxud ölkədə qarət və qarışıqlıq baş verdi. Onlar Sultan Səlimin əlinə niyə əsir düşsünlər? Şah İsmayıl müharibədə məğlub olub, geri qayıdarkən ilk əvvəl məşhur xəttatı və məşhur rəssamı gizlətdiyi yerə gəlir. Onları gizli saxladığı yerdə sağ görərkən çox sevinir.

## SARI AŞIQ

Sarı Aşığın Laçın rayonunun Güləbird kəndi yanındakı qəbiristanda tərsinə olan qəbri xalq arasında müqəddəs hesab olunur. Qəbrin üstə saz şəkli vardır və bütün başqa qəbirlərdən seçilir. Onun üzü qibləyə yox, Aşığın sevgilisi Yaxşının qəbrinə tərəfdir. Qəbri Sarı Aşığın vəsiyyəti hesab olunan aşağıdakı bayatısı əsasında düzəltmişlər.

Mən aşiq tər sinə qoy,
Tər təni tərsinə qoy!
Yaxşını qibləsinə
Aşığı tərsinə qoy.

## VOLTER BİR DƏNƏDİR

Görkəmli fransız materialist filosofu Volter bir dəfə Prussiyya kralı ikinci Fridrixin sarayında olarkən saray adamlarınlan biri yazıçıya gölə səyahətə çıxmağı təklif edir. Volter razılıq verir. Lakin qayığa minərkən içərisində su olduğunu görüb dərhal sahilə çıxır. Bunu görən kral

güləsək deyir:

-Siz öz həyatınızdan necə də qorxursunuz! Mən isə baxın, heç qorxmuram.

-Bu aydındır, əlahəzrət. Dünyada krallar çoxdur. Volter isə bir dənədir,- deyə yazıçı kralı pərt edir.

## NOBEL MÜKAFATI

Ən məşhur alimlərə, yazıçılara Nobel mükafatı verilir.

Nobel kimdir? Həmin mükafat nə vaxt, necə təsis edilmişdir?

1864-cü il sentyabrın 3-də İsveçin paytaxtı Stokkolmun yaxınlığında dəhşətli partlayış oldu. Alfred Nobelin həmin yerdəki nitroqlinserin zavodundan bircə boru qaldı. Alfred hələ kiçik yaşlarından atasına kömək edər, limana yaxın qayalıqları partlatmaq üçün atası ilə birlikdə minalar düzəldərdi. O, kimyanı Rusiyada, Amerikada və Fransada öyrənmişdi. XIX əsrdə barıt yeganə partlayıcı maddə sayılırdı. Alfred nitroqliserin istehsal etməyə başladı. Lakin bu maddə ilə işləmək təhlükəli idi. Temperatur azca artanda, yaxud ona zərblə toxunanda partlayırdı. Alfredin zavodunu da belə partlayış məhv etmişdi. Bir dəfə çəlləklərdəki qumun üstünə nitroqliserin töküldü. Amma partlayış baş vermədi. Alfred nitroqliserin hopmuş qumu təhvil edib öyrəndi ki, o, partlayış qabiliyyətini özündə saxlayır, amma hər kiçik zərbədən partlamır. Bu maddəni Alfred "dinamit" adlandırırdı. Sonralar dinamit geniş tətbiq edildi. İxtira müəllifi dinamitin kəşfinə və Bakı nefti hesabına milyoner oldu. Nobel ölümündən bir il əvvəl 1885-ci ildə bildirdi ki, o ən görkəmli ixtira və kəşf üçün öz varidatından mükafat ayırır. 1901-ci ildən bu mükafat hər il dekabrın 10-da Nobelin ölümü günü verilir.

## SƏYYAH HACI ZEYNALABDİN ŞİRVANİ

Siz İndenoziya şəhərlərindən birində Hacı Zeynalabdin Şirvani adına kitabxana-muzey, Hindistanda Şirvani muzeyi, Səudiyyə Ərəbistanının Ciddə şəhərində Şirvani adına coğrafiya cəmiyyəti, İranın Şiraz şəhərində H.Z.Şirvani adına küçə olduğunu bilirsinizmi?

Bu ada İran, Fransa, Çin, Əfqanıstan, İngiltərə və bir çox digər ölkələrin alimlərinin əsərlərində də rast gəlmək olar. Görkəmli rus şərqşünaslarından İ.B.Xanıkov, akademiklərdən V.A.Dorn, N.Y.Kraçovski və başqaları Şirvani haqqında, onun əsərləri və həyatı haqqında maraqla yazmışlar. Hacı Zeynalabdin əlli səkkiz illik həyatının təxminən 40 ilini səyahətdə keçirmişdir. Məşhur Azərbaycan səyyahı dörd səfər ərzində bütün Yaxın və Uzaq Şərq ölkələrini gəzmişdir. Onun keçdiyi yollar Şərqdə Kəlkətdədən, Dəqqadan, Qərbdə Mərakeş və Kanar adalarından, Şimalda Bakı və Şamaxıdan, Cənubda Əddis-Əbəbədən, SƏnadan və Məsqətdən keçir.

O, doğma Azərbaycan və Qafqazdan başqa, orta Asiyanı, İranı, Əfqanıstanı, Seylonu, Hindistanı, Türkiyəni, Suriyanı, Hicazı, Yəməni, İran körfəzi və Qırmızı dəniz sahili ölkələrini, Misiri və digər ölkələri gəzmişdir.

Müxtəlif ölkələrdən xəbərdar olan H.Z.Şirvani böyük müşahidəçilik qabiliyyətinə, tədqiqatçılıq məharətinə malikdi. Keçmişin bir çox mədəniyyət xadimləri kimi, o da geniş diapazonlu alim-coğrafiyaşünas və tarixçi, filosof, etnoqraf, Şərq ədəbiyyatının bilicisi və sair olmuşdur.

Şirvaninin əsərləri arasında onun "Üç dəniz arxasında səyahət" kitabı xüsusi yer tutur.

## LƏYAQƏTİN HƏR KƏS QORUMALIDIR

Qədim yunan filosofu Calinus gördü ki, küçədə bir nəfər bir alimin yaxasından tutub, onu təhqir edir. Ətrafdakı insanlar Calinusa dedilər:

-Alim yoldaşınız təhqir olunur. Nə üçün kömək etmək istəmirsiniz?

Calinus dedi:

-Əgər yaxşı alim olsaydı, işi bu dərəcəyə çatdırmazdı ki, küçədə təhqir edilsin.

## SƏDİ ŞİRAZİNİN HİKMƏTLƏRİNDƏN

Hədsiz şərtlik dəhşət yaradır, yersiz mülayimlik isə hörmət azaldır. Nə elə sərt ol ki, səndən qaçsınlar, nə də elə yumşaq ol ki, üzünə qabarsınlar. S.Şirazi birdə deyib: Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər. Başqalarına öyrətdiyini özü yerinə yetirməyən adam yer şumlayıb toxum səpməyən əkinçi kimidir.

## BÖYÜK İNAM

Rusiya tarixinə Krım müharibəsi adıyla daxil olan 1853-1856-cı illər müharibəsində mahir cərrah, həm də görkəmli pedaqoq olan N.İ.Piroqov o dövrdə rus səhra cərrahiyəsinin atası sayılırdı. Hərbi hissələrdə, əsgərlər arasında N.İ.Piroqov o qədər şöhrət qazanmışdı ki, hamı ona hədsiz inanırdı. Döyüşün qızğın vaxtında səhrada çadırlarda yaralıları müalicə edən həkimlərdən biri görür ki, əsgərlər başı üstündə olmayan bir cəsədi yaralılar olan çadıra gətirdilər. Həkim hirslənir, deyir:

-Bu cansız cəsədi bura niyə gətirmisiniz? Onsuz da, yaralıları yönləşdirməyə yerimiz yoxdur.

Əsgərdlərdən biri çox inamla deyir:

-Çox igid və cəsur döyüşçüdür. Yoldaşlarımız başın da tapıblar. İndi gətirəcəklər. Cənab Piroqovu çağırın, başın bədəninə tikib sağaltsın. Belə igid döyüşçünü itirmək olmaz. Əsgərlər Piroqova hədsiz inanırdılar. Onlar tam inanırdılar ki, Piroqov döyüşçünün bədəndən ayrılmış başın yerinə tikib sağalda bilər.

## MİRZƏ KAZIM BƏY

Görkəmli Azərbaycan alimi, Rusiyada şərqşünaslıq elminin banilərindən biri Mirzə Kazım bəy XIX əsrdə təkcə Rusiyada deyil, dünyanın bir çox qabaqcıl ölkələrində şöhrət qazanmışdır. Mirzə Məmmədəli Hacı Qasım oğlu Kazımbəy 1802-ci il iyulun 22-də anadan olmuşdur. Uşaqlıq və gənclik illəri Dərbənd şəhərində keçmişdir. İlk təhsilini atasından almış, sonralar ərəb, fars dillərinin qrammatikasını, fəlsəfə, məntiq, hüquq elmlərini dərindən öyrənmişdir. O dövrdə görkəmli fransız alimi Qarsen de Qassi yazırdı: "Şərqin görkəmli oğlu Mirzə Kazım bəy Avropada böyük şöhrət qazanmışdır. Rusiya fəxr etməlidir ki, onun belə alimi var."

İngilis dilini də dərindən öyrənən Mirzə Kazım bəy 1825-ci ildə Kazan universitetinə müəllim təyin olunub. 1836-cı ildə Kazan universitetinə professor təyin edilir. 1849-cu ildə Peterburq universitetinə professor vəzifəsinə keçirilir. Burada Şərq dilləri kafedrasının dekanı seçilir.

Azərbaycan dilinə aid türk-tatar dilinin qrammatikası dərsliyini ilk dəfə o yazmışdır. O, Rusiya Elmlər akademiyasının müxbir üzvü, Londondakı Böyük Britaniya Asiya cəmiyyətinin həqiqi üzvü, Kopenhagen nadir sənətlər kral cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Eləcə də Parisdəki Asiya şərqşünaslıq, Amerika və Almaniya

şərqşünaslıq cəmiyyətlərinin üzvü idi. Bütün bunlara görə iki dəfə Demidov mükafatı almış, ona əməkdar professor, şərq dillərinin fəxri doktoru adı verilmişdir. 68 illik ömrünün 50 ilini elmə həsr etmişdir. Bu dahi şəxsiyyət akademik Dorna göndərdiyi məktubunda yazırdı. "Mən cəmiyyət qarşısında, elm qarşısındakı borcumu yerinə yetirməliyəm. Elmə həsr etdiyim günləri ömrümün ən xoşbəxt günləri hesab edirəm". 1870-ci il noyabrın 27-də Peterburqda vəfat etmişdir.

## "ÇOKONDA"

Resenans dövrünün görkəmli rəssamı Leonardo da Vinçi 1505-ci ildə florensiyalı Çokondanın arvadı Mona Lizanın portretini fırçaya alır. Sənət tarixində "Çokonda" adı ilə məşhur olan bu əsər intibah dövrü incəsənətinin əvəzsiz incilərindən biri sayılır. Burada o özünün ideal insan haqqındakı ən ülvü duyğularını ifadə etməyə nail olmuşdur. Sənət tarixçisi Bazarinin yazdığına görə, rəssam əsər üzərində dörd il işləmişdir. "Çokonda" bədii kamillik, əlçatmaz sənətkarlıq timsalıdır. Əsər insan gözəlliyini, onun mənəvi və cismani kamilliyini tərənnüm edən himndir. "Çokonda" hər şeydən əvvəl, XVI əsr İtalyan qadınlarının ən səciyyəvi keyfiyyətlərini, onlara xas olan xüsusiyyətləri əks etdirmişdir.

## SƏMƏD VURĞUN ŞƏXSİYYƏTİ

Görkəmli şairimiz S.Vurğun həm şairlik istedadı, həm də mənəvi zənginliyi, əlsiz-ayaqsızlara göstərdiyi təmənnasız xidmətləri ilə hələ sağlığında şöhrət qazanmışdır.

Akademiyada vitse-prezident işləyərkən bir nəfər

cavan oğlan qəbuluna gəlir. Məlum olur ki, Adil Qasımov soyadın daşıyan bu gənc çox istedadlı, yüksək intellektə malik bir insandır. İqtisadiyyat İnstitutunda aspiranturaya bir yerə qarşı iki nəfər imtahandan keçmək üçün ərizə vermişdi. A.Qasımov imtahanlarda yüksək nəticə göstərsə də, rəhbərlik onu aspiranturaya qəbul etməmiş, üstünlüyü "yuxarı"dan tapşırılan digər gəncə vermişdilər.

S.Vurğun institutun direktoru ilə A.Qasımovun bilik səviyyəsi, kasıb ailədən olması barədə telefonla danışsa da, yuxarıların qorxusundan İqtisadiyyat İnstitutunun direktoru bir iş görə bilməmişdi. A.Qasımov ikinci dəfə yazdığı ərizəsi ilə bir də S.Vurğunun qəbuluna gəlməli olur. Sifətinə qəm haləsi çökən böyük şairimiz ərizənin axırına aşağıda verilən bir beyt şeiri yazır:

Arxalıya arxa olma, deyərlər ki, yamaqdır,
Arxasıza arxa ol ki, qoy desinlər dayaqdır.

Oğlana tapşırır ki, ərizəni aparıb isntitutun direktoruna versin. Oğlan belə də edir. Direktor S.Vurğunun dərkənar əvəzinə yazdığı bir beyt şeiri oxuyanda elə bil yuxudan oyanır, sarsılan kimi olur. Neçə yerə zəng edir, özü xahişə gedir. Aspiranturaya verilmiş bir yeri iki elətdirir və A.Qasımovu da aspiranturaya qəbul elətdirir. A.Qasımov ömrü boyu S.Vurğunun bu alicənablığını və o bir beyt şeiri unutmur. Həm də sonrakı elmi fəaliyyətində də S.Vurğunun etimadını doğruldur.

## GÖYDƏN BİR DAMCI DÜŞMƏYƏCƏK

Keçmiş əyyamlarda ucqar bir dağ kəndində Qasmalı adlı bir kəndli yaşayırmış. Başqa kəndlərdə olduğu kimi, bu kəndin də yastı-yapalaq evləri, evlərin üstünə şifer vurulmaması nəzəri qıraqdan cəlb edirdi. Bu kənddə camaat əsasən qara daxmalarda yaşayırdı. Evləri qızdır-

maq üçün hər gün yanan təndirin hisi, qurumu evlərin pərdisini, ağacları da qapqara edərdi.

Xüsusilə yazda, payızda yağış yağanda evlərin çoxu damardı. Ev sahibləri əllərində kürək bel daxmanın üstün döyəcləyirdi ki, bəlkə, ev dammaya.

Yağışların ara vermədən yağdığı yaz günlərindən birində Qasmalı kişi evin üstün yenə döyəcləyib, evə gəlmişdi. Çox yorulmuşdu. Kürsü yorğanını başına çəkib, gözünün acısın almaq istəyirdi ki, yenə evə bir neçə yerdən daman damcı səsi onu şirin yuxudan elədi. Gözlərini açıb, pərdinin hansı yerindən dammağını müəyyənləşdirmək istəyirdi. Elə bu vaxt hisli-pasaxlı pərdidən düşən damcı birbaşa Qasmalının gözünə düşdü. Hisin, qurumun içindən gözünə düşən damcı kişinin gözünü yandırıb tökdü. Ev adamları durub, kişinin gözünü silib təmizləməyə başladılar. Göynərtidən hələ də ufuldayan Qasmalı kişi əllərini göyə qaldırıb deyinməyə başlayır:

-Kərəma şükür! Elə bil xəlbirdən su tökülür. Bir azdan yağış lazım olanda molla Fəti Sarı dağın başından uluyacaq, molla Qulam da Noxud təpəsinin! Onda göydən yerə bir damcı da düşməyəcək. İndi elə bil şadaradan su tökülür.

## ŞAİR SURXAY

Şahbuz rayonunun ucqar dağ kəndlərindən birində Surxay adlı bir baməzə, şair təbiətli kişi yaşayırmış. O, sonralar ailəlikcə köçüb Badamlı su qəsəbəsində yaşamağa başlayır. Badamlı su zavodunda da işləyirmiş. Baməzə xarakterinə, şairlik təbiətinə görə burada da hörmət qazanmışdı. Zavodda işləyərkən sex müdiri işləyən bir nəfərin kobudluğun, nadanlığın, köntöylüyün Surxay kişi də hiss edirdi. Onu da bilirdi ki, bu nadan direktorun yaxın adamı olduğuna görə belə meydan sulayır. Özündən sə-

viyyəcə, mənəviyyatca üstün olanları adam yerinə qoymur. Baş direktorun qorxusundan heç kim də ona bir söz deyə bilmirdi.

Bu mənzərəni kənardan seyr edən, müşahidə edən el şairi Surxayın bu münasibətlə yazdığı şeirin aşağıda verilən son bəndi dillər əzbəri olmuşdu:

Kiminin ruzusu o haqdan çıxır,
Bizimki torpaqdan, ya daşdan çıxır.
Qananın noxtası qanmaz əlində,
Nə noxta qırılır, nə başdan çıxır.

## ŞAİR SURXAY ŞƏRAB HAQDA

Şair Surxay Badamlı su zavodunda işləyərkən günorta yeməkxanaya gedir. Ona qulluq edən xidmətçi çalışır ki, yaxşı qulluq göstərsin. Həm də Surxay kişiyə hərdən söz atır ki, baməzə söhbətlərindən yenə eləsin. Bu vaxt el şairinin gözü yeməkxananın küncündə tək oturub yarım litrlik araq şüşəsindəki arağı bala-bala gillədən dükançı Allahverdiyə sataşır. Görür ki, Allahverdi dinmədən, danışmadan, heç kimə baxmadan vur ki, vurur. Qabağına qoyduğu arağın qurtarmasına az qalır. Həm də boy-buxunca zəif olan Allahverdinin bu qədər yemək yeməsi, bir butulka arağı təkbaşına içməsi, həm də bu işi sakit, səssiz icra etməsi el şairini dilə gətirir. Bədahətən aşağıda verilən bir bənd şeiri deyir:

Yazıq şərab, gör nə günə qalmısan,
Allahverdi səni mal kimi içir.
Dinib danışmayır, deyib gülməyir,
Bəs niyə bu yazıq lal kimi içir?

Sonralar bu bir bənd şeir dillər əzbəri olmuşdu.

# BİR TÜKÜN QİYMƏTİ

Xalq arasında belə bir deyim işlənir. "Görünür, mənim sənin yanında bir tük qədər qiymətim yoxdur".

Bu ifadənin yaranma tarixi belədir:

Rəvayətə görə, bir nəfər bir başqasından vacib ehtiyacı olduğu üçün borc pul, taxıl və s. lazımi əşya borc almaq istəyəndə saqqalından bir tük çıxardıb borc verən kişiyə verərmiş. Borcun da qaytarılma vaxtı müəyyənləşdirilərmiş. Əgər həmin təyin olunmuş vaxtda borc alan borcunu qaytara bilməsəymiş, borc verən kişi həmin kişinin əmanət kimi verilən tükünü camaat içərisində yandırıb deyərmiş: "Deməк, sənin bir tük qədər qiymətin yox imiş. İnsanlığa, kişiliyə layiq olmayan adam imişsən".

Bu hal böyük rüsvayçılıq sayılarmış. Sözünə əməl etməyən borc alan kişi el içində hörmətdən, nüfuzdan düşərmiş.

Yaxud borc verən kişi borc verdiyi kişinin tükünü vədə verilən müddətdə borcları qaytarılarkən itirsəydi, özünə qaytara bilməsəydi, borc alan kişinin haqqı çatırdı ki, tükü almayınca borcları qaytarmasın. "Sənin yanında bir tük qədər qiymətim yoxdur," deyiminin yaranma tarixi də belə olmuşdur.

## EL DEYİMLƏRİ, İBRƏTLİ İFADƏLƏR

1. Tikan batdığı yerdən çıxar.
2. Həqiqətin meydanı dar olar.
3. Ən şəfalı məlhəm zamandır.
4. Sevgini, pulu, bir də dərdi gizlətmək olmaz.
5. Həyat qapı deyil, açıb örtəsən.
6. İş tərs düşəndə burun suyu gözə axar.
7. Siçandan törəyən çuval dibində yatar.
8. Yaxşı səndən qaçırsa düş dalına, yaman sənə tərəf gəlirsə qaç canını qurtar.
9. Düşmənin baltasını saplıyan düşməndən qorxuludur.
10. Dünya bir nərdivandır, kimi qalxır, kimi enir.
11. Susan ağıza milçək girməz.
12. Sözünü biməyən ağız başına toxmaq vurdurar.
13. Sevinc payını uman qəm payına da hazır olmalıdır.
14. Məhəbbətsiz ürək-günəşsiz həyat.
15. Öz səhvini etiraf etməyən adam tavansız evə bənzər.
16. Qarınqulu yeməkdən, oxumaq istəyən oxumaqdan doymaz.
17. İpək sapla başladığın işi kobud sapla bitirmə.

18. Çox danışan pis işləyən olar.
19. Əmək həyatın duzudur.
20. Yüz dolayının başını bir köndələn kəsər.
21. Orağı kürk vaxtı, kürkü oraq vaxtı.
22. Qanmaza ya quzuqulağı, ya bağayarpağı.
23. Fərli cücə yumurtada cüyüldər.
24. Buz nazik yerdən sınar.
25. Çürük taxta mıx tutmaz.

26. Aslan göy guruldamasına cavab verər, çaqqal ulamasına yox.

27. Çörəyin dadını cütçü bilər.

28. Başını vur qoç başına, toxlu başı olmasın.

29. Külü elə küllükdən götür ki, uca olsun.

30. Keçi sürünün qabağında gəlsə də: -Qoyun gəldi- deyərlər.

31. Paltarı təzəlikdə, ləyaqəti gənclikdə qoruyarlar.

32. Ömür qısaldıqca qiyməti artar.

33. Qurdu küt basar, iti basmaz.

34. Sədaqəti qurbansız yerdə axtar.

35. İlanı öldürüb balasın sağ qoymaq, odu keçirib qorun qoymaq ağıllı kişinin iş deyil.

36. Gəncliyin yükünü gənclikdə çəkərlər.

37. Qız öz səadətini ata evindən kənarda tapmalıdır.

38. İlan zəhəri, pis adam əməli ilə tanınar.

39. Əlinə düşəndə sovurma, qurtaranda davırarsan.

40. Ov marıxdan qorxar.

41. Mis sarı olmaqla ondan qızıl olmaz.

42. Evin dirəyi oğlandır, bəzəyi qız.

43. Ağaclı ağacı götürəndə suçlu suçun anlar.

44. Paxıl adam qəmli olar.

45. Dəvəyə qanqal lazım olsa başın əyər.

46. Süd verən inəyin əmcəyini kəsməzlər.

47. Kəssək atana daş atarlar.

48. Yağı yağ üstə tökən yarmanı yavan qoyar.

49. Dəvə yaxın otlar, uzağı gözlər.

50. İt hürər yalın kəsər.

51. Day at olunca yiyəsi mat olar.

52. Hərzə sözün lərzə cavabı olar.

53. Yayda mürgüləyən qışda oyaq qalar.

54. Tüstüdən qorxanı alov qızdırmaz.

55. Durna öz başçısını qabaqda görməsə, sürbəsi pozular.

56. Qorxağın səsi gur olar.

57. Ağılsız baş ayağa dinclik verməz.

58. Hər buğlanan qazanda aş olmaz.

59. Qanmaza zurna versən, yoğun tərəfindən püləyər.

60. Yaxşılığı dəryaya atsan, ada bitirər.

61. Kişi gətirir çuvala, arvad yığır navala.

62. Vaxtını itirən baxtını itirər.

63. Torpaq deyər: sən mənə tər ver, mən sənə zər verim.

64. Divar uca, it qoca. Gəl tullan görüm, necə tullanırsan?

65. Ən kort qələm, ən iti yaddaşdan etibarlıdır.

66. Evimdə yox gecəlik, könlümdən keçir xocalıq.

67. Özünə umac ova bilməyən başqasına əriştə kəsmək istər.

68. Toyuq eşələnəndə qıçına sap ilişər.

69. Yeyən bilməz, doğrayan bilər.

70. Bəxt gətirməyəndə xəşil də diş sındırar.

71. Əkinçi ol, biçinçi ol, qırxıncı olma.

72. Qoyun qırxlığı görəndə canavar yaddan çıxar.

73. Çörəyin yaxşısın dəyirmançı bişirər.

74. Qərib ürəyi sapdan nazik olar.

75. Vətən şirinliyin qəribdən soruş.

76. Xəlbirdən keçməyən şadardan keçər.

77. Qəribin göz yaşı ümman olar.

78. İtin səsi qapıda gur çıxar.

79. Hürüşün bilməyən it, örüşə qurd gətirər.

80. Asta gedən, usta gedər.

81. Dağarcığı sürüyə-sürüyə çuvala tay qoyma.

82. Hər gəlişin getməyi var, hər yanmağın sönməyi.
83. Bilik ağlın aynasıdır.
84. İnsan anadan olan gündən ölümə doğru yol gedir.
85. İşə xor baxan boynuna torba taxar.
86. İş işi açar.
87. Yaxşı ürək sahibi böyük xəzinəyə sahibdir.
88. Ölçülməmiş suala biçilməmiş cavab alarsan.
89. Başqası üçün et, özün üçün öyrən.
90. Dost evinə gedən yol uzun olmur.
91. Namərd dili xəncərdən iti olar.
92. İnsanın taleyini aldığı tərbiyə həll edər.
93. Bilik xoşbəxtlər üçün bəzək, bədbəxtlər üçün sığınacaqdır.
94. Xoş sözdən dil qurumaz.
95. Hər bildiyin şeyi danışmazlar.
96. Deyilən sözün məhək daşı düşüncədir.
97. Kəskin dil vergidir, uzun dil cəza.
98. Dostu olmayan adam köksüz ağaca bənzər.
99. Ata xəzinədir, qardaş dayaq, dost isə hər ikisi.
100. Dostun ağlaması, düşmənin gülməsi fəlakət gətirər.
101. Ədalət hakim olanda insanlar xoşbəxtliyə tez çatar.
102. Haqq yolunda döyüşən həmişə qalib gələr.
103. Tutarlı söz can arzusu, yersiz söz baş ağrısı.
104. Quşqun olub quyruğa keçincə, yüyən ol ağıza keç.
105. Vəd böyüdükcə inam azalır.
106. Ağzına bax tikə kəs.
107. Vicdanı ləkəli adam xoşbəxt ola bilməz.
108. Əmək xoşbəxtliyin açarıdır.

109. Dözümlü olanlar qalib gələr.

110. Söz təsir etməyən yerdə, kötək də təsir etməz.

111. Çörək basanı çörək tutar.

112. Çörəyini tək yeyən, yükünü də tək götürər.

113. Ağaclı kəndi sel aparmaz.

114. Tarlada izi olmayanın süfrədə üzü olmaz.

115. Uşaqlar insanların qanadlarıdır.

116. Yaxşı nümunə uzun-uzadı nəsihətdən yaxşıdır.

117. Dostun tənəsini eşitmək onu itirməkdən yaxşıdır.

118. Davalı yerdə su əvəzinə qan axar.

119. Təmiz ürək təmiz dilək soraqlar.

120. Qız yaraşığı ismətdir, oğul yaraşığı qeyrət.

121. Xeyirxah insan xeyirə qənşər gələr.

122. Qeyrətinən yaşayanlar şöhrətinən ölərlər.

123. Cavanlıq həm sədaqətdi, həm də əmanət.

124. Yolunu azanı yoluna, elini azanı elinə qaytarın.

125. Qorxaq xəncəriylə, qorxmaz kamalıyla öyünər.

126. Torpaq bəhəriylə, insan hünəriylə.

127. Ana sevəni el sevər, vətən sevəni cahan.

128. Elə çəpər olun, obaya sipər.

129. Düzə dağ da əriyər.

130. Dağın qarı, bağın barı.

131. Dağların yükünü dərələr çəkər.

132. Bilik ən yaxşı yol yoldaşıdır.

133. Boğaz nə qədər uzun olsa da, baş ondan ucadır.

134. Tək əl dənizə də düşsə özün yuya bilməz.

135. Namərd tapdalayar, mərd durquzar.

136. Xoşbəxtlik var-dövlətlə ölçülmür.

137. İnsan məzara qoyulanda yox, dostları onu tərk edəndə ölür.

138. Müdrik adamın dili ürəyində, axmağın isə ürəyi dilindədir.

139. İşi bilməyənin işi qurtarmaz.

140. Ayaq üstə ölmək diz üstə yaşamaqdan yaxşıdır.

141. Sözün atası ağıl, anası dildir.

142. Cahil sərvət yığar, ağıllı hikmət.

143. Yalana min yol gedər, doğrüya bir yol.

144. Səbrdə qızıl gizlənər.

145. Sözə inanma, işə inan.

146. Ağıl bir dağdır ki, oradan uzaqlar görünər.

147. Övladına cəza verməyən özü cəza alar.

148. Yalan söz ürəyin düşmənidir.

149. Danışan dəli olanda gərək qulaq asan ağıllı ola.

150. Aqildən soruşdular: Necə olur ki, hamı hörmətini saxlayır? cavab verdi: çünki ən birinci hörmətimi özüm saxlayıram.

151. Kobudluq nifrət doğurar.

152. Mərdlik ilə çatar arzuya insan.

153. Qəzəblənəndə könül də kor olar, göz də.

154. Boş araba bərk səs salar.

155. Şöhrətpərəstlik yalançılığın anasıdır.

156. İşıq zülmətdə gərək, ağıl zillətdə.

157. İgid özü üçün doğular, özgələr üçün ölər.

158. Ölümdən qorxan adam dirilər arasında ölüdür.

159. Dünyada ən əziz nemət həyatın özüdür.

160. Ən böyük qələbə insanın öz üzərində qazandığı qələbədir.

161. Aradığımız adamlar tərəfindən aranarıq.

162. Ömrü az olan şeyə könül bağlamağa dəyməz.

163. Zülm küləyi əsən dənizdən intiqam buxarı qalxar.

164. Həqiqət gücdə deyil, güc həqiqətdədir.

165. Ağlı gödək olanın, dili uzun olar.

166. Adam heyvan olanda heyvandan pis olur.

167. İş adamı bəyan edər.

168. Əmək həyatın zinətidir.

169. Axırda gülən yaxşı gülər.

170. Dostların hesabı ürəkdə saxlanar.

171. Bıçaqdan qorxma, dildən qorx.

172. İti acıqlandırmasan hürməz.

173. Nursuz göz kimidir elmsiz ürək.

174. Elm ilə dost olan sudan gəmisiz də keçər.

175. Xoşbəxtlik öz ayaqları ilə hüzura gəlməz.

176. Yaxşı adamlar ancaq öz yaxşılıqları ilə təsəlli taparlar.

177. Başqası üçün işıq saçmaq ən böyük səadətdir.

178. Məhəbbət qəzəbdən güclüdür.

179. Hədsiz zənginin gözü ayağının altın görməz.

180. Elm əqlin çırağıdır.

181. Ağıllı kamal axtarar, cahil mal.

182. Keçmişi oxumaq, gələcəyi öyrənmək üçündür.

183. Əvvəl yerdən əyri çıxan, ağacı rəndələməklə düzəltmək olmaz.

184. Ananın ərköyün oğlu hambal olar.

185. İnsan ömrün qısaldan insan özüdür.

186. Suyun çoxluğu əkinə zərər verən kimi, yeməyin də çoxluğu bədənə zərər verər.

187. Mütaliə ən yaxşı təlimdir.

188. Çox bilən, az danışan ol, az bilib çoz danışan olma.

189. Bir buğda dəni bir mirvaridən qiymətlidir.

190. Yalanın ayağı gödək olar.

191. Qadının qiyməti boyasında deyil, həyasındadır.

192. Məqsədlə evlənənlərdən kimisinin ağzı aşa, kimisinin başı daşa dəyir.

193. Zəngin cehiz qisməti olan yox, isməti olan xoşbəxtdir.

194. Kamallının yanında nə camalla öyün, nə cəlalla.

195. Acgöz arvad həmişə ərinə özündən yaxşı geyinən qadını göstərər.

196. Oğul ananı seçə bilməz, ana oğuldan keçə bilməz.

197. Ölümdən qorxmayan millətə ölüm yoxdur.

198. Eyibsiz dost axtaran axırda dostsuz qalar.

199. Uşağı yaradan yox, tərbiyə edən atadır.

200. Arvad alanda gözlərindən çox qulaqlarına inan.

201. İki göz bir-biri ilə yola getməzdi; aralarında burun olmasaydı.

202. Süddən ağzı yanan qatığı da üfləyib içər.

203. Min daş-qaşın olunca bir ağıllı başın olsun.

204. Həyasızın üzünə tüpürdülər, dedi: yağış yağır.

205. Düzlüyü və sədaqəti özünə peşə seçənlər hər cür etimada layiqdir.

206. Ürək evinin qapısını ancaq dost üzünə açmaq olar.

207. Dostun eyibini gizlədən kəs ona düşmən sayılır.

208. Səni tərif edəni yox, həqiqəti deyəni özünə dost tut.

209. Xoş sözdən dil qurumaz.

210. Bildiyin hər şeyi danışmazlar.

211. Azad ölüm qul kimi yaşamaqdan yaxşıdır.

212. Dostun yoxdursa tap, tapdınsa qoru.

213. Ata xəzinədir, qardaş dayaqdır. Dost isə insan üçün həm xəzinədir, həm də dayaqdır.

214. Ehtiyatsız adam düzdə də yıxılar.

215. Dəmiri pas çürüdər, insanı paxıllıq.

216. Dağ uçanda yeri qalar.

217. Halalzadə barışdırar, haramzadə qarışdırar.

218. Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzər.

219. Qəbiristanlığa gedən yol ən uzun yoldur.

220. Tutarlı söz can arzusu, tutarsız söz baş ağrısı.

221. Od qalar-köz olar, qız qalar-söz olar.

222. Örtülü süfrənin bir eybi var, açığın min.

223. Pəh-pəh ilə plov olmaz, yağ ilə düyü gərək.

224. Gözəl görünər, çirkin bürünər.

225. Divarı nəm yıxar, igidi qəm.

226. Saç-saqqal ağartmaqla hörmət sahibi olmaq olmaz. Hörmətə o şəxslər layiqdir ki, elm və kamal sahibidir.

227. Üç işdə qənaətcil olma:-təhsildə-xeyirxahçılıqda-səxavətdə.

228. Arvadı kasıbçılıqda, qohumları pis gündə sına.

229. Üç işdə qənaətcil ol: sevgidə-yeməkdə-dövlət yığmaqda.

230. Əxlaq elə bir güzgüdür ki, burada hərə öz simasını göstərir.

231. Atdan düşdük, addan düşmədik.

232. Zülmkar adam xoşbəxt günündə sənə dost olar, pis günündə üz döndərər.

233. Kobud olma, kobudçuluq görərsən.

234. Əgər dostum bədbəxtdirsə, mən necə xoşbəxt ola bilərəm.

235. Müdrik insan kiçik həqiqətlər üçün böyük həqiqətləri məhv etməz.

236. Sərraf olmayan yerdə inciyə qiymət verən olmaz.

237. Gözlüklü ilanın qənimi gözsüz həşəratdır.

238. Qısır inək tez-tez mələr, quraqlıqda gecə-gündüz ildırım çaxar.

239. Qızıldan tikilmiş ayaqqabı da olsan, hamı deyəcək: -Səni ayağa geyirlər.

240. Fil yatanda da atdan uca olur.

241. Qılıncdan oyuncaq, ilandan dost olmaz.

242. Dostunun düşmənindən, düşmənin dostundan ehtiyat elə. Hər ikisindən sənə xəta gələ bilər.

243. Öz fənərini arxasında gəzdirənin kölgəsi qabağına düşər.

244. Alicənablıq namuslu adamların nəsibidir.

245. Yaramaz adam bir anda, təmiz adam isə illər öt-dükdən sonra tanınar.

246. Deyilən söz, atılan güllə.

247. Qonaqlığa getməyən, qonaq qarşılayammaz.

248. Eşşəkdən yıxılanı bədöy ata mindirmə.

249. Axmağın əli ilə ilan tutarlar.

250. Əldən gödək olanlar, dildən uzun olarlar.

251. Birgə kəsilən çörək tamlı olar, görülən iş ilhamlı.

252. Günəş olmasa, çiçəklər olmaz, məhəbbət olmasa səadət olmaz.

253. Sözünü və gücünü tərəziyə qoy, ölç-biç, sonra danış ki, xəcil olmayasan.

254. Oxuyanı, öyrənəni aldatmaq olmaz.

255. Xoşbəxtlik dost qazanır, bədbəxtlik isə onları sınayır.

256. Xoşbəxt adamın bədbəxtə ağıl dərsi verməsi çox asandır.

257. Camışlar açılanda danalar axura çıxar.

258. Əməklə acı taleyə də qalib gələrsən.

259. Vicdanının oyanması qəlbin əzəmətini göstərir.

260. Qayalar dağlara arxalanar.

261. Məscid isti olanda molla çox şeydən danışar.
262. Təhsil xəzinədir, əmək onun açarı.
263. Yaxşı adamlar olmasaydı, həyat ilan zəhərindən acı olardı.
264. Bir saatlıq ədalətin xeyri il boyu ibadətin xeyirindən üstündür.
265. Üç şey adama məhəbbət gətirər: mədənilik, mülayimlik, təvazökarlıq.
266. Müəyyən vaxta qədər dost olan düşməndir.
267. Buraxılmış atı tutmaq olar, buraxılmış sözü yox.
268. Qolun gücü ilə bir adama, ağlın gücü ilə bir orduya qalib gəlmək olar.
269. Qaranlığı seçməyən heç vaxt işığa doğru yönəlməz.
270. Var-dövlət dəniz suyuna bənzəyir. Çox içdikcə susuzluğun da artır.
271. Sadəlik, xeyirxahlıq və həqiqət olmayan yerdə dahilik yoxdur.
272. Bilik silahdır, məqsəd deyil.
273. Ən yaxşı tərbiyə yaxşı nümunədir.
274. İpək sapla başladığın işi kobud sapla bitirmə.
275. Gizlincə edilmiş yaxşılıq aşkarda mükafatlanar.
276. Saf vicdan ən yumuşaq yastıqdır.
277. Dostları görməkdən böyük sevinc, dostlarla ayrılmaqdan ağır dərd yoxdur.
278. Həqiqi dostluq odur ki, iki sinədə bir ürək döyünür.
279. Qadın var arpa unundan aş edər, qadın var buğda unundan daş edər.
280. Qadının iffəti, kişinin izzəti.
281. Qadının hörməti ərinə görə, oğlunun izzəti

atasına görə, şagirdin biliyi müəllimine görə.

282. Qüdrətli kişiləri yüksəyə qaldıran qüdrətli qadınlar olur.

283. Az ye, saz ye.

284. Torpağa bağlılıq ömür artırar.

285. Sağlamlığı sağlam ailədə axtar.

286. Övlad arxa, ümid, baş ucalığı, can sağlıdığıdır.

287. Qəlbin genişliyi, ürəyin açıqlığı böyük nemətdir.

288. Görümlü ol, oturumlu ol, yerini, yatağını bil, hər şeyi ağartma.

289. Yaş kəsən baş kəsər.

290. Meşəsi çox olan elin məzarı az olar.

291. Ev kimindir? Oturanın. Söz kimindir? Götürənin.

292. Bir gün duz yediyin yerə qırx il salam ver.

293. Bir bu gün iki sabaha dəyər.

294. Namərdin yaddaşı, xainin sirdaşı olmaz.

295. Daş dəysin o başa ki, tamahın sözü ilə oturub, durur.

296. Qoyunu qurda tapşıranın qurdla qohumluğu var.

297. Heyvan səsi, insan sözü ilə tanınar.

298. Dediyin söz qulun, demədiyin söz isə ağandır.

299. Dayaz çayda çirmənməzlər.

300. Cahildən məsləhət, qocadan əsa alma.

301. Şirin söz şəfa, acı söz cəfa gətirər.

302. Qartal səmada qartaldır, oturduğu yerdə yox.

303. Səadət qapıdan girincə, səfalət bacadan çıxar.

304. Atın nallandığını gördü, qurbağa da qıçın qo

vzadı.

305. Könül sığan yerə hər şey sığar.

306. Oxumayan bilməz, bilməyən bacarmaz.

307. Acıdil bal satandan, şirindil bibər satan yaxşıdır.

308. Elm əqlin çırağıdır.

309. Ucuz söz qan qaraldar, xoş söz könül açar.

310. Ən böyük qələbə insanın öz üzərində qələbəsidir.

311. İnamsızlıq başlayan yerdə dostluq qurtarır.

312. İşlə, oğul, qocalıq səndən soruşacaq: gəncliyi necə keçirmisən?

313. Üzün çirkini yumaq olar, ürəyin ləkəsini heç nə təmizləyə bilməz.

314. Anasından qabağa düşən qulunu qurd yeyər.

315. Arvad üzlü kişidən, kişi üzlü qadından əlhəzər.

316. Aslanın qorxusu qarışqadan olar.

317. At bəslənirkən, qız istənirkən.

318. Arvadı ahıl gözüylə, atı cahil gözüylə.

319. Arvadın isməti, ərin izzəti.

320. Günəş şam işığını hiss etməz.

321. Kor odu ki, düşdüyü quyuya bir də düşə.

322. İnsaf olmayan yerdə insanlıq da olmur.

323. Həyatda əziyyətsiz rahatlıq yoxdur.

324. Doğru dil baş yarar, əyri dil daş yarar.

325. Yamandan dağ qalar, yaxşıdan bağ qalar.

326. Ədəbsizdən abrını satın al.

327. Taxma quyruq tez qopar.

328. Kişi gətirməyi, qadın yetirməyi bilməlidir.

329. Gözəldən qırx gündə doymaq olar, gözəl xasiy-yətlidən isə qırx ildə də doymaq olmaz.

330. Uşağa yüz öyrət, öz gördüyünü söylər.

331. Su zər, suçu zərgər.

332. Yersiz oyun, sındırar boyun.

333. Dağın ucalığı daş ilə, adamın ucalığı baş ilə.

334. Yaxşının sözü qaymaq, yamanın sözü taxmaq.

335. Düşmənin güləni, sirrini biləni.

336. Hey dedi: malım-mülküm var, bir demədi ölüm-itim var.

337. Ağılın yüngüllüyündən ayağa ağırlıq düşər.

338. İstəyən bacarar da.

339. Zəhmət dost artırar, qeybət düşmən.

340. Günəş havanı isidər, dostluq qəlbi.

341. Faydasız ömür vaxtsız ölümə bərabərdir.

342. Namərd yeyər də, deyər də.

343. Dedilər: Nəfs hardasan? Dedi: əyridən yuxarıda, düzdən aşağıda.

344. Qoyuna getməyən iti qapıda hürdürərlər.

345. Atdan salınana eşşək də haramdır.

346. Özgə nefti ilə yanan çırağın ömrü az olar.

347. Vəfalı dost yad olmaz, görməsə yüz il səni.

348. Dost ikinci mən deməkdir.

349. Qurdun qonaqlığına get, köpəyi də yanınca apar.

350. Ac elə bilir doymaz, tox elə bilir acmaz.

351. Yalançının gözləri həmişə nəmli olar.

352. Xoşbəxtlik göydə uçmur, o, əməklə qazanılır.

353. Pis adam kömür kimidir, yandırılmasa da qaraldıb ləkələyir.

354. Qazana yapışma qarası çıxar, yamana yapışma qadası.

355. Yol haramı ol, yoldaş olma.

356. Çobanı özündən olanın qoyunu ekiz doğar.

357. Bağa dedilər: Bağ, bağ. Dedi: Bax.

358. Bayram halvası ilə köpək yalı olmaz.

359. Gözəl gözəl deyil, könül sevən gözəldir.

360. Analı qızın özü böyüyər, anasız qızın sözü.

361. Bacı oğlunu dayısı, bacı qızını xalası tanıdar.

362. Dağ daşı ilə güclüdür, ağac kökü ilə.

363. Qaba adam yonulmamış ağaca bənzər.

364. Qorxunun gözləri böyük olar.

365. Deyilmiş söz kəsilmiş ağacdır.

366. Axmaq deyinəndə ağıllı susar.

367. Danışan səpir, dinləyən biçir.

368. Ürəkdən gələn söz ürəklərə yol tapar.

369. Bir evin iki sahibəsi olanda zibil dizə çıxar.

370. Quş dimidiyindən, insan dilindən kələyə düşər.

371. Palıd ağacı alma bitirməz.

372. Etdiyin yaxşılığın əvəzi havaxtsa özünə qayıdar.

373. Özü olmayanın sözü olmaz.

374. Əllər əyri olsa, yollar düzəlməz.

375. Qoruyub varını, unutma arını.

376. Bar əzaba dözənindir, bal pətəkdən süzənindir.

377. Qar gəlirsə bar gəlir, səbrin niyə dar gəlir?

378. Danışmaq üçün nağıl, susmaq üçün ağıl gərəkdir.

379. Qərəzlidənsə, qəzəbli ilə yoldaşlıq et.

380. Mehrini itə salandan el-oba təəssübü gözləmə.

381. Əyri təcrübəlidənsə, düz təcrübəsizə arxalan.

382. Bura ələyə gələni ərə verirlər.

383. Gəlinin ayağı, çobanın dayağı.

384. Bir yalandan başqa yalan doğur.

385. Paxıl ehsandan qaçar, xəsis mehmandan.

386. Özünü ər bilsən, özgəni şir bil.

387. Polad bıçaq qansız qalmaz.

388. Buğda çörəyin olmasın, buğda sözün olsun.

389. İsti söz isidər,soyuq söz soyudar.

390. Yaxşı iş bitirir, yaman iş itirir.

391. Yaxşı etdiyini bilər, yaman etdiyinə gülər.

392. Yaxşını görüb fikir elə, yamanı görüb şükür elə.

393. Kişi evin mühəndisi, qadın memarıdır.

394. Özgə ölü özgəyə yatmış kimi görünər.

395. Etdiyin yaxşılıq bəhərli meyvə bağıdır. Gec-tez bəhərin görərsən.

396. Bir qoca öz müridinə demişdir:

-Əgər insan övladı ruziyə bağlı olduğu qədər ruzi verənə bağlı olsa idi, mövqeyi mələklərdən üstün olardı.

397. Ağıllı bir adamdan soruşdular:

-Xoşbəxt kimdir, bədbəxt kim?

-Xoşbəxt o kəsdir ki, əkib yeyər; bədbəxt o kəsdir ki, qoyub gedər.

398. Elm əqidəli olmaq üçündür, dünya malı yığmaq üçün deyil.

399. Oxuduğuna əməl etməyən alim məşəl gəzdirən kora bənzəyir.

400. Ölkə ağıllı adamlarla gözəlləşər, dırı pak adamlarla möhkəmlənər.

401. Üç şey əbədi yaşamaz: mal ticarətsiz, elm mübahisəsiz, hökmdar siyasətsiz.

402. İki adam havayı zəhmət çəkib faydasız əmək sərf edər: biri yığıb yeməyən, o biri bilib eləməyən.

403. Hər torpaqda qoca, qarı olar, ancaq hər torpaqda ağsaqqal, ağbirçək olmaz.

404. Mal-dövlət yaşamaq üçündür, yaşamaq mal-

dövlət üçün deyil.

405. Ərəblər deyirlər: "bağışla, lakin minnət qoyma, çünki faydası özünə qayıdacaq".

406. Nə elə qaba ol ki, səndən qaçsınlar; nə də elə yumşaq ol ki, üzünə qabarsınlar.

407. İlanın başını düşmən əli ilə əz, hər iki tərəfi xeyirdir: düşmən qələbə çalsa ilanı öldürmüş olursan; ilan qalib gələrsə, düşməndən qurtarırsan.

408. Xəbər ürəkaçan deyilsə, sən sus, qoy başqası desin.

409. Hər kəsə özü kamallı, övladı camallı görünər.

410. Mal çoxluğundansa, göz toxluğu yaxşıdır.

411. Varlı varxtında kömək etməyən, yoxsul zamanında kömək görməz.

412. Vətən o şeydir ki, uğuru da, uğursuzluğu da gözümüzü yaşardır.

413. Nadan üçün susmaqdan yaxşı şey yoxdur, lakin əgər o, bunu bilsəydi nadan olmazdı.

414. Elm oxuyub əməl etməyən adam, yer şumlayıb toxum səpməyən əkinçiyə bənzəyir.

415. Filosoflar gec-gec yeyər, möminlər doymadan çəkilər, zahid qarnı tutunca, gənclər boşqabdakı qurtarınca, qocalar tər tökünçə, qələndərlər isə mədədə yer, süfrədə çörək qalınca yeyərlər.

416. Arvada qulaq asmaq abdala süfrə açmaq qədər günahdır.

417. Cahil adam alimə üstün gəlsə təəssüflənmə, çünki həmişə daş gövhəri sındırar.

418. Bir ömürdə əmələ gələn dostu bir anda incidib əldən vermə.

419. Gücə əsaslanmayan tədbir əfsanəyə, tədbirə əsas-lanmayan güc divanəyə bənzər.

420. Dövran bir günəşdir, ömür isə qar.

421. Yeyib paylayan igid, yığıb saxlayan abiddən yaxşıdır.

422. Dənə-dənə bol olar, dama-dama göl.

423. Can bir nəfəsə bağlıdır, dünya isə iki yoxluq arasında bir varlıqdır.

424. Şeytan düz adamdan, varlı isə pulsuzdan qaçar.

425. Sağlığında adamın çörəyini yeməsələr, öləndən sonra adını çəkməzlər.

426. Üzümün dadını bağ sahibindən çox, onu yığan dul qadın bilər.

427. Misirdə aclıq üz verəndə Yusif peyğəmbər doyunca yeməzdi ki, acları unutmasın.

428. İki şey mümkün deyil: qismətdən artıq yemək, əcəl çatmamış ölmək.

429. Ey pulsuz, bazara gedən sərsəri,
Qorxuram, əliboş gələsən geri.

430. Ey ruzisi qalmış, getmə, yeyəcəksən; ey əcəli çatmış, qaçma, öləcəksən.

431. Qismətin deyilsə, əlin çatmayacaqdır; qismətlindirsə, harada olsan, gəlib səni tapacaq.

432. Günahkar varlı-üstü qızılla suvanmış təzəkdir, sadiq yoxsul-üstü toza bulanmış bəzəkdir.

433. Həvəssiz şagird-pulsuz aşiqə, bələdçisiz səyyah-qanadsız quşa, əməlsiz alim-barsız ağaca, elmsiz zahid-qapısız evə oxşar.

434. İbadət etməyən adam-yeriyən piyadəyə, riayət etməyən alim-yatan süvariyə bənzər.

435. Gözünü yuxarı tutan günahkar özünü yuxarı tutan dindardan yaxşıdır.

436. Məhəbbəti gözlə görmək mümkün deyil, onu yalnız ürək duya bilər.

437. Mürvətsiz kişi-arvad, tamahkar abid-quldur-

dur.

438. İki adamın gəmisi qərq olmuş tacirlə, qələndərə dost olmuş varisin qəlbi təəssüf dərdindən, ayağı həsrət zəncirindən xilas ola bilməz.

439. İmam Məhəmməd Qəzalidən soruşdular:

-Elmdə bu dərəcəyə necə çatdın?

-Bilmədiyim şeyi soruşmaqdan utanmadım.

440. O şeyi ki, arxayınsan sənə deyəcəklər, soruşmağa tələsmə, çünki hörməyə zərəri var.

441. Qonşuluq şərtlərindən biri budur ki, ya özünə yeni ev tikəsən, ya da qonşu ilə yola gedəsən.

442. Hamının dişi turşdan qamaşar, qazınınki şirindən.

443. Kişinin qurduğu evi qadın dağıda bilər, ancaq qadının qurduğu evi heç şeytan da dağıda bilməz.

444. İşdən düşmüş əxlaqsız bir qarı fahişəlikdən, işdən çıxarılmış insafsız bir məmur mərdümazarlıqdan əl çəkib tövbə etməsin, bəs nə etsin?

445. İki adam öldü və dünyadan həsrətlə getdi: biri odur ki, yığdı yemədi; digəri odur ki, bildi eləmədi.

446. Ağıllı adam dava-dalaşdan qaçar, barış gördü ləngər salar.

447. Bir dərviş münacat çəkib deyirdi:

"İlahi, pislərə rəhmin gəlsin, yaxşılara rəhm edibsən ki, onları yaxşı yaradıbsan".

448. İlk dəfə paltara naxış vuran, barmağa üzük taxan Cəmşid olmuşdur. Ondan soruşdular:

-Nə üçün zinəti sola vurubsunuz, halbuki fəzilətdə sağ ondan üstündür.

-Sağa sağlığın özü böyük zinətdir.

449. Bir yerə girməzdən əvvəl oradan çıxacağını düşün.

450. Böyük bir şəxsdən soruşdular:

-Sağ əl çox cəhətdən sol əldən üstündür, buna baxmayaraq, nə üçün üzüyü sol ələ taxırlar?

-Bilmirsən ki, fəzilətli adam həmişə məhrum olar.

451. Loğmandan soruşdular ki, elmi kimdən öyrənmisən?

Dedi: "korlardan. Onlar ayaqları altını yoxlamadan irəli addım atmazlar".

452. Bir qoca demişdir: "Cavanlığımda çox fikir edirdim ki, heyf qocalacağam, gözəl qızlar məni sevməyəcək; indi qocalmışam, mən özüm onları istəmirəm".

453. Qız yaraşığını ismətdə, oğul tacını qeyrətdə görərlər.

454. "Atamın üz qoyduğu torpaq haqqı!" Bu bizim müqəddəs andımızdır; bu bizim vətənsevərliyimizin ən kamil elmi ifadəsidir, atamın üz qoyduğu torpaq haqqı!.

455. Dilini uzun istəsən əlini gödək elə.

456. Arxalı köpək qurd bassa da, qurdun adı qurd, köpəyin adı köpəkdir.

457. "İnsan"-titul bildirən sözdür, ondan ucası yoxdur.

458. İstəyəndə özündən irəliyə, yeyəndə özündən geriyə bax!

459. Çörək açmayan qapını heç nə açmaz, çalış, səxavətli ol!

460. Hövsələsizlikdən və tənbəllikdən çəkin, çünki hər iki əməl şər qapısının açarıdır. Tənbəl adam heç vaxt haqqını ödəməz, hövsələsiz adam isə haqq üstə dayanmaz.

461. Təvazökarlıq odur ki, insan özünə layiq yerdən aşağıda əyləşməyə razı olsun, görüşdüyü adamla hal-əhval tutsun, mübahisə etməsin və söz güləşdirməsin.

462. Dilini saxlamayanın başı salamat olmaz.

463. Dünyanı bir saar sakini olacağın və sonra çıxıb gedəcəyin bir ev hesab et, yaxud yuxuda görüb istifadə etdiyin və xoşhal olduğun, ayrılıqdan sonra isə əlindən çıxdığını gördüyün bir sərvət kimi hesab et.

464. Nə ötüb keçən günləri, nə də etdiyin pislikləri geriyə qaytarmaq mümkün deyil.

465. Üç şey insanın belini sındırar:

1) Öz işlərini böyük sanmaq, 2) Günahını unutmaq, 3) Öz fikrini hamınınkından üstün bilmək.

466. Bu günü qənimət bil, sabah isə nə olacaq bəlli deyil.

467. Ən pis alver sələmdir.

468. Öldükdən sonra insana ancaq 3 yoldan cavab yazılması davam edər: 1) Allah yolunda ölümündən sonra da davam edəcək bir sədəqəni verməsi, 2) özündən yaxşı ad qoyub getməsi, 3) Ölümündən sonra ona dua edəcək bir saleh övlad qoyub getməsi.

469. Xalqı dilinizlə deyil, gözəl əməllərinizlə yaxşılığa dəvət edənlərdən olun.

470. Alimin bir günahı bağışlanmamış cahilin 70 günahı bağışlanır.

471. Yaxşı əməl, öz adı kimi yaxşıdır və heç nə onun mükafatı kimi gözəl deyil.

472. Günlər 3 növdür: 1) Dünən-bir daha qayıtmayan gün, 2) bu gün-qənimət olan gün, 3) Sabah ya qismət, əlbəttə, bir arzudur.

473. Ata-ananıza yaxşılıq etsəniz, gələcəkdə övladlarınız da sizə yaxşılıq edər.

474. Üç adamdan qorx: xain, zalım, söz gəzdirən. Çünki başqasına sənə görə xəyanət edən sənə də xəyanət edər. Sənə görə başqasına zülm edən, sənə də zülm edər. Sənə söz gətirən səndən də başqasına aparar.

475. Təkəbbür və xudbinlikdən uzaq ol.

476. Ağıllı adamın əlaməti səbirli olmaq, səbirli olmağın əlaməti isə susmaqdır.

477. Ən yaxşı adam-yaxşı iş gördükdə sevinən, pis iş gördükdə bağışlanmasını istəyən, onlara bir nemət verildikdə şükür edən, həyat imtahanlarından dözümlü olan, qəzəbləndikdə əfv edən və bağışlayan adamdır.

478. Kim ata-anaya hörmət göstərməzsə, Allaha şükr etməyən sayılır.

479. Pak yaşamaq yoxsulluğun, şükür etmək ehtiyacsızlığın, səbr qada-balanın, təvazökarlıq insanın, iddiasızlıq elmin, gözəl əxlaqağlın, üzügülərlik səxavətin, az xərcləmək qənaətin, yaramaz işləri tərk etmək pəhrizkarlığın yaraşığı və bəzəyidir.

480. Bir işin giriş yollarını bilməyən, çıxış yollarını da bilməz.

481. Sağlamlıq-ən gözəl və ilahi bəxşişdir.

482. Öz qədrini bilməyən adamın şərrindən heç vaxt qurtara bilməzsən.

483. Dünya bir bazardır ki, bəzi adamlar ondan mənfəət götürər, bəziləri ziyan çəkər.

484. Yaxşılıqdan da yaxşı onu yerinə yetirəndir, gözəllikdən də gözəl onu tərif edib gözəl söz danışandır, elmdən üstün onu yayan alimdir.

485. Pisdən pis pisliyi öyrənəndir, dəhşətdən də dəhşətli onu törədəndir.

486. Şükür edən şükür etdiyi nemətdən çox şükrü ilə sevinməlidir, çünki nemətlər keçici zövqlərdir, amma şükür etmək qalan nemətdir.

487. İnsan bu dünyada malı ilə, axirətdə isə əməli ilə tanınar.

488. Anlamaz və cahil adam öz dilinin əsiridir.

489. Sənin ən yaxşı dostun odur ki, etdiyin səhvlərini yadından çıxarsın, yaxşılıqlarını isə yada salsın.

490. Cahil və axmaq əvvəl danışar, sonra fikirləşər. Alim isə əvvəl fikirləşər, sonra danışar.

491. Ən ağır dərdlərdən biri də yaxşılıq görüb gizlədən və pisliklərin aşkar edən adamla qonşu olmaqdır.

492. Ürəklərində kin saxlayan adamlar narahat adamlardır. Çünki ürəyi kin ilə dolu adamlar rahat olmazlar.

493. Bütün çirkinliklər bir evdə yerləşmişdir ki, onun da açarı yalandır.

494. Nemətin dəyərini şükür edəndən başqası bilməz və ancaq arif və düşünən insan şükür edər.

495. Başqalarında bəyənmədiyin sifətlərdən çəkinməyin özü sənə kifayət edən ədəbdir.

496. İlahi! Bizə doğru yolu tapmaqda kömək et, dillərimizi doğruluq və hikmətlə möhkəmləndir, qəlblərimizi elm və mərifətlə doldur, qarnımızı haram və şübhəli yeməklərdən təmizlə, əllərimizi zülm və oğurluqdan saxla, gözlərimizi azğınlıq və xəyanətdən qoru, qulaqlarımızı boş sözə və qeybətə qulaq asmaqdan saxla.

497. İnsanın qayğıları yalnız öləndən sonra qurtarır.

498. Təbiət tərəfindən verilmiş "Ana" adı qadına ən yaxşı töhfədir.

499. İnsan öz zəifliyini etiraf etdikdə qüvvətli olur.

500. Ana qızına taxt vermiş, ata isə baxt vermiş.

501. Anasına bax balasını al.

502. Anandan iznin, ağıldan cehizin olsun.

503. Balta ağacı kəsməzdi, sapı ağac olmasaydı.

504. Baxmaqla öyrənmək mümkün olsaydı, it də qəssab olardı.

505. Bəzisi axtarar tapa bilməz, bəzisi tapar yeyə bilməz.

506. Ağın adı var, qaranın da dadı.

507. Böyüksüz evdə bərəkət olmaz.

508. Bir ata 9 oğul saxlayar, ancaq 9 oğul bir atanı saxlaya bilməz.

509. Vaxtını itirən baxtını itirər.

510. Arvad var-arpa ununu aş edər,
Arvad var-buğda ununu daş edər.

511. Qurumuş ağacın kölgəsi olmaz.

512. Qaşıq ilə aş verib, sapı ilə göz çıxarma.

513. Dəmir nəmdən, insan qəmdən çürüyər.

514. Dərd var-gələr keçər,
Dərd var-dələr keçər.

515. Eldən olan-göydən olar.

516. Qazancla yeyilən acı soğan, minnətlə yeyilən baldan dadlıdır.

517. İki könül bir olsa, samanlıq da saraydır.

518. Küldən təpə olmaz.

519. Gözələ göz dəyər, qəlbə söz.

520. Namus gedər, dönməz geri,
Yoxdur onun bəlli yeri.

521. Ölüsü ölən bir gün ağlar,
Dəlisi olan hər gün ağlar.

522. Sev səni sevəni, iki dişli qarısa.

523. Ulu gözü ilə qız al, ərgən gözü ilə at.

524. Xırman yelnən, toy-büsat elnən olar.

525. Hirs gələr-göz qaralar, hirs gedər üz qaralar.

526. Cavanlıqda daş daşı, qocalıqda ye aşı.

527. Bir filosofdan soruşdular: Səxavət yaxşıdır, yoxsa şücaət?

Cavab verdi: Səxavəti olanın şücaətə nə ehtiyacı?

528. Paxlanın gözünə çəkir qaranı, noxud qalır ağara-ağara.

529. Loğma, boğma.

530. At olanda ot olmur, ot olanda at.

531. Məhəbbət qəzəbdən güclüdür.

532. Hədsiz zənginin gözü ayağının altını seçməz.

## GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRİ F.GÜRGANİNİN SÖZ ÇƏMƏNİNDƏN SEÇMƏLƏR

1. Yarandıq biliyə can atmaq üçün,
Öyrənib-öyrətmək, yaratmaq üçün.

2. Ədalət hakimi ol insanların,
Daim köməyinə yetiş onların.

3. Yaxşılıq şöhrətdir öz adımıza,
Onunla çatarıq muradımıza.

4. Ləyaqət, sədaqət göstər ellərə,
Hünərin, şöhrətin düşsün dillərə.

5. Yazdı ki, can bala, sənə sözüm var,
Anasız behişt də cəhənnəm olar.

6. Arzuya çatmaqdır hər şeydən əzəl
Göydə nə taparsan günəşdən gözəl.

7. Qabalıq göstərmə, gözəlim mənə,
Qabalıq döndərər dostu düşmənə.

8. Qəm-qüssə doldurma qəlbə o qədər,
Dərd-kədər insanı üzüb məhv edər.

9. Kimsəyə can atma, etmə sən pislik,
Çünki pislik etsən görərsən pislik.

10. Təlaş, ümidsizlik yaratma canda,
Gümüşü atmazlar qəzəl tapanda.

11. Zəka sahibisən incə söz ilə
Yol tapmaq asandır gəncə söz ilə.
12, Sevgi xəzinədir, vəfa cavahir
Hünərsiz cavahir olarmı zahir.

13. Ümidsiz sayıram ömrü haram mən
Ümidsiz bir an da yaşamaram mən.

14. Alçağı ha bəslə, qurdu ha bəslə
Hər şey çəkməlidir bir əslə-nəslə.

15. Dəmir yumşalaraq bir muma dönməz
Düşmən etibarlı dostuna dönməz.

16. Bahar gülləridir yaxşı insanlıq,
Alçaqlar kol üstə bitən tikanlıq.

*25.V.1976*

## M.S.ORDUBADİNİN SÖZ ÜMMANINDAN

1. Biz, insanlar bir-birimizi öyrənə qocalırıq.

2. Bir daşın qəlbində gizlənən brilyantı zərrəbin vasitəsi ilə ilə görmək çox asandır. Lakin insanların qəlbindəkiləri öyrənmək üçün hazırkı elmlər və fənlər kifayət deyildir.

3. İnsan danışdıqda, kimin üçün danışdığını bilməlidir.

4. Müəllim əvvəlcə tələbənin maraq və zövqünü öyrənməli, sonra da ona müvafiq dərs verməlidir.

5. Ət həmin ətdir, ancaq iş aşpazın sənətidir.

6. Gözəl yalnız gözəl olmaqla tamamlanmır. Gözəl

qadın bir şeir səbəti qədər incədir. Gözəlliklə şeir heç zaman ayrı yaşaya bilməz.

7. İnsan əvvəlcə özünü öyrənməlidir.

8. Sevgi elə bir şeydir ki, o, istiqbal sevməz. O, bir saat bundan sonranı düşünməz. Sevgi bir ailənin tarixi şərəfini bir anda məhv edə bilər. O, hər şeyi bacarar. O, bir cəllad kimi insanı başqasının əli ilə yox, öz əli ilə öldürə bilər.

9. Dünyada çirkinliyi üçün bədbəxt olanlar və gözəlliyi səbəbinə fəlakətə düşənlərin həddi-hesabı yoxdur.

10. Gənclik və gözəllik elə bir cavahirdir ki, bütün zənginliklər onunla ələ gətirilə bilər.

11. Bir çox bədbəxtliklər vardır ki, böyük bir səadətin başlanğıcıdır.

12. İki şeyi geri qaytarmaq mümkün deyil. Onun birisi gənclikdir, o birisi qocalıq.

13. Təhqir olunan insanın da şərəfi, mənliyi, onun da başqaları kimi izzəti-nəfəsi və arzusu var.

14. Ailə həyatının müsbət tərəflərindən biri də təhqirləri yumaq və onun zəhərini ürəklərdən təmizləməkdən ibarətdir.

15. Qadınlar kişilərə nisbətən təhqirləri tez unudar və tez barışarlar.

16. Ehtiyac ağır olsa da, onun meyvəsi olduqca dadlıdır, çünki elm və sənəti insanların ehtiyacı doğurmuşdur.

17. Təhlükə hamıdan qabaq qorxaqlar üçündür.

18. İqbalın qarğıdığı bir adamı xoşbəxt eləmək mümkün deyil.

19. Hər boyalı şeydə aldadıcı xasiyyət var.

20. Dost olmaq üçün insanları əl ilə yox, saf və səmimi bir ürəklə axtarmaq lazımdır.

21. Sevginin ülvi xüsusiyyətlərindən biri də odur

ki, o, insana təhqirləri unutdurur, insanı hər bir acılıqla barışmağı öyrədir.

22. Ən səmimi sevgilər belə səhv edə bilər.

23. Dünya belədir daima: zəhərlər şirinlərin dalında gizlənir.

24. Daima insanları məhv edən bədbəxtliklər bəzən insanlara xoşbəxtliyin pərdəsində yanaşmalı olur.

25. Tək iradə, təkbaşına təşəbbüs kütləyə bir şey verə bilməz.

26. Əqidə birliyi olmayan yerdə sevgi birliyi də ola bilməz.

27. Qadınlar ağlından, kişilər isə gözündən tələyə düşər.

28. Qadınlar nə olur-olsun, sevgi onların bütün düşüncələrinə hakimdir.

29. Qısqanclıq sevgidən doğur.

30. Sevgini adama zəhər kimi içirmək olmaz.

31. Qısqanclıq məhəbbəti parçalamaq üçün amansız bir qılıncdır.

*18.XII.1976*

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ M.ƏVHƏDİNİN SÖZ DÜNYASINDAN

1. Bu uzaq göylərin sirlərini biz,
Dərk edə bilmərik, yəqin, elmsiz.

2. Bilik can quşuna qanaddır inan,
Ruhumu göylərə odur qaldıran.

3. Elm oxu dünyada kamaldan ötrü,
Oxuma dövlətdən, ya maldan ötəri.

4. Sən bura gəldin ki, bir iş görəsən
Dünyada ömrünü elmə verəsən.

5. Kimsənin malına kölgə salmadım
Mal üçün bir kəsə mən qul olmadım.
6. Əlində dövlət var, həm imkan bu gün,
Lütf et qocalara, ey cavan bu gün.

7. Dərdsizin yemidir su ilə çörək
Kişinin qüvvəsi eşq olsun gərək.

8. Bilik can quşuna qanaddır inan,
Ruhumu göylərə odur qaldıran.

9. Bilikdir ürəyə bu dünyada can,
Baş balıncsız olsa olar bədgüman.

10. Nursuz göz kimidir elmsiz ürək,
Nadan insanlıqdan uzaqdır, uzaq.

11. Elmə dost olsan bu dünyada sən,
Sudan gəmisiz də keçə bilərsən.

12. İnsanı süst, tənbəl edər cəhalət,
Bilik qüvvə verər, bir də cəhalət.

13. Bilik insanları ucaldar aya,
Nadanlıq korlartək salar quyuya.

14. Bir kəs öz elminə inansa əgər,
İşi əməl ilə daima yüksələr.

15. Sanki çöp-çöp yanar qızışsa nadan,
Yanar, alovlanar kül olar malın.

16. Alimin dövləti sonsuzdu gerçək,
Tükənməz, məhv olmaz qiyamətədək.

17. Apara bilməzlər elmi oğrular,
Nə əcəl üstündə bir kölgə salar.

18. Bir vədə verdinsə yubanma, zinhar,
Bir borc istəyəndə tez geri qaytar.

19. Qonşu haqq sayını, qohumu əziz tut,
Pis bir iş görsələr, ağartma, unut.

20. Bir mərd və sınanmış qonşu tap ki, sən,
Ona qonşu olub ev tikdirəsən.

21. Özündən kiçiklə sən ol qardaştək
Özünü qabıq say, dostunu özək.

22. Kimi etməmişdir xeyiri peşə
Ta ki adın olsun xeyrə həmişə.

23. Yanma mal eşqi ilə yandırar səni,
Özünə dost etmə qəmi-qüssəni.

24. Oğluna deyib söymə dünyada
Onda söyüş söyən olacaq o da.

25. Kim əzab görmədi tərbiyəçidən,
O, qəmdən özgə şey görmədi əslən.

26. Çox çalış, düşünmə təkcə özünü,
Çox da bəndələrə dikmə gözünü.

*26.VI.1976*

## AZƏRBAYCAN MAARİFÇİLƏRİ ELM VƏ BİLİK HAQQINDA

1. Dövlət elmdən və ağıldan üstün deyildir. Çünki elm həmişə səninlədir və onu heç kəs səndən ala bilməz. (A.Bakıxanov)

2. Maarif bir sədətdir, edər məsud insanı,
Beşikdən qəbrədək təhsul edər ədabü-ürfanı.

M.Hadi

3. Şüurlu yaşamaq fəqət elm və mərifətlə əldə edirlər. Elm və mərifət isə insanların oxuması ilə mümkündür.

S.Hüseyn

4. Dörd şey vardır bir qarın daşa lazım
Biri elm, biri kəlam, biri nəfəs, biri saz.

Ş.İ.Xətai

5. İnsan yaradıcı olmalı və bəşəriyyətə lazım olan şeyləri icad etməlidir. Bundan ötəri bilik və elm lazımdır.

N.Nərimanov

6. Bir bəladır bu dərdi-nadani
Ki, onun elm olubdu dərmani.

S.Ə.Şirvani

7. Elm isə olur hansı məkanda vasil?
Məktəbdə kitab ilə olur səylə hasil.

M.Ə.Sabir

8. İnsanın dünyanı dərk etməsinin açarı əqldə və elmdədir.

H.B.Zərdabi

9. Qoy cahan elmlə pürnür olsun
Vətən ol sayədə məmur olsun.

A.Səhhət

10. Elm ilə dost olsan bu dünyada sən,
Sudan gəmisiz də keçə bilərsən.

M.Əhvəli

11. Bilik öyrənməyi ar bilən hər kəs,
Dünyada mərifət qazana bilməz.

N.Gəncəvi

12. Elm və sənəti insanların ehtiyacı doğurmuşdur.

13. Bilik elə bir şeydir ki, başqasına bağışlanmazsa, onun sahibi dərdə düşər, omrü qüssə və kədər içində keçər.

*14.II.1975*

## AZƏRBAYCAN MAARİFÇİLƏRİ MÜƏLLİM HAQQINDA

1. Hər bir peşənin və elmin təlim və tədrisində müəllimin vücudu böyük şərtdir. Qabil və insaflı müəllim əlində naqabil və korafəhm şagird də elm və bilik öyrənə bilər.

F.Köçərli

2. Hər şeydə istedad olduğu kimi, müəllimlikdə də istedad olmalıdır.

A.Şaiq

3. Hər xalqın tərəqqi qapısı məktəbdir və hər bir millətin tərəqqi tapması xalq müəllimlərinə bağlıdır.

N.Nərimanov

4. Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir.

S.M.Qənizadə

5. Müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. Bağ bansız ötüşə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz.

S.M.Qənizadə

6. Xalq müəllimi xalqın yalnız o vaxt məhəbbətini və hörmətini qazanır ki, o öz əməyini işdə sübut etsin, maarifə, ağıllı yaşayışa gedən həqiqi yolu onlara göstərə bilsin.

F.Köçərli

7. Bizi alam və iztirablardan xilas edən, dərdlərimizə çarəsaz olan müəllimdir.

N.Nərimanov

8. Elm və ədəb rövnəqinə ömür sərf edənləri, insaniyyət aləminə xidmət göstərənləri, ülum və maarifin rəvac və intişarına çalışanları mədəni millətlər heç vaxt unutmayır.

M.T.Sidqi
02.V.1974

## QADIN VƏ ANA HAQQINDA DAHİLƏRİN SÖZ ÇƏLƏNGİ

1. Arvad bizim məşuqəmiz deyil, həyat yoldaşımızdır. Ona görə də təbiidir ki, o, yaşa dolduqda da biz onu sevməli, ona hörmət etməliyik.

V.B.Belinski

2. İnsanın qazandığı ən böyük nemət qadını qadını sevməyi, ona səcdə etməyi bacarmaqdır. Yer üzündə gözəl nə varsa, hamısı qadına məhəbbətdən doğmuşdur.

M.Qorki

3. Biz ulduza iki səbəbə görə baxırıq; o həm işıq saçır, həm də əlçatmaz bir şeydir. Lakin bizim yanımızda

bundan da gözəl işıq saçan gözəllik, bundan da böyük bir sirr var. O da qadındır.

M.Y.Lermontov

4. Qadınlar bəşər nəslinin ilk tərbiyəçisid.

T.Junel

5. Həyatda elə bir gözəl varlıq vardır ki, biz ona həmişə borcluyuq. Həmin varlıq anadır.

N.A.Ostrovski

6. Təkcə ana insanın əxlaqi tərbiyəsinin düzgün hissi əsasını qoymağa qabildir.

Pestalossi

7. Gözəl qadın bir şeir sənəti qədər incədir.

M.S.Ordubadi

8. Qadın əllərilə hər ev, hər ocaq ətirlər qorxuyub, gül-çiçək açar.

M.Qorki

9. Bütün xalqlarda ana müqəddəsdir.

İ.Erenburq

10. Ana məhəbbəti çox şeyə qadirdir.

A.Gertsen

11. Ananın məsuliyyəti böyük, vəzifələri isə müqəddəsdir.

D.Pisaryev

12. Ana-uşağın taleyi deməkdir.

G.N.Tolstoy

13. Ana məhəbbəti bütün hisslərdən və dünya nemətlərindən ən daimisidir.

V.Kubyanov

14. Qadınlarsız əsil kütləvi hərəkat ola bilməz.

K.Setkin

## GÖRKƏMLİ PEDAQOQ, YAZIÇI S.M.QƏNİZADƏ MÜƏLLİM HAQDA

1. Müəllimin evi kitabxanadır, dövləti kiçik şagirdlərdir, müxalifatı qara məktəb mizləridir. Sazı və nəğməsi şagirdlərin sədasıdır, istirahəti dəftərlərin təsihidir, qazandığı isə millətin məhəbbətidir.

2. Müəllimlik ağırdır, ancaq pak və müqəddəs xidmətdir.

3. Müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir.

4. Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz keçinə bilməz.

5. Xudavənda, təkrarən sənə şükür olsun ki, mən, aciz bəndəyə müəllimliyi qismət edib, məktəbdarlıq peşəsin nəsib etmisən.

6. Tacir ticarətdə və ya sənətkar sənətdə müəllimlik sevdasına düşər olsa, qəbahət görünər.

7. Əhli-marif zümrəsi hesab edilən müəllimin hədiyyəsi kitabdan savayı, əlahiddə şey ola bilməz. Müəlli

8. Müəllimin mal və məta dərs və təlimdir. Müəllimin kəsb və icarəti öz millətinə məhəbbət və iradətidir.

9. Müəllimliyə təklif olunan şəxs həcc və zəkata müstər olmadıqda "Kimləri öyrətdin və nə öyrətdin",- deyə soruşa-caqlar.

10. Müəllimlik peşəsi ağır işdirsə, müəllimlik səni həm uca şəndir, əsrimiz bir əsrdir ki, gündüzlər qiraət, gecələr xitabət müəllimlər üçün din borcudur.

11. Şagirdlərin müəllimdən hər an təlim və tərbiyə almaları müəllim üçün səadətdir.

12. Müəllimlik sənətiylə fəxr edirəm, elm dövlətinə şükürlər edirəm.

13. Mənim rəy və təsəvvürümə görə, müəllim dediyiniz zat mərifət aləminin dərbanı və nicat yolunun rəhbəridir.

14. Müəllim səbr yolunda sabitqədəm olduqda təlim və tərbiyə yolundakı tikanları çıxarıb ata bilər.

15. Müəllimin sədəqəsi xalqa nicat kasasının şərbətidir ki, bütün millət ona möhtacdır.

16. Öz təklifini bilməyən müəllim müdəidir ki, müəllimlər zümrəsindən kənar olması gərəkdir.

17. Millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrin edən ata kimidir.

18. Hünərli ustad xam dəmirdən səbirlə misri qılınc düzəldə bilərsə, yaxşı müəllim kəctəb millətdən xoşhal cəmiyyət hazırlaya bilər.

19. Həqiqi müəllimvar-dövlət, cah-cəlal şan-şöhrət haqda düşünməməlidir. Əgər düşünərsə nəsibi lənət olar.

20. Yaxşı müəllim vətənin gələcəyi və ümidi olan uşaqları elm şərbəti ilə sirab edib, səadətə qovuşdurar.

*11.XII.1999*

## N.TUSİNİN MÜDRİK FİKİRLƏRİ

1. Əql iti qılıncdan kəsərlidir.

2. Doğru danışmaq ürəyi sakit edər, yalan danışmaq isə töhmətə səbəb olar.

3. Başqasına etdiyin yaxşılığı dərhal unuda bilərsən, ancaq sənə edilən yaxşılığı unutmamalısan.

4. Danışmayınca söz sənin ixtiyarında olur, danışandan sonra sən onun ixtiyarında olursan.

5. Od odunu yox etdiyi kimi, həsəd də yaxşılığı yox edir.

6. Yeri gələndə susmaq və yeri gələndə danışmaq adamın mənliyinin tanınmasına səbəb olur.

7. O yerdə ki, insaf yoxdur, o yerdə insanlıq da yoxdur.

8. O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir: Ona ehtiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir; onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhmətkeşdir; ona kömək edin. O adam ki, bilmir və öyrənmək istəmir, o, ağılsızdır, ondan uzaq olun.

9. Uşaqlara kiçik yaşlarından şeir və hekayələr əzbərlətmək lazımdır ki, onlar yaşa dolduqca hafizə və təfəkkürləri də inkişaf edib möhkəmlənsin.

10. İstər dost və istərsə də düşmən olan ağıllı adamlarla oturub-durmaq lazımdır. Çünki əql əqldən qüvvətli olur.

11. İnsanı dörd şey hörmətli edər: birincisi, doğru danımaq, ikincisi ədəbli olmaq, üçüncüsü ədalətli olmaq və nəhayət, dördüncüsü, xoş xasiyyət olmaq.

12. Həyatda əziyyətsiz rahatlıq yoxdur.

13. Tənhalıq pis olsa da, paxıl adamlarla bir yerdə olmaqdan qat-qat yaxşıdır.

*24.XII.1999*

## Ə.CAMİNİN SÖZ ÇƏMƏNİNDƏN

1. Yarat bir əsər ki, adın ucalsın,
Sən ölüb gedərkən yerində qalsın.

2. İki əyri gedən, əyri düşünən,
Birləşsə əyrilik aşar həddindən.

3. Həyatda çoxdursa faydalı peşə,
Qüvvəni sərf edə daim bir işə.

4. Kitab oxumağa çalış qıl adət,
Çünki kitabdadır əsil səadət.

5. Qüruru başından çıxar, huş yar ol,
Hər kəsin yanında təvazökar ol.

*Azərbaycan müəllimi 30.V.1975*

## F.GÜRGANİNİN HİKMƏTLİ SÖZLƏRİ

1. Yarandıq biliyə can atmaq üçün
Öyrənib-öyrətmək, yaratmaq üçün.

2. Ədalət hakimi ol insanların,
Daim köməyinə yetiş onların.

3. Qabalıq göstərmə, gözəlim, mənə
Qabalıq döndərər dostu düşmənə.

4. Sevgi xəzinədir, vəfa cəvahir,
Hünərsiz cəvahir olarmı zahir.

*Azərbaycan müəllimi 20.V.1975*

## HİND ŞAİRİ XOSROV DƏHLƏVİDƏN

1. Çatmaz səadətə ləyaqətsizlər
Zəmanə möhtacdır ağıllı kəsə.

2. Sap ilə tikilməz anla bir
Ürək ki, oldu bir neçə parə.

3. Bu dünya gör kimə qalmış
Xeyirxah ol bütün işdə.

*Azərbaycan müəllimi 02.VII.1975*

## A.SƏHHƏTİN MAARİFÇİ FİKİRLƏRİNDƏN NÜMUNƏLƏR

1. Ayıl oğlum, bu qədər eyləmə xab,
Dur götür qoltuğuna inci kitab.

2. Qoy cahan elmlə pürnur olsun,
Vətən ol sayədə məmur olsun.

3. Oxumaq, elm oxumaqlıq dəmidir,
İndi aləm dəxi elm aləmidir.

*Azərbaycan müəllimi 02.VII.1975*

# MÜNDƏRİCAT

MÜƏLLİFDƏN ........ 3
XALQ MƏSƏLLƏRİ, RƏVAYƏTLƏR, LƏTİFƏLƏR, HEKAYƏTLƏR
QARIŞQA ƏHVALATI ........ 4
TÜLKÜNÜN HİYLƏSİ ........ 4
MÜƏLLİM VƏ ŞAGİRD ƏHVALATI ........ 8
SƏBƏT ........ 9
YAĞLA ŞORA FƏRQ QOYULMUR ........ 9
GÜC BİRLİKDƏDİR ........ 10
ƏSL DOST ........ 11
EV TİKMƏK ........ 11
MÜƏLLİM ƏHVALATI ........ 12
DİLLİ ZÜBEYDA ........ 12
ANANIN ƏVƏZİNDƏN ........ 13
SAĞSAĞAN ........ 13
VƏTƏN HAQQINDA ........ 14
GƏLİNİN İBRƏT ALMASI ........ 14
MƏĞRUR ŞİR ........ 15
AMAZONKALAR ........ 16
SÜD HAQQINDA ........ 17
QARĞALAR ........ 17
ƏZRAYILIN XƏBƏRDARLIĞI ........ 17
TISBAĞA İLƏ ƏQRƏBİN DOSTLUĞU ........ 18
BALA ŞİRİNDİR ........ 19
SÖZ YARASI ........ 20
ŞAİR VƏ XAN ........ 20
PİŞİK VƏ PƏLƏNG ........ 21
HAZIRCAVAB ........ 21
SƏNƏT ÖLMƏZDİR ........ 22
AĞACI İÇİNDƏN QURD YEYƏR ........ 23
TƏRƏKƏMƏNİN CAVABI ........ 24
ŞAİR VƏ KƏRPİC KƏSƏN ........ 24
QƏRİB, KASIB VƏ QOCA ........ 24
HƏYAT ŞİRİNDİR ........ 25
ZƏHMƏTLƏ QAZANILAN PUL ŞİRİN OLAR ........ 26
DÜŞMƏNÇİLİK ........ 26
ƏSAS SƏBƏB ........ 27
MALIN QƏDRİNİ BİLMƏK ........ 27
GÖZÜM ÇIXANDA HARADAYDIN ........ 28
DAĞA SÖYKƏNMƏK ........ 29
CAN ŞİRİNDİR ........ 29
TAMAHKAR QAZİ ........ 30
BAŞI YARILMAYAN KİŞİ ........ 30
QONAQLIQ ........ 31

ƏYRİLİYİN AQİBƏTİ ..... 31
İKİ DİLƏNÇİ ..... 32
MƏNDƏN BÖYÜK OLMASIN ..... 33
TƏNBƏLLİK ..... 33
SÜMÜKLÜ ƏT ..... 34
ÖZGƏSİNƏ QUYU QAZAN ..... 34
PALTARA GÖRƏ QİYMƏT QOYURLAR ..... 34
ŞAİRLİK AZARI ..... 35
TƏKLƏMƏSƏN DÖYƏ BİLMƏZSƏN ..... 35
MOLLA VƏ KƏNDLİ ..... 36
ÖZGƏSİNƏ QUYU QAZAN KİŞİ ..... 36
ARVADDAN QORXAN ..... 37
MİRVARİ ..... 37
MƏĞRUR ŞAİR ..... 38
ANA ƏLİ ..... 41
VƏTƏN HƏSRƏTİ ..... 42
XEYİRSÖYLƏMƏZ ..... 43
YAZACAQ YAZSIN ..... 43
BU XINA O XINADAN DEYİL ..... 44
AĞILLI ARVAD ..... 44
SÖZ DEMƏK QAYDASI ..... 46
NAMƏRDİN KƏLİ QAÇAR ..... 46
GƏLİN VƏ QAYNANA ..... 47
XUX ..... 48
YEYƏN ÖLMƏZ ..... 49
PAXIL QONŞU ..... 49
HƏR KƏSİN DƏRDİ ÖZÜNƏ BİR DƏVƏDİR ..... 50
TƏRLAN QUŞU ..... 50
KİŞİ DEYİLSƏN ..... 51
HAZIRCAVAB OVÇU ..... 51
TƏNBƏKİ ..... 52
XƏSİSİN SÖZÜ ..... 52
ARVAD YAXŞI OLARSA ..... 53
MƏN BİLİRƏM ..... 54
TÜLKÜLÜYÜ SÜBUT ETMƏK ..... 55
BAYQUŞ İLƏ QIRĞININ SÖHBƏTİ ..... 55
NAXIRÇININ QIZI ..... 56
DUZDAN ŞİRİN QARDAŞ ..... 56
PADŞAHIN PALAN QOYMASI ..... 57
KEÇİ MƏSƏLƏSİ ..... 57
TÜLKÜ, ŞİR VƏ ÇAQQAL ..... 57
DAĞLI İLƏ ARANLININ DOSTLUĞU ..... 59
QURD YAĞI ..... 59
PADŞAH VƏ BAĞBAN ..... 60
SARBAN VƏ DƏVƏ ..... 62

HAQQ AXTARAN KİŞİ ... 62
MOLLA VƏ DƏRZİ ... 63
ÖZGƏSİNƏ QUYU QAZAN ÖZÜ DÜŞƏR ... 63
İKİ DOST ... 64
İKİ QARDAŞ ... 67
DƏLLƏK QASIM VƏ MEHDİ AĞA ... 68
QAÇAQ KƏRƏM ... 69
KİŞİ SAĞ AYAĞINI ATAR ... 71
ARVADIN İBRƏT ALMASI ... 71
TAYLI-TAYINI TAPMASI ... 72
QURDU KÜT BASAR ... 73
KARLA QULAQLININ SÖHBƏTİ ... 73
İKİ DOST ... 74
QOYUN VƏ KEÇİ AYAĞI ... 74
TƏCRÜBƏ ... 75
USTAD VƏ ŞAGİRD ƏHVALATI ... 75
ACGÖZ KİŞİ ... 76
ÜRƏK YEYƏN SƏRKƏRDƏ ... 77
QARAÇI OĞLAN ... 77
ƏZRAYILI ARZULAYAN ... 79
BİR İŞ GÖRSƏN FİKİRLƏŞ ... 79
VƏFALI QADIN ... 80
İNSAF QALMADI ... 81
MEHRİBAN AİLƏ ... 82
DÜNYANIN ÇƏRXİNİN DOLANMASI ... 82
GÜNAHSIZ UŞAQ ... 83
MƏNALI YAŞAMAQ ... 84
AĞILLI TACİR ... 85
MALYEMƏZ XƏSİS ... 85
SİRR SAXLAMAMAĞIN NƏTİCƏSİ ... 86
BİR MƏZLUMUN DADINA YETMƏK YÜZ MİN HƏCCDƏN ƏFZƏLİDİR ... 87
QARDAŞ DƏRDİ BULUNMAZDI ... 87
QADIN SƏDAQƏTİ ... 88
KİŞİNİN MƏSLƏHƏTİ ... 88
BALA DAĞI ... 89
GÖZÜNƏ ÇÖP BATAN KİŞİ ... 90
İNANMIRAM TÜLKÜ ÇIXA ... 91
TÜLKÜNÜNKÜ BİR ALLAHA QALIB ... 91
BƏY QUŞ ... 92
ƏN VARLI ADAM ... 94
DƏRİN HİKMƏT ... 96
NƏFSƏ QALİB GƏLMƏK ... 97
TORPAQDAN PAY OLMAZ ... 98
MÜƏLLİM UCALIĞI ... 100
SONA FƏDAKARLIĞI ... 100

MİRZƏ ƏLİXAN LƏLİ ... 101
NADİR ŞAH VƏ KƏNDLİ ... 102
QOCANIN PADŞAHA İBRƏT VERMƏSİ ... 103
ƏRKÖYÜNLÜYÜN AQİBƏTİ ... 104
AĞILLI QUL ... 105
MÜƏLLİM UCALIĞI ... 106
NÖQTƏNİN QÜDRƏTİ ... 107
TEYMURLƏNG VƏ ƏBDÜLQADİR MARAĞAYI ... 108
CƏLALƏDDİN RUMİ DƏRGAHI ... 108
MÜƏLLİMƏ HÖRMƏT ... 109
DAĞSIZ, DÜYÜNSÜZ ADAM OLMAZ ... 109
XƏTAİ UCALIĞI ... 110
İNSANLARA MƏRHƏMƏT HİSSİ İTMƏMƏLİDİR ... 111
TƏKƏ BƏY ... 112
İNSAN PİSLİK ETMƏMƏLİDİR ... 113
LƏYAQƏTİ QORUMAQ HƏR ŞEYDƏN UCADIR ... 114
QARAÇI QADIN ... 114
XƏSİSİN CAVABI ... 115
BU BAŞ O XONÇADA DURMAZ ... 116
MƏRHƏMƏTLİ ANA ... 118
İNSANLARA İNAMI QORUYAQ ... 118
VƏZİRİN PAXILLIĞI ... 121
ƏSLİN BİRUZƏ VERƏN ... 123
KARIN KÖNLÜNDƏKİ ... 125
MƏNZİLİ DƏYİŞƏK ... 126
SƏKSƏNDƏNDİ ... 126
QADIN SƏDAQƏTİ ... 128
SİZİ ALLAH HESAB EDİRDİM ... 130
AŞIĞA CAVAB ... 132
M.F.AXUNDOVUN MÜDRİKLİYİ ... 132
BURDA MƏNƏM, BAĞDADDA KOR XƏLİFƏ ... 133
GÖZÜ ÇIXAN QARDAŞ ... 134
ÖZ GÜCÜNÜZƏ VƏ AĞLINIZA ARXALANIN ... 135
XOŞBƏXTLİK NƏDİR? ... 136
İSMAİLLİYƏ NAKAM İSMAYILIN ADIN YAŞATDI ... 137
HÖKMDAR VƏ FİLOSOF ... 138
KİR VƏ TOMRİS ... 138
ŞAH İSMAYIL ... 139
ŞAH İSMAYIL VƏ SULTAN SƏLİM ... 140
ADAMLAR DÜZƏLSƏ, DÜNYA DA DÜZƏLƏR ... 141
ŞEYX SƏFİ KİTABXANASI NECƏ OĞURLANDI ... 141
ELÇİYƏ ZAVAL YOXDUR ... 142
DOQQUZLUQ GƏLMƏK ... 143
BARMAQ HESABI GÖSTƏRMƏK ... 144
KOROĞLU, SÖZ DƏYİRMANDAKIDIR ... 144

DƏRVİŞ VƏ YOLÇU ... 145
DİLİN BƏLASINA DÜŞMƏK ... 146
ELM ÜSTÜNDÜR, YOXSA MAL? ... 147
VAXTSIZ BANLAYAN XORUZUN BAŞIN KƏSƏRLƏR ... 148
HÖKMDAR VƏ ALİM ... 149
İBN SİNA VƏ BƏHMƏNİYAR ... 150
MANQURT ... 151
İBN SİNANIN UŞAQLIĞI ... 151
XOŞBƏXTLİK VAR DÖVLƏTLƏ ÖLÇÜLMÜR ... 152
BUNDAN FATIYA TUMAN ÇIXMAZ ... 153
ƏLQƏMLİYƏ "SƏN ÖL" DEMİŞƏM ... 154
DULUSÇU VƏ ŞAGİRD ƏHVALATI ... 156
İBN SİNA HAQQINDA MARAQLI RƏVAYƏTLƏR ... 157
MƏHƏBBƏT BƏLASI ... 158
TISBAĞA VƏ DOVŞAN ... 160
DƏVƏSİ ÖLƏN KİŞİ ... 161
YOLA NƏRDİVAN SALMAQ ... 162
ELM AŞİQLƏRİ ... 163
DƏMİRLƏ QIZILIN SÖHBƏTİ ... 164
TORPAĞIN QƏDRİNİ BİLMƏK ... 165
NƏSRƏDDİN TUSİ VƏ BOSTANÇI ... 166
ANBAR YIRTILANDA GƏLƏRDİN ... 168
BAŞIM GÖYLƏRƏ DƏYƏRDİ ... 168
NƏFS MƏNİM QULUMDU ... 169
AĞSAQQALSIZ ÖLKƏ ... 170
HƏR KƏS QABİLİYYƏTİNƏ GÖRƏ ... 171
ƏDALƏTSİZLİK ELƏ AZDAN BAŞLAYIR ... 172
QAZANLA ODUN SÖHBƏTİ ... 173
PADŞAH VƏ PİNƏÇİ ... 175
HƏM ÖZÜ DƏMİRÇİ OLUB, HƏM DƏ ANASI ... 177
HÜNƏR ODU ALMAMMƏD VƏ PİRMƏMMƏDİN CANI ALINSIN ... 178
QABİLİYYƏTSİZ UŞAQ ... 179
DƏVƏ VƏ TÜLKÜ ... 179
BİR TİKƏNİN SAVABLIĞI ... 180
İSGƏNDƏRİN BUYNUZU VAR, BUYNUZU ... 181
SAĞLAMLIĞIN SƏBƏBİ ... 182
DƏNİZ SƏFƏRİ ... 183
ƏN BÖYÜK VAR-DÖVLƏT ... 183
İŞ İNSANIN CÖVHƏRİDİR ... 184
ZINQIROVU KİM ASACAQ ... 186
DOĞMALIQ ... 187
NANKORUN AQİBƏTİ ... 188
TƏBƏSSÜM ... 189
LOĞMAN VƏ QADIN ... 190
AĞABƏYİM XANIM ... 191

ÇALA-ÇALA GƏLİRƏM ... 192
VURDUQ ORDAN-BURDAN ... 192
FİRDOVSİ VƏ ÇOBAN ... 193
MÜƏLLİM ŞƏRƏFİ QORUNMALIDIR ... 194
EVƏ GƏLƏN KİŞİ OLMALIDIR ... 195
VƏTƏN HƏR ŞEYDƏN ŞİRİNDİR ... 196
GÖVHƏR AĞA ... 197
QARI VƏ CAVAN ... 198
DAHİ İSGƏNDƏR ... 199
HALALLIQ ... 200
DUA NEYLƏR YAĞ-QAYMAĞA ... 201
HƏLƏ BU, ƏVVƏLKİLƏRİN BƏLASIDIR ... 202
İKİ BOSTANÇI ... 202
MIXDAN ASILI QALIB ... 203
ŞÜKÜRLÜ BƏNDƏ ... 204
ABIR-HƏYA PƏRDƏSİ ... 205
HEÇ BİR ŞEY ... 206
XEYİRXAH İNSAN ... 207
SÜLH DOĞURAN YALAN FİTNƏ TÖRƏDƏN DOĞRUDAN YAXŞIDIR ... 208
KİM NƏ EDİRSƏ ÖZÜNƏ EDİR ... 208
ŞÜKÜRLÜ BƏDƏL ... 209
ÇALIŞ BAĞIŞLA ... 210
NƏ ETSƏN QARŞINA ÇIXAR ... 210
QEYBƏT ETMƏK OLMAZ ... 211
CƏNNƏT VƏ CƏHƏNNƏM ... 211
ZAHİD TAPILMADI ... 211
QIZILI ALİMLƏRƏ VERƏRLƏR ... 212
AĞILLI MÜRŞİD ... 213
ÇİRKİN ARVADLARA KOR ƏR GƏRƏKDİR ... 213
XƏLƏT MƏSƏLƏSİ ... 213
ODUNÇUNUN SƏXAVƏTİ ... 214
BÖYÜK HİKMƏT ... 214
SEVİNC VƏ KƏDƏR ... 215
VƏFALI İT VƏFASIZ ADAMDAN YAXŞIDIR ... 215

ƏCƏLİ ÇATIB ........ 215
AĞIR GÜNLƏR UNUDULMASIN ........ 216
DƏRDSİZ İNSAN YOXDUR ........ 216
QANCIQ QALDI YAZA ........ 216
USTANIN BAŞDANSOVDU İŞ GÖRMƏSİ ........ 217
DOST BORCU ........ 218
ÜÇ GÜNDƏN ARTIQ YAŞAYA BİLMƏYƏN ŞEİR ........ 220
SOKRATIN CAVABI ........ 221
SƏMƏD VURĞUN UCALIĞI ........ 221
NYUTONUN CAVABI ........ 221
ÖLÜMDƏN GÜCLÜ MƏHƏBBƏT ........ 222
DAHİLİK YANĞISI ........ 224
SÜLH QUŞU ........ 224
QANLI CİNAYƏTLƏR ........ 224
ULU PEYĞƏNBƏRİMİZİN ZƏKA NURUNDAN ........ 225
GÖZƏL NİTQİN QİYMƏTİ ........ 225
BÖYÜK SABİRİN CAVABI ........ 226
NƏRİMAN NƏRİMANOVUN OĞLUNA MƏKTUBUNDAN ........ 226
İLDIRIM BƏYAZİD VƏ TEYMURLƏNG ........ 227
SEYİD ƏZİM ŞİRVANİNİN CAVABI ........ 227
YA GƏLƏRƏM, YA DA... ........ 228
AŞIQ ƏLƏSGƏRİN CAVABI ........ 228
SƏNİN İNTİZARINI ÇƏKİR ........ 228
İNKİŞAF ETMƏK ........ 229
FİLLƏRİN ÖLÜMÜ ........ 229
ÖLÜMDƏN SONRAKI HƏYAT ........ 230
SƏBƏBİN TAPMAQ ........ 231
GÖZLƏRİNİ ÇIXARAN OĞLAN ........ 232
VÜKTOR HÜQONUN MƏKTUBU ........ 233
ANTİK DÖVR FİLOSOFLARININ MÜDRİKLİYİ ........ 233
NƏCƏF BƏY VƏZİROV ........ 234
ŞAH İSMAYIL XƏTAİ ........ 234
SARI AŞIQ ........ 235
VOLTER BİR DƏNƏDİR ........ 235
NOBEL MÜKAFATI ........ 236
SƏYYAH HACI ZEYNALABDİN ŞİRVANİ ........ 237
LƏYAQƏTİN HƏR KƏS QORUMALIDIR ........ 238
SƏDİ ŞİRAZİNİN HİKMƏTLƏRİNDƏN ........ 238

BÖYÜK İNAM ............ 238
MİRZƏ KAZIM BƏY ............ 239
"ÇOKONDA" ............ 240
SƏMƏD VURĞUN ŞƏXSİYYƏTİ ............ 240
GÖYDƏN BİR DAMCI DÜŞMƏYƏCƏK ............ 241
ŞAİR SURXAY ............ 242
ŞAİR SURXAY ŞƏRAB HAQDA ............ 243
BİR TÜKÜN QİYMƏTİ ............ 244
EL DEYİMLƏRİ, İBRƏTLİ İFADƏLƏR ............ 245
GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRİ F. GÜRGANİNİN SÖZ ÇƏMƏNİNDƏN SEÇMƏLƏR ............ 269
M.S. ORDUBADİNİN SÖZ ÜMMANINDAN ............ 270
BÖYÜK AZƏRBAYCAN ŞAİRİ M. ƏHVƏDİNİN SÖZ DÜNYASINDAN ............ 272
AZƏRBAYCAN MAARİFÇİLƏRİ MÜƏLLİM HAQQINDA ............ 276
QADIN VƏ ANA HAQQINDA DAHİLƏRİN SÖZ ÇƏLƏNGİ ............ 277
GÖRKƏMLİ PEDAQOQ, YAZIÇI S.M. QƏNİZADƏ MÜƏLLİM HAQDA ............ 279
N. TUSİNİN MÜDRİK FİKİRLƏRİ ............ 280
Ə. CAMİNİN SÖZ ÇƏMƏNİNDƏN ............ 282
F. GÜRGANİNİN HİKMƏTLİ SÖZLƏRİ ............ 283
HİND ŞAİRİ XOSROV DƏHLƏVİDƏN ............ 283
A. SƏHHƏTİN MAARİFÇİ FİKİRLƏRİNDƏN NÜMUNƏLƏR ............ 283

DİLSUZ DÜNYAMALIYEV

# HİKMƏT ÇƏLƏNGİ

*Texniki redaktoru və*
*kompüter tərtibatı*
**Azər HÜSEYNZADƏ**

*Çapa verilmişdir 15.01.2012. Çapa imzalanmışdır. 05.02.2012.*
*Formatı 43x61 1/16. "Az Latino" qarnituru. Ofset çap üsulu.*
*Ofset kağızı. Həcmi 18,25 ç.v. Sifariş ilə. Tiraj: 300*

"QIZIL DAĞ"
MMC-nin
mətbəəsi

Naxçıvan şəhəri,
Nizami küçəsi 41